# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 1

2023

www.genprosecutor.gov.az



**“Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir:**

- ***rəsmən Qarabağı Azərbaycanın ərazisi kimi tanımalıdır,***
- ***bizimlə sülh müqaviləsi imzalamalıdır,***
- ***bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır.”***

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 1-ci nömrəsi*

*Yanvar - Mart (2023-cü il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 14.04.2023
60x84 1/8 formatda 188 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2023

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**4** Prezident İlham Əliyev "Bakı KOB evi"nin açılışında iştirak edib
**6** Misir Prezidenti Əbdülfəttah Əs-Sisi ölkəmizə rəsmi səfərdə olub
**12** Prezident İlham Əliyev Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edib
**19** Prezident İlham Əliyev Almaniyaya işgüzar səfər edib
**29** Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak edib
**35** Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan qəsəbəsi və Talış kəndində görülən işlərlə tanış olublar


## PROKURORLUQDA


**44** Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib
**47** Yanvarın 17-də Baş prokuror Kamran Əliyev hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə görüş keçirib
**48** Baş Prokurorluğun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər
**49** Baş prokuror Haaqada işgüzar səfərdə olub
**51** Münhen şəhərinin Baş prokuroru ölkəmizdə səfərdə olub
**53** Baş Prokurorluqda 2022-ci ildə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib
**59** Baş prokuror Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə olub
**60** Baş prokuror Kamran Əliyev Qabriel Lanski ilə görüşüb
**60** Baş prokuror Kamran Əliyev iranlı həmkarı ilə telefonla danışıb
**61** "İlin ən yaxşı müstəntiqi və dövlət ittihamçısı" müsabiqələrinin qaliblərinə, eləcə də "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatlar təqdim olunub
**64** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Litvaya işgüzar səfər edib
**66** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviyada işgüzar səfərdə olub
**67** Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**68** Bolqarıstanın Baş prokuroru İvan Geşev ölkəmizə səfər edib
**71** 8 Mart – Beynəlxalq Qadınlar Günü' münasibətilə Baş Prokurorluqda tədbir keçirilib
**73** Baş prokuror Kamran Əliyev Yunanıstanda işgüzar səfərdə olub
**75** Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib
**78** Baş prokuror Kamran Əliyev bölgələrdə vətəndaşları qəbul edib
**82** Prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin icbari təlimi uğurla başa çatmışdır
**84** Baş Prokurorluqda "Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri" mövzusunda silsilə təlimlərinin keçirilməsinə start verilib
**86** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində müxtəlif cinayətlərin istintaq metodikası ilə bağlı tədris tədbirləri davam etdirilir
**87** Baş Prokurorluqla media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi istiqamətində növbəti addım atılıb
**89** Baş Prokurorluğun inzibati bina kompleksində mediatur təşkil olunub
**90** Baş Prokurorluqda "Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda növbəti təlim təşkil edilib
**91** Baş Prokurorluqda Avropa İttifaqının dəstəyi ilə baş tutan Tvinninq layihəsi çərçivəsində seminar keçirilib
**92** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda kollegiya iclası keçirilib
**95** Respublikanın Hərbi prokuroru Novruz bayramı ərəfəsində hərbi hissələrdə görüşlər keçirib
**97** Hərbi Prokurorluğun işçiləri Novruz bayramı ilə əlaqədar hərbi hissələrdə olublar
**99** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2022-ci ildə görülmüş işlər müzakirə edilib
**100** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları tərəfindən yeni Etik Davranış Kodeksinin tələbləri öyrənilib
**101** Naxçıvan Muxtar Respublikasının tabe rayon (şəhər) prokurorluqlarında insan hüquq və azadlıqlarının müdafiəsinə həsr edilmiş seminarlar keçirilib
**102** Naxçıvan Muxtar Respublikasının tabe prokurorluqlarında inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətinə həsr edilmiş seminarlar keçirilib
**103** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən orta ümumtəhsil məktəblərində maarifləndirmə tədbirləri keçirilib
**103** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda vətəndaşların qəbulu zamanı peşəkar davranışın mənəvi-psixoloji aspektlərinə həsr edilmiş seminar keçirilib
**104** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ekoloji hüquqpozmalarla bağlı seminar keçirilib
**104** Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Şahbuz rayonunda vətəndaşları qəbul edib
**105** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib
**107** Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda seminar keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**108** Baş Prokurorluğun əməkdaşları Portuqaliya Respublikasının narkotik vasitələr və psixotrop maddələrdən istifadəyə qarşı mübarizə sistemi ilə tanış olub
**109** Baş Prokurorluğun əməkdaşları Tbilisi şəhərində "Əmlakın bərpası və həbsə alınmış əmlakın idarə olunması" mövzusuna həsr edilmiş təlimdə iştirak ediblər
**109** Prokurorluq əməkdaşları "Paralel maliyyə araşdırmaları" mövzusunda təşkil edilmiş beynəlxalq seminarda iştirak ediblər
**110** Prokurorluq əməkdaşları "Tvinninq" layihəsi çərçivəsində İtaliya Respublikasında təşkil olunmuş tədris turunda iştirak edib
**111** Korrupsiyaya qarşı mübarizədə beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq davam etdirilir
**111** Baş Prokurorluğun əməkdaşı Portuqaliyanın Lissabon şəhərində baş tutmuş beynəlxalq təlimdə iştirak edib
**112** Baş Prokurorluğun əməkdaşı Xorvatiyanın Zaqreb şəhərində Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş konfransda iştirak edib
**113** Baş Prokurorluğun nümayəndə heyəti Litvada tədris turunda iştirak edib
**114** Baş Prokurorluğun əməkdaşları İtaliyanın Roma şəhərində "Aktivlərin hədəflənməsi və bərpası sistemlərinin öyrənilməsi və inkişafı" üzrə forumda iştirak ediblər
**114** "Korrupsiyaya qarşı mübarizənin əsasları" mövzusunda beynəlxalq seminar keçirilib
**115** Baş Prokurorluğun nümayəndəsi Avropa Şurası tərəfindən təşkil olunmuş Fransanın Strasburq şəhərində tədris səfərində olub
**116** Baş Prokurorluğun əməkdaşları Tbilisi şəhərində təşkil edilmiş regional seminarda iştirak edib
**116** Baş Prokurorluğun nümayəndəsi Strasburqda iclasda iştirak edib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**117** Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları
**121** Bərdə rayon prokurorluğuna press-tur təşkil edilib
**122** Mübariz Əhmədov – Prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar peşə hazırlığı səviyyəsinin yüksəldilməsi ilə nəticələnib
**128** Faiq Səfərov – Soyqırımı ümumbəşəri cinayətdir
**131** Firad Əliyev – Qürur dolu nisgil...
**133** İlkin Babazadə – Qanunsuz pul köçürülməsi ilə məşğul olma fəaliyyətinin hüquqi aspektləri


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**137** Anar Məmmədov – İnzibati xətalar haqqında işlər üzrə icraata prokuror nəzarətinin aktual problemləri
**140** Sərdar İmanov – Ağır fəsadlarla nəticələnən kosmetoloji əməliyyatlara dair müraciətlərin həlli problemləri


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**142** Bolqarıstan Respublikasının Baş prokuroru İvan Stoimenov Geşevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## PROKURORLUĞUN VETERANLARI


**144** Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluq işçisinə "Prokurorluğun fəxri işçisi" döş nişanı və hədiyyə təqdim olunub
**145** 85 illik yubileyi ilə əlaqədar Azərbaycan SSR Prokuroru İlyas İsmayılov yubiley medalı ilə təltif edilib
**146** Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluq işçisi "Prokurorluğun fəxri işçisi" adına layiq görülüb
**147** Prokurorluğun veteranı Ramiz Qafarovun "Azərbaycan Prokurorluğu' elmi-praktiki jurnalına masahibəsi


## HÜQUQİ AKTLAR


**151** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyev “Bakı KOB evi”nin açılışında iştirak edib







Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov paytaxtın Nərimanov rayonunda yerləşən “Bakı KOB evi” barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, sayca 3-cü olan “Bakı KOB evi”nin ümumi sahəsi 11 min 262 kvadratmetrdir. Üçmərtəbəli binanın ilk iki mərtəbəsi sahibkarlara xidmət göstərilməsi, üçüncü mərtəbə isə işçi heyət üçün nəzərdə tutulub. “Bakı KOB evi” gün ərzində beş min sahibkara xidmət göstərmək potensialına malikdir. Binada yaradılmış görüş, təlim, startap, mediasiya otaqları və konfrans zalı da sahibkarların xidmətində olacaq.

“Bakı KOB evi”ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı “Bakı KOB evi”nə müraciət edə bilərlər. Bununla yanaşı, “Bakı KOB evi”ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək.

Diqqətə çatdırıldı ki, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Hazırda fəaliyyətdə olan Xaçmaz və Yevlax KOB evlərində indiyədək sahibkarlara 170 mindən çox xidmət göstərilib ki, bu xidmətlərin 165 mindən çoxu dövlət-biznes (G2B), 9 minə yaxını isə biznes-biznes (B2B)

xidmətləridir. Sahibkarların KOB evlərinin xidmətlərindən məmnunluq göstəricisi 98 faizdir.

Qeyd edək ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə özəl sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb.

KOBİA tərəfindən sahibkarlara informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilir. Bu dəstək və xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi – KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə həyata keçirilir. Belə ki, KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes planın hazırlanması xidmətlərini təklif edir. Ölkənin regionlarında KOB-ların maraqlarının müdafiəsi, lazımi dəstək və xidmətlərə çıxışı 38 şəhər və rayonda fəaliyyət göstərən "KOB dostu" şəbəkəsi vasitəsilə reallaşdırılır.

Bundan başqa, KOBİA tərəfindən mikro və kiçik sahibkarlıq subyektlərinə onları innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən "Startap" şəhadətnaməsi verilir, daxili bazar araşdırmasının aparılmasına, təhsil, elm, tədqiqat və dəstək layihələrinə maliyyə dəstəyi göstərilir, onların ödənişsiz olaraq sərgilərdə iştirakına və ticarət şəbəkələrinə çıxışına dəstək təmin olunur.










# Misir Prezidenti Əbdülfəttah Əs-Sisi ölkəmizə rəsmi səfərdə olub



Azərbaycan Respublikasına səfərə gələn Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin yanvarın 28-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda düzülmüş fəxri qarovul dəstəsi önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisini qarşılamışdır. Fəxri qarovul dəstəsinin rəisi Misir Prezidentinə raport verdikdən sonra Prezident Əbdülfəttah Əs-Sisi Azərbaycan əsgərlərini salamlamışdır.

Prezident İlham Əliyev və Prezident Əbdülfəttah Əs-Sisi fəxri qarovul dəstəsinin qarşısından keçmiş, hər iki ölkənin Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycan nümayəndə heyəti Misir Prezidentinə, Misir nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunmuşlar.



***

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış etmişlər.



**Azərbaycan Prezidenti İlham Əliyev** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, hörmətli qonaqlar, bir daha sizi səmimiyyətlə salamlayıram. Səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər Misir-Azərbaycan əlaqələrinin inkişafı üçün çox mühüm addım olacaqdır. Biz indicə təkbətək görüşümüzdə bir çox məsələləri müzakirə etdik. Misir-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı bizim fikir ayrılığımız yoxdur. Bir çox sahələrdə əməkdaşlıq üçün çox gözəl imkanlar var. Əminəm, əldə olunmuş razılaşmaları biz səfərdən sonra icra edəcəyik. Dünən Azərbaycan iş adamları ilə cənab Prezidentin görüşü olmuşdur. Məndə olan məlumata görə, görüşün çox gözəl nəticələri olmuşdur. Əlbəttə ki, biznes dairələrinin birgə fəaliyyəti bizim əlaqələrimizi daha da gücləndirəcək. Biz gələcək əməkdaşlıq sahələrini də müəyyən etdik. Əminəm ki, həm qarşılıqlı sərmayə qoyuluşu, həm ticarət dövriyyəsinin artırılması yaxın gələcəkdə mümkün olacaq. Əlbəttə ki, siyasi əlaqələrimizin gücləndirilməsi məsələləri də diqqətdən yayınmadı. Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik. Əminəm ki, Prezident cənab Sisinin Azərbaycana səfəri ölkələrimizin gələcək uğurla inkişafına çox böyük töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz.

**Misir Prezidenti Əbdülfəttah Əs-Sisi** dedi:

– Möhtərəm cənab Prezident, ilk növbədə, səmimi qəbula və qonaqpərvərliyə görə, dünəndən gördüyüm bu qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək və eyni zamanda, dünən Azərbaycan səfirliyinə baş vermiş hücumla əlaqədar başsağlığımı çatdırmaq istəyirəm. Cənab Prezident, görüşümüz zamanı bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istər digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələrin tez bir zamanda daha da gücləndiriləcəyinə məndə əminlik yaradır. Eyni zamanda, Azərbaycan xalqının Ümummilli Lideri, Misir xalqının yaxın dostu mərhum Prezident Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə də təbriklərimizi Sizə çatdırmağı şərəf bilirəm. Əlbəttə, ötən il keçirilmiş Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyanın iclasında da gözəl nəticələr əldə olunmuşdur. Amma hesab edirəm ki, bu səfərdən də sonra qarşılıqlı anlayış şəraitində ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafı qarşılıqlı istəklər və mövcud olan siyasi iradəyə əsaslanaraq daha da dərinləşəcək. Eyni zamanda, cənab Prezident, Sizinlə razılaşdıq ki, istər Azərbaycan investorları, istərsə də misirli investorlar üçün ölkələrimizdə asanlaşdırıcı tədbirlər görülsün və onlara kömək göstərilsin. Əsasən də əczaçılıq sahəsində müştərək müəssisələrin və müştərək investisiyaların yaradılması da bizim aramızda əldə olunan razılaşmadır. Siz qeyd etdiyiniz kimi, Azərbaycanın ehtiyac duyduğu bütün dərman preparatlarının siyahısı hazırlanıb bizə təqdim olunandan sonra biz də bu istiqamətdə öz işlərimizi görəcəyik.

***





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misir Ərəb Respublikasının Su Ehtiyatları və Suvarma Nazirliyi arasında su ehtiyatlarının idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirin xarici işlər naziri Sameh Həssən Şukri imzalamışlar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirin xarici işlər naziri Sameh Həssən Şukri imzalamışlar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Misirin planlaşdırma və iqtisadi inkişaf naziri xanım Hala Helmi Elsaid imzalamışlar.

***



Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

– Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, xanımlar və cənablar.





Cənab Prezident, ilk növbədə Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəkdir. Biz bu gün həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə bir çox məsələləri müzakirə etdik və gələcək əməkdaşlıq haqqında vahid mövqeyə gəldik – bu əməkdaşlıq dərinləşdirilməlidir və genişləndirilməlidir. Bunun üçün bütün imkanlar var və bugünkü səfər bunu bir daha təsdiqlədi.

Biz bundan sonra da beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərəcəyik, bir-birimizi bundan sonra da dəstəkləyəcəyik, necə ki, bu günə qədər iştirak etdiyimiz beynəlxalq təşkilatlarda – istər BMT olsun, Qoşulmama Hərəkatı olsun, İslam Əməkdaşlıq Təşkilatı olsun, bu təşkilatlar çərçivəsində qarşılıqlı dəstək göstəririk.

BMT ilə bağlı məsələlər artıq dünyada uzun illər müzakirə edilir, BMT-dəki islahatlar haqqında fikir mübadiləsi aparılır. Mən çıxışlarımın birində bildirmişdim ki, bu islahatlara böyük ehtiyac var. Hesab edirəm ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir. Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Hesab edirəm ki, bu, ədalətli olar. Çünki İkinci Dünya müharibəsindən artıq 80 ilə yaxın vaxt keçir, dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. Ona görə, hesab edirəm ki, bu islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına xidmət göstərəcəkdir.

Biz bu gün regional təhlükəsizlik məsələlərini müzakirə etdik və eyni zamanda, gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək üçün fikir mübadiləsi apardıq. Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizəmizi gücləndirmək qərarına gəldik, buna böyük ehtiyac var. Çünki beynəlxalq terrorçuluq bütün dünya üçün böyük təhdiddir və bu təhlükəyə qarşı ancaq səylərin birləşdirilməsi nəticəsində uğurla mübarizə aparmaq mümkün olacaqdır.

Bu gün mən hörmətli qonağımı bizim bölgəmizdə gedən proseslər barədə məlumatlandırdım. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Artıq bu münaqişə həll olundu, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır və əbədi qalacaqdır. Biz işğala artıq son qoyaraq, sülhə daha da yaxınlaşmışıq. Hələ ki, sülh əldə edilməyib. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsi artıq sülhün əldə edilməsinə gətirib çıxaracaq. Biz bəlli olan təklifləri irəli sürmüşük və bütün əzab-əziyyətlərə, bütün dağıntılara baxmayaraq, yenə də hesab edirik ki, sülh müqaviləsi mütləq imzalanmalıdır. Əks təqdirdə, bizim bölgəmizdə təhlükələr daha da arta bilər.

Azərbaycan 30 ilə yaxın davam edən işğala hərbi-siyasi yollarla son qoydu, öz ərazi bütövlüyünü bərpa etdi, BMT-nin dörd qətnaməsini özü icra etdi. Halbuki bu qətnamələri BMT özü icra etməli idi. BMT Təhlükəsizlik Şurasının islahatlarının labüdlüyü məhz buna əsaslanır. Çünki biz 30 ilə yaxın bu qətnamələrin icrasını gözləmişik, amma bunu görməmişik. Yəni, burada həm ikili standartlar hökm sürürdü, həm ayrı-seçkilik hökm sürürdü. Biz bu müharibəni apararaq işğala son qoyduq və ədaləti bərpa etdik. İndi isə azad edilmiş torpaqlarda qurub-yaradırıq və bütün dağıntıları görərkən bir daha görürük ki, biz Azərbaycanı və bölgəni hansı bəladan qurtardıq.

Biz, eyni zamanda, bu gün ticari-iqtisadi məsələləri geniş müzakirə etdik. Ötən il Azərbaycanda Hökumətlərarası Müştərək Komissiyanın iclası keçirilmişdi və komissiyanın növbəti iclası ərəfəsində bu gün hörmətli qonağımla əldə edilmiş razılaşmaları biz həyata keçirməliyik ki, növbəti iclasda artıq konkret addımlar atılsın. Sahələr də müəyyən edilmişdir - əczaçılıq, sənaye sahələri, alüminium sənayesi, energetika, neft sənayesi, o cümlədən bərpaolunan energetika sahəsi. Burada da böyük imkanlar var.

Mən deyə bilərəm ki, hörmətli cənab Prezident, Sizin tərəfinizdən aparılan islahatlar Misir dövlətinin imkanlarını böyük dərəcədə gücləndirə bilmişdir. Misir bu gün yerləşdiyi bölgədə sabitləşdirici rol oynayır. Biz bunu çox təqdir edirik və əldə olunmuş nailiyyətlərlə öz dostlarımızı səmimiyyətlə təbrik edirik.

Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz.

Bir çox başqa layihələr də müzakirə edilmişdir. Bu gün bu mətbuat konfransından sonra nahar zamanı biz işgüzar müzakirələri davam etdirəcəyik.

Bir daha hörmətli Prezidentə Azərbaycana səfər etdiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Dost və qardaş Misir xalqına daim rifah və firavanlıq arzulayıram. Sağ olun.



Sonra **Misir Prezidenti Əbdülfəttah Əs-Sisi** bəyanatla çıxış etdi.

– Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev. Xanımlar və cənablar.

İlk növbədə, Azərbaycanda olmağımdan məmnunluğumu ifadə etmək istəyirəm. Diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycana gələn ilk Misir Prezidenti olmaqdan şərəf duyuram.

Biz keçən il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd etdik. Eyni zamanda, ölkənizin Sizin rəhbərliyinizlə qazandığı böyük uğurları xüsusi qeyd etmək istəyirəm. Azərbaycan xalqının və hökumətinin səyləri nəticəsində yaradılmış bu gözəllikləri görmək bizi çox valeh etdi. Sizin ölkənizə davamlı inkişaf və tərəqqi arzu edirəm.

Həmçinin cənab Prezident İlham Əliyevə səmimi qəbula və qonaqpərvərliyə, buraya gəldiyimiz ilk gündən hiss etdiyimiz qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirmək istəyirəm.

Tərəflər arasında danışıqlar çox gözəl və müsbət mühitdə keçmişdir. İstərdim ki, ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı səylərimizi daha da gücləndirək. Ölkələrimiz arasında siyasi dialoqun hər iki xalqın mənafeyi naminə davam etdirilməsini istəyirik və müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın inkişafında maraqlıyıq. Xalqlarımızın dini, tarixi yaxınlıqlarını nəzərə alaraq, iqtisadi, ticari və mədəni sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik.

Onu da deyim ki, danışıqlar zamanı iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına dair razılıq əldə

olunmuşdu. Əlbəttə ki, bütün bunlar mövcud siyasi iradənin fonunda əlçatandır və inkişaf etdirilməsi mümkündür. Həmçinin Hökumətlərarası Müştərək Komissiyanın altıncı iclasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı və komissiyanın növbəti iclasının gündəliyinə salınacaq məsələləri müzakirə etdik. Misirdə əczaçılıq sahəsində əldə olunmuş nailiyyətləri vurğuladıq, mövcud infrastrukturdan Azərbaycanın dərman ehtiyaclarının ödənilməsi üçün hazır olduğumuzu bir daha bildirdik.

Müzakirələr zamanı Misirdə elektrik enerjisi istehsalı sahəsində həyata keçirilən islahatları, yaradılmış infrastrukturu bir daha qeyd etdim. Son doqquz il ərzində əldə edilmiş bütün təcrübəmizi Azərbaycan tərəfi ilə bölüşməyə hazır olduğumuzu bildirdim.

Görüşlərdə Misirin xarici investorlar qarşısında mövcud maneələrin aradan qaldırılması, onlar üçün şəraitin yaradılması və hüquqi prosedurların daha da asanlaşdırılması istiqamətində görülən tədbirlər barədə danışdıq. Misirin Afrika qitəsinə qapı rolunu oynadığını nəzərə alaraq, ölkələrimiz arasında azad ticarət sahəsində imzalanmış sazişlərin vacib əhəmiyyət kəsb etdiyini vurğuladıq. Eyni zamanda, Bakı ilə Şarm-əl-Şeyx arasında birbaşa hava əlaqəsinin olmasını xüsusi qeyd edərək, iki ölkə arasında birbaşa reyslərin sayının çoxaldılmasının vacibliyini, bunun iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımıza töhfə verəcəyini bildirdim.

Cənab İlham Əliyevlə danışıqlar zamanı ümumi maraq kəsb edən bir çox regional və beynəlxalq məsələlərə dair müzakirələr apardıq. Görüş zamanı, həmçinin bütün dünyada siyasi dialoqun davam etdirilməsinin vacib olduğunu və məsələlərin hərbi güc yolu ilə həllinin heç də labüd olmadığını bildirdik. Bütün dünya COVID-19 pandemiyasından xilas olmamış Rusiya-Ukrayna böhranı beynəlxalq iqtisadiyyata və ticarətə daha bir zərbə vurdu, istər ərzaq təhlükəsizliyi, istər energetika, istər dənizçilik, istərsə də turizm və əczaçılıq sahələrinə çox mənfi təsir göstərdi.

Cənab Prezident İlham Əliyevə bir daha böyük uğurlar və müvəffəqiyyətlər diləyir, onun müdrik siyasəti nəticəsində qazanılmış bütün bu nailiyyətlərin davamlı olmasını arzu edirəm.

Biz Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında da əlaqələrin inkişafını dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

Sonda Azərbaycan xalqına və Azərbaycan Respublikasına davamlı inkişaf və rifah arzulayıram.

Çox sağ olun.

***



Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin şərəfinə nahar verilib.

# Prezident İlham Əliyev Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edib







Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahmanı, Keniyanın Baş naziri Uakylif Musalia Mudavadini, Tanzaniyanın Vitse-prezidenti Filip İsdor Mpanqonu, Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesanı, Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini, Qabonun Vitse-prezidenti xanım Rouz Kristian Ossuka Rapondanı, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi, Liviyanın Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfini, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbiri açaraq dedi:

- Zati-aliləri, hörmətli nümayəndələr, xanımlar və cənablar.

Sizin hamınızı Bakıda, Azərbaycanda, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun sammit səviyyəli görüşündə ürəkdən salamlayıram. Üç ildən bir qədər çox əvvəl elə həmin bu zalda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Qürurla deyə bilərəm ki, bu Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub. Müzakirələrimizə başlamazdan əvvəl sizin diqqətinizi bir məqama cəlb etmək istəyirəm. Hamınızın bildiyi kimi, bir neçə həftə bundan əvvəl Türkiyədə və Suriyada dağıdıcı zəlzələ baş verib. Müasir dövrün ən faciəli təbii fəlakətlərindən biri olan bu zəlzələ on minlərlə insanın həyatına son qoyub. Zirvə görüşünün bütün iştirakçılarını ayağa qalxmağa və həlak olanların xatirəsini bir dəqiqəlik sükutla anmağa dəvət edirəm. Allah rəhmət eləsin! Sağ olun!

Bu dəhşətli fəlakətlə əlaqədar dərindən kədərləndiyimizi bildirir, həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzu edirik.

İndi isə müzakirələrə başlaya bilərik. İclası açmazdan əvvəl onun gündəliyi təsdiq edilməlidir. Sammit səviyyəli görüşün ilkin gündəliyi nümayəndə heyətləri arasında yayılıb. Belə hesab edə bilərəmmi ki, gündəlik barədə etirazlar yoxdur? Sağ olun! Beləliklə, sammit səviyyəli görüşün gündəliyini təsdiq olunmuş hesab edirəm. İndi isə mən Qoşulmama Hərəkatının sədri kimi çıxış edəcəyəm.



## Prezident İlham Əliyevin çıxışı




– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpaya həsr olunmuş sammit səviyyəli görüşündə salamlayıram.

2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyinə başladı. Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq.

Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu.

Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı.

Xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirilib və tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib. Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib.

Biz bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi"ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik. Nəticədə Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi.

Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə

Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib.

Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir. Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib.

Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək.

Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır.

2021-ci ildə Belqradda keçirilən Yüksək Səviyyəli yubiley görüşündə mən Hərəkatın COVID-19-dan sonrakı dövrlə bağlı mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli görüşünün keçirilməsi ideyasını irəli sürdüm. Bunu nəzərə alaraq mən bu Zirvə toplantısını çağırdım və inanıram ki, bu tədbir yeni meydana çıxan qlobal əhəmiyyətli məsələləri müzakirə etmək imkanı yaradacaq.

Son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir və multilateralizm təhlükə altındadır. Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir.

Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir.

Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya “Soyuq müharibə”nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir.

Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq.

Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun.

Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik.

Pandemiya “2030: Davamlı İnkişaf Məqsədləri”nin icra olunmasına mənfi təsir edib. Bundan əlavə, hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir.

Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Mən Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıram.

Biz suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub-Cənub əməkdaşlığını daha da gücləndirməliyik. Həmin gündəlik Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edilib. Bu, kənardan məcburi qaydada qoyulmuş bir gündəlik deyil.

İqlim dəyişikliyi bəşəriyyət üçün digər bir təhdiddir və su qıtlığı, ərzaq çatışmazlığı və məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur.

İnkişaf edən kiçik ada ölkələri daha çox diqqətəlayiqdir. Çünki onlar iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün yer üzündən silinmək təhlükəsi ilə üzləşiblər.

COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək. Mən burada iki qlobal çağırışı bəyan edirəm. Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm

ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq post-pandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər.

Xanımlar və cənablar.

Daha öncə də qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır.

2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi.

İşğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmış, bütün mədəni və dini abidələr talan və qarət edilmişdir. Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olmuşdur.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan hökuməti 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib. Bu il biz bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı planlaşdırırıq. Biz müasir şəhərsalma - "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm.

Münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib.

Bu fürsətdən istifadə edərək mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm.

Sonda isə sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcəkdir.

Təşəkkür edirəm.

***

Sonra BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi çıxış edərək Zirvə görüşündə iştirak üçün dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Hazırda bəşəriyyətin dünyada yaşanan müxtəlif proseslərin, o cümlədən COVID-19 pandemiyasının ciddi təsirlərinə məruz qaldığını vurğulayan Tsaba Körösi bu problemlərin qarşısını almaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsi baxımından belə görüşlərin önəmini qeyd etdi. Bildirdi ki, pandemiya yaşadığımız əsrin ən böyük səhiyyə böhranını yaratdı. Bu göstərdi ki, pandemiyadan yeganə çıxış yolu təkcə sərhədlər daxilində deyil, beynəlxalq səviyyədə həmrəyliyin inkişaf etdirilməsidir.

Azərbaycanın COVID-19-a qarşı mübarizə istiqamətində irəli sürdüyü təşəbbüslərin önəmini vurğulayan Tsaba Körösi dedi: "Azərbaycan tərəfindən bununla bağlı irəli sürülən təşəbbüslər, həmçinin peyvəndlərə vaxtında və ədalətli qaydada çıxış və əlçatanlıq da qarşılıqlı dəstəyin bir nümunəsidir. Qoşulmama Hərəkatı bu böhrana cavab vermək və pandemiyanın nəticələrini aradan qaldırmaq üçün qlobal həmrəylik göstərərək təşəbbüslər irəli sürmüşdür".

***

BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin adından çıxış edərək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə ev sahibliyinə görə Prezident İlham Əliyevə və Azərbaycana minnətdarlığını ifadə etdi. XXI əsrdə çoxtərəfli əməkdaşlıq baxımından Qoşulmama Hərəkatının əhəmiyyətinin daha da artdığını vurğulayan T.Valovaya Hərəkatın dayanıqlı inkişaf, iqlim dəyişikliyinə qarşı mübarizə və sülhün bərqərar olunması istiqamətində aktiv fəaliyyət göstərdiyini bildirdi. O, dünyada 6,5 milyon insanın ölümünə, bərabərsizliyin daha da güclənməsinə, böyük depressiyaya və işsizliyə səbəb olan pandemiyanın bir sıra sahələrə, xüsusilə təhsilə sarsıdıcı təsirlər göstərdiyini qeyd etdi. Postpandemiya dövründə qlobal əməkdaşlığın, xüsusilə gənclər üçün lazımi şəraitin yaradılmasının və onların arasında əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edən BMT rəsmisi bu baxımdan institusional tədbirlərin görülməsinin vacib rol oynadığını bildirdi, Azərbaycanın irəli sürdüyü təşəbbüsləri xüsusi vurğulayaraq dedi: “Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında əlaqələrin gücləndirilməsinə xidmət edən Parlament Şəbəkəsinin yaradılması ilə bağlı Azərbaycanın təşəbbüsü təqdirəlayiqdir. Azərbaycanın gənclərlə iş sahəsində – 2022-ci ilin iyulunda Qoşulmama Hərəkatının Gənclər Sammitinin keçirilməsi və Hərəkatın Gənclər Şəbəkəsinin təsis olunması ilə bağlı təşəbbüslərini də təqdirəlayiq hesab edirəm”.

***

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun videomüraciəti dinlənildi. T.Qebreyesus videomüraciətində Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. Qoşulmama Hərəkatına üzv ölkələrin pandemiyadan əziyyət çəkdiyini vurğulayan Baş direktor bildirdi ki, postpandemiya dövründə daha təhlükəsiz və sağlam sistemlərin qurulmasında Hərəkatın üzvlərinin kollektiv təcrübəsindən faydalanmaq çox zəruridir. Ümumdünya Səhiyyə Təşkilatı beynəlxalq səviyyədə pandemiyaya hazırlıq və cavab tədbirləri ilə bağlı sənədlərin qəbul olunması istiqamətində Qoşulmama Hərəkatına üzv ölkələrin səylərinin gücləndirilməsinə dair müraciət edib. Tedros Adhanom Qebreyesus Ümumdünya Səhiyyə Təşkilatının maliyyələşdirilməsinə fəal qoşulmağın zəruriliyini və yerli istehsalın qurulmasına sərmayə qoyulmasının prioritet hədəflər olduğunu vurğuladı.

***

Zirvə görüşü işini plenar sessiya ilə davam etdirdi.

***

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, həmrəylik və sıx birlik daha da möhkəmlənib. Təşkilatın tarixində ilk dəfə onun parlament və gənclər şəbəkələri yaradılıb.

Özbəkistan lideri xüsusi vurğuladı: “Bütün bu nailiyyətlər mənim hörmətli həmkarım İlham Heydər oğlunun böyük səyləri və təşəbbüsləri, üzv dövlətlərin maraqları naminə onun praktiki fəaliyyəti sayəsində mümkün olub”.

Özbəkistan dövlətinin başçısı Azərbaycan Prezidentinin ölkə regionlarının bərpasına yönəlmiş səmərəli səylərinə də diqqəti cəlb edərək dedi ki, burada tarixi ədalət, sosial-iqtisadi infrastruktur bərpa olunub, yeni obyektlər ucaldılıb, əhali üçün əlverişli şərait formalaşıb.

Şavkat Mirziyoyev bir sıra təşəbbüslər irəli sürüb, o cümlədən 2030-cu ilə qədər olan dövrdə Senday çərçivə proqramının əsas hədəflərinə nail olmaq üzrə Qlobal Platforma bazasında fəaliyyətin daha da gücləndirilməsini, həmçinin Qoşulmama Hərəkatının monitorinq və elmi tədqiqatlar üzrə xüsusi şəbəkəsinin yaradılmasını da təklif edib. Bu qurum Özbəkistanda yerləşə və Qoşulmama Hərəkatının sammitləri ərəfəsində müntəzəm olaraq təşkilatın iqtisadi forumlarını keçirə bilər.

Özbəkistan Prezidenti BMT-də islahatlar məsələsinə toxunaraq bildirdi ki, Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatının üzvlərinin daimi yeri olmalıdır.

***

Zirvə görüşündə iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürünü bildirən İraq Prezidenti Əbdüllətif Camal Rəşid qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin, qida təhlükəsizliyinin təmin olunmasının vacibliyini diqqətə çatdırdı. Ölkəsində bu istiqamətlərdə atılan addımlardan bəhs edən dövlət başçısı bildirdi ki, İraq hökuməti iqlim dəyişikliyi məsələlərinə də xüsusi önəm verir. İqlim dəyişikliyi sosial sabitliyə də birbaşa təsir göstərir. Ona görə də bu istiqamətdə ictimai maarifləndirmə işləri daha da genişləndirilməlidir. İqlim dəyişikliyinin nəticələri kollektiv şəkildə aradan qaldırılmalı və risklərin azaldılması istiqamətində addımlar atılmalıdır.

Ölkəsinin vaxtilə müharibələrdən, silahlı toqquşmalardan, dağıntılardan, eyni zamanda, insan ölümlərindən əziyyət çəkdiyini xatırladan Əbdüllətif Camal Rəşid qeyd etdi ki, sülh ancaq dialoq və əməkdaşlıq vasitəsilə mümkündür. Bu baxımdan İraq regional təhlükəsizlik, eyni zamanda, qlobal enerji təhlükəsizliyinə də töhfə verməyə hazırdır.

Qoşulmama Hərəkatının prinsiplərindən söz açan İraq Prezidenti dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmətin, təcavüzkar hərəkətlərdən çəkinməyin, digər ölkələrin daxili məsələlərinə müdaxilə etməməyin, birgə sülh şəraitində yaşamağın və digər prinsiplərin bu gün də aktual olduğunu diqqətə çatdırdı.

***

Liviya Dövləti Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfi Azərbaycanın Qoşulmama Hərəkatının inkişafına və beynəlxalq arenada onun nüfuzunun artmasına göstərdiyi səylərə və verdiyi töhfələrə, habelə bu təşkilatda uğurlu sədrliyinə görə təşəkkürünü bildirdi. O qeyd etdi ki, COVID-19 pandemiyası bəşəriyyət üçün beynəlxalq münaqişələrin çoxundan daha ciddi nəticələr doğurub. Prezident Şurasının sədri bütün dövlətləri Liviyada davam edən münaqişənin həllinə və bu ölkənin inkişafına dəstək verməyə çağırıb. Məhəmməd Yunis Əl-Mənfi əminliklə bildirdi ki, Liviya qarşılıqlı münasibətlərin inkişafına yönəlmiş birgə əməkdaşlığa sədaqətini saxlayır.

***

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov koronavirus pandemiyasının nəticələrinin bütün ölkələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafına ciddi təsir göstərdiyini vurğuladı. Türkmənistan Prezidenti pandemiyanın nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətlərin öz səylərini birləşdirməsinin və bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməsinin önəmini qeyd etdi. Sərdar Berdiməhəmmədov bu məqsədlə fikir mübadiləsinin aparılması, ortaq mexanizmlərin müəyyənləşdirilməsi üçün birgə platformanın yaradılması təklifini irəli sürdü. Dövlət başçısı üzv ölkələrin parlamentləri və aidiyyəti qurumları ilə yanaşı, elm və təhsil müəssisələrinin də bu prosesə cəlb olunmasının vacibliyini vurğuladı.

Prezident Sərdar Berdiməhəmmədov Qoşulmama Hərəkatına uğurla sədrliyinə, qarşıda duran hədəflərə nail olunması istiqamətində irəli sürdüyü mühüm təşəbbüslərə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirdi.

***

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç Zirvə görüşündə iştirak üçün dəvətə görə Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O, Qoşulmama Hərəkatının yarandığı zaman dünyaya lazım olan sülh, sabitlik və əməkdaşlıq kimi məsələlərin bu gün də öz aktuallığını saxladığını söylədi. Koronavirus pandemiyasının uzunmüddətli mənfi təsirlərə səbəb olduğunu deyən Jelka Tsviyanoviç insan itkilərini, səhiyyə sistemində və digər sahələrdə yaranan çətinlikləri qeyd etdi. Həmçinin bildirdi ki, iqtisadi problemlər qlobal səviyyədə və dövlətlərdə, xüsusilə yoxsul ölkələrdə daha mürəkkəb tənəzzülə səbəb olub.

Qoşulmama Hərəkatının rolunu təqdirəlayiq hesab edən Jelka Tsviyanoviç Hərəkatın koronavirus pandemiyasının qarşısının alınması istiqamətində böyük səylər göstərdiyini vurğuladı. Qeyd etdi ki, COVID-19 pandemiyasından sonra bir çox digər mövzular da aktualdır. Böyük çağırışlar var, çətinliklər heç də azalmayıb, yaxud da yox olmayıb. O, məhz bu səbəbdən Sammitin dünya ictimaiyyətinin diqqətini postpandemiya dövründə bərpa proseslərinə cəlb edəcəyinə əminliyini bildirdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri vurğuladı ki, beynəlxalq düzən sülh və sabitlik prinsipləri əsasında qurulmalıdır. Qoşulmama Hərəkatı qlobal dəyişikliyə rəğmən bu işi davam etdirə bilər. Bu baxımdan Hərəkata üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsi çox vacibdir.

***

Zirvə görüşü Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun sədrliyi ilə plenar sessiyalarla davam etdi.

***



Qeyd edək ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina,





Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin – Kuba, Qabon, Tanzaniyanın Vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri – Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri və digərləri, eyni zamanda, nazirlər, nazir müavinləri, səfirlər və s. qatılıblar.

Hazırda Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı isə məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Dünyada nüfuzu getdikcə artan və regionda aparıcı faktora çevrilən Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi 2019-cu ildən etibarən üç il müddətinə həyata keçirməyə başlayıb. Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. Məhz Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Həmin ilin dekabrında isə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası təşkil olundu. Bu sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də Qoşulmama Hərəkatının təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Hərəkata üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Təsadüfi deyil ki, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alındı.

Qoşulmama Hərəkatı ölkələrinin Azərbaycana tam etimadının nəticəsidir ki, üzv dövlətlərin yekdil rəyinə əsasən, ölkəmizin təşkilata sədrliyi daha bir il, yəni 2023-cü ilin sonuna kimi uzadılıb. Bu gün Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir. Eyni zamanda, Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunduğu mühüm toplantıya ev sahibliyi etməsi ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin təzahürüdür.

# Prezident İlham Əliyev Almaniyaya işgüzar səfər edib



Martın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfər edib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq “Willy Brandt” aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Prezident İlham Əliyevi rəsmi şəxslər qarşıladılar.

***

Həmin gün Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü olub. Görüşü açan tədbirin moderatoru, Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru **Mixael Harms** dedi:






– Zati-aliləri, Prezident Əliyev.

İqtisadiyyat naziri, cənab səfir, xanımlar və cənablar.

Almaniyanın Şərqi Biznes Assosiasiyasının adından Zati-alilərini burada – Berlində səmimi-qəlbdən salamlamaq istəyirəm. Lakin hesab edirəm ki, bunu bütöv alman biznes cəmiyyəti adından da deyə bilərəm. Azərbaycan və alman biznesləri arasında iqtisadi əməkdaşlıq haqqında bu gün bu müzakirənin tərəfimizdən aparılması həqiqətən də bizim üçün şərəfdir və bizdə məmnunluq hissi doğurur. Şəxsən məndə bu tədbir xüsusi məmnunluq hissi doğurur, çünki biz sadəcə üç həftə bundan öncə Münhen Təhlükəsizlik Konfransında görüşmüşdük və çox şadam ki, bu gün müzakirələrimizi konkret layihələr haqqında daha konkret səpkidə apara bilərik.

Həmçinin bu gün bu vacib müzakirəyə bir çox alman şirkətləri qoşulduğu üçün də onlara minnətdaram. Burada müxtəlif sektorları təmsil edən, demək olar ki, otuz şirkətin nümayəndələri toplaşıblar. Həmçinin Federativ Hökumətin nümayəndələrini, İqtisadiyyat və İqlim Müdafiəsi Nazirliyindən cənab Rayxenbexeri,

xanım Alarixi burada salamlamaqdan məmnunluq hissi keçirirəm. Sizi də salamlayıram. Biz aşağıdakı gündəliyi təklif etmişik. Qısa açılış çıxışımdan sonra Prezident Əliyev Azərbaycanın iqtisadi inkişafı üzrə planlar haqqında strateji icmalı bizimlə paylaşacaq və xüsusilə ikitərəfli əməkdaşlığımız çərçivəsində alman biznesləri üçün imkan və fürsətlər haqqında məlumat verəcək.

Sonra biz dəyirmi masa müzakirəsini təşkil edəcəyik. Biz sizin şirkətlərinizi klasterlər üzrə yığmışıq. Beləliklə, bizim beş klasterimiz var. Birincisi enerji, sonra logistika və infrastruktur, üçüncü sənaye, dördüncü kənd təsərrüfatı və beşinci klaster maliyyə, texniki qaydalar və assosiasiyalardır. Hər birinizdən şirkətiniz, Azərbaycanda planlarınız və layihələriniz barədə qısa məlumat verməyi xahiş edirəm. Xahiş edirəm çıxışınız iki və ya üç dəqiqədən artıq olmasın. Əks halda mən nəzakətsiz davranmaq məcburiyyətində qalaraq sözünüzü kəsməli olacağam. Çünki hər bir klasterdən sonra Prezident öz qeydlərini və bəlkə də sizin konkret təkliflərinizə dair reaksiyasını bildirəcək. Vaxta əməl etməyimiz vacibdir. Həmçinin xahiş edirəm çıxışlarınızda mümkün qədər konkret olun. Bugünkü müzakirənin ən yaxşı nəticəsi o olardı ki, bizdə təqib olunmalı məsələlərin uzun bir siyahısı olsun. Hesab edirəm ki, bu, çox vacibdir. Beləliklə, bu, mənim qısa açılış çıxışım idi. İndi isə sözü böyük məmnuniyyətlə Zati-aliləri Prezident Əliyevə verirəm.

Görüşdə çıxış edən Azərbaycan **Prezidenti İlham Əliyev** dedi:

– Təşəkkür edirəm. Çox sağ olun, cənab Harms.




Xanımlar və cənablar, bu görüşdə iştirak etdiyiniz üçün sizə də təşəkkürümü bildirirəm. Cənab Harmsın vurğuladığı kimi biz üç həftə bundan əvvəl Münxendə görüşmüşdük. Beləliklə, bu, bir aydan az müddətdə mənim Almaniyaya ikinci səfərimdir. Bu dəfə mən Almaniyaya Kansler Olaf Şoltsun dəvəti ilə gəlmişəm. Sabah mənim Prezidentlə və Kanslerlə görüşlərim olacaq və əlbəttə, biz siyasi gündəliyə aid məsələlərlə birlikdə, sözsüz ki, ticari və iqtisadi əlaqələrimizin genişlənməsi imkanlarını da müzakirə edəcəyik.

Azərbaycanın inkişafı bizə öz resurslarımıza güvənmək imkanını verdi. Ölkə iqtisadi cəhətdən müstəqildir və bu da hökumətimizin ən əsas hədəflərindən biri idi. Biz, əslində, beynəlxalq maliyyə institutları tərəfindən maliyyələşdirilən layihələrin həyata keçirilməsini tamamlamaq üzrəyik və yeni kreditlər götürməyi planlaşdırırıq. Son iyirmi il əsasən enerji sektoru sayəsində sürətli iqtisadi artım illəri olmuşdur. İndi isə hədəf iqtisadiyyatımızın daha çox şaxələndirilməsi üzərində işləməkdir. Çünki ÜDM-in tərkibinə gəldikdə, ÜDM-in əksər hissəsi qeyri-enerji sektorunun payına düşür, lakin biz hələ də əsasən neft və qazı ixrac edirik.

Son 20 ildə iqtisadiyyatımız üç dəfədən çox artıb. Düşünürəm ki, bu, dünya rekordu hesab oluna bilər. Eyni zamanda, birbaşa xarici borcun azalması strategiyasına əsaslanaraq, biz xarici borcumuzu azaltmışıq və 2023-cü il yanvarın 1-nə olan məlumata görə, bu, ÜDM-in 10 faizindən aşağı olub. Faktiki olaraq, bu, mənim bir neçə il bundan əvvəl hökumətin qarşısında qoyduğum hədəf idi. İndi hədəfə nail olunduğundan biz borclanma strategiyamıza yenidən başlayırıq. Biz artıq Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və bir neçə başqa beynəlxalq maliyyə institutları ilə ilkin məsləhətləşmələrə başlamışıq. Lakin infrastruktur layihələri, yol tikintisi, dəmir yolu və sair üçün borc aldığımız əvvəlki illərdən fərqli olaraq, indi öz şirkətlərimizin və sənaye sektorumuzun imkanları artdığından, bizim artıq bunun üçün vəsaitə ehtiyacımız yoxdur. Biz nisbətən bu yaxınlarda qəbul edilmiş 2030-cu il strategiyasına əsasən ölkəmizin qarşısında duran strateji hədəflərimiz üçün borc alacağıq və bu strategiyanın həyata keçirilməsi üçün toplayacağımız minimal məbləğ 40-50 milyard ABŞ dolları olacaq. Başqa sözlə, texnoloji keçidlə əlaqəli məsələlərlə bağlı borc almağa davam edəcəyik, eyni zamanda, gələcək iqtisadi planlarımızı əsas etibarilə öz ehtiyatlarımıza əsaslanaraq quracağıq.

Cənab Harms qeyd etdiyi kimi, enerji ilə də bağlı klaster olacaq. Bununla bağlı bir neçə söz deyim. Bu yaxınlarda - bir ildən az vaxt bundan əvvəl Azərbaycan Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən Avropa üçün enerji sektorunda etibarlı tərəfdaş adlandırılıb. Nailiyyətlərimizin bu cür

qiymətləndirilməsi böyük şərəfdir. Həqiqətən də real hədəf olan yerdə, biz bir çox Avropa ölkələrini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edirik.

İki ildən çox bundan əvvəldən etibarən bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi və əlbəttə ki, təbii qaz almağa başlayıb. Lakin Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar, hazırda biz kəmər imkanlarımızı genişləndirməyi planlaşdırırıq. Biz xüsusilə 16 milyard kubmetr tutumu olan TANAP-ı 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutumu olan TAP-ı isə 20 milyard kubmetrədək genişləndirməyi planlaşdırırıq. Bu, əsasən Avropadan tələbatın artması ilə əlaqədardır, çünki təsəvvür edə bilərsiniz ki, 3500 kilometr uzunluğu olan, 3 kəmər sistemini birləşdirən, 2021-ci il yanvarın 1-də istismara verilmiş kəmərin indi genişlənməyə ehtiyacı var.

Rusiya-Ukrayna müharibəsi başlayandan sonra bizə qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı 10-dan çox Avropa ölkəsindən müraciət olunub. Biz tərəfdaşlarımızın ehtiyaclarını qarşılamaq üçün hər şeyi edirik. Bizim qaz təchizatımızın artıq kifayət qədər şaxələndirilmiş coğrafiyası var.

Müzakirələrimizin tərkib hissəsi olacaq başqa bir məsələ nəqliyyat və logistikadır. Biz enerji satışından əldə etdiyimiz vəsaiti, yəni, neft və qaz gəlirlərini nəqliyyat infrastrukturuna yönəltmək üçün çox gərgin işləmişik. Hazırda buna demək olar ki, nail olunub. Buna, demək olar ki, bizdə olan və faktiki surətdə infrastrukturumuzun tamamilə əhatə etdiyi proqnoza əsasən nail olunub. Lakin indi yenə də Rusiya-Ukrayna müharibəsi nəticəsində Azərbaycanın nəqliyyat infrastrukturuna tələbat artır. Ötən il tranzit yüklərimizdə 75 faizdən çox artım olub və hətta bizim nisbətən yeni tikilmiş yükaşırma imkanı 15 milyon ton olan dəniz ticarət limanında müəyyən tıxac yaranıb.

Bir sözlə, biz çox ürəkdən çalışırıq və əlavə maliyyə vəsaitlərini ayırırıq ki, dəniz limanımızın və dəmir yolu infrastrukturunun imkanlarının artırılması baş tutsun. Əlbəttə ki, bütün bunlar icra olunmalıdır. Təbii ki, ümidvarıq, Almaniya şirkətləri bu sahədə bizim tərəfdaşlarımız olacaqlar. Əsas perspektiv planlarımıza gəldikdə, əlbəttə ki, təxminən 30 il ərzində işğal altında olmuş Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş torpaqlarında yenidənqurma işləri nəzərdə tutulur. Hazırda Livanın ərazisi qədər sahə tamamilə yerlə-yeksan edilib. Beləliklə, biz "Böyük Qayıdış" adlanan dövlət proqramına artıq start vermişik. Biz proqramı tərtib etmişik və ilk sınaq layihəsini artıq həyata keçirmişik. Müharibə bitdikdən sonra cəmi ilyarım ərzində 400-dən artıq məcburi köçkün öz yerlərinə qayıdaraq məskunlaşıb. Planımızda yüz minlərlə keçmiş məcburi köçkünü öz yurd-yuvalarına qaytarmaqdır, çünki erməni işğalı nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bir sözlə, bu, böyük proqramdır və onun icrası böyük vəsaitlər tələb edəcək. Biz tamamilə yeni, müasir standartlar əsasında layihəni icra etməyi planlaşdırırıq. Qarabağ və Şərqi Zəngəzur bölgələrini artıq yaşıl enerji zonası elan etmişik. Orada yalnız bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Bu mənbələr nəinki həmin yerlərdə insanların və sənayenin tələbatını ödəyəcək, o cümlədən ölkənin qalan hissəsinə də xidmət edəcək.

Eyni zamanda, bərpaolunan enerji mənbələrinin böyük potensialı var. Ola bilsin, biz bu mövzunu görüşümüz zamanı daha geniş şəkildə müzakirə edə bilərik. Lakin deyə bilərəm ki, Azərbaycanda külək və günəş enerjisi mənbələrinin potensialı 200 qiqavata yaxındır. Beləliklə, hazırda biz nəinki xarici sərmayədarları cəlb etməkdə davam edirik, o cümlədən həmin enerji həcmlərini ixrac etmək məqsədilə lazımi ötürmə imkanlarını da yaradırıq. Bəlkə burada mən çıxışımı yekunlaşdırım ki, müzakirələrimiz üçün çox vaxtımız olsun. Sağ olun.

Görüşdə "Siemens Energy", "Uniper", "SCT Energy", "Lotus Energy", "Falk and Zeitung" şirkətlərinin, eləcə də "Edison Technologies and Engineering Group"un məsul şəxsləri çıxış etmişlər. Həmin çıxışları şərh edən **Prezident İlham Əliyev** dedi:

– Çox sağ olun. Praktiki əhəmiyyət daşıyan bir çox məsələlər qeyd edildi, o cümlədən bəzi gələcək planlarımızla bağlı suallar verildi. Mən xronoloji ardıcıllıqla başlayacağam. "Siemens"ə gəldikdə, bəli, mən "Sumqayıt" Elektrik Stansiyasının açılışında iştirak etdim. Məncə, o, 2009-cu ildə idi. 525 meqavat gücündə stansiya Azərbaycanda müasir texnologiya əsasında tikilmiş ilk elektrik enerjisi



stansiyası idi. Həmin vaxtdan etibarən elektrik enerjisi stansiyası tam gücü ilə işləyir. Həmin layihəni başladığımız zaman düşündük ki, 525 meqavat həddindən artıq çoxdur. Lakin indi anlayırıq ki, bu, vaxtında icra edilmiş layihə oldu, çünki Azərbaycanın tələbatı artıb və bu, sənaye və əhali artımı ilə bağlıdır. Əfsuslar olsun ki, bəzi iqlim dəyişiklikləri səbəbindən Xəzər dənizinin səviyyəsi aşağı düşüb, su dayazlaşıb. Biz dənizdə estakada tikməli idik ki, daha çox suyu toplayıb götürə bilək. Bununla belə, elektrik stansiyası tam gücü ilə işləyir və biz bundan tamamilə məmnunuq.

Hazırda icra olunan və ya icrasını planlaşdırdığımız layihələrə gəldikdə, xüsusən də siz Yaşmada elektrik stansiyasını qeyd etdiniz. Bilirəm ki, Yaşma layihəsində tender proseduru gedir və əminəm ki, sizin təklifiniz ən yaxşılar sırasında olacaq. Tender proseduru açıq və şəffafdır. Məlumat almışam ki, burada maraqlı olan bir sıra şirkətlər iştirak edir və mən sizə, sadəcə, uğurlar arzu edə bilərəm.

Məlumat üçün bildirmək istərdim ki, biz bu yaxınlarda Mingəçevirdə 1280 meqavat gücündə yeni elektrik stansiyasının təməlqoyma mərasimini keçirdik. Bərpaolunan enerji planlarımıza baxmayaraq, biz hələ də anlayırıq ki, sənaye və əhali artımı səbəbindən daha çox elektrik enerjisi istehsal etməli olacağıq. Bizim bərpa ediləsi 10 min kvadratkilometrlik torpaqlarımız var. Buna görə bizə əlavə təchizat lazım olacaq.

Naxçıvan Elektrik Stansiyasına gəldikdə, Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da yaşıl enerji zonasına çevirmək planlarımız var. Naxçıvanda su elektrik stansiyasının tikintisi üçün böyük potensial mövcuddur. Həmçinin bu yaxınlarda orada ekspertiza aparılıb və ola bilsin, yaxın vaxtlarda 500 meqavatlıq günəş elektrik enerjisi stansiyasının tikintisi ilə bağlı bəzi addımlarımız olsun. Eyni zamanda, Naxçıvanda ənənəvi elektrik stansiyaları da çox münasibdir. Çünki Naxçıvanın böyük ixrac potensialı mövcuddur, onun Türkiyə və İranla sərhədi var. Hər iki ölkədə elektrik enerjisinə artan tələbat var.

Elektrik şəbəkəsi ilə bağlı apardığınız fəaliyyəti tam dəstəkləyirəm. Bu, bizə həqiqətən lazım olan sahədir, çünki bərpaolunan enerjinin böyük həcmi mövcud şəbəkəyə inteqrasiya edilməlidir. Belə olmasa, biz həmin enerjini, necə deyərlər, toplaya bilmərik. Buna görə enerji şirkətlərimizin qarşısında duran əsas hədəflərdən biri məhz bundan ibarətdir. Ümidvaram ki, bu layihə uğurla icra olunacaq.

Siz, həmçinin elektrik enerjisinin ötürülməsini qeyd etdiniz. Bu, ən vacib məsələlərdən biridir, çünki bu gün bizim ixrac imkanlarımız ötürülmə gücləri ilə məhdudlaşır. Xatirimdədir ki, Gürcüstan və Türkiyə vasitəsilə maksimum 1000, yaxud 1500 meqavat ötürmə qabiliyyəti var. Hər iki ölkədə - Gürcüstan və Türkiyədə bu həcmlər tamamilə son həddədir. Buna görə ötürmə qabiliyyətinin artırılması üçün həmin iki ölkəyə əlavə sərmayələr yatırılmalıdır. Xüsusən də nəzərə alsaq ki, ötən ilin dekabrında Buxarestdə Azərbaycandan Avropaya yaşıl enerjinin ötürülməsi üçün Qara dənizin dibi ilə kabelin çəkilməsi məqsədilə Azərbaycan, Gürcüstan, Rumınіya və Macarıstan arasında saziş imzalandı. Cari ilin fevralında bu layihənin idarəetmə komitəsinin ilk iclası həmin ölkələrin nazirlərinin və Avropa Komissiyasının enerji üzrə komissarının iştirakı ilə Bakıda keçirildi. Birinci görüşdə biz onun vahid layihə olacağı üzərində razılığa gəldik. O, Cənub Qaz Dəhlizindən fərqlənəcək, çünki orada Cənub Qafqaz Boru Kəməri, TANAP və TAP var. Bu, Xəzər dənizində külək enerjisi stansiyalarından başlayan və Avropa istehlakçılarına xidmət edən vahid layihə olacaqdır. Qara dənizin dibi ilə ötürmənin birinci mərhələsində 4 qiqavatlıq güc nəzərdə tutulur. Lakin bunun üçün biz ötürmə xətlərini genişləndirməliyik. Yoxsa, bu, tamamilə mənasız olardı. Bundan əlavə, bir azdan sonra mən sizə artıq imzaladığımız planlarımız, müqavilələrimiz və anlaşma memorandumları barədə məlumat verəcəyəm. Hesab edirik ki, 4 qiqavat yalnız başlanğıcdır. Avropadakı tələbatı, o cümlədən Almaniyadakı tələbatı bilirik. Düşünürəm ki, rəqəmlər onlarla qiqavat təşkil edir və tələbat yalnız artacaq. Buna görə, bizdə bu imkan var və biz sadəcə bütün sxemləri yığmalıyıq.

BP ilə birgə icra etdiyiniz Səngəçal Terminalına elektrik enerjisinin verilməsinə gəldikdə, sizə deyə bilərəm ki, bu layihənin özü də bərpa olunan enerji siyasətimizdən qaynaqlanır. Biz BP ilə razılaşdıq ki, o, Qarabağın azad olunmuş şəhərlərindən birində – Cəbrayıl şəhərində 240 meqavat gücündə günəş enerji stansiyasının tikintisində birbaşa xarici sərmayədar olacaq. İstehsal olunmuş həmin enerji bizim enerji sistemimizə daxil ediləcək. Eyni zamanda, biz Səngəçal terminalını elektrik enerjisi ilə təmin etmiş olacağıq və onlar qazdan istifadəni dayandıracaq. Həmin qaz boru kəmərinə daxil ediləcək və Avropaya yönləndiriləcək. Bir sözlə, burada üçtərəfli uduşlu vəziyyətdir. Biz 240 meqavatlıq günəş enerji stansiyasını alırıq, BP-nin Səngəçal terminalı karbonsuz və daha səmərəli qaydada fəaliyyət göstərməyə başlayır və onların istifadə etdiyi qaz Avropaya ixrac olunur. Biz bu layihəni enerji səmərəliliyi baxımından, çox əhəmiyyətli hesab edirik.

SOCAR-ın işlədiyi digər layihə də var. O, dənizdəki platformalarımıza elektrik kabellər çəkir ki, orada fəaliyyət üçün təbii qazdan istifadə olunmasın. Onlar yaşıl enerjidən istifadə edəcək və platformalarda əvvəlcə elektrik stansiyalarında istifadə olunan qaz sahilə nəql olunacaq və həmçinin Avropaya çatdırılacaq. Avropada artan tələbatı nəzərə alaraq, biz nəinki qazın hasilatını artırırıq, o cümlədən biz enerji səmərəliliyi sayəsində əlavə qazı toplayacağıq.

“Uniper”ə gəldikdə, bildiyimə görə, alış və satış müqaviləsi müddəti baxımından ən uzun müqavilələrdən biridir. Məncə onun vaxtı 2045-ci ildə bitir, 25 ildən sonra. Elədir! Sonra, ola bilsin, onun müddəti artırılacaq, çünki Avropaya təbii qazın çatdırılması ilə bağlı planlarımız həmin vaxtla məhdudlaşmayacaq. Bildiyimə görə, Sumqayıtda enerji səmərəliliyi ilə bağlı birgə müəssisə layihəniz bu yay başa çatır. Siz həmin layihənin uzadılması planlarınızı qeyd etdiniz. Mən bunu tam dəstəkləyirəm, çünki “Azərikimya”nın buna ehtiyacı var. Bir sözlə, əməkdaşlığın artıq yaxşı tarixi var. Təbii qaza gəldikdə, siz bizim müştərimizsiniz. Əlbəttə, Azərbaycanda nə qədər çox birgə biznes aparsaq, bir o qədər yaxşı olar.

Çilov adasında yaşıl hidrogenlə bağlı layihənizə gəldikdə, belə başa düşürəm ki, bu, sizin üçün bir növ sınaq layihəsi idi, çünki onun real həcmi kiçikdir. Mən bəzi rəqəmləri gətirəcəyəm, bəzi planlarımızı xatırladacağam. Lakin məsləhət görərdim ki, əgər bərpaolunan enerji ilə bağlı layihələri nəzərdən keçirsəniz, sizə və buna marağı olan bütün tərəfdaşlarımıza nəyin baş verdiyini, o cümlədən qiymətlər barədə bəzi məlumatı sadəcə bildirmək istərdim. Azərbaycanda elektrik enerjisi ilə bağlı mövcud daxili qiymətlər xarici sərmayədarlar üçün sərfəlidir. Bu, birincisi. Belə olmasa, onlar sərmayə yatırmazdı. Bu gün bizim icra olunan iki müqaviləmiz var. Onlardan biri “Masdar” ilə, digəri isə, “ACWA Power” ilə imzalanıb. Bunlar iki qlobal enerji şirkətləridir və onlar bərpaolunan enerjiyə böyük sərmayələr yatırırlar. Bu iki müqavilə icra olunmaqdadır. Ümumi həcmi 470 meqavatdır. Bundan əlavə, ümid edirəm, bu yaxınlarda BP ilə təməlqoyma mərasimi olacaq. Bu, əlavə 240 meqavat təşkil edəcək. Beləliklə, üç əsas enerji şirkəti hesab edir ki, Azərbaycanda bərpaolunan enerji sahəsində qiymətlər, tənzimləyici qaydalar və biznes mühit münasibdir. Belə olmasa, onlar sərmayə yatırmazdılar.

Əlavə olaraq biz anlaşma memorandumlarını imzalamışıq və bütövlükdə imzalanmış anlaşma memorandumları və müqavilələrin həcm səviyyəsi 25 qiqavatdır. “ACWA Power”, “Masdar”, BP və “Fortescue” resursları. Beləliklə, bu şirkətlərlə 25 qiqavat həcmində anlaşma memorandumları o deməkdir ki, bu layihələr icra olunacaq. Çünki bunlar ciddi şirkətlərdir və biz də ciddi ölkəyik. Bu şirkətlərlə anlaşma memorandumları imzalamaqla biz tamamilə əminik ki, onlar icra olunacaq. Buna görə potensial buradadır, dediyim kimi, 200 qiqavata yaxın. Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən təsdiqlənmiş 157 qiqavat enerji dənizdədir, qalanı isə qurudadır və hələ hidrogeni demirəm.

Beləliklə, biz həqiqətən də Avropa üçün vacib yaşıl enerji təchizatçısına çevriləcəyik və neft-qaz kəmərlərinin tikintisi üzrə uğurlu təcrübəmizi nəzərə alaraq, enerji təhlükəsizliyi üzrə Avropadan olan ölkələr və şirkətlərlə mövcud əməkdaşlığımız, Avropa Komissiyası tərəfindən bizim planların tamamilə dəstəklənməsi, bir ildən çox müddətdən əvvəl Avropa Komissiyası və bizim Energetika Nazirliyi arasında başlanılmış enerji dialoqu kimi bütün bu amillər həqiqətən onu nümayiş etdirir ki, Azərbaycandan olan yaşıl enerji tezliklə bu gün təbii qaz qədər əhəmiyyətə malik olacaqdır.

Sonra biz treydinq şirkətinə gəlib çıxırıq və siz yəqin bilirsiniz ki, SOCAR-ın, - bizim enerji şirkətinin, - öz treydinq departamenti - “SOCAR Treydinq”i var. Bu departament təkcə Azərbaycan neftinin deyil, həm də üçüncü tərəflərin neftinin satışı ilə də məşğuldur. Hesab edirəm ki, burada əməkdaşlıq imkanlarının dəyərləndirilməsi aparıla bilər. Beləliklə, hesab edirəm ki, bu, tamamilə mümkündür. Qiymətlərlə və biznes modelinin axtarışı ilə bağlı cənab Palluttun sualını cavablandırdım.

Bizdə günəş və küləkdən enerjinin əldə edilməsi ilə bağlı potensialın xəritəsi var. Bununla məşğul olan hökumət orqanı Energetika Nazirliyidir və bu nazirliyin bir hissəsi olan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyidir. Düşünürəm ki, əgər marağınız varsa bizim iqtisadiyyat naziri sizi əlaqə məlumatı ilə, Azərbaycana gəlmək, Azərbaycanda biznesə başlamaqla bağlı məlumatla təmin edə bilər.

Cənab Kasapoğlunun Transxəzər boru kəməri ilə bağlı sualına gəldikdə bildirməliyəm ki, Transxəzər boru kəməri uzun illər müzakirə olunub. Mən ən azından onun on il müzakirə olunduğunu xatırlayıram. O, müzakirə olunan müddətdə biz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərlərini, Cənub Qaz Dəhlizini inşa etdik və Avropaya yaşıl enerji ötürən xətti çəkəcəyik və hələ də Transxəzər boru kəməri müzakirə olunacaq. Bax, vəziyyət belədir. Bizim təşəbbüskarı olduğumuz bütün layihələr artıq ya tamamlanıb, ya da şübhəsiz uğurlu olacaqdır. Transxəzər bizim layihəmiz deyil. Transxəzər layihəsində biz tranzit ölkəsi hesab olunuruq və biz, o cümlədən mən, dəfələrlə açıq bəyan etmişik ki, biz Xəzərin o tayında dost və tərəfdaşlarımızın boru kəmərini inşa etməyi qərarlaşdırdığı təqdirdə onlar üçün zəruri tranziti təmin etməyə hazırıq. Lakin məndə olan məlumata görə bu məsələnin indiyədək öz həllini tapmamasının səbəbi odur ki, maliyyələşmənin mənbəyi hələ də müəyyən olunmayıb. 30 milyard kubmetr həcmində olan boru kəmərinin tikintisinin yükünü kimin daşıması aydın deyil. Bu, müəyyən Avropa şirkətləri olacaq, yoxsa vəsait Avropa İttifaqı tərəfindən ayrılacaq, bunun üçün layihə ortaq maraqlar layihələri sırasına daxil edilməlidir. Mən bildiyimə görə bu belə deyil və bunun Türkmənistan hökumətinin olub-olmamasını da biz bilmirik. Buna görə bu, birinci sualdır, bu layihə üçün ödənişi kim edəcək? İkinci sual isə ondan ibarətdir ki, yaxşı, layihəni kimin maliyyələşdirdiyi müəyyən edildikdən sonra layihə Azərbaycana gələcək və oradan hara gedəcək? Çünki

bizdə-TANAP-da indi boş qalan tutumumuz yoxdur. Biz yeni kompressor stansiyaları tikməklə TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirəcəyik və boru Azərbaycan qazı ilə tam dolu olacaqdır. Bu isə o deməkdir ki, potensial kəmər olan Transxəzər boru kəməri Azərbaycana gəldikdən sonra kimsə Azərbaycandan Avropaya başqa bir boru kəmərini tikməlidir. Bu şirkətin kim olduğu yaxşı sualdır. Mən bu məsələyə skeptisizmlə yanaşmıram. Mən hər şeyi real qiymətləndirirəm. Yenə də deyirəm, bu, bizim layihəmiz deyil. Kimsə onu tikməyi qərarlaşdırarsa biz buna çox şad olarıq, çünki biz tranzitdən pul qazanacağıq, Şərqdə və Qərbdə olan qonşularımıza yaxşı xidmət göstərmiş olacağıq.

Daha sonra çıxışlarda səslənən məsələlər ətrafında görüş iştirakçıları müzakirələr aparıb.

***

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü baş tutmuşdur.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladıqdan sonra dövlət başçıları birgə foto çəkdirmişlər, Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.





***

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub. Görüşdə çıxış edən Almaniya Prezidenti **Frank-Valter Ştaynmayer** dedi:

– Əziz həmkarım, cənab Prezident.

Bakıda bizim görüşlərimizi xatırlayıram. Mən səfər edəndə başqa vəzifədə idim. İndi zaman başqadır. Ətrafımızda çətinliklər vardır. Biz vəziyyəti təhlil etdik. İndi Rusiyanın Ukraynaya təcavüzündən bir il keçir.





Bunun siyasi mühit, iqtisadi vəziyyət üçün nə kimi təsiri var? Bizim Azərbaycanla Ermənistan arasındakı münaqişə barədə danışmaq şansımız oldu. Hər ikimiz bunun uğura gətirib çıxaracağına həqiqətən ümid edirik. Bu, mürəkkəb bir münaqişədir. Ötən müddət ərzində irəliyə doğru bir neçə addım atılıb. Şarl Mişellə danışıqlar prosesi aparılıb.

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Sağ olun, cənab Prezident. Almaniyaya yenidən səfər etdiyim üçün çox şadam. Sizinlə təkbətək görüşdə müzakirə etdiyimiz kimi, biz Azərbaycan və Ermənistan arasında münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün əlimizdən gələni edəcəyik. Hesab edirəm ki, razılaşma əldə etmək üçün yaxşı şans var, xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşlərdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda. Bu sazişi gec-tez imzalamaq yaxşı fikirdir. Biz beynəlxalq hüquqa əsaslanan və bizim mövqeyimizə görə sülh sazişinin əsasını təşkil etməli olan beş prinsip işləyib hazırlamışıq.

Almaniya Prezidenti qeyd etdi ki, dövlətimizin başçısı ilə görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması ilə bağlı müzakirələr aparılıb və o, sülh müqaviləsinin imzalanacağına ümidvardır.

Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin apardığı missiyaya dəstək verdiyini qeyd etdi, bu əsnada tezliklə Brüsseldə görüşün keçiriləcəyinə ümidvar olduğunu dedi. Almaniya Prezidenti əlavə etdi ki, Şarl Mişelin missiyasına hər iki tərəfin etimadı var. O, həmçinin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinkenin də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə ciddi dəstək və töhfə verdiyini bildirdi.

Frank-Valter Ştaynmayer Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanma prosesini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin missiyasını, Brüssel sülh gündəliyini dəstəkləyir. Məhz bu əsnada aparılan görüşlərdə, qəbul edilən bəyanatlarda sülh müqaviləsinin və sülh gündəliyi platformasının müəyyən olunduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs məhz Azərbaycan tərəfindən irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın mövqeyi iki yanaşmadan ibarətdir. Birinci yanaşma Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ikinci yanaşma isə Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsidir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfindən müəyyən olunmuş nümayəndə martın 5-də Azərbaycanın Qarabağ bölgəsindən olan sakinlərlə görüşüb, Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağın erməni ictimaiyyətinin nümayəndələri reinteqrasiya məsələləri və bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təmasların davam etdirilməsi üçün Bakıya dəvət olunub.

Azərbaycan Prezidenti İlham Əliyev separatizmin bütün forma və təzahürlərinin qəbuledilməz olduğunu qeyd etdi, separatist meyillərə münasibətdə vahid mövqeyin nümayiş etdirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Laçın yolu ilə bağlı məsələsinə toxunaraq bu yolun blokadada olması barədə Ermənistanın iddialarının tamamilə əsassız olduğunu bildirdi, yol üzrə hərəkətin təmin edildiyini, dekabrın 12-dən etibarən Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4 mindən artıq nəqliyyat vasitəsinin, 150-dən çox tibbi yardıma ehtiyacı olan şəxsin keçdiyini vurğuladı.

Prezident İlham Əliyev Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunun və Laçın yolundan hərbi məqsədlər, hərbi daşımalar üçün istifadənin Azərbaycan tərəfini narahat etdiyini bildirdi.

Dövlətimizin başçısı üçtərəfli Bəyanata əsasən Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyini dedi və Laçın yolunun son nöqtəsində, Azərbaycan və Ermənistan sərhədində Azərbaycanın müvafiq sərhəd-keçid məntəqəsinin yaradılması ilə bağlı təklifi barədə

məlumat verdi. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə region üçün yeni nəqliyyat dəhlizinin formalaşmasına imkan yaranacağını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın hazırda öz ərazisində dəmir yollarının və avtomobil yollarının qurulması üzrə işləri sürətli şəkildə davam etdirdiyini bildirdi.

Görüşdə regional və qlobal gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılamışdır.

***

Həmçinin martın 14-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib.









***

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

Əvvəlcə Almaniya Kansleri **Olaf Şolts** mətbuata bəyanatla çıxış etdi:

– Hörmətli xanımlar və cənablar.

Mən bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Berlində ürəkdən salamlayıram. Biz elə indicə ikitərəfli əməkdaşlığımızı





necə dərinləşdirəcəyimiz haqqında gözəl fikir mübadiləsi apardıq. Biz ötən il ölkələrimiz arasında diplomatik münasibətlərimizin 30 illik yubileyini də qeyd etdik. Azərbaycan və Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində daha da sıx əməkdaşlıq etmək istəyirlər. Bu necə mümkündür və əsasən də ikitərəfli iqtisadi münasibətlərimizi nəzərə alaraq, həmçinin bu sualı da biz görüş çərçivəsində müzakirə etdik.

Azərbaycan həm Almaniya, həm Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaşdır. Ölkənin həm Almaniyanın, həm də Avropa İttifaqının enerji təchizatı üçün böyük potensialı mövcuddur, Azərbaycan öz töhfəsini verə bilər və eyni zamanda, bərpaolunan enerji də bizim əməkdaşlığımızın bir mövzusudur.

Cənab Prezident Əliyev və mən Rusiyanın Ukraynaya hücumu haqqında da fikir mübadiləsi apardıq. Həmçinin bu hücumun, bu müharibənin Azərbaycana və Cənubi Qafqaza təsiri haqqında da fikir mübadiləsi apardıq. Mən öz mövqeyimizi açıq şəkildə ifadə etdim. Bizim fikrimizcə, Rusiyanın təcavüz müharibəsi beynəlxalq hüquqa açıq şəkildə ziddir. Rusiyanın bu işğalçı müharibəsi yeni bir epoxanın, belə deyək ki, başlanğıcını geosiyasi nöqteyi-nəzərdə işarələyir.

Bizim üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan-Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Təbii ki, burada gərginliyin artması təhlükəsi mövcuddur və son aylar, son həftələr baş verən hadisələr bunu göz qabağına gətirdi. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yerindəcə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda, hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada təbii ki, öz dəstəyini göstərməyə hazırdır. Bildiyiniz kimi, Avropa İttifaqının Ermənistanda mülki missiyası mövcuddur, Almaniya bu missiyanı dəstəkləyir və bu missiyanın rəhbəri Almaniya tərəfindən təmin edilib.

Cənab Əliyev və mən eyni fikirdəyik ki, bu münaqişə tez bir zamanda öz əllini tapmalıdır. Azərbaycan və Almaniya Avropa Şurasının üzvüdür. Biz həmin bu üzvülüklə üzərimizə öhdəlik götürmüşük ki, insanların hüquqları, demokratiya qorunsun, hüquqi dövlətçilik qorunsun. Biz belə düşünürük ki, demokratiyanın ayrılmaz bir hissəsi canlı mülki cəmiyyətdir. Çünki canlı mülki cəmiyyətdən hər bir cəmiyyət ancaq faydalana bilər.

Hörmətli xanımlar və cənablar, bu çətin dövrdə belə müsbət bir danışığın aparılmasından məmnunluq duydum. Biz cənab Prezidentlə belə qərara gəldik ki, sıx əlaqədə qalaq və əməkdaşlığımızı davam etdirək. Cənab Prezident buyurun.

Sonra **Azərbaycan Prezidenti** mətbuata bəyanatla çıxış etdi:

– Təşəkkür edirəm, hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Kansler, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Səfər zamanı apardığımız danışıqlar bir daha onu göstərir ki, Almaniya-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Siyasi dialoq müntəzəm olaraq aparılır və əminəm ki, mənim səfərim bizim ikitərəfli münasibətlərimizə çox böyük töhfə verəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bir çox məsələlər bu gün müzakirə olundu, o cümlədən Avropa İttifaqı-Azərbaycan əlaqələri. Bu





istiqamətdə çox önəmli addımlar atılır. Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır.

Biz Avropa məkanına qaz ixracatımızı artırırıq. 2021-ci ildə əgər Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm təqribən, 12 milyard kubmetrə çatacaq. Bu, bizim ümumi ixracatımızın yarısı deməkdir, gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik.

Dünən mənim 30-a yaxın almaniyalı iş adamı ilə görüşüm olmuşdur. İki saata yaxın davam edən bu görüşdə Azərbaycana, Azərbaycan iqtisadiyyatına, imkanlara Almaniya biznesi tərəfindən böyük diqqətin şahidi oldum. O cümlədən bərpaolunan enerji növlərinin birgə işlənməsi və istismarı istiqamətində çox gözəl imkanlar var, bu barədə də bu gün biz fikir mübadiləsi apardıq. Azərbaycanın çox geniş bərpaolunan enerji potensialı var. Təkcə Xəzər dənizinin külək enerji potensialı 157 qiqavata bərabərdir və artıq bir neçə kontrakt imzalanıb. Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini də ixrac edən ölkəyə çevriləcəkdir.

Bütövlükdə biznes imkanları çox genişdir. Mən almaniyalı iş adamlarını Azərbaycana dəvət etdim ki, onlar gəlsinlər və bizim müvafiq qurumlarla təmaslar əsnasında gələcək biznes imkanlarını yaxından incələsinlər.

Cənab Kanslerin dediyi kimi, biz, eyni zamanda, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Ermənistan-Azərbaycan normallaşma prosesi ilə bağlı mən Azərbaycanın mövqeyini bildirdim. İstəyirəm ki, Almaniyanın mətbuat nümayəndələri bilsinlər ki, Azərbaycan 30 ilə yaxın erməni işğalına məruz qalmışdır. Bu işğal və etnik təmizləmə nəticəsində torpaqlarımızın 20 faizə yaxını işğal altına düşdü və bir milyon azərbaycanlı Ermənistan tərəfindən öz doğma torpaqlarından qovulmuşdur və qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Biz iki il yarım bundan əvvəl Vətən müharibəsi nəticəsində öz ləyaqətimizi, ərazi bütövlüyümüzü, hüquqlarımızı döyüş meydanında bərpa etdik, Ermənistanı məğlub etdik və məcbur etdik ki, Ermənistan bizim torpaqlarımızdan çıxsın. Beləliklə, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışmalı olmuşdur.

Onu da bildirməliyəm, əfsuslar olsun ki, vaxtilə Qarabağı Ermənistan kimi tanıyan Ermənistan rəhbərliyi sülh şansını itirmişdir. 2019-cu ildə Ermənistanın bugünkü baş naziri demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə" və bu, faktiki olaraq sülh danışıqlarına vurulan ən böyük zərbə idi. 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsi. Biz bu nida işarəsini 2020-ci il noyabrın 8-də Şuşada qoyduq.

İndi isə sülhün zamanı çatıbdır. Biz Ermənistana sülh təklif etmişik, 5 prinsip əsasında sülh müqaviləsini təklif etmişik. Ümid edirəm ki, Ermənistan bu şansı qaçırmayacaq, nəhayət, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlayacaqdır. Təşəkkür edirəm.

Daha sonra mətbuat nümayəndələrinin sualları cavablandırıldı.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri martın 14-də başa çatmış, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq "Willy Brandt" aeroportunda Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

# Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək üçün martın 15-də Türkiyəyə səfər edib. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Prezident İlham Əliyevi rəsmi şəxslər qarşılamışlar.

***

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.







Ankaradakı Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayaraq, Dövlət başçıları birgə foto çəkdirmişlər.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün məhz Türkiyədə keçirilməsi təşəbbüsünün Azərbaycan Prezidentinə aid olduğunu deyən Türkiyə dövlətinin başçısı bu təşəbbüsə görə təşəkkürünü bildirmişdir.

Türk Dövlətləri Təşkilatının bu formatda keçirilən sammitlərinin əhəmiyyəti qeyd edilmiş, Zirvə görüşünün Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması mövzusuna həsr olunmasının önəmi vurğulanmışdır.

Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra ölkəmizin göstərdiyi qardaşlıq dəstəyini və nümayiş etdirdiyi həmrəyliyi bir daha minnətdarlıqla xatırlatmışdır. Türkiyə Prezidenti Azərbaycandan olan xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində səylərini, həmçinin təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün ölkəmizin humanitar yardımlarını qeyd etmişdir.

Zəlzələ ilə bağlı bir daha başsağlığını çatdıran Prezident İlham Əliyev təbii fəlakətin Azərbaycan xalqını dərindən sarsıtdığını demişdir.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun

olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq, siyasi, iqtisadi, ticarət, enerji, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və regional məsələlər müzakirə olunmuşdur.

Həmçinin söhbət zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılmışdır.

***






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. Dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayaraq, birgə foto çəkilmişdir.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək dedi: "Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən Can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm".

Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunacağını vurğulayan Rəcəb Tayyib Ərdoğan bu baxımdan Türk İnvestisiya Fondunun yaradılmasına dair qərarı xüsusi qeyd etdi. Dövlət başçısı bu Fondun üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyini bildirdi.

Xəzər hövzəsində Türk dünyası ölkələri ilə neft, təbii qaz və elektrik enerjisi sahələrində irimiqyaslı layihələrin birlikdə uğurla həyata keçirildiyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan dedi: "Bakı-Tbilisi-Ceyhan boru kəməri 16 ildir Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırır. Onurğa sütununu TANAP-ın təşkil etdiyi Cənub Qaz Dəhlizi sayəsində Türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar".

Türk Dövlətləri Təşkilatına sədrlik edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkiyədə baş vermiş zəlzələnin bütün Türk dünyasını dərindən sarsıtdığını vurğuladı. Şavkat Mirziyoyev Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə görülən ehtiyat tədbirləri, zəlzələdən zərər çəkənlər üçün yüz minlərlə yeni evin tikilməsi, infrastrukturun qurulması ilə bağlı proqram və layihələrin əhəmiyyətini qeyd etdi. Bildirdi ki, zəlzələdən dərhal sonra görülən tədbirlər nəticəsində bir çox insanın həyatı xilas edilib.

Özbəkistan Prezidenti zəlzələ nəticəsində həlak olanların xatirəsini anmaq üçün hər il fevralın 6-sının Türk Dövlətləri Təşkilatı çərçivəsində "Həyatını



itirənlərin anım və birlik, bərabərlik və həmrəylik günü" elan olunmasını təklif etdi.

Son illərdə qlobal iqlim dəyişikliyi nəticəsində dağıdıcı hadisələrin sayının və miqyasının artdığını vurğulayan Prezident Şavkat Mirziyoyev belə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında TDT-nin sistemli əməkdaşlıq platformasının, mülki müdafiə sisteminin yaradılmasının, qabaqcıl dünya təcrübəsinin tətbiqinin, ictimai məlumatlılığın artırılmasının, sıx əməkdaşlıq və dəstək mexanizmlərinin formalaşdırılmasının vacibliyini bildirdi. Dövlət başçısı Təşkilat çərçivəsində Təbii Fəlakətlərin Monitorinqi və Təhlili Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürdü.

Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olundu.

Təbii fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxışında Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun TDT-nin növbəti toplantısında iştirakında ölkəsinin bu Təşkilata üzv dövlət kimi qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi. Ankara Zirvə görüşünün mövzusunun tarixi əhəmiyyətə malik olduğunu qeyd edən Qurbanqulu Berdiməhəmmədov Türk dövlətlərinin bir-birinə hərtərəfli dost və qardaş dəstəyi verməsinin, belə ağır günlərdə bir olmasının vacibliyini vurğuladı.

Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olmuşdur. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır.

Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq.

Dövlətimizin başçısı **İlham Əliyev** Fövqəladə Zirvə görüşündə çıxış etdi:

– Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları, əziz dostlar.

Qardaş Türkiyədə çoxsaylı insanın tələfatına və xəsarət almasına səbəb olan güclü zəlzələnin fəsadları bizi olduqca kədərləndirib. Bu dağıdıcı zəlzələ on minlərlə insanın həyatına son qoyub. Əziz qardaşım, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına Azərbaycan xalqı adından bir daha dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.



Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır.



Təbii sərvətlərimiz talanıb, ətraf mühitə ciddi zərər vurulub.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib. Torpaqlarımız azad edildikdən sonra bir neçə yerdə kütləvi məzarlıq aşkar etmişik. Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya ağır yaralanmışdır.

2022-ci ildə Praqa və Soçidə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmamışdır. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır.

Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır.

Beləliklə, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatı kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır.

2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq.

Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misligörünməmiş bir yenidənqurma modelidir.

Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq.

Yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi.

Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir.

2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun Türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir. Əminəm ki, əziz qardaşım bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcəkdir.

Əziz dostlar, 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimiz, tarixi və dini abidələr, qəbiristanlıqlar Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılmışdır. Yerlə-yeksan edilən Ağdam şəhərini xarici ekspertlər "Qafqazın Hirosiması" adlandırırlar. Qarabağ və Şərqi Zəngəzurda 67 məsciddən 65-i ermənilər tərəfindən dağıdılıb, qalan ikisindən isə donuz və inək tövləsi kimi istifadə edilib.

və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bu yaxınlarda Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılmışdır.

Hörmətli həmkarlar, Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır.

Tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olmuşdur. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni, Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir.

Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıqlı prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir.

Diqqətə görə təşəkkür edirəm.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxışında zəlzələ ilə əlaqədar türk xalqının yaşadığı ağrı-acının bütün Türk dövlətləri tərəfindən paylaşıldığını bildirdi, ölkəsinin qardaş Türkiyəyə hər zaman yardım göstərməyə hazır olduğunu qeyd etdi.

Türk dövlətlərinin bu vacib zamanda mükəmməl birlik və həmrəylik nümayiş etdirdiyini vurğulayan Qazaxıstan Prezidenti qardaşlığın, qarşılıqlı dəstəyin davamlı olmasını arzuladı. O, türk xalqının qarşılaşdığı hər çətinlikdən daha güclü formada çıxdığını qeyd etdi, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bu dəfə də belə olacağına əminliyini vurğuladı.

Qırğızıstan Prezidenti Sadır Japarov çıxışında bu Zirvə görüşünün təbii fəlakətdən sonra keçirildiyini diqqətə çatdırdı, qırğız xalqı ilə türk xalqı arasında qədim tarixə əlaqələrin bundan sonra da davam edəcəyini bildirdi. Qırğızıstanın Təşkilatın üzvləri arasında davamlı toplantıların keçirilməsinə böyük önəm verdiyini deyən Sadır Japarov bu mənada üzv dövlətlər arasında siyasi dialoqun əhəmiyyətini vurğuladı. Çoxtərəfli əməkdaşlığın Qırğızıstan üçün çox mühüm olduğunu diqqətə çatdıran Prezident Sadır Japarov ölkələrimiz arasında strateji tərəfdaşlığı dəstəklədiyi və daha da inkişaf etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Qırğızıstan Prezidenti bugünkü Zirvə görüşünün mövzusunun fəlakət-fövqəladə halların idarə edilməsi və humanitar yardım kimi məsələlərin Təşkilata üzv dövlətlərdən birgə fəaliyyət, sıx əməkdaşlıq tələb etdiyini diqqətə çatdırdı.

Seçkilərdə Türkiyə Prezidentinə uğurlar arzulayan Sadır Japarov məhz Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə reallaşdırılan islahatların türk xalqını yeni-yeni uğurlara çatdıracağına əminliyini bildirdi.

Macarıstanın Baş naziri Viktor Orban Türkiyədə baş verən zəlzələnin dəhşətli olduğunu bildirdi, yenidənqurma işlərində bu ölkəyə dəstək verməkdən şərəf duyacaqlarını dedi. Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə sürətli inkişafının şahidi olduğunu vurğulayan Baş nazir qarşıdakı müddətdə bunun davam edəcəyinə inamını ifadə etdi. Bu gün dünyanın üzləşdiyi münaqişələrə toxunan Baş nazir Türk Dövlətləri Təşkilatının üzv ölkələrinə güclü sülh səylərinə görə təşəkkürünü bildirdi. Qlobal iqtisadiyyatda cərəyan edən hadisələr nəticəsində müxtəlif blokların yaranmasının Macarıstanın maraqlarına uyğun olmadığını söyləyən Viktor Orban bütün ölkələr arasında əlaqələrin qurulmasının tərəfdarı olduqlarını vurğulayaraq dedi: “Türk dünyası, Türk dövlətlərinin bu mənada Qafqaz və Mərkəzi Asiyadakı ölkələr olaraq açar rol oynayacaqlarını düşünürəm. Münasibətlərimizi qarşılıqlı hörmət çərçivəsində davam etdirərək bütün dünyaya örnək ola bilərik. Bu məqsədlə Macarıstan olaraq enerji, ticarət, eyni zamanda, daşıma sahələrində birgə səyləri gücləndirməyə töhfə vermək niyyətindəyik”.

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar tədbirə dəvətə və bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Türkiyə və Azərbaycan prezidentlərinə minnətdarlığını bildirərək dedi: “Məni buraya dəvət etdiyi üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana çox təşəkkür edirəm. Azərbaycan Prezidenti İlham Əliyevə bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə dərin minnətdarlığımı bildirirəm”.

Prezident Ersin Tatar güclü və böyük Türkiyə dövlətinin zəlzələnin fəsadlarını ən qısa vaxtda aradan qaldıracağına əminliyini bildirərək, belə hadisələr zamanı dost, qardaş ölkələrimiz arasında həmrəyliyin və birliyin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Sonra Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri və qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini Binəli Yıldırım, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev çıxış etdilər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını edərək dedi: "Qardaşlığın təzahürü olan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə İlham qardaşıma və onun şəxsində Can Azərbaycana bir daha təşəkkürümü bildirirəm".

Prezident Ərdoğan Türk Dövlətləri Təşkilatının hazırkı sədri Özbəkistana da minnətdarlığını bildirdi.

Zirvə görüşünə yekun vuran Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdə qəbul olunan qərarların ölkələrimiz arasında əməkdaşlığın inkişafına yeni töhfələr verəcəyinə əminliyini bildirdi.

Sonda Ankara Bəyannaməsi və mülki müdafiə mexanizminin qurulmasına dair Protokol imzalandı.

Qeyd edək ki, bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

"Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platformadır. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkib, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar.

***

Martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının birgə naharında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri başa çatmışdır.

Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan qəsəbəsi və Talış kəndində görülən işlərlə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonuna səfər ediblər.



Dövlətimizin başçısı əvvəlcə Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə məlumat vermişdir.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan və 4 yaşayış məntəqəsini birləşdirən yeni avtomobil yolunun uzunluğu 22 kilometrdir. Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası yeni avtomobil yolunun eni 19 kilometrlik hissədə 9 metr, 3 kilometrlik hissədə isə 6 metr təşkil edir.

Bu yolun inşası layihəsi çərçivəsində İncəçay üzərində uzunluğu 84 metr olan avtomobil körpüsü tikilib. Üçaşırımlı körpünün eni 14,5 metrdir. Körpü 9 bal seysmiklik nəzərə alınmaqla inşa edilib.

Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Layihə üzrə yolboyu avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb.

Qeyd edək ki, Tərtər rayonunun işğaldan azad edilmiş Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Yeni yol, həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.



Prezident İlham Əliyevə Tərtər rayonunun Talış kəndinin daxili yollarının tikintisi layihəsi barədə də məlumat verildi. Bildirildi ki, kənddaxili yolların ümumi uzunluğu 4,2 kilometrdir.

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində yaradılan şəraitlə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edək ki, 2022-ci il martın 20-də dövlətimizin başçısı və birinci xanım Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında olmuş, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışdılar. Prezident İlham Əliyev məktəb binasının əsaslı təmirinə başlanılması və işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıqlar vermişdi.







Diqqətə çatdırıldı ki, ərazisi bir hektar olan məktəbdə 12 sinif otağı var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin informatika kabineti, kitabxana, iki laboratoriya, 72 nəfərlik akt zalı və yeməkxana var. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol və açıq oyun meydançaları yaradılıb.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

Sənəddə qeyd edilib ki, Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur.

***

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan qəsəbəsində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.



Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına məhəllə barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla ümumilikdə 190 mənzil inşa ediləcək.



sonunadək başa çatdırılması nəzərdə tutulur.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonunun Talış kəndində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Talış kəndində Xatirə daşına baxış keçirdilər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 3-də bu strateji ərazini düşməndən azad edib. Talış kəndində yüksək nöqtələrdən birində bu ərazinin işğaldan azad olunduğu gün Müzəffər Ali Baş Komandan tərəfindən paylaşılan tvitin mətninin həkk olunduğu Xatirə daşı yerləşdirilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma Talış kəndinin Baş planı əsasında görülən işlər barədə məlumat verdi.

Məhəllədə, həmçinin futbol, idman və uşaq meydançaları, transformator yarımstansiyası və digər zəruri infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Burada, həmçinin geniş yaşıllıq zolaqları da salınacaq.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoydu.

***

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmiri, su anbarı boyunca yaradılan turizm infrastruktur obyektlərinin tikintisi ilə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Birinci Dövlət Proqramı çərçivəsində əsas infrastruktur obyektlərinin təmir-bərpa və yenidənqurma layihələri çərçivəsində Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmirinə başlanılıb. Hazırda su anbarının divarlarına beton örtüyün vurulması, oradakı bütün avadanlıqların əsaslı təmiri həyata keçirilir, magistral kanalda zəruri işlər görülür. Eyni zamanda, Suqovuşan su anbarı boyunca ilkin turizm infrastruktur obyektlərinin yaradılmasına başlanılıb. Burada Turizm İnformasiya Bürosu inşa olunur, sahilboyu park salınır, avtodayanacaq tikilir.

Qeyd edildi ki, Qarabağ iqtisadi rayonunda “Xaçınçay”, “Köndələnçay-1”, “Köndələnçay-2”, “Köndələnçay-3” su anbarlarında paralel olaraq aparılan bərpa, əsaslı təmir və yenidənqurma işlərinin bu ilin



Xatırladaq ki, dövlətimizin başçısı 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. İşğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılıb, yeni evlər inşa olunub, zəruri infrastruktur yaradılıb. Kənddə aparılan təmir-bərpa işlərinin birinci mərhələsi çərçivəsində Bayraq meydanında abadlıq işləri görülüb. Talış kəndinin yüksək nöqtələrindən birində sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət guşəsi və seyr meydanı tikilib.







Görülən işlər çərçivəsində 10 qeyri-yaşayış və ictimai iaşə obyekti də bərpa olunub və tamamilə yenidən qurulub. Bu obyektlərin ərazisində abadlıq işləri görülüb. Bunlardan biri də inzibati binadır.

Dövlətimizin başçısı və birinci xanım inzibati binada yaradılan şəraitlə tanış oldular.

Mövcud ikimərtəbəli inzibati bina əsaslı təmir edilib, dam örtüyü sökülərək yenidən qurulub. İnzibati binanın qarşısındakı ərazidə kənd meydanının bərpası həyata keçirilib və burada geniş yaşıllaşdırma işləri aparılıb. Binanın bütün kommunikasiya sistemləri yenidən qurulub. İnzibati bina yanğın siqnalizasiya, rabitə və videomüşahidə sistemləri ilə təchiz edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Talış kəndindəki uşaq bağçasında yaradılan şəraitlə də tanış oldular. Uşaq bağçasının birmərtəbəli binası da əsaslı təmir edilib. Bütün kommunikasiya sistemləri yenidən qurulub və bina yanğın siqnalizasiya, rabitə, videomüşahidə və fövqəladə hal xəbərverici sistemləri ilə təchiz edilib. Binanın daxili hissəsi bütün lazımi texniki xidmət avadanlığı ilə təchiz olunub. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub. Bir sözlə, burada balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.



Talış kəndindəki 78 şagird yerlik məktəb binası ilə tanışlıq zamanı məlumat verildi ki, ikimərtəbəli binanın da bərpası və yenidən qurulması həyata keçirilib. Dam örtüyü tamamilə yenilənib, kommunikasiya sistemləri yenidən qurulub. Bina yanğın siqnalizasiya, rabitə, zəng, videomüşahidə sistemləri ilə

təchiz edilib. Təhsil ocağının binasının birinci və ikinci mərtəbələrində sinif, tibb və müəllimlər otaqları, mansardda isə akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol və idman meydançaları yaradılıb.



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Talış kəndində Novruz tonqalını alovlandırdılar.

Sonra dövlətimizin başçısı Azərbaycan xalqını bayram münasibətilə təbrik etdi:

– Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Üçüncü dəfədir ki, Azərbaycan xalqına Novruz təbriklərimi doğma Qarabağ diyarından deyirəm. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman şəhidlərimizin əziz xatirəsini bu gün biz hörmətlə yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman Azərbaycan hərbçilərini buradan səmimiyyətlə salamlayıram. Onların canı-qanı bahasına biz doğma torpaqlarımıza qayıtmışıq.



İkinci Qarabağ müharibəsi dövründə bütün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bütün Azərbaycan xalqını bir daha salamlayıram. Bütün Azərbaycan xalqına yeni-yeni uğurlar, yeni qələbələr arzulayıram!

Otuz ilə yaxın müddət ərzində torpaqlarımız işğal altında idi. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti aparırdı. Yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmış, qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı soyqırımı törədilmişdir, ədalətsizlik törədilmişdir, hərbi cinayətlər törədilmişdir. Biz bunu heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmamalıyıq.

Biz otuz il ərzində işğalla bağlı bütün beynəlxalq təşkilatlarda öz haqq səsimizi ucaltmışdıq. Ancaq əfsuslar olsun ki, bizim sözümüzə reaksiya verən qurum tapılmadı. Əksinə, Qarabağ münaqişəsi ilə məşğul olmuş vasitəçilər məsələni həll etməyə yox, dondurmaq üçün səylər göstərirdi. İndi İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində əldə edilmiş yeni məlumatlar bunu bir daha təsdiqləyir.

Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. Qırx dörd gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Qırx dörd gün ərzində Azərbaycan xalqı ordumuzun arxasında dayaq kimi, yumruq kimi birləşdi. Biz işğal edilmiş torpaqları qan tökərək azad etdik.

Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki, dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır. Biz Ermənistan rəhbərliyini bu çirkin əməllərdən çəkindirmək üçün xəbərdar edirik. Ermənistanın




arxasında dayanan bəzi ölkələri də bax, buradan – azad edilmiş Talış kəndindən xəbərdar edirik ki, əl çəkin bu çirkin əməllərdən. Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz.

Otuz il ərzində Ermənistan və onun havadarları, onun arxasında duran müttəfiqləri bizi haqq işimizdən çəkindirmək üçün müxtəlif imkanlardan, müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar, bizi mənasız danışıqlarla yormaq istəyirdilər, bizi işğalla barışdırmaq istəyirdilər.

İşğal dövründə Ermənistanla əməkdaşlığa başlamaq üçün nə qədər səylər göstərilmişdir. Azərbaycan xalqı və Azərbaycan dövləti güclü iradə göstərərək bütün bu cəhdləri dəf etmişdir. Çünki bizim işimiz haqq işidir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz müharibə yolu ilə öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Görün, Ermənistan rəhbərliyi nə qədər azğınlaşmışdır ki, "Qarabağ Ermənistandır və nöqtə" sözlərini deyərək, Azərbaycan xalqının haqlı hüququnu əlimizdən almaq istəyirdi. Əfsuslar olsun ki, Ermənistanın arxasında dayanan qüvvələr, o cümlədən ovaxtkı Minsk qrupuna həmsədrlik edən ölkələr bu bəyanata heç bir reaksiya verməmişdilər. İndi Azərbaycan öz doğma torpaqlarını azad edəndən sonra görün, bizə qarşı nə qədər ədalətsiz addımlar atılır, nə qədər çirkin əməllər törədilir. Erməni havadarları, Ermənistanın işğalçılıq siyasətinə şərik olan ölkələr bizə qarşı informasiya müharibəsi elan ediblər. Bəzi ölkələrdə Azərbaycanın daxili işləri ilə bağlı hansısa konfranslar, simpoziumlar təşkil edirlər. Bəzi ermənipərəst ölkələr dünya xəritəsində olmayan, Azərbaycanın ərazisində mövcud olmayan dırnaqarası "Dağlıq Qarabağın müstəqilliyini" tanıyırlar. Bu, nə deməkdir? O deməkdir ki, işğal dövründə bütün bu qüvvələrin yeganə amalı bu işğalı əbədiləşdirmək idi. Bu münaqişəni həll etmək yox, dondurmaq idi.

İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı nə qədər təzyiqlər oldu, Ermənistana nə qədər yardımlar göndərildi. Hər gün silahlarla dolu bir neçə yük təyyarəsi göndərilirdi, xarici ölkələrdən muzdlular göndərilirdi. Ermənistanın müttəfiqləri bizi müxtəlif yollarla dayandırmağa çalışırdılar. Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək.

"Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərliyi bu gün görün nə deyir. Bu gün deyir ki, bizə imkan verin 29 min kvadratkilometr ərazidə biz yaşayaq. Bunu işğal dövründə niyə demirdi? İşğal dövründə nə üçün bizim işğal edilmiş bütün torpaqları dırnaqarası "Dağlıq Qarabağ respublikası" adı altında birləşdirməyə cəhd göstərmişdilər, kitablar dərc edilirdi. Bu çirkin əməllərə, bu qanunsuz əməllərə göz yuman beynəlxalq təşkilatlar, bəzi ermənipərəst ölkələr nə üçün o vaxt Ermənistana irad tutmurdular? Biz nə qədər ikili standartlarla üzləşməliyik? Biz nə qədər riyakarlıqla üzləşməliyik?

İndi biz öz torpağımızı, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərini güc tətbiq edərək azad etmişik, BMT Nizamnaməsinə uyğun şəkildə öz ərazi bütövlüyümüzü təmin etmişik, düşməni qovmuşuq, Ermənistan ordusunu məhv etmişik, diz çökdürmüşük. Bu, bizim haqlı vəzifəmizdir. Bu gün biz qurub-yaradırıq. O cümlədən burada, Talış kəndində, Suqovuşan qəsəbəsində, Hadrutda, Şuşada, bütün başqa azad edilmiş torpaqlarda qurub-yaradırıq. Ermənistan bu əraziləri viran qoyub, talan edib. Otuz il ərzində daşları bir-bir söküb həm Ermənistanda, həm də ki, Ermənistanın qonşu ölkəsində bazarlarda satdırıb. Biz isə qurub-yaradırıq.

Görün, Talış kəndinin yenidən qurulmasına başlanmasından hələ bir il keçməyib. Artıq Talış kəndinə 20 ailə qayıdıbdır və 180-ə yaxın ailə qayıdacaqdır. Bu gündən bir il keçmədən Talış kəndində 180-ə yaxın ailə yaşayacaq. Bu ailələr üçün bütün imkanlar yaradılıb. İndi hər kəs görə bilər nə gözəl evlər, məktəb, uşaq bağçası, ictimai binalar tikilib,

məşğulluq üçün şərait yaradılıb. Biz qurub-yaradan xalqıq. Ermənistandan fərqli olaraq, biz öz ərazimizdə qurub-yaradırıq.

Bu gün "Qarabağ Ermənistandır və nöqtə" deyən, bizi yeni müharibə ilə hədələyən Ermənistan bilmir hansı qanadın altında özünə yeni himayədar tapsın. Bütün dünyaya öz satqınlığını, nankorluğunu bir daha göstərir. İndi özü üçün yeni ağa axtarışındadır. Bilmir kimin ayağının altına yıxılsın. Bunun heç bir xeyri olmayacaq. Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, - hansı ki, indi onlar ancaq bunu istəyirlər, - rahat yaşaya bilərlər. Əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var. Müharibə dövründə və müharibədən sonrakı dövrdə biz bunu nümayiş etdirmişik.





Talış kəndi 2020-ci il oktyabrın 3-də azad edilmişdir. İkinci Qarabağ müharibəsi başlayandan bir həftə sonra qan tökərək biz artıq Talış kəndini azad etdik, eyni zamanda, Suqovuşan qəsəbəsini azad etdik.

İkinci Qarabağ müharibəsi dövründə o hərbi əməliyyatın çox böyük əhəmiyyəti var idi. Çünki biz öz azadlıq savaşımızı müxtəlif istiqamətlərdə aparırdıq, o cümlədən bu istiqamətdə. Ona görə bu istiqamətdə əldə edilmiş uğurlar müharibənin gələcək gedişatı üçün çox böyük önəm daşıyırdı, eyni zamanda, ordumuzun və xalqımızın mənəvi ruhunu da yüksəldirdi. Çünki Talış kəndinin strateji əhəmiyyəti hər kəsə bəlli idi.

Biz 44 gün ərzində ancaq irəli gedirdik, bir gün belə geri addım atmadıq. Biz 44 gün ərzində döyüş meydanında Azərbaycan xalqının gücünü və yüksək mənəvi keyfiyyətlərini göstərmişdik. Bir nəfər də olsun bizim ordumuzdan qaçan olmamışdır. Ermənistan ordusunda son məlumata görə 10 min yox, 11 min fərari olmuşdur. Bunu onlar yaddan çıxarmasınlar və yaddan çıxarsalar, biz onların yadına salacağıq. İkinci Qarabağ müharibəsinin nəticələrini heç kim yaddan çıxarmasın. Yeni reallıqları hər kəs qəbul etməlidir. Bizim torpaqlarımızın 30 il ərzində işğal altında olmasını heç kim yaddan çıxarmamalıdır və gələcək sülh müqaviləsi üçün bu önəmli amillər hər kəsin beynində olmalıdır. Çünki biz bəzi hallarda görürük, sanki heç müharibə olmayıb, sanki işğal olmayıb, sanki Ağdamı "Qafqazın Xirosimasına" döndərən olmayıb. Bunu unutmaq və bizə unutdurmaq istəyirlər. Bu, heç vaxt olmayacaq. İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə, heç bir

sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!

Biz bu gün doğma Qarabağ torpağında, doğma Zəngəzur torpağında dayanmışıq və burada əbədi yaşayacağıq. Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır. Bizim hər birimiz, xaricdə yaşayan azərbaycanlılar da daxil olmaq şərtilə iki il yarım müddət ərzində qürur hissi ilə yaşayırıq. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik. Necə ki, Vətən müharibəsində 44 gün ərzində irəliyə getmişiksə, müharibə başa çatandan sonra bütün sahələr, bütün istiqamətlər üzrə irəliyə gedirik və gedəcəyik.

Mən əziz xalqımı qarşıdan gələn Novruz bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm, bir daha çıxışımı məşhur olan sözlərlə tamamlamaq istəyirəm: “Qarabağ Azərbaycandır!”.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Klub icma mərkəzində yaradılan şəraitlə maraqlandılar.

edilib və yenidən qurulub. Evlərin daxili hissələri və fasadı əsaslı təmir edilib, dam örtükləri tamamilə sökülərək yenilənib. Daxili və xarici divarlarda konstruktiv möhkəmləndirmə işləri yerinə yetirilib. Hər evin həyətyanı ərazisində əsaslı landşaft işləri görülüb, fərdi əkin sahələri yaradılıb və təsərrüfat anbarları inşa edilib. Bütün evlərin mövcud hasarları sökülüb, əvəzində yeni hasarlar tikilib. Evlərin daxili kommunikasiya xətləri yenidən qurulub.

Bildirildi ki, Böyük Qayıdış Proqramı çərçivəsində martın 16-da Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 20 ailə köçürülüb. İlk mərhələdə Talış kəndində məskunlaşdırılan 20 ailə arasında şəffaflıq və ədalətlilik prinsipləri əsasında ev bölgüsü aparılması məqsədilə püşkatma keçirilib. Püşkatma nəticəsində ailələrin hər birinə veriləcək evin ünvanı müəyyənləşdirilib. Onlardan 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlı fərdi evlə təmin olunub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Arzu Əliyeva kənd sakini Əyyub Əkbərovun evində yaradılan şəraitlə də tanış oldular.



Dövlətimizin başçısı və birinci xanım Talış kəndində fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış oldular.

Məlumat verildi ki, birinci mərhələdə 20 ev bərpa

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Arzu Əliyeva kənd sakinləri ilə görüşüb söhbət etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.


Biz bu gün doğma Qarabağ torpağında,
doğma Zəngəzur torpağında dayanmışıq və
burada əbədi yaşayacağıq. Azərbaycan
xalqı haqlı olaraq qürur hissi ilə yaşayır.
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib



11 yanvar 2023-cü ildə Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilmişdir.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar ilk öncə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, dünyanın ən böyük azərbaycanlısı Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül qoymuşlar. Bundan sonra şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etmişlər.



Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi Ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa arzulanmışdır.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bu ilki müsabiqənin nəticələrinə əsasən uğur qazanmış gənclərin andiçmə mərasiminin çox əlamətdar ildə - müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə təsadüf etməsini xüsusi qeyd etmişdir. Həmçinin hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin fədakar xidmətləri nəticəsində respublikamızda həyata keçirilmiş genişmiqyaslı proqramların müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək müstəqilliyimizin təmin olunması




üçün zəmin hazırlaması, SSRİ-nin süqutundan sonra müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəifldilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələnməsi barədə məlumat verilmiş, ölkənin belə bir ağır dövründə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu yeni siyasi kursun vətəndaş müharibəsi təhlükəsini aradan qaldırması və separatçılıq meyillərinə son qoymaqla, hərtərəfli dövlət quruculuğu prosesinin gerçəkləşməsinə



gətirib çıxarması tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Ulu Öndərin siyasi kursunun və ideyalarının layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkəmizin hərtərəfli və dayanıqlı inkişafı istiqamətində atılan addımlar böyük əzm və qətiyyətlə davam etdirilərək möhtəşəm uğurlara nail olunmasının, tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan, milli ləyaqət hissini bərpa edən böyük Zəfərin regionumuzda yeni geosiyasi reallıqlar yaratmaqla, Ölkə başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən misli görünməmiş sürətli bərpa-quruculuq işləri nəticəsində Qarabağ və Şərqi Zəngəzura əzəli-əbədi sakinlərinin Qayıdışın reallaşmasının əhəmiyyəti qeyd edilmişdir.

Tədbirdə torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçılarının Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunması, bu baxımdan Ölkə başçısının və birinci xanım Mehriban Əliyevanın Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirakları, şəhid ailələri ilə görüşləri, eləcə də onların maddi-sosial problemlərinin aradan qaldırılması və təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fondunun həyata keçirdiyi tədbirlərin mühüm əhəmiyyətə malik olması xüsusi vurğulanmışdır.

Bildirilmişdir ki, müstəqil dövlətimizdə vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq, savadlı gənclik formalaşmışdır. Bu gün şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə prokurorluq orqanlarında işləmək hüququ əldə etmiş gənclərin qazandığı uğurlar məhz Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan dövlət gənclər siyasəti nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbul olunmuş hüquqşünasların Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun əhəmiyyətli hissəsini təşkil etməsi, onların tutduqları vəzifələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə

irəli çəkilməsi ölkə həyatının bütün sahələrində gənclərin daha mühüm vəzifələrə təyin edilməsi barədə Prezident İlham Əliyevin göstərişlərinin icrasının nəticələridir.

Bildirilmişdir ki, prokurorluq orqanlarına qulluğa qəbulla bağlı 2022-ci ildə keçirilmiş 24-cü müsabiqədə namizədlərin dünyagörüşünə, məntiqi düşünmə qabiliyyətinə, xarici dil biliklərinə, prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları və prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla 57 gənc hüquqşünas qulluğa qəbul edilmişdir.






Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənc hüquqşünasların müvafiq vəzifələrə təyin edilməsi barədə Baş Prokuror tərəfindən imzalanmış əmr elan edilmiş, işə qəbul olunanlar təntənəli surətdə and içmiş və onlara xidməti vəsiqələr Baş Prokuror Kamran Əliyev tərəfindən təqdim olunmuşdur.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Xanım Əşrəfova, Pünhan Eyvazov və Vətən müharibəsi iştirakçısı Əliəkbər Babayev çıxış edərək gənc mütəxəssislərin dövlət idarəçiliyində, ictimai həyatın bütün sahələrində iştirakına verilən dəstəyə görə ölkə başısına öz minnətdarlıqlarını bildirmiş və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik etmiş, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarından əminliyini ifadə etmişdir.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.



# Yanvarın 17-də Baş prokuror Kamran Əliyev hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə görüş keçirib

Tədbiri giriş sözü ilə açan Baş prokuror xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ötən illər ərzində həyata keçirilmiş ardıcıl və sistemli məhkəmə-hüquq islahatları nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı is-







tiqamətində mühüm addımlar atıldığını vurğulamış, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradıldığını, müasir təfəkkürlü gənc və yüksək ixtisaslı kadrların irəli çəkildiyini qeyd etmişdir.

Həmçinin, Baş prokuror Dövlət başçısının «Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi



haqqında» 03 aprel 2019-cu il tarixli Fərmanı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğun yeni mərhələdə aparılmasını, hüquqların məhkəmə müdafiəsinin daha da gücləndirilməsini, cəza siyasətinin humanistləşdirilməsini, yeni Kommersiya və digər regional məhkəmələrin təsis edilməsini, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi üçün işlək mexanizmlərin yaradılmasını və digər əhəmiyyətli tədbirlərin görülməsini nəzərə çatdırmışdır.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2023-cü il tarixli Sərəncamı ilə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Vüqar Quliyev, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Neymət Məmmədov, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Abdulla Məmmədov və Mikayıl Məmmədzadə, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilmiş İlham Cəfərzadəyə Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanları təqdim edilmişdir.

Baş prokuror hakim təyin edilmiş prokurorluq işçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulamış, tədbir iştirakçıları ilə xatirələrini bölüşüb səmimi söhbətlər etmişdir.

Sonda xatirə fotoşəkli çəkilmişdir.

# Baş Prokurorluğun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər






Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



# Baş prokuror Haaqada işgüzar səfərdə olub



Yanvarın 19-21-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Niderland Krallığında işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti ölkəmizin Haaqadakı səfirliyinə gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

Daha sonra Baş prokuror Avropa İttifaqının Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyində (Avrocast) qurumun prezidenti Ladislav Hamranla görüşüb.

Nümayəndə heyətini salamlayan Avrocastın rəhbəri ilk növbədə 20 yanvar hüzn günü ilə bağlı Baş prokuror Kamran Əliyevə başsağlığını ifadə edib. Ladislav Hamran Avropa İttifaqının cinayətkarlıqla mübarizə orqanlarının, xüsusilə də Avrocastın ölkəmizin prokurorluq orqanları ilə əməkdaşlığın genişlənməsində maraqlı olduğunu qeyd edib.

Kamran Əliyev dəvətə görə təşəkkürünü bildirərək, prokurorluq orqanlarında Prezident cənab İlham Əliyevin rəhbərliyi və tövsiyələri ilə aparılan hüquqi islahatlar haqda geniş məlumat verib. Baş prokuror bildirib ki, Avrocastla əməkdaşlığın inkişafı islahatların tərkib hissəsi olan beynəlxalq əlaqələrin genişlənməsi baxımından xüsusi önəm kəsb edir. Avrocastın mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürləri ilə mübarizədə 70-dən artıq ölkə arasında körpü rolunu oynadığını nəzərə alaraq gələcəkdə bu qurumla sıx əməkdaşlığın həyata keçirilməsi haqda razılıq əldə olunub.

Səfər çərçivəsində İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) baş direktoru Ketrin Bomberger ilə görüş keçirilib. Səmərəli diskussiya formatında keçirilmiş görüşdə Kamran Əliyev 1-ci Qarabağ, həmçinin Vətən müharibəsi zamanı 3896 nəfər azərbaycanlının itkin düşdüyünü, onların bir







çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək kütləvi məzarlıqlarda basdırıldığını bildirib. Baş prokuror Ermənistan tərəfindən bu məsələdə qeyri konstruktiv mövqe sərgilədiyini vurğulayaraq ötən müddət ərzində az sayda qalıqların təhvil verildiyini qeyd edib. İCMP-nin qalıqların şəxsiyyətlərinin müəyyən edilməsinə qabaqcıl təcrübəsini nəzərə alaraq bu sahədə əməkdaşlığın vacibliyi vurğulanıb. Daha sonra Komissiyanın laboratoriyalarına baxış keçirilib, ölkəmizin prokuror-kriminalistləri üçün tədris səfərinin təşkil olunması müzakirə edilib.

Baş prokuror həmçinin Haaqa şəhərində yerləşən və ölkəmizin prokurorluq orqanları ilə uzun illər ərzində səmərəli əməkdaşlıq edən Beynəlxalq Prokurorlar Assosiasiyasının Katibliyində (BPA) görüş keçirib. Təşkilatın Baş Katibi Han Moraal, İcraçı Direktoru Yanne Holst-Hübner və Baş Müşaviri Şenaz Muzafferlə görüş zamanı






ölkəmizin Baş prokuroru, BPA-nın vitse-prezidenti Kamran Əliyevə təşkilatın fəaliyyətinə daim dəstəyə, o cümlədən ölkəmizin prokurorluq əməkdaşının Assosiasiyanın Katibliyinə ezam olunduğuna görə təşəkkür ifadə olunub.

2024-cü ilin sentyabr ayında ölkəmizin ev sahibliyi edəcəyi və bütün dünya ölkələrindən prokurorların qatılacağı Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağı ilə bağlı bir sıra təşkilati məsələlər müzakirə edilib.

Görüşlərdə ölkəmizin Niderland Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev iştirak edib.

# Münhen şəhərinin Baş prokuroru ölkəmizdə səfərdə olub







Yanvarın 25-də Baş prokuror Kamran Əliyevin dəvəti ilə Almaniyanın Münhen şəhərinin Baş prokuroru Reinhald Röttlenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları səmimi salamlayan Baş prokuror ölkələrimiz arasında tarixi köklərə söykənən əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb.

Kamran Əliyev dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, o cümlədən 2020-ci ilin iyun ayında təsdiq olunmuş yeni strukturda yer almış cinayət təqibindən kənar icraatlar və əmlakların bərpası üzrə fəaliyyət istiqamətləri barədə qonaqları məlumatlandırıb.

Səfərə dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən Reinhald Röttle ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnun olduğunu bildirib. Qonaq rəhbərlik etdiyi Bavariya vilayətinin prokurorluq orqanları ilə ölkəmizin prokurorluq orqanları arasında əlaqələrin qurulmasında maraqlı olduqlarını bildirib.

Cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, terrorçuluq və dini ekstremizmə qarşı mübarizədə ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın zəruri olduğu vurğulanıb.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı, Beynəlxalq Prokurorlar Assosiasiyası və Avrocast çərçivəsində əməkdaşlıq perspektivlərini müzakirə edib.





Görüşdə Almaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann iştirak edib.



Yanvarın 26-da Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzmüşlər. Almaniyalı prokurorlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olub, onlara Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binasında prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq və digər hüquq mühafizə orqanlarının mütəşəkkil cinayətkarlığa, dini radikalizm və terrorçuluğa qarşı mübarizədə fəaliyyəti haqda geniş məlumat verilib.











Həmçinin, nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi, Bakı şəhər prokurorluğunun mərkəzi aparatı və Xətai rayon prokurorluğu, habelə 7 saylı ASAN Xidmətin fəaliyyəti ilə tanış olub.

# Baş Prokurorluqda 2022-ci ildə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Yanvarın 27-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2022-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilmişdir.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Kollegiya iclasında ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa dilənmişdir.

İclasda giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev qeyd etmişdir ki, Azərbaycan xalqının və dövlətinin taleyində müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin siyasi varisi, müzəffər sərkərdə, yeni dövrün yeni lideri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə qüdrətli dövlət, sosialyönümlü iqtisadiyyat və yüksək rifah cəmiyyəti konsepsiyasının inamla reallaşdırılması Şərqlə Qərbin qovşağı olan Azərbaycanın regional siyasi və iqtisadi gücə çevrilməsini təmin etmişdir.

Xüsusi vurğulanmışdır ki, ölkə başçısının rəhbərliyi ilə sürətli və hərtərəfli yüksəliş dövrünə qədəm qoyan Azərbaycan dövləti və cəmiyyəti tarixinin ən qüdrətli çağlarını yaşamaqla postpandemiya və postkonflikt dövründə inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, həyata keçirilən düşünülmüş sistemli islahatlar iqtisadi və siyasi sabitliyin əsaslarını daha da möhkəmləndirmişdir.

Ölkənin inkişaf strategiyasının həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli, ardıcıl və məqsədyönlü fəaliyyətinin qarşıya qoyulan bir çox hədəflərə nail olunmaqla strateji nailiyyətlərin əldə edilməsini təmin edən mühüm faktorlardan olduğu diqqətə çatdırılmışdır.

Baş prokuror Vətən müharibəsindən dərhal sonra Zəfər təntənəsini yaşayan müzəffər xalqın lideri İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşən misli görünməmiş sürətli bərpa-quruculuq işlərinin məntiqi nəticəsi olaraq “Böyük Qayıdış”ın ilk mərhələsinin uğurla icra edilməklə əzəli torpaqlara yenidən həyatın qayıtdığını qeyd etmişdir.

Bildirilmişdir ki, yola saldığımız “Şuşa İli”ndə Qarabağın mirvarisi, mədəniyyət paytaxtımızın tarixi əzəmətinin bərpası da diqqət mərkəzində saxlanılmış, Zəfər yürüşünün qalibiyyət zirvəsi olan Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı, Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı, “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı və digər beynəlxalq əhəmiyyətli tədbirlər, zəruri infrastruktur obyektlərinin inşası, genişmiqyaslı layihələrin təməlinin atılması şəhərin siyasi-mədəni ruhunun

özünə qaytarılmasında müstəsna önəm daşımışdır.

Eyni zamanda, işğaldan azad edilmiş digər ərazilərdə də dövlət başçısı və birinci xanımın birgə iştirakları ilə yeni infrastuktur obyektlərinin, xüsusilə Zəngilan Beynəlxalq Hava Limanının açılışının, sənaye parklarının, sosial-iqtisadi obyektlərin təməllərinin atılmasının, xəstəxanalar, məktəblər, yaşayış binalarının inşasının əzəli torpaqlarımızın dirçəldilməsinin təminatı olmaqla ölkəmizin gələcək onilliklər üçün dinamik tərəqqisini şərtləndirən strateji inkişaf konsepsiyasına müstəsna töhfə olduğu bildirilmişdir.




Xüsusi vurğulanmışdır ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, qazilərə və müharibə iştirakçılarına Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən qayğı və həssaslıqla yanaşılmış, onların hərtərəfli təminatı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır.

Baş prokuror ölkə başçısı tərəfindən müstəqil dövlətimizin milli mənafelərinə uyğun məharətlə həyata keçirilən balanslaşdırılmış praqmatik xarici siyasət kursunun qlobal siyasətdə Respublikamızın etibarlı tərəfdaş statusunun növbəti dəfə təsdiqlənməsi ilə nəticələndiyini bildirməklə ötən ilin iyul ayında Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun, həmçinin dekabr ayında "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasının beynəlxalq aləmlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan, Avroatlantik məkanda cərəyan edən proseslərə çevik və adekvat reaksiya nümayiş etdirən ölkəmizin mövqeyinin daha da möhkəmlənməsinə və nüfuzunun artmasına xidmət etdiyini diqqətə çatdırmışdır.

Qeyd edilmişdir ki, ötən il ərzində qardaş türk dövlətləri arasında mütəffiqliyin daha da inkişaf etdirilməsi, ortaq mənəvi irsin qorunması, regional sülh və sabitliyin güclənməsində mühüm önəmə malik Türk Dövlətləri Təşkilatının növbəti Zirvə toplantısı keçirilməklə türk dövlətlərinin ortaq keçmişdən ortaq gələcəyə doğru birgə irəliləməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Region reallıqlarını yaradan ölkəmizin, xalqımızın xoşbəxt, firavan gələcəyinə istiqamətlənmiş böyük miqyaslı və uzaq məqsədli hədəflərin ötən il ərzində uğurla gerçəkliyə çevrildiyini bildirən Baş prokuror 2023-cü il - "Heydər Əliyev İli"ndə ümummilli liderin əsasını qoyduğu inkişaf yolu ilə zirvələrə doğru irəliləyən Azərbaycanın ölkə başçısının rəhbərliyi ilə möhtəşəm uğurlar qazanacağına əminliyini ifadə etmişdir.

Kollegiya iclasında qeyd edilmişdir ki, prokurorluq orqanları daim möhtərəm cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmaqla hesabat dövründə də bir qrup əməkdaşa ali xüsusi rütbələrin verilməsi ölkə başçısının prokurorluğa göstərdiyi ali dəyəri və etimadı bir daha nümayiş etdirmişdir.

Baş prokuror hesabat məruzəsində 2022-ci ildə də Azərbaycan prokurorluğunun daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında fəal iştirak etdiyini, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlər gördüyünü bildirmişdir.

Xüsusi qeyd edilmişdir ki, bu müddətdə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş ümumilikdə 17 qəsdən adam öldürmə cinayətinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə onlardan 14-ü üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün məhkəməyə göndərilmişdir.

Ümumilikdə, cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan əvvəlki hesabat ilinin müsbət göstəricilərinin 2022-ci ildə də davam etdiyi, əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 36.494 cinayətin 88,2%-nin açılması təmin olunmuş, bu cinayətlərin 95,2%-nin prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil etdiyi bildirilmişdir.

Hesabat dövründə ölkə üzrə cəmi 19591 cinayət işinin ibtidai istintaqının tamamlanmaqla 15772 cinayət işinin ittiham aktları ilə məhkəmələrə göndərilməsi təmin edilmiş, bunlardan 914-ü prokurorluq orqanlarında isintaq edilmişdir.



Prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında aparılmış araşdırmalar üzrə ümumilikdə 454 milyon 781 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək, istintaq tədbirləri ilə onun 41,4 faizinin, yəni 188 milyon 293 min manat hissəsinin ödənilməsinə nail olunduğu, prokurorluq orqanlarında ibtidai istintaqı aparılmış cinayət işləri və araşdırılmış materiallar üzrə isə vurulmuş maddi ziyanın məbləğinin 100 milyon 609 min manat olmaqla, onun 71,1 faizinin, yəni 71 milyon 566 min manat hissəsinin ödənilməsinin təmin olunduğu bildirilmişdir.

Bundan başqa, cinayət-prosessual qanunvericiliyinin tələblərinə əsasən icraatına xitam verilmiş cinayət işləri üzrə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 20 milyon 755 min manat pul vəsaiti ödənilməklə, həmin məbləğin 20 milyon 213 min manatı prokurorluq orqanlarında istintaqı aparılmış işlər olmuşdur.

Qeyd edilmişdir ki, hesabat dövründə ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə prokurorluq orqanları tərəfindən daxili işlər orqanları üzrə 34932, vergi orqanları üzrə 1369, ədliyyə orqanları üzrə 907, sərhəd xidməti üzrə 424, gömrük orqanları üzrə 342, dövlət təhlükəsizliyi orqanları üzrə 137, fövqəladə hallar orqanları üzrə 65 cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilmişdir.

Kollegiya iclasında qalibiyyət şərəfini daşıyan Respublikamızın gələcək dövr üçün müəyyən edilən əsas strateji hədəflərinə çatmaqda korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlərin sosial-iqtisadi inkişafın başlıca amillərindən biri olması nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli Sərəncamı ilə yeni inkişaf mərhələsinin doğurduğu zərurətdən irəli gələn növbəti konseptual sənədin – "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsinin bu sahədə ölkə başçısının siyasi iradəsinin və qətiyyətli mövqeyinin növbəti əyani təsdiqi olduğu diqqətə çatdırılmışdır.

Qeyd edilmişdir ki, ölkəmizdə uğurla yürüdülən islahat konsepsiyalarının davamlılığı ilə xarakterizə olunmaqla yeni inkişaf mərhələsi ilə uzlaşan, çağdaş dövrün spesifik tələblərinin nəzərə alındığı Milli Fəaliyyət Planının icrası bütün dövlət qurumları ilə yanaşı, prokurorluq orqanları üçün də qarşıda duran əsas vəzifələrdən hesab edilməklə Baş Prokurorluq üzrə Tədbirlər Planı təsdiq ediləək icraya yönəldilmişdir.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 339 şəxs barəsində 240 cinayət işinin ibtidai istintaqı tamamlanmaqla 285 şəxs barəsində 209 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir.

İbtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 74 milyon 763 min manat məbləğində maddi ziyandan 52 milyon 243 min manatın ödənilməsi təmin olunmuş, həmçinin cinayət qanunvericiliyinin tələblərinə əsasən cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 19 milyon 461 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

Bundan əlavə, hesabat dövründə aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi, həmçinin cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə




aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 245 təqdimat verilmişdir.

Həmin təqdimatlar üzrə 10 şəxs çalışdığı qurumdan xaric edilmiş, 20 şəxs tutduğu vəzifədən azad olunmuş və ya müvəqqəti olaraq vəzifəsinin icrasından kənarlaşdırılmış, 93 şəxsə töhmət və ya şiddətli töhmət verilmiş, 21 şəxsə xəbərdarlıq olunmuş, 110 halda isə əmək kollektivinin iştirakı ilə müzakirə olunmaqla zəruri tədbirlər görülmüşdür.

2022-ci il ərzində 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsi ilə korrupsiya hüquqpozmaları barədə Baş idarəyə daxil olmuş müraciətlərin 128-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra etmiş, keçirilən əməliyyat tədbirləri nəticəsində korrupsiya cinayəti törədən 45 şəxs cinayət başında yaxalanmış, habelə axtarışda olan 12 nəfər tutulmuş, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 196 cinayət işi başlanmışdır.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsində 118 cinayət işinin ibtidai istintaqı aparılmaqla 82 şəxs barəsində 51 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmiş, ibtidai istintaqı başa çatdırılmış işlər üzrə dövlətə və ayrı-ayrı hüquqi və fiziki şəxslərə vurulmuş 14 milyon 333 min manat məbləğində ziyandan 12 milyon 209 min manatın ödənilməsi təmin olunmuşdur.

Kollegiya iclasında Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasına və onun vətəndaşlarına qarşı törədilmiş cinayət faktlarına dair başlanılaraq istintaqı aparılmış cinayət işləri, həmçinin sonrakı müddət ərzində baş vermiş təxribatlarla bağlı cinayət işlərinin ibtidai istintaqının davam etdirildiyi qeyd edilmişdir.

Xüsusi vurğulanmışdır ki, işğaldan azad edilmiş ərazilərdə növbətçilik əsasında fəaliyyət göstərən rayon prokurorluqları üçün müəyyənləşdirilmiş inzibati binalarda cari təmir işlərinin aparılması təşkil edilməklə binalar müasir qurğu, avadanlıq, informasiya-kommunikasiya xətləri, mebel və komputer avadanlıqları ilə təchiz edilmiş, dağlıq relyef şəraitində xidmət nəzərə alınaraq müvafiq əraziyə uyğun nəqliyyat vasitələri ilə təminat həyata keçirilmişdir.

Hesabat dövründə Respublika Hərbi Prokurorluğu orqanları tərəfindən Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla birlikdə görülmüş işlər nəticəsində hərbi intizamın möhkəmləndirildiyi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alındığı, ordu quruculuğunun yeni mərhələsində zəruri tədbirlərin həyata keçirildiyi qeyd edilmişdir.

Dövlət ittihamının müdafiəsi sahəsində prokurorluq orqanları tərəfindən ötən il ərzində idarə prokurorlarının iştirakı ilə birinci instansiya məhkəmələrində 17068 şəxs barəsində 15157, apelyasiya instansiyası məhkəmələrində 5135 şəxs barəsində 4443, kassasiya instansiyası məhkəməsində 2193 şəxs barəsində 1912 (bütün instansiya məhkəmələri üzrə cəmi 24396 şəxs barəsində 21512 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmişdir.

Bu müddətdə 939 apellyasiya və 787 kassasiya protestləri verilmiş, məhkəmələrdə baxılmış 1097 apellyasiya protestindən 563-ü, 642 kassasiya protestindən isə 157-si təmin olunmuşdur.

2022-ci ildə cinayət təqibindən kənar icraatlar üzrə nəzarət tədbirləri ilə əlaqədar qanun pozuntularından çəkindirmək məqsədilə 87 şəxsə xəbərdarlıq edilmiş, 92 şəxs barəsində təqdimat verilərək, inzibati xəta haqqında iş üzrə 1457 icraatın, həmçinin törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlar üzrə 220 cinayət işinin başlanaraq, uşaqların hüquqlarının qorunması istiqamətində valideyn hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə 5 mülki iddia qaldırıldığı qeyd edilmişdir.

Bildirilmişdir ki, xüsusi müsadirənin həyata keçirilməsi istiqamətində prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, aktivlərin bərpası, idarə edilməsi və maliyyə istintaqına dair uğurlu beynəlxalq təcrübənin yaxından öyrənilməsi məqsədilə 1 fevral 2022-ci il tarixdən Azərbaycan Respublikası Baş




Prokurorluğunun benefisiarı olduğu “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı “Twinning” layihəsinin icrasına başlanılmaqla xarici ekspertlərin ölkəmizə çoxsaylı səfərləri, iclaslar və dəyirmi masa müzakirələri həyata keçirilmişdir.

Hesabat dövründə xarici ölkələrin prokurorluq orqanları, ixtisaslaşmış beynəlxalq təşkilatlarla ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində çoxsaylı tədbirlər görülmüş, bir sıra ölkələrin hüquq-mühafizə orqanları rəhbərlərinin başçılıq etdiyi nümayəndə heyətlərinin Azərbaycana, eləcə də Baş Prokurorluğun nümayəndə heyətlərinin xarici ölkələrə işgüzar səfərləri baş tutmuşdur.

Bu dövrdə Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacib, Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad Əl-Nuaimi və Gürcüstanın Baş prokuroru İrakli Şotadzenin rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə səfər etmişlər, Qətər Dövlətinin Baş Prokurorluğu ilə ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Qurumun xarici tərəfdaşlarla səmərəli əməkdaşlığının təzahürü olaraq ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 18 şəxsin tutularaq ölkəmizə ekstradisiyasının həyata keçirildiyi qeyd edilmişdir.

Bu sahədə gənc kadrların təcrübə qazanmaları məqsədilə ötən il ərzində Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi Baş Direktoratlığı, Avropa İnsan Hüquqları Məhkəməsi və Beynəlxalq Prokurorlar Assosiasiyasının hər birinə 1 prokurorluq işçisi ezam olunmuş, həmçinin 3 nəfər hazırda Beynəlxalq Antikorrupsiya Akademiyasında magistr pilləsi üzrə qiyabi təhsil almaqla 2 nəfər isə həmin təhsil ocağının yay kurslarında iştirak etmişdir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə hesabat dövründə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə “ADA” Universiteti və Naxçıvan Dövlət Universiteti arasında hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və müəllimlərin prokurorluqda təcrübə keçməsi, birgə elmi konfransların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin və mətbu nəşrlərin hazırlanması üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edən memorandumlar imzalandığı bildirilmişdir.

Hesabat dövründə prokurorluq orqanlarında normayaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə səmərəli işlər görülmüş, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinə 10 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 8 yazılı rəyin verilməsi təmin edilməklə yazılı prosedur qaydasında baxılmasında iştirak edilmişdir.

Kollegiya iclasında ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarının hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi istiqamətində sayca 23-cü müsabiqənin nəticəsinə görə 83 namizədin, həmçinin ötən il işə qəbul olunmaq arzusunda olan şəxslər üçün keçirilmiş 24-cü müsabiqə üzrə müvəffəqiyyət qazanmış 57 namizədin cari ildə müvafiq vəzifələrə təyin olunduğu, ümumilikdə 2002-ci ildən başlayaraq prokurorluq orqanlarında keçirilmiş 24 müsabiqənin nəticələri üzrə uğur qazanmış gənc hüquqşünasların hazırda prokurorluq işçilərinin 88,3 faizini təşkil etdiyi bildirilmişdir.

Qeyd edilmişdir ki, prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2022-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 33 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 2-i prokurorluq orqanlarından xaric edilmiş, 8 nəfər vəzifədən azad edilmiş, 22 nəfərə töhmət və ya şiddətli töhmət,



1 nəfərə isə irad intizam tənbehi tədbiri tətbiq edilmişdir.

Hesabat dövründə prokurorluq orqanlarına daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə müraciətlərin 8874-nün tam və qismən təmin olunması, həmçinin Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə daxil olmuş müraciətlərdən 565-nin cinayət xarakterli məlumat kimi araşdırılması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilmişdir.

Bildirilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ötən il ərzində Baş prokuror tərəfindən Respublikanın 21 rayonunda ümumilikdə 62 bölgədən 1106 vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmiş, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilmişdir.

Xüsusi qeyd edilmişdir ki, "Elektron prokurorluq" informasiya sisteminin yaradılması istiqamətində işlər intensivliklə davam etdirilməklə artıq 3 modul üzrə fəaliyyətə başlayan sistemin qısa müddətdə tam şəkildə həyata keçirilməsi prokurorluq orqanlarının funksional vəzifələrinin müasir dövrün elmi-texniki nailiyyətləri tətbiq edilməklə yerinə yetirilməsinə, görülən işləri tam elektronlaşdırılmaqla informasiya ehtiyatlarının analitik təhlilini aparmağa imkan verəcəkdir.

Kollegiya iclasında fəaliyyətdə səmərəliliyin artırılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyən edilməsi, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilmişdir.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru Elşən Abbasov, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev və Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev hesabat dövründə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair mövzuda çıxışlar etmiş, həmçinin iclasın digər iştirakçıları tərəfindən müzakirələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi "Heydər Əliyev İli"ndə öz qüvvələrini səfərbərliyə almaqla dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün öz xidmətlərini göstərəcəkdir.

# Baş prokuror Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə olub











Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin yanvar ayının 28-dən 31-dək Səudiyyə Ərəbistanında işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti ölkəmizin Ər-Riyaddakı səfirliyinə gələrək ulu öndər Heydər Əliyevin büstü önünə əklil qoyub, ümummilli liderin əziz xatirəsi ehtiramla yad edilib.

Baş Prokurorluqda keçirilmiş görüşdə Səudiyyə Ərəbistanının Baş prokuroru Səud Əl Müacib azərbaycanlı həmkarını səmimi salamlayaraq ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. Ötən ilin may ayında ölkəmizdə səfərdə olarkən dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən qəbulunu və Şuşaya səfərini ehtiramla xatırladığını qeyd edib.

Şeyx Əl Müacib 27 yanvar tarixində ölkəmizin Tehrandakı səfirliyinə xain terror aktını şiddətlə qınadığını bildirərək, həlak olan zabitimizə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Baş prokuror Kamran Əliyev səmimi qəbula və yüksək qonaqpərvərliyə görə səudiyyəli həmkarına minnətdarlığını ifadə edərək, dövlət başçıları cənab İlham Əliyev və İki Müqəddəs Ocağın Xadimi, kral Salman bin Əbdüləziz Əl-Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman Əl-Saudun birgə səyləri və siyasi iradələri sayəsində ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

Kamran Əliyev Tehrandakı səfirliyimizdə baş vermiş terror aktı ilə bağlı başsağlığına görə Səudiyyə Ərəbistanı hökumətinə və həmkarına təşəkkür edib, bu cinayətin İranın hüquq mühafizə orqanları tərəfindən hərtərəfli və obyektiv araşdırılağına və təqsirkar şəxslərin dairəsinin tam müəyyən edilərək layiqli cəza alacaqlarına ümidvar olduğunu bildirib.

Hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, transmilli cinayətkarlığa qarşı mübarizədə qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılıb. İki ölkənin prokurorluq orqanları arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətlərinin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Nümayəndə heyətinin üzvləri Məkkə və Mədinə şəhərlərində həmkarları ilə görüşərək prokurorluğun fəaliyyəti ilə tanış olmuşlar.

Görüşlərdə ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak edib.

# Baş prokuror Kamran Əliyev Qabriel Lanski ilə görüşüb




Fevralın 14-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan nüfuzlu "Lansky, Ganzger + partner" hüquq şirkətinin təsisçisi və partnyoru Qabriel Lanski ilə görüşüb, müxtəlif hüquqi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

# Baş prokuror Kamran Əliyev iranlı həmkarı ilə telefonla danışıb

Fevralın 13-də qarşı tərəfin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə İran İslam Respublikasının Baş prokuroru Məhəmməd Cəfər Montazeri arasında telefon danışığı olub.

Baş prokuror Montazeri yanvarın 27-də ölkəmizin Tehrandakı Səfirliyinin binasında törədilmiş cinayət hadisəsinə görə təəssüf hissi keçirdiyini bildirərək, Azərbaycan xalqına, zərərçəkmişlərin ailə üzvlərinə başsağlığını ifadə edib. İranın Baş prokuroru azərbaycanlı həmkarını cinayət işinin istintaqının gedişatı haqqında ətraflı məlumatlandırıb.

Kamran Əliyev Azərbaycan Respublikasının İrandakı səfirliyinə qarşı törədilmiş terror aktını pisləyərək Azərbaycanın aidiyyəti istintaq qurumunda cinayət işinin istintaqının davam etdiyini həmkarının diqqətinə çatdırıb. Baş prokuror İran tərəfindən cinayət işinin tam və hərtərəfli araşdırılmasının, bütün iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb olunmasının, bu terror aktının törədilməsinə səbəb və şəratinin araşdırılmasının zəruriliyini vurğulayıb.

Sonda hər iki tərəf bu cinayət işinin nəzarətdə saxlanmasına və qarşılıqlı hüquqi yardım çərçivəsində əməkdaşlıq edilməsinə dair razılıq əldə ediblər.

# “İlin ən yaxşı müstəntiqi və dövlət ittihamçısı” müsabiqələrinin qaliblərinə, eləcə də “Prokurorluğun dostu” təltifinə layiq görülmüş media qurumlarına mükafatlar təqdim olunub





Fevralın 15-də Baş Prokurorluqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Azərbaycan Prokurorluğu üzrə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq keçirilmiş “İlin ən yaxşı müstəntiqi” və “İlin ən yaxşı dövlət ittihamçısı” müsabiqələrinin qaliblərinə, həmçinin “Prokurorluğun dostu” təltifinə layiq görülmüş media qurumlarının nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın yaxından dəstəyi ilə uğurla həyata keçirilən dövlət gənclər siyasətinin hər bir dövlət təsisatında olduğu kimi prokurorluq orqanlarında da prioritet məsələlər sırasında yer tutduğunu bildirib.

Kadr korpusunun dövlətçiliyə sədaqətli, vətənpərvər, savadlı, dünyagörüşlü və yüksək mənəvi keyfiyyətlərə malik gənc hüquqşünaslarla komplektləşdirilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks islahatların aparıldığını qeyd edən Baş prokuror qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin gücləndirilməsi, istintaq və dövlət ittihamının müdafiəsi sahəsində səmərəliliyinin artırılması ilə bağlı həyata keçirilən tədbirlərdən söz açıb.

Daha sonra qeyd olunan müsabiqələrin təşkili və keçirilmə qaydası barədə “İlin ən yaxşı müstəntiqi” Müsabiqə komissiyasının sədri–Baş prokurorun birinci müavini Elçin Məmmədov və “İlin ən yaxşı dövlət ittihamçısı” Müsabiqə komissiyasının sədri–Baş prokurorun müavini Heydər Məmmədov çıxış edərək ətraflı məlumat veriblər.






Müsabiqələrin nəticələrinə əsasən “İlin ən yaxşı müstəntiqi” seçilmiş Xaçmaz rayon prokurorluğunun böyük müstəntiqi Fərrux Əzimli və “İlin ən yaxşı dövlət ittihamçısı” seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Müşfiq Rəhimova Baş prokuror tərəfindən diplom və mükafatlar təqdim olunub.

Mərasim zamanı, həmçinin, xidməti vəzifələrinin icrasında fərqlənmiş, o cümlədən əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilən qəsdən adam öldürmə cinayətlərinin açılmasında peşəkarlıq göstərmiş bir qrup əməkdaşa həvəsləndirmə qaydasında mükafatlar təqdim edilib.

Xüsusi vurğulanmışdır ki, Ulu öndər “Heydər Əliyev İli” çərçivəsində mükafatlara layiq görülmüş əməkdaşlar öz məsuliyyətini dərk etməklə bundan sonra da xidməti fəaliyyətlərində səmərəliliyin yüksəldilməsinə və işin daha effektiv təşkilinə çalışacaqlar.

Bundan başqa, tədbir çərçivəsində “Prokurorluğun










dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə kütləvi informasiya vasitələri ilə işgüzar əlaqələrin möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.





Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2022-ci ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, "Xalq qəzeti" və "Lent.az" xəbər saytı "Prokurorluğun dostu" mükafatı ilə təltif olunub.

Tədbir zamanı "Prokurorluğun dostu" mükafatı təqdim olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Rövşən Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və "Lent.az" xəbər saytının baş redaktoru Hafiz Heydərov çıxış edərək göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə edib, prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluqlarını bildiriblər.

Mərasim çərçivəsində, həmçinin, "İctimai" televiziyada yayımlanmaqla geniş tamaşaçı kütləsinin böyük marağına səbəb olmuş "Əqrəb mövsümü" çoxseriyalı bədii filminin yaradıcı heyəti və aktyorları təltif ediliblər.

Tədbirdə çıxış edən İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov Baş Prokurorluğun dəstəyi ilə ərsəyə gəlmiş "Əqrəb mövsümü"nün sosial şəbəkələrdə müzakirələrə səbəb olmasından və izləyicilərin rəğbətindən məmnunluğunu bildirməklə filmin son günlər televiziya məkanında ən çox izlənən seriallar sırasında olmasını qeyd etmişdir.

Bildirilib ki, serialda çətin və şərəfli prokurorluq peşəsinin incə məqamlarının göstərilməsi ictimaiyyətin böyük marağına səbəb olub. Gənclərin zərərli vərdişlərdən çəkinməsi və ümumilikdə cəmiyyətin hüquqi maariflənməsi baxımından bu kimi layihələrin gələcəkdə davam etdirilməsi üçün qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanmışdır.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Litvaya işgüzar səfər edib





Fevralın 21-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Litva Respublikasının Baş prokuroru Nida Qrunskiene və Xüsusi İstintaq Xidmətinin (STT) rəhbəri Jidrunas Bartkusun dəvəti ilə Vilnüsa işgüzar səfər edib.

İlk öncə nümayəndə heyəti ölkəmizin Vilnüsdəki səfirliyinə gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin Litva ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, hazırda isə Prezident cənab İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində bu əlaqələrin yüksək strateji tərəfdaşlıq səviyyəsində olduğu xatırlanıb.

Baş prokuror həmçinin Türkiyənin Vilnüsdəki səfirliyini ziyarət edərək səfir Barış Tantekinlə görüşüb, qardaş ölkədə baş vermiş dəhşətli zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə bağlı başsağlığı verərək matəm kitabına ürək sözlərini yazıb.

Zəlzələ baş verən ilk gündən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişi ilə axtarış-xilasetmə qruplarının təbii fəlakət bölgələrinə göndərilməsi və fəsadların aradan qaldırılmasında göstərilən humanitar dəstək əsl qardaşlıq nümunəsi olduğu vurğulanıb.

Daha sonra Kamran Əliyev Litva Respublikasının Baş prokuroru Nida Qrunskiene ilə görüşüb. Görüşdə hüquqi sahədə ikitərəfli əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, Beynəlxalq Prokurorlar Assosiasiyası, Avrocast və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb. Tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdirilməsi məqsədilə Azərbaycan və Litva baş prokurorluqları arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Səfər çərçivəsində Xüsusi İstintaq Xidmətində ikitərəfli görüş keçirilib. Nümayəndə heyətini salamlayan STT-nin rəhbəri Jidrunas Bartkus ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi hüquqi əməkdaşlığın da uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək, aktivlərin bərpası sahəsində həyata keçirilən və ötən ilin fevral ayından etibarən “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı Avropa İttifaqının Tvinninq layihəsinin tərəfdaş ölkə olan Litva ilə uğurla davam etdiyini bildirib.

Baş prokuror ölkəmizdə bu sahədə aparılan qanunvericilik və institusional islahatların davam etdiyini vurğulayaraq, cinayət yolu ilə əldə olunmuş əmlakın müəyyən edilərək izlənilməsi, üzərinə həbs qoyulması,














müsadirəsi və sonrakı idarəolunması prosesində beynəlxalq əməkdaşlığın zəruriliyini qeyd edib. Bu baxımdan, Azərbaycan Prokurorluğunun benefisiarı olduğu Tvinninq layihəsinin mühüm əhəmiyyət daşıdığı bildirilib. Görüşdə layihənin gedişatı və əldə olunmuş nəticələr barədə ətraflı məlumat verilib.

Litvanın Xüsusi İstintaq Xidməti ilə uzunmüddətli səmərəli əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin inkişafında xüsusi roluna görə Azərbaycanın Baş prokuroru "Əməkdaşlığa görə" medalı ilə təltif olunub.

Daha sonra nümayəndə heyəti STT-nin yaradılmasının 25 illik yubiley tədbirində iştirak edib. Litvanın hüquq mühafizə orqanlarının rəhbər şəxslərinin iştirak etdiyi təntənəli mərasimdə Baş prokuror Kamran Əliyev təbrik nitqi ilə çıxış edərək, Azərbaycan Prokurorluğu ilə Litvanın prokurorluğu və STT qurumu arasında uzunmüddətli səmərəli əməkdaşlığa görə təşəkkürünü ifadə edib.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviyada işgüzar səfərdə olub











Fevralın 21-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviyanın Baş prokuroru Yuris Stukansın dəvəti ilə Riqada işgüzar səfərdə olub.

Nümayəndə heyəti ölkəmizin Riqadakı səfirliyinə gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu öndərin əziz xatirəsi ehtiramla yad olunub.

Daha sonra Baş prokurorluqda ikitərəfli görüş keçirilib.

Azərbaycanlı həmkarını salamlayan Baş prokuror Yuris Stukans, ölkələrimizin prokurorluq orqanları arasında münasibətlərin son illər ərzində inkişaf etdiyini məmnunluq hissi ilə vurğulayıb.

Kamran Əliyev qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Latviyanın siyasi rəhbərliyinin səyləri nəticəsində ikitərəfli əlaqələrimizin uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb.

Baş prokuror Azərbaycan və Latviya arasında yüksək strateji tərəfdaşlıq əlaqələri kontekstində prokurorluqlar arasında əməkdaşlığın müsbət dinamikasını qeyd edib, cinayətkarlığa, o cümlədən korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizənin və əmlakın bərpası sahəsində birgə səylərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edib.

Görüşdə ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində prokurorluqlarımız arasında əməkdaşlığın genişləndirilməsinin önəmi qeyd edilib. Qarşılıqlı təlimlərin təşkil olunması və əlaqələrin inkişaf etdirilməsi məqsədilə qurumlar arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması müzakirə olunub. Həmçinin konkret cinayət işləri üzrə hüquqi yardım haqqında sorğuların icrası ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Baş prokuror Latviyanın Korrupsiyanın Qarşısının Alınması və Korrupsiyaya qarşı Mübarizə Bürosunun (KNAB) rəhbər heyəti ilə görüşərək korrupsiyanın qarşısının alınması, bu sahədə törədilmiş cinayətlərin istintaqı, maarifləndirmə və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşlərdə ölkəmizin Latviya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Elnur Sultanov iştirak edib.

# Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb









Fevralın 27-də keçirilən görüşdə Avropa İttifaqının cinayət yolu ilə əldə olunmuş əmlakların bərpası sahəsində həyata keçirilən Tvinninq layihəsinin icrası və qarşıda duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlara prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin 3 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verilib. Mütərəqqi informasiya texnologiyarının tətbiq edildiyi və hazırda test rejimində fəaliyyət göstərən EPİS platforması qonaqların marağına səbəb olub.



# Bolqarıstanın Baş prokuroru İvan Geşev ölkəmizə səfər edib





Baş prokuror Kamran Əliyevin dəvəti ilə Bolqarıstanın Baş prokuroru İvan Geşevin rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin mart ayının 1-dən 4-dək ölkəmizdə işgüzar səfərdə olmuşdur.

Nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib.

Ölkələrimiz arasında müasir əlaqələrimizin təməli bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyev tərəfindən hələ sovetlər dövründə qoyulduğunu bildirən Baş prokuror, Ulu öndərin adını daşıyan Fond tərəfindən və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bolqarıstanın Veliko Tırnovo bölgəsində mədəni-tarixi irsinin qorunması istiqamətində aparılan işlərdən danışıb.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Bolqarıstan Respublikasının Baş prokuroru





















İvan Geşev göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Bolqarıstan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.













Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

Daha sonra Baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalayıblar.

Nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olub, onlara Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Martın 3-də Azərbaycanın Baş prokuroru Kamran Əliyev və Bolqarıstanın Baş prokuroru İvan Geşev Bakı Slavyan Universitetində olublar. Rektor Anar Nağıyev qonaqları salamlayaraq təhsil ocağının, həmçinin Bolqar Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyəti barədə məlumat verib.

Baş prokuror Kamran Əliyev həmkarını Bolqarıstanın Milli Günü münasibətilə təbrik edərək, dost ölkənin prokurorluq orqanlarına fəaliyyətlərində uğurlar arzu edib.

# 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib






Martın 7-də Baş Prokurorluqda 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev qadın prokurorluq işçilərini, dövlət qulluqçularını və veteran xanımları bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

Bildirilib ki, Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkilinin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmaqla uğurlu dövlət-qadın, gender bərabərliyi siyasəti ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Xüsusi vurğulanmışdır ki, ölkəmizin tərəqqisində və əldə olunan uğurlarda, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında dövlət başçısı cənab İlham Əliyevin ən sadiq silahdaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Tədbirdə ölkəmizdə qadınların hüquqlarının yüksək səviyyədə qorunduğu, qadınlarımızın yüksək postlarda, qeyri-dövlət strukturlarında ölkəmizin maraqlarının təmsili istiqamətində fəaliyyətləri ilə seçildikləri qeyd edilməklə prokurorluq orqanlarında da aparılan kadr siyasəti zamanı gender bərabərliyi prinsipinin rəhbər tutulduğu diqqətə çatdırılmışdır.

Xanımların dövlətimizin, o cümlədən təmsil etdikləri qurumların inkişafında xüsusi rola malik olduğunu bildirən Baş prokuror qadın prokurorluq əməkdaşlarının dövlətçilik naminə xidmətlərinin önəmini vurğulamışdır.

Qeyd edilmişdir ki, son 3 ildə prokurorluq orqanlarına işə qəbulla bağlı elan edilmiş müsabiqələr nəticəsində ümumilikdə 31 qadın işə qəbul edilməklə hazırda prokurorluqda işləyən qadın prokurorluq işçiləri kadr korpusunun təxminən 8 faizini təşkil etməklə onlardan bir çoxu vəzifədə irəli çəkilmiş, o cümlədən ilk dəfə olaraq idarə rəisi və rayon prokuroru vəzifələrinə təyin olunmaqla prokurorluğun fəaliyyət istiqamətləri









üzrə qarşıya qoyulmuş vəzifələrin icrasını vaxtında və keyfiyyətlə həyata keçirmişlər.

Daha sonra xidməti fəaliyyətdə fərqlənən prokurorluq əməkdaşlarına, veteran xanımlara, eləcə də insan hüquqlarının müdafiə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları və media nümayəndələrinə mükafatlar təqdim olunub.

Tədbir zamanı prokurorluqda çalışan xanım əməkdaşlarla bağlı hazırlanmış qısa film nümayiş olunub.

Sonda xatirə fotoşəkilləri çəkilib.



# Baş prokuror Kamran Əliyev Yunanıstanda işgüzar səfərdə olub



Azərbaycan Respublikasının Baş prokuroru, Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 22-24 mart tarixlərində BPA-nın İcraiyyə Komitəsinin 55-ci iclasında iştirak məqsədilə Afinaya işgüzar səfərə gedib.

Səfərin ilk günü nümayəndə heyəti ölkəmizin Afinadakı Səfirliyinə gələrək bu il 100 illik yubileyini qeyd etdiyimiz xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad olunub. Daha sonra Baş prokuror Azərbaycanın Afinadakı fövqəladə və səlahiyyətli səfiri Anar Hüseynov və diplomatik nümayəndəliyimizin əməkdaşları ilə görüşüb, fəaliyyətlərində uğurlar arzulayıb.

BPA-nın İcraiyyə Komitəsinin iclasında çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

İclasda bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbul edilməsi, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, Assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb. Cari ilin may ayında İstanbulda keçiriləcək 1-ci Pan Avropa konfransı, sentyabr ayında Londonda, 2024-cü ilin sentyabrında isə ölkəmizdə keçiriləcək Assosiasiyanın illik konfransı və ümumi yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev və Argentinanın Buenos-Ayres muxtar şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru, BPA-nın Prezidenti Xuan Batista Mahikes arasında ikitərəfli







görüş keçirilib, prokurorluqlarımız arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsini nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.

Həmçinin, nümayəndə heyətinin üzvləri tədbirdə fəal iştirak edərək ABŞ, Kanada, Çin, Birləşmiş Krallıq, Yunanıstan, Macarıstan, Gürcüstan, Cənubi Koreya, BƏƏ və sair ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, hüquqi əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.





# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib









Martın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə müxtəlif dövlət orqanları nümayəndələrinin, eləcə də aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünasların iştirakı etdiyi Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmişdir.

Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror Kamran Əliyev keçən dövr ərzində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyən ölkəmizin ictimai-siyasi həyatında baş vermiş əhəmiyyətli hadisələr, beynəlxalq müstəvidə görülən mühüm işlər, müstəqil dövlətimizin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar prokurorluq orqanlarında həyata keçirilən silsilə tədbirlər barədə məlumat vermişdir.













Xüsusi olaraq vurğulanmışdır ki, hüquqşünaslar tərəfindən Ümummilli Lider Heydər Əliyevin hüquq sistemimizdə miras qoyduğu zəngin irsinin elmi-praktiki tədqiqinə əhəmiyyətli diqqət yetirilməlidir.

Bildirilmişdir ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbədən sonra soydaşlarımızın tarixi Qərbi Azərbaycan bölgəmizə qayıdışı, eləcə də iki əsr boyu erməni milliyyətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş insanlıq, şəxsiyyət əleyhinə və digər cinayətlərə siyasi və hüquqi qiymətin verilməsi olduqca aktual məsələdir.

Daha sonra Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Mahir Abbasov “Qərbi Azərbaycanda soydaşlarımıza qarşı etnik təmizləmə – tarix və hüquq müstəvisində”, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsini müvəqqəti icra edən Elşad Nəsirov “Azərbaycan Respublikası Milli Məclisi deputatının toxunulmazlığı hüququnun mahiyyəti”, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professoru, hüquq üzrə elmlər doktoru Namiq Əliyev “ATƏT-in Minsk qrupu və onun sülhməramlı missiyası haqqında mif” mövzularında çıxış etmişlər.





Çıxışlardan sonra Baş Prokurorluğun əməkdaşları tərəfindən “Uzun müddət bağlı qalmış qəsdən adam öldürmə və ölümlə nəticələnən digər cinayətlər üzrə istintaq təcrübəsi”, “Vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayətinin istintaqı xüsusiyyətlərinə dair”, “Üzərində zorakılıq əlamətləri olmayan naməlum insan meyitləri ilə bağlı araşdırma taktikası”, “Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması, bilə-bilə belə əmlakı əldə etmə, sahiblik və ya istifadə etmə, yaxud sərəncam vermə cinayətləri üzrə ibtidai istintaqın aparılması metodları” adlı metodiki vəsaitlərin, rus dilində hazırlanmış “Azərbaycan Respublikasında prokurorun hüquqi statusu” adlı kitabın, eləcə də “Prokurorluqda tətbiq edilən proqram və informasiya sistemlərinin təlimatları və istifadə qaydaları” adlı toplunun təqdimatları keçirilmişdir.

İclasın yekununda müxtəlif hüquqi məsələləri özündə ehtiva edən mövzular üzrə Şura üzvləri tərəfindən geniş fikir mübadiləsi aparılmışdır.



# Baş prokuror Kamran Əliyev bölgələrdə vətəndaşları qəbul etmişdir

**SABİRABAD**

Yanvarın 12-si Baş prokuror Kamran Əliyev Sabirabad rayon prokurorluğunun inzibati binasında Sabirabad, Saatlı, İmişli həmçinin digər rayonlardan olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.

Qəbulda iştirak edən 34 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin,










o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər vermişdir.

**KÜRDƏMİR**







Fevralın 10-u Baş prokuror Kamran Əliyev Kürdəmir rayon prokurorluğunun inzibati binasında Kürdəmir, Ağdaş, Ucar, Zərdab, Ağsu, Göyçay, həmçinin, digər rayonlardan olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.

Qəbulda iştirak edən 58 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən







konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər vermişdir.



## İSMAYILLI



Martın 15-i Baş prokuror Kamran Əliyev İsmayıllı rayon prokurorluğunun inzibati binasında İsmayıllı, Qobustan, Şamaxı, Qəbələ, Oğuz, həmçinin, digər rayonlardan olan vətəndaşları qəbul edib.











Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 41 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

***

**Qəbullardan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar vermiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırmışdır.**

# Prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin icbari təlimi uğurla başa çatmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilən dövlət gənclər siyasətinə uyğun olaraq, şəffaf prosedurlar əsasında keçirilən müsabiqələrin nəticələrinə əsasən, prokurorluğun kadr tərkibinin yüksək nəzəri biliklərə və mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənclər hesabına komplektləşdirilməsi, eləcə də onlarda ilkin peşə vərdişlərinin formalaşdırılması üçün zəruri tədbirlər davam etdirilir.

Bu istiqamətdə həyata keçirilən kompleks tədbirlərin növbəti təzahürü olaraq, 2022-ci ildə prokurorluğa ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş 57 namizədin ötən ilin dekabr ayının 15-də Baş Prokurorluğun Elm-Tədris mərkəzində əyani şəkildə icbari təliminə başlanılaraq, həmin təlim cari ilin yanvar ayının 9-da müvəffəqiyyətlə yekunlaşmışdır.

Təlimin tədris proqramı cinayət hüququ, cinayət prosesi, əməliyyat-axtarış fəaliyyəti, kriminologiya, inzibati hüquq, kriminalistika, prokuror nəzarətinin təşkili, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna aid mövzuları, habelə Baş Prokurorluqda işin təşkili məsələlərini əhatə edən 60-dan artıq mühazirə və praktiki məşğələləri özündə ehtiva etmişdir.

İcbari təlim zamanı müasir təlim model və metodlarından istifadə edilməklə yanaşı, əksər məşğələlərdə informasiya texnologiyalarının və proqramların tətbiqinə üstünlük verilmişdir. Tədris üzrə məşğələlər həm Mərkəzin auditoriyalarında, həm açıq şəraitdə (məsələn, səyyar kriminalistik avtomobillə tanışlıq), eləcə də digər qurumların (məsələn, Səhiyyə Nazirliyinin "Məhkəmə-tibb ekspertizası və patoloji-anatomiya Birliyi" publik hüquqi şəxs) inzibati binalarında keçirilmişdir.













Təlimə prokurorluq, ədliyyə (məhkəmə ekspertizaları) və səhiyyə orqanlarının təcrübəli işçiləri ilə yanaşı Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri təlimçi qismində cəlb olunmuşlar. Peşə biliklərinə yiyələnməsində praktiki təcrübənin əhəmiyyəti nəzərə alınaraq, təlim çərçivəsində dinləyicilər Bakı şəhərinin tabe rayon prokurorluqlarında keçirilən istintaq hərəkətlərini real şəraitdə müşahidə etmiş, Ədliyyə Nazirliyinin Bakı İstintaq Təcridxanasının, eləcə də Səhiyyə Nazirliyi "Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya birliyi"nin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Eyni zamanda, dinləyicilər üçün Baş Prokurorluğun muzeyinə, Tarixi-memorial qalereyasına və kitabxanalarına ekskursiyalar təşkil edilmiş, onlar atıcılıq tirinin fəaliyyəti və kriminalistika sahəsində Baş Prokurorluğun maddi-texniki imkanları ilə tanış olmuşlar.

Namizədlər tədris edilmiş mövzulara, praktiki tapşırıqlara böyük maraq göstərmiş, məşğələlərdə aktiv olmuşlar.

İcbari təlimi müvəffəqiyyətlə başa çatdırmış namizədlərə müvafiq şəhadətnamələr təqdim edilmişdir.



# Baş Prokurorluqda "Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri" mövzusunda silsilə təlimlərinin keçirilməsinə start verilib





Hər bir dövlət qurumu kimi prokurorluq orqanlarında etik davranış qaydalarına riayət olunmasına xüsusi diqqət yetirilir, cəmiyyətdəki münasibətlərin inkişafı bu sahəni tənzimləyən daxili aktların daim yenilənməsini vacib edir.

Bu mənada Baş Prokurorluğun Kollegiyasının 27.12.2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş və Baş prokurorun müvafiq əmri ilə icraya yönəldilmiş "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi" xüsusi əhəmiyyət kəsb edir.

Bu sahədə ən vacib beynəlxalq sənədlərin, eləcə də xarici ölkələrin sahəvi peşəkar etik davranış qaydalarının təhlil edilməsi ilə hazırlanmış bu Kodeks prokurorluq işçisinin ictimaiyyət arasında müasir tələblərə uyğun şəkildə davranışını ehtiva etməklə, prokurorluqda qulluq keçmənin nüfuzunun daha da artırılması, vətəndaşların prokurorluğa etimadının yüksəldilməsi, prokurorluq orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması, korrupsiya hallarının və





maraqlar toqquşmasının qarşısının alınmasına mühüm töhvə verir.

Nümunəvi prokurorluq işçisinin peşəkar davranışının zəruri elementi kimi etik davranış qaydalarının hər zaman aktuallığını nəzərə alaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzində “Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri” mövzusu üzrə treninqlərin keçirilməsinə start verilmişdir.

Treninq çərçivəsində Kodeksin tələbləri ilə yanaşı dinləyicilərə milli qanunvericilik kontekstində etik davranış qaydaları, bu qaydalar üzrə beynəlxalq norma və tələblər, eləcə də sosial şəbəkələrdən istifadə zamanı etik davranışın xüsusiyyətləri tədris edilir və təcrübədə yol verilən nöqsanlar onların diqqətinə çatdırılır.

Müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməklə, treninq üzrə tədris tədbirləri Bakı və Sumqayıt şəhərlərində, habelə Abşeron rayonunda yerləşən tabe prokurorluqlarda qulluq keçən işçilər üçün Elm-Tədris Mərkəzinin mühazirə auditoriyasında, yuxarı prokurorluqlarda və digər ərazilərdə fəaliyyət göstərən işçilər üçün isə internet üzərindən distant formada onlayn rejimdə həyata keçirilir. Cari ilin fevral ayının 3-ü və 10-u təşkil edilmiş treninqlərdə artıq 442 prokurorluq işçisi iştirak etmişdir.






# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində müxtəlif cinayətlərin istintaq metodikası ilə bağlı tədris tədbirləri davam etdirilir







Azərbaycan Respublikası Baş prokurorunun müvafiq Sərəncamına əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq və daxili işlər orqanlarının işçiləri üçün təşkil edilmiş "İbtidai istintaq zamanı yol verilən nöqsanların aradan qaldırılması və işin keyfiyyətinin yüksəldilməsi" mövzusunda növbəti seminar uğurla başa çatmışdır.

Tədris tədbirləri cari ilin fevral ayının 21-i və 22-si dinləyiciləri iş yerindən ayırmadan, distant formada və canlı vaxt rejimində həyata keçirilib.

Seminarda dinləyici qismində 21 inzibati ərazi vahidində fəaliyyət göstərən 35 prokurorluq və 72 polis işçisi, təlimçi qismində Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi, habelə Elm-Tədris Mərkəzinin işçiləri iştirak etmişlər.

Seminar çərçivəsində dinləyicilərə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işləri üzrə tövsif, sübutetmə və istintaq hərəkətlərinin icrasının aktual problemləri və onların həlli yolları tədris edilmiş, belə işlər üzrə məhkəmənin hazırlıq iclasında və məhkəmə baxışı zamanı aşkarlanan prosessual pozuntular barədə ətraflı məlumat verilmişdir.

Həmçinin, dinləyicilərə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri üzrə ibtidai istintaq zamanı qarşıya çıxan prosessual və sübutetmə problemləri, onların hüquqi nəticələri, dələduzluğa dair cinayət işləri üzrə sübutetmə metodikası, bu qəbildən olan əməllərin mülki hüquqi xarakterli münasibətlərdən və onun hüquqi nəticələrindən fərqləndirmə qaydası izah edilmişdir.

# Baş Prokurorluqla media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi istiqamətində növbəti addım atılıb

Azərbaycan Respublikasının Baş Prokurorluğunda media və qeyri-hökumət təşkilatları ilə işgüzar əlaqələrin möhkəmləndirilməsinə, bu sahədə işin keyfiyyətinin və səmərəliyinin daha da artırılmasına, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunmasına və istintaq sirri təşkil edə biləcək məlumatların ictimailəşdirilməsinin qarşısının alınmasına xüsusi diqqət yetirilir. Bu məqsədlərlə nail olunması üçün mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilir, jurnalistlər üçün metodiki əhəmiyyət kəsb edən nəşrlər hazırlanır.



Bu sahədə növbəti addım kimi cari ilin fevral ayının 22-dən 23-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Mətbuat xidmətinin birgə təşkilatçılığı ilə medianın və qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün "Cinayət təqibi, media və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrinin müasir tendensiyaları" mövzusunda keçirilmiş treninqi hesab etmək olar.



Medianın bütün növ qruplarının (televiziya, radio, çap mətbuatı, xəbər agentliyi, internet portal) və müxtəlif ictimai birliklərin 25 nümayəndəsi iştirak edən bu treninq üzrə maarifləndirici tədbirlər müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə edilməklə Baş Prokurorluğun inzibati binalar kompleksinin təyinatına uyğun olan konfrans zalında və auditoriyalarında həyata keçirilmişdir.



Əvvəlcədən müəyyən edilmiş proqrama əsasən tədbirin ilk günü brifinq formatında çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və Mətbuat xidmətinin rəhbəri Saleh Hacıyev iştirakçıları maraqlandıran media və vətəndaş cəmiyyəti institutlarının prokurorluq qurumları ilə qarşılıqlı fəaliyyət sahəsində olan sualları cavablandırmışlar. Daha sonra iştirakçılar qarşısında çıxış edən Mərkəzin şöbə rəisi Nigar Qələndərli müstəqil Azərbaycan mediasının inkişafında Ümummilli lider Heydər Əliyevin əvəzedilməz xidmətlərini qeyd etmiş, Real TV-nin baş direktoru Mirşahin Ağayev çıxışında Azərbaycanın informasiya sahəsində milli maraqlara, bu sahədə olan təhdidlərə toxunmuş, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev "İctimai nəzarət: Vətəndaş cəmiyyəti və dövlət orqanlarının əməkdaşlığı" mövzusunda təqdimatla çıxış














etmiş, Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova tərəfindən "Sosial media və media savadlılığı" mövzusu ilə əlaqədar dəyirmi masa təşkil edilmiş və Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Kənan Babazadə istintaq sirri təşkil edən məlumatların yayılmasının yaratdığı fəsadlar barədə mühazirə oxumuşdur.

Treninqin ikinci günündə "Lent.az" informasiya agentliyinin baş redaktoru Hafiz Heydərov "Rəsmi dövlət qurumu ilə razılaşdırmadan yayılmış məlumatların hüquqi nəticələri" mövzusunda çıxış etmiş, Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluqda aşkarlıq və şəffaflığın təmin olunması ilə bağlı həyata keçirilən kompleks tədbirlər barədə geniş məlumat vermiş, Mərkəzin şöbə prokuroru Rəşad Qasımov media məkanında istifadə olunan hüquqi terminlərin anlayışlarına izah verərək, 2022-ci ildə hazırlanmış "Jurnalistlər üçün hüquqi terminlər lüğəti" adlı kitabın yeni versiyası və "Media üçün 555 sual və cavab" adlı əyani vəsait barədə iştirakçıları məlumatlandırmışdır.

Treninqin sonunda Mərkəzin rəis müavini Talıb Cəfərovun iştirakı ilə məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi vəziyyətinin müzakirəsi aparılmış, tədbir iştirakçılarına müvafiq sertifikatlar təqdim olunmuşdur. Tədbirin yekunu üzrə iştirakçılar treninqin təşkili səviyyəsindən və müzakirə obyekti olmuş mövzuların peşəkarcasına tədrisindən razı qaldıqlarını, habelə gələcəkdə də bu kimi maarifləndirici tədbirlərdə iştirak etmək arzusunda olduqlarını ifadə etmişlər.

# Baş Prokurorluğun inzibati bina kompleksində mediatur təşkil olunub

Cari ilin 22 və 23 fevral tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Mətbuat xidmətinin birgə təşkilatçılığı ilə medianın və qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün "Cinayət təqibi, media və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrinin müasir tendensiyaları" mövzusunda treninq keçirilib.



Medianın bütün növ qruplarının (televiziya, radio, çap mətbuatı, xəbər agentliyi, internet portal) və müxtəlif ictimai birliklərin nümayəndələrinin iştirak etdiyi treninq üzrə Baş Prokurorluğun inzibati bina kompleksində mediatur təşkil olunub.

Media tur çərçivəsində tədbir iştirakçıları Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, kitabxanalar, qabaqcıl texnikalarla təchiz olunmuş kriminalistik və istintaq otaqları ilə, eləcə də mobil kriminalistik laboratoriyalı avtomobillərlə tanış olub.



Prokurorluq orqanları tərəfindən 2022-ci il ərzində görülmüş işlərlə bağlı videoçarx və "Valideynimin peşəsi" adlı qısa metrajlı film izləndikdən sonra iştirakçılarla fikir mübadiləsi aparılıb, Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərovun iştirakı ilə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.



# Baş Prokurorluqda "Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda növbəti təlim təşkil edilib












Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluqda çalışan dövlət qulluqçularının bilik və peşə hazırlığının artırılması məqsədilə mütəmadi olaraq tədris tədbirləri təşkil edilir.

Bu tədbirlərin davamı olaraq, fevralın 28-i prokurorluq orqanlarında xüsusi rütbəsi olmayan vəzifələrdə çalışan 165 nəfər üçün "Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda növbəti təlim təşkil edilib.

Dinləyicilərə "Ümummilli lider Heydər Əliyev – müasir dövlət qulluğu sisteminin banisi", "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri", "İşçilər arasında qarşılıqlı münasibətlər sistemi" və "Dövlət qulluğuna dair qanunvericiliyin təcrübədə tətbiqi məsələləri" mövzularında mühazirə-təqimatlar nümayiş etdirilib.

Prokurorluq orqanlarında çalışan dövlət qulluqçuları üçün təlimlər davam etdiriləcək.





# Baş Prokurorluqda Avropa İttifaqının dəstəyi ilə baş tutan Tvinninq layihəsi çərçivəsində seminar keçirilib











Martın 3-də Baş Prokurorluğun yeni inzibati binasında Avropa İttifaqının dəstəyi ilə keçirilən “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı Tvinninq layihəsi çərçivəsində maraqlı tərəfləri hazırlanmış layihələrlə məlumatlandırma və fikir mübadiləsinə həsr olunmuş “Maraqlı tərəflərlə əlaqələndirmə seminarı” keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclis, Nazirlər Kabineti, hakimlər, hüquq mühafizə orqanlarının və digər dövlət qurumlarının, eləcə də Vəkillər Kollegiyasının nümayəndələri, Avropa İttifaqının Azərbaycandaki Nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin rəhbəri Viktor Bojkov, Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkus və həmin ölkədən olan ekspertlər, Baş Prokurorluğun idarə və şöbələrinin əməkdaşları iştirak etmişlər.

Tədbiri açılış nitqi ilə açan Baş prokurorun müavini Elmar Camalov Baş Prokurorluq tərəfindən əmlakların bərpası və idarə edilməsi sisteminin təkmilləşdirilməsinə xüsusi önəm verildiyini və bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübənin ölkəmizin hüquq sistemində tətbiqi istiqamətində önəmli addımlar atıldığını bildirmişdir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin rəhbəri Viktor Bojkov Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Aİ arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektiv planları barədə məlumat vermişdir

Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin direktoru, eyni zamanda tərəfdaş ölkənin layihə rəhbəri cənab Jidrunas Bartkus ölkəmizdə aktivlərin bərpası və idarə olunması sisteminin təkmilləşdirilməsi üçün Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsi nəzərə alınaraq bir sıra layihələrin hazırlandığını qeyd etmişdir.

Daha sonra Tvinninq ekspertləri tərəfindən prokurorluq əməkdaşları ilə birgə hazırlamış Aktivlərin bərpası və idarə edilməsi üzrə Milli Strategiya və Fəaliyyət Planı, cinayət aktivlərinin bərpası üzrə ayrıca qanun layihəsi, genişləndirilmiş və mülki müsadirə, habelə müxtəlif qanunvericilik aktlarına dəyişikliklərə dair irəli sürülmüş təklifləri tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Tədbir çərçivəsində maraqlı tərəflərlə təqdim olunan yeni layihələr barədə fikir mübadiləsi aparılmışdır.



# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda kollegiya iclası keçirilib




Yanvarın 23-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 2022-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyətinin, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun struktur qurumlarında və ərazi hərbi prokurorluqlarında keçirilmiş əməliyyat müşavirələrinin nəticələrinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib.

Əvvəlcə kollegiya iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, Xanlar Vəliyev bildirib ki, müasir Azərbaycanın xilaskarı və qurucusu Ulu Öndər Heydər Əliyevin zamanı qabaqlayan mükəmməl siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrü olmasına rəğmən 2022-ci ildə də dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının hərtərəfli yaxşılaşdırılması prosesinin davamlılığı təmin edilib. Eyni zamanda, regionlarımız inkişaf edib, işğaldan azad olunmuş tarixi ərazilərimizdə abadlıq-quruculuq işləri uğurla davam etdirilib. Ötən il iqtisadi artım təxminən 5 faiz olub, qeyri-neft sektorunda iqtisadiyyat isə 9 faizdən çox artıb. Eyni zamanda, əməkhaqları, pensiyalar, təqaüdlər və sosial müavinətlər, o cümlədən şəhid ailələri və müharibə veteranlarına verilən təqaüdlər artıb, həmçinin manatın məzənnəsinin sabitliyi təmin olunub. Sadalananlar onu göstərir ki, Prezidentin fəaliyyəti digər dövlət başçılarına örnəkdir.

Azərbaycanın hərtərəfli inkişaf edərək daha da qüdrətlənməsində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində xalqına sədaqəti, sadəliyi, səmimiliyi ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyətinin



mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev, onun respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətlərindən, eləcə də milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin dünyada tanıdılması istiqamətində gördüyü böyük işlərdən danışıb.

Ötən ilin Hərbi Prokurorluq orqanlarının da uğurlu fəaliyyət ili kimi yadda qaldığını vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, əvvəlki illərdə



olduğu kimi, ötən ildə də qurumun fəaliyyəti səmərəli olmaqla, Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığının təmin edilməsi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması məqsədilə qarşıya qoyulan vəzifələr əməkdaşlar tərəfindən uğurla icra olunub. Hərbi prokuror bildirib ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99 faizi, o cümlədən bəzi qəbildən olan ağır cinayətlərin 100 faizi açılıb.



Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olub. Azərbaycan Ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarının qorunmasını, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsini təmin etmək məqsədilə hər il olduğu kimi, 2022-ci ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış “Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair”, “Cinayətkarlığa qarşı mübarizəyə dair”, “Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair” və sair mövzular üzrə tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib. Eyni zamanda, bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilib və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunub.

Bildirilib ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Hərbi Prokurorluq orqanları mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini daha da gücləndirib.

Vurğulanıb ki, görülmüş tədbirlər nəticəsində 2021-ci illə müqayisədə 2022-ci ildə qeydə alınmış qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri 83,3




şəxslərin şəxsiyyətinin müəyyən olunaraq, aidiyyəti üzrə təhvil verilməsi, sözügedən məsələlərlə əlaqədar zəruri tədbirlərin görülməsi istiqamətində də işlər davam etdirilib.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilib.

faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 73,7 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə qorxu ilə tələb etmə cinayətləri 62,1 faiz, mülkiyyət əleyhinə cinayətlər 28,9 faiz, xuliqanlıq cinayətləri 25 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 23,3 faiz, rüşvət alma və rüşvət vermə cinayətləri 19,9 faiz, qulluğa səhlənkar yanaşma cinayətləri 7,7 faiz və özünü öldürmə hadisələri 33,3 faiz azalıb.

Prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi də təmin olunub. 2021-ci illə müqayisədə 2022-ci ildə ərizə və şikayətlərin sayı 6,7 faiz azalıb ki, bu da vətəndaş məmnunluğunun daha da artmasına dəlalət edən haldır. Bundan başqa, şəxsi qəbulların sayı 15,7 faiz artıb. Vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin daha da təkmilləşdirilməsi barədə dövlət başçısı İlham Əliyevin dəyərli tövsiyələri bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırılaraq, hər bir əməkdaşdan gündəlik fəaliyyətində onlara ciddi əməl edilməsi tələb olunub.

Hərbi prokuror qeyd edib ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir. Vurğulanıb ki, o cümlədən müvafiq qurumlarla birlikdə həm I Qarabağ, həm də II Qarabağ müharibəsində, eləcə də ötən ilin istər avqust ayında, istərsə də sentyabr ayında Ermənistanın növbəti təxribatlarının qarşısı alınarkən həlak olmuş

Bildirilib ki, Hərbi Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılıb, bu sahədə aşkar olunan hər hansı nöqsan və pozuntuya qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq tədbirlərin görülməsi təmin edilib. Belə ki, 2022-ci ildə 7 hərbi prokurorluq işçisi intizam məsuliyyətinə cəlb olunub.

Sonra məruzə ətrafında çıxışlar olub. Azərbaycan Respublikası Hərbi prokurorunun müavinləri-ədliyyə general-mayoru Şəfahət İmranov, ədliyyə polkovniki Mehdi Hüseynzadə, ədliyyə polkovniki Fuad Məmmədov və Dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisi, ədliyyə polkovniki Səfər Əhmədov çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat verib.

Xalqın öz rəhbərinə olan sonsuz sevgisindən bəhs etməklə kollegiyanı yekunlaşdıran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi Ulu Öndər Heydər Əliyevin milli maraqlara xidmət edən müdrik siyasətinin möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

# Respublikanın Hərbi prokuroru Novruz bayramı ərəfəsində hərbi hissələrdə görüşlər keçirib



Novruz bayramı ərəfəsində Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Müdafiə nazirinin müavini Quru Qoşunların Komandanı general-leytenant Ənvər Əfəndiyev, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, eləcə də Hərbi Prokurorluğun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu Vətənin müxtəlif bölgələrində yerləşən hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə məlum zəlzələ zamanı həyatını itirən şəxslərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.



Hərbçiləri Novruz bayramı münasibəti ilə təbrik edərək, onlara ən xoş arzularını ifadə edən Hərbi prokuror Xanlar Vəliyev çıxışında bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın müdrik düşüncəsi və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Hərbi prokuror Xanlar Vəliyev həmçinin qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan ardıcıl uğurlarda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Respublikamızın dinamik inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, son illər Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi





səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Vətən müharibəsindən bəhs edən Xanlar Vəliyev, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir diplomatiyasından və yüksək sərkərdəlik məharətindən, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən, xalqımızın əzmkarlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin qəhrəmanlığından danışaraq əldə olunan möhtəşəm tarixi qələbəni Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb.

Çıxış edən digər şəxslər də bənzər məzmunda danışıblar.

Ardınca hüquqi maarifləndirici mövzularda çıxışlar olunub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, onların qayğı və problemləri ilə maraqlanılıb, birlikdə nahar edilib, hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra





texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq

etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda Novruz tonqalları alovlandırılıb.

# Hərbi Prokurorluğun işçiləri Novruz bayramı ilə əlaqədar hərbi hissələrdə olublar

Novruz bayramı ərəfəsində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumların yüksək rütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən 30 ilə yaxın işğal altında olmuş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə məlum zəlzələ zamanı həyatını itirən şəxslərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Bundan sonra, Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, qüdrətli Azərbaycanın











əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Eyni zamanda, Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə xüsusi vurğulanmaqla, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

Ardınca hüquqi maarifləndirici mövzularda çıxışlar olunub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, onların qayğı və problemləri ilə maraqlanılıb, hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2022-ci ildə görülmüş işlər müzakirə edilib





2022-ci il ərzində qanunların icra və tətbiq olunmasına nəzarət, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən görülmüş işlərə dair kollegiya iclası keçirilib.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının Prokuroru Səbuhi Şahverdiyev dövlət başçısı cənab İlham Əliyevin müvafiq Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təsis olunmasının, aparılan struktur islahatlarının prokurorluq orqanlarının da fəaliyyətini günün tələbləri səviyyəsində qurmalarına geniş imkanlar açacağını, insanların sosial rifah halının yüksəlməsinə xidmət edəcəyini vurğulayıb. Daha sonra Səbuhi Şahverdiyev ötən il ərzində görülmüş işlərlə bağlı ətraflı məlumat verib.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorunun müavini Sənan Paşayev çıxış edərək bildirib ki, xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət və müasir dövrün reallıqlarına uyğun islahatlar ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına, cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə, dövlət idarəçilik mexanizminin təkmilləşdirilməsinə xidmət edib. Dövlət başçısının birbaşa diqqət və qayğısı nəticəsində ölkəmizdə digər qurumlar və sahələrlə yanaşı Azərbaycan Prokurorluğu orqanlarında da idarəçiliyin təkmilləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində operativliyin təmin edilməsi istiqamətində nəzərəçarpacaq dəyişikliklər müşahidə edilməkdədir.

Məhz bu sahədə görülən işlərin bir mərhələsi olaraq Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun müasir tələblərə cavab verən yeni strukturu təsdiq edilib və bundan sonra Baş prokuror Kamran Əliyev tərəfindən Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun da yeni strukturu formalaşdırılıb.

Vurğulanıb ki, bu gün ölkəmizin digər bölgələri ilə yanaşı Naxçıvan Muxtar Respublikası da ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli inkişaf strategiyası ilə əhatə olunub və insanların hüquqlarının qorunması, sosial rifahın yüksəldilməsi istiqamətində əməli addımlar atılmaqdadır. Naxçıvan Muxtar Respublikası Prokurorluğu da muxtar respublikada insanların hüquq və azadlıqlarını qorumaqla, daxil olan müraciətlərə obyektiv və operativ şəkildə baxıb qanuni və əsaslı qərarlar qəbul etməklə, baş vermiş cinayət hadisələrinin vaxtında qeydə alınmasını, qanunlara riayət edilməsini təmin etməklə, möhtərəm cənab Prezident tərəfindən həyata keçirilən davamlı inkişafa, məqsədyönlü və uğurlu islahatlara öz töhfəsini verməlidir. Bunun üçün muxtar respublika prokurorluğu orqanlarının əməkdaşları vətəndaşların müraciətlərinə baxılması, cinayət xarakterli müraciətlərin araşdırılması, törədilmiş hər bir əmələ obyektiv hüquqi qiymətin verilməsi, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarətin gücləndirilməsi istiqamətində öz fəaliyyətlərini daha da təkmilləşdirməli və bu sahədə Azərbaycan Respublikasının qanunlarını, aidiyyəti digər normativ aktların tələblərini, Azərbaycan Respublikası Baş prokurorunun əmr, göstəriş və tapşırıqlarını rəhbər tutmalıdırlar.

İclas zamanı Şərur, Babək və Culfa rayon prokurorları çıxış edərək aidiyyəti üzrə görülmüş işlər haqqında məlumat veriblər.

Tədbir zamanı Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, məruzələrlə çıxış ediblər.

İclasa yekun vuran Naxçıvan Muxtar Respublikasının Prokuroru Səbuhi Şahverdiyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı istiqamətində muxtar respublikanın prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları tərəfindən yeni Etik Davranış Kodeksinin tələbləri öyrənilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin təşkilatçılığı ilə yanvar ayının 16-da Naxçıvan şəhər və Kəngərli rayon prokurorluqlarında, yanvar ayının 23-də Şərur və Sədərək rayon prokurorluqlarında, yanvar ayının 30-da Babək və Şahbuz rayon prokurorluqlarında, fevral ayının 13-də isə Culfa və Ordubad rayon prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"nin tələbləri" mövzusunda seminar keçirilib.





Seminarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi", Kodeksin əhatə dairəsi, Kodeksin məqsədləri və prokurorluq işçilərinin etik davraniş prinsipləri barədə məlumat verərək qeyd etmişdir ki, Kodeks bütün prokurorluq işçilərinə şamil edilir. Hər bir prokurorluq işçisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarını, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı, Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartlarını, prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsiplərini və "Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında" Avropa Şurası Nazirlər Komitəsinin 06.10.2000-ci il tarixli 19 saylı Tövsiyələrini rəhbər tutaraq, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla, habelə bu Kodekslə müəyyənləşdirilən davranış qaydalarına riayət etməlidir.

Mövzu ətrafında Naxçıvan Muxtar Respublikası prokurorunun xidməti araşdırmalar üzrə köməkçisi İsfəndiyar Qasımov və Kadrlar şöbəsinin böyük prokuroru Turqay Həşimli çıxış etmiş, seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının tabe rayon (şəhər) prokurorluqlarında insan hüquq və azadlıqlarının müdafiəsinə həsr edilmiş seminarlar keçirilib







Yanvar ayının 31-də Sədərək rayon prokurorluğunda BMT-nin Baş Məclisinin 217 (III) saylı 10.12.1948-ci il tarixli qətnaməsi ilə qəbul və bəyan edilmiş "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin müddəaları" mövzusunda seminar keçirilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov qeyd edib ki, Bəyannamə hər insanın eyni hüquqlara sahib olması fikrinə əsaslanan ilk beynəlxalq sənədlərdən biridir. Əvvəlki beynəlxalq bəyannamə və sazişlərin əksəriyyəti hüquqları yalnız milli qanunvericiliklə irəli sürüldüyü halda tanıyırdı. İlk olaraq, Bəyannamə 58 coğrafi, mədəni və siyasi cəhətdən fərqli bölgəni ümumbəşəri bir sənədin yaradılması nəticəsində bir araya gətirmişdi. Bəyannamənin məcburi olmamasına baxmayaraq, o, müxtəlif beynəlxalq müqavilələrdə öz əksini tapan beynəlxalq insan hüquqları standartları yaratmış, Bəyannamə 1947-ci ilin yanvarı ilə 1948-ci ilin dekabrı arasında hazırlanmışdır. Bəyannamədə qeyd olunur ki, hər bir şəxs onun hüquq və vəzifələrinin təyini və ona qarşı irəli sürülmüş cinayət ittihamının əsaslığının müəyyənləşdirilməsi üçün onun işinin müstəqil və bitərəf məhkəmədə, tam bərabərlik əsasında, aşkarlıq və ədalətin bütün tələblərinin gözlənilməsi şəraitində baxılması hüququna malikdir. Sonda mövzu ilə bağlı suallar cavablandırılıb.

Fevral ayının 10-da Kəngərli rayon prokurorluğunda "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"ndan irəli gələn vəzifələr" mövzusunda seminar keçirilib. Seminar çərçivəsində Faiq Səfərov bildirib ki, bu Milli Fəaliyyət Proqramı 2006-cı il tarixli Milli Fəaliyyət Planının məntiqi davamı olmaqla, bu Planın bəzi maddələrinin icrasının tamamlandığı nəzərə alınaraq dövlət orqanları qarşısında insan hüquqlarının müdafiəsi sahəsində yeni vəzifələr də müəyyən etmişdir. Bu vəzifələr həmçinin, ölkəmizin üzərinə götürdüyü öhdəliklərin icrası baxımından da əhəmiyyətli olmaqla, mövcud prioritetlərə əsaslanaraq gələcəyə yönəlmişdir. Milli Fəaliyyət Proqramında, qanun layihələrinin hazırlanması zamanı ölkə Konstitusiyasında və Respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, ölkəmizin tərəfdar çıxdığı insan hüquq və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi öz əksini tapmışdır. Qeyd olunub ki, Milli Fəaliyyət Proqramı ölkə Konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edir. Sonda verilən suallar cavablandırılıb.

Mart ayının 6-da Şahbuz rayon prokurorluğunda "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələr" mövzusunda seminar keçirilib. Seminarda çıxış edən Faiq Səfərov qeyd edib ki, insan hüquq və azadlıqlarının təmin edilməsi, hüquqi, demokratik və dünyəvi dövlət yaradılması, vətəndaş cəmiyyətinin qurulması həmişə bəşəriyyəti düşündürən problemlərdən olmuşdur.

Məhz hüquqi dövlət şəraitində əsas insan və vətəndaş hüquqları və azadlıqları, hamının qanun və məhkəmə qarşısında bərabərliyi, vətəndaş cəmiyyətinin bərqərar olunması təmin edilə bilər. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması sahəsində prokurorluq orqanlarının da üzərinə böyük vəzifələr düşmüşdür. Həmin vəzifələrin müasir tələblər səviyyəsində həyata keçirilməsini təmin etmək üçün prokurorluq orqanlarında köklü islahatların həyata keçirilməsi zamanın tələbi idi. İnsan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində aparılan siyasət ardıcıl, dönmədən, uğurla davam etdirilir. Bu sahədə əldə olunan nailiyyətlər dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına səbəb olmuşdur. Sonda suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının tabe prokurorluqlarında inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətinə həsr edilmiş seminarlar keçirilib









Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi Cinayət təqibindən kənar icraatlar şöbəsi ilə birlikdə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan dövlət orqanlarının əməkdaşlarının iştirakı ilə fevral ayının 27-də Naxçıvan şəhər və Kəngərli rayon, mart ayının 7-də Babək və Şahbuz rayon, mart ayının 14-də Şərur və Sədərək rayon, mart ayının 27-də isə Culfa və Ordubad rayon prokurorluqlarında "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminarlar keçirilib.

Seminarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri, inzibati məsuliyyətin əsasları, inzibati xətalar qanunvericiliyinin prinsipləri, inzibati xəta və inzibati məsuliyyət barədə məlumat verərək qeyd edib ki, inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. İnsan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları, qurumları və vəzifəli şəxslər məsuliyyət daşıyırlar. İnzibati xətalar qanunvericiliyi insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları, qurumları və vəzifəli şəxslər tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir. İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən insan ləyaqətini alçaldan qərarların verilməsinə və hərəkətin edilməsinə yol verilmir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi Anar Məmmədov isə inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquqları və vəzifələri, sübutları və onların qiymətləndirilməsi, icraatın təmin edilməsi tədbirlərinin tətbiqi, həmin icraatın mərhələləri barədə məlumat verərək bildirmişdir ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. Prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardadan onun surətinin İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində protest vermək hüququna malikdir.

Sonda mövzu ilə bağlı seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən orta ümumtəhsil məktəblərində maarifləndirmə tədbirləri keçirilib





Culfa rayon prokurorluğunun təşkilatçılığı ilə fevral ayının 14-də rayonun Qızılca kənd tam orta məktəbində "18 yaşına çatmamış şəxslərin əməyindən istifadənin xüsusiyyətləri və bunların pozulmasına görə məsuliyyət" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon prokurorluğunun əməkdaşı Heydər İbrahimli və rayon Təhsil şöbəsinin əməkdaşı çıxış etmişlər. Heydər İbrahimli Azərbaycan Respublikasının Əmək Məcəlləsində təsbit olunmuş 18 yaşına çatmamış şəxslərin əməyindən istifadənin xüsusiyyətləri və bu sahədə qanunvericiliyin tələblərinin pozulmasının yaratdığı məsuliyyət barədə məlumat vermiş və mövzu ilə bağlı şagirdləri maraqlandıran sualları cavablandırmışdır.

Kəngərli rayon prokurorluğunun təşkilatçılığı ilə fevral ayının 15-də rayonun Qabıllı kənd tam orta məktəbində "Yetkinlik yaşına çatmış övladlar valideynlərini saxlamağa borcludurlar" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon prokurorluğunun müstəntiqi Səbuhi Abdullayev və rayon Təhsil şöbəsinin əməkdaşı çıxış etmişlər. Səbuhi Abdullayev yetkinlik yaşına çatmış övladların Azərbaycan Respublikasının ailə qanunvericilində təsbit olunmuş vəzifələri barədə danışaraq bu vəzifələrin yerinə yetirilməməsinin səbəb olduğu inzibati məsuliyyət, həmçinin milli-mənəvi dəyərlərimiz, övlad-valideyn münasibətləri barədə şagirdlərə ətraflı məlumat vermişdir.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda vətəndaşların qəbulu zamanı peşəkar davranışın mənəvi-psixoloji aspektlərinə həsr edilmiş seminar keçirilib





Fevral ayının 16-da Muxtar Respublika Prokurorluğunda "Prokurorluqda vətəndaşların qəbulu zamanı peşəkar davranışın mənəvi-psixoloji aspektləri" mövzusunda seminar keçirilib. Seminarda Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşı Aysel Nəcəfli, Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev, Prokurorluğun şöbə rəisi Faiq Səfərov, şöbə prokurorları İbrahim Mənsumov və Aygül Əsədli çıxış ediblər.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ekoloji hüquqpozmalarla bağlı seminar keçirilib







Fevralın 23-də Naxçıvan Muxtar Respublikasının Prokurorluğunun təşkilatçılığı ilə "Ekoloji hüquqpozmalar - qanunsuz ağackəsmə, yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma hallarının araşdırılması" mövzusunda seminar keçirilib.

Seminarda Muxtar Respublika Prokurorluğu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən ekoloji hüquqpozmaların aşkar edilməsi, araşdırılması, bu sahədə nəzarətin təşkili, ekoloji tarazlıq və təhlükəsizliyin təmin olunması, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınması, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, profilaktikası, təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi və digər mövzular üzrə ətraflı çıxışlar edilmiş, səmərəli müzakirələr aparılmışdır.

# Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Şahbuz rayonunda vətəndaşları qəbul edib





Fevralın 24-ü Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev Şahbuz rayon prokurorluğunun inzibati binasında rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Naxçıvan Muxtar Respublikası prokurorunun müavini xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini və şəhidlər xiyabanını ziyarət edib, gül dəstələri düzərək əziz xatirələrini ehtiramla yad edib.

Qəbulda iştirak edən 35 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət





işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Naxçıvan Muxtar Respublikası prokurorunun müavini əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib





Martın 9-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Baş prokurorun birinci müavini Elçin Məmmədovun rəhbərliyi ilə Muxtar Respublika, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqların əməkdaşlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.



Müşavirə iştirakçıları əvvəlcə Ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad edib.

Bundan sonra, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş keçirilib. Görüşdə Muxtar Respublikada qanunçuluq və hüquq qaydalarının təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Müşavirədə giriş nitqi ilə çıxış edən Elçin Məmmədov tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, o cümlədən məhkəmə və hüquq sistemində aparılmış islahatları, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verilib.





İştirakçıların diqqətinə çatdırılıb ki, şəhidlik zirvəsinə ucalmış hərbçi və mülki vətəndaşlarımızın ailələri, döyüşlər zamanı yaralanmış şəxslər, eləcə də müharibə iştirakçıları Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daimi diqqət və qayğısı ilə əhatə olunub.

Daha sonra çıxışda Naxçıvan Muxtar Respublikasında cinayətkarlığın dinamikasına, cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyətinə toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar müzakirə edilib.

Həmçinin, Baş Prokurorluğun idarə rəisləri Tural Aslanov, Natiq Hüseynov, Natiq Abdullayev, Mahir Abbasov və Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev prokurorluğun müvafiq fəaliyyət sahələri üzrə görülmüş işlər barədə müşavirədə məruzələrlə çıxış edib.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarının əməkdaşları ilə xidməti fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülməsi zəruri olan tədbirlər və qarşıda duran vəzifələr müzakirə edildikdən sonra iclasa yekun vuran Elçin Məmmədov prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.



# Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda seminar keçirilib



Mart ayının 13-də Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda Muxtar Respublikanın Fövqəladə Hallar Nazirliyi əməkdaşları üçün "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda seminar keçirilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə keçirilən bu seminarı şöbə rəisi Faiq Səfərov açaraq bildirib ki, haqqında bəhs ediləcək mövzu bu gün ətrafımızda baş verən və ya baş verə biləcək fəlakətləri, eləcə də insan əməlinin nəticəsində yarana biləcək hadisələri əhatə etməkdədir. Hər iki halda qanunvericilikdə davranış qaydaları nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Elşad İbrahimov yanğın təhlükəsizliyi qaydalarının pozulmasının yaratdığı cinayət məsuliyyəti haqqında danışaraq qeyd edib ki, üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurduqda, həmçinin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda cinayət məsuliyyəti yaradır.

Çıxışda bu cür hadisələrin başvermə səbəblərini müəyyənləşdirmək üçün görülməli zəruri tədbirlər haqqında məlumat verilib. Həmçinin yanğın hadisələri baş verərkən Fövqəladə Hallar Nazirliyinin məsul əməkdaşları tərəfindən hadisə yerinin mühafizəsi düzgün təşkil olunmalı, hadisə şahidlərinin dairəsi vaxtında və tam müəyyən edilməklə hadisənin qəsd və ya ehtiyatsızlıqdan törədilməsinin müəyyən olunması üçün operativlik təmin olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Anar Məmmədov çıxışında Fövqəladə Hallar Nazirliyinin məsul əməkdaşları tərəfindən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin tələblərinə düzgün əməl edilməsinin vacibliyini vurğulayaraq inzibati xətanın əlamətləri aşkar olunarsa, bu barədə inzibati protokol tərtib edilməsi ilə bağlı geniş məlumat verib.

Vurğulanıb ki, yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı müvafiq prokurora bildirilir. Həmin iş üzrə prokurorun iştirakı olmadan yalnız o hallarda baxılır ki, işə baxılmasının yeri və vaxtı ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Baş Prokurorluğun əməkdaşları Portuqaliya Respublikasının narkotik vasitələr və psixotrop maddələrdən istifadəyə qarşı mübarizə sistemi ilə tanış olub



Narkomaniyanın qlobal problem olaraq qaldığını, ona qarşı mübarizənin Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri olmasını nəzərə alaraq, sistemli yanaşma və müsbət təcrübənin öyrənilməsi məqsədilə Baş Prokurorluğun əməkdaşlarından ibarət nümayəndə heyəti Avropa Birliyinin TAIEX proqramı çərçivəsində 16-18 yanvar tarixlərində Lissabon şəhərində səfərdə olmuşlar.

Səfərdə iştirak edən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin əməkdaşları – Anar Nəsibov, Murad Vəliyev, Vüsal Abdullayev və Valeh Ələkbərov Portuqaliya Respublikasının Narkomaniya ilə mübarizə üzrə milli koordinatoru və Narkomanların Davranışı və Asılılığına Müdaxilə Baş İdarəsinin (SICAD) rəhbəri Joao Goulao və Ədliyyə Polisinin Narkotik Satışı ilə Mübarizə Milli Birliyinin (UNCTE) direktoru Artur Vaz ilə görüşlər keçirmişlər.

Görüş çərçivəsində narkotiklərlə mübarizənin hüquqi aspektləri, narkotik maddə asılılığından əziyyət çəkən şəxslərin müalicəsi istiqamətində milli fəaliyyət planları və əldə olunmuş nəticələr barədə ətraflı məlumat verilmişdir.

Səfərin növbəti mərhələsində nümayəndə heyəti Portuqaliya Respublikası Baş Prokurorluğunun inzibati binasının yerləşdiyi Palmela sarayı ilə tanış olmuş, Prokurorluğun Cinayət işləri üzrə İstintaq və Əməliyyat İdarəsinin prokurorları ilə görüşərək ətraflı fikir mübadiləsi aparılmış, narkotiklərlə mübarizə sahəsində Portuqaliya və Azərbaycan qanunvericiliyinin oxşar və fərqli cəhətləri, effektiv mübarizə, qarşılıqlı əməkdaşlıq istiqamətində ətraflı fikir mübadiləsi aparılmışdır.

Bundan basqa, əməkdaşlarımız Avropa Birliyinin Narkotiklər və Narkotikdən Asılılığın Monitorinqi Mərkəzinin (EMCDDA) nümayəndələri və digər aidiyyəti qurumların məsul əməkdaşları ilə görüşlər keçirmişdir





Səfər çərçivəsində nümayəndə heyətinə narkotik vasitələr və psixotrop maddələrdən istifadə ilə mübarizə sahəsində Avropa Birliyinin digər dövlətləri ilə Portuqaliya təcrübəsi arasında mövcud fərqlər, onların üstün və zəif cəhətləri, həmçinin, əldə olunmuş nailiyyətlərlə bağlı geniş məlumat verilmişdir.

## Baş Prokurorluğun əməkdaşları Tbilisi şəhərində "Əmlakın bərpası və həbsə alınmış əmlakın idarə olunması" mövzusuna həsr edilmiş təlimdə iştirak ediblər



Prokurorluq əməkdaşlarının peşə hazırlığının artırılması, bu sahədə müvafiq qabaqcıl təcrübəyə sahib beynəlxalq təsisatların imkanlarından istifadə edilməsi daim diqqət mərkəzində saxlanılır.

Avropa Şurası və Avropa İttifaqı ilə birgə həyata keçirilən Yaxşı İdarəçilik naminə tərəfdaşlıq (PGG 2) regional layihəsi çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğunun əməkdaşları bir sıra mühüm tədbirlərdə iştirak edirlər.

Bu tədbirlər çərçivəsində cari ilin 30-31 yanvar tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Əmlakın bərpası və həbsə alınmış əmlakın idarə olunması" mövzusuna həsr edilmiş təlim tədbiri keçirilib.

Gürcüstan, Moldova və digər dövlətlərin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru Tərlan Kərimov, Elm-Tədris Mərkəzinin böyük prokuroru İradə Xəlilova, həmin Mərkəzin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova təmsil edib.



Təlim zamanı Avropa Şurasının ekspertləri tərəfindən cinayət yolu ilə əldə edilmiş vəsaitlərin izlənməsi, habelə cinayət təqibi zamanı həbsə alınmış əmlakın idarə olunması sahəsində mütərəqqi üsullar, qabaqcıl təcrübələr və mövcud çağırışlar barədə təqdimatlar keçirilib.

Tədbirdə Azərbaycanda bu sahədə həyata keçirilən institusional və funksional islahatlar barədə iştirakçılara məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

İştirakçılar tərəfindən təlimdə əldə edilmiş bilik və bacarıqların ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan analoji təlimlərdə istifadəsi nəzərdə tutulub.

## Prokurorluq əməkdaşları "Paralel maliyyə araşdırmaları" mövzusunda təşkil edilmiş beynəlxalq seminarda iştirak ediblər



Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi, Dövlət ittihamının müdafiəsi üzrə idarə və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin əməkdaşları cari ilin 6-7 fevral tarixlərində Avropa İttifaqı və Avropa Şurasının birgə təşkil etdiyi "Paralel Maliyyə araşdırmaları" mövzusunda təşkil edilmiş seminarda iştirak edib.



Seminarın təqdimatı Avropa Şurasının ekspertləri, Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarında maliyyə istintaq təcrübəsinə malik mütəxəssislər tərəfindən aparılıb.

Tədbir zamanı ekspertlər Birləşmiş Krallıq və İtaliya Respublikasında istintaq edilmiş cinayət işləri üzrə praktiki misallar təqdim edərək paralel maliyyə araşdırmalarının cinayət aktivlərinin bərpası və idarə edilməsi sahəsinə müsbət təsirləri barədə geniş məlumat verib.

Seminar zamanı "paralel maliyyə araşdırmaları" metodu ilə cinayət gəlirlərinin izlənilməsi və aşkar edilməsi, eyni zamanda onları gizləyən şəxslərin müəyyən edilməsinin mümkünlüyü və mütərəqqi müsadirə metodlarının təqdimatı baş tutub.

İştirakçılarla, həmçinin, interaktiv şəkildə maliyyə uyğunsuzluğunun hesablanması üzrə praktiki məşğələ keçirilib.

# Prokurorluq əməkdaşları “Tvinninq” layihəsi çərçivəsində İtaliya Respublikasında təşkil olunmuş tədris turunda iştirak edib





“Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı “Tvinninq” layihəsi çərçivəsində car ilin 13-15 fevral tarixlərində Azərbaycan Respublikası Baş prokurorunun müavini Elmar Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya Respublikasında tədris turunda iştirak edib.

Səfər zamanı İtaliya Respublikasının aktivlərin aşkar olunası, izlənməsi, bərpası, idarə edilməsi və maliyyə istintaqına dair təcrübəsi yaxından öyrənilib.

Səfər çərçivəsində İtaliya Respublikasının Maliyyə Qvardiyasında, həmin qurumun Valyutanın saxtalaşdırılmasına qarşı Mübarizə üzrə xüsusi Xidmətində, “Beynəlxalq əməkdaşlıq Xidməti” (SCİP) ilə keçirilmiş görüşlərdə mütəşəkkil cinayətkar qrupların cinayət aktivlərinin müəyyən edilməsi, üzərinə həbs qoyulması, bərpası və istifadəyə yönləndirilməsi, çirkli pulların yuyulması və maliyyə cinayətləri ilə mübarizədə istintaq metodologiyası və müsadirə alətləri və digər mövzularda çıxış, təqdimatlar edilmiş və müzakirələr aparılıb.

Bundan başqa, Maliyyə Qvardiyasının Mütəşəkkil Cinayətkarlığın İstintaqı Xidməti tərəfindən cinayət yolu ilə əldə olunmuş əmlakın aşkarlanması, izlənməsi və bərpası, aktivlərin idarə edilməsi mövzusunda çıxışlar edilib, qurumun “Molecula” məlumat bazasının təhlilinə dair məlumat verilib.

Keçirilən görüşlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq prokurorluqda davam etdirilən hüquqi islahatlar, həmçinin Müzəffər Ali Baş komandanın rəhbərliyi altında şücaətli ordumuzun 30 ilə yaxın müddət ərzində Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılan əraziləri azad etmələrinə dair məlumatlar verilib.





## Korrupsiyaya qarşı mübarizədə beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq davam etdirilir



Cari ilin 13-17 fevral tarixlərində Asiya İnkişaf Bankının (AİB) məsul nümayəndəsi Jose Luis Syquianın başçılıq etdiyi ekspertlər qrupu ölkəmizdə səfərdə olub.

Qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət etməklə ən böyük donor təşkilatlardan biri olan təşkilat nümayəndələrinin səfərinin məqsədi müxtəlif dövlət orqanlarında görüşlərin keçirilməsi, korrupsiyaya qarşı mübarizə, dövlət satınalmaları, audit və digər istiqamətlər üzrə ölkə təcrübəsinin qiymətləndirilməsi olub.

Səfər çərçivəsində xarici qonaqlarla Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nümayəndələri arasında ikitərəfli görüş keçirilib, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərlə bağlı səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla qəbul edilmiş Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planının icra vəziyyəti, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yeni qanunların qəbul edilməsi, bu növ qanunsuz gəlir və əmlakların müsadirə edilməsinə dair milli mexanizmlərin təkmilləşdirilməsi üçün prokurorluq orqanları tərəfindən həyata keçirilmiş tədbirlər xarici ekspertlərin diqqətinə çatdırılıb.

Bundan başqa, qarşılıqlı tərəfdaşlıq fəaliyyətinin gələcək perspektivlərinə dair məsləhətləşmələr aparılmış, AİB-nin ölkəmiz üzrə 2024-2028-ci illəri əhatə edəcək proqram sənədi çərçivəsində Azərbaycan Prokurorluğu ilə əməkdaşlıq arealının daha da genişləndirilməsi niyyəti ifadə edilib.

## Baş Prokurorluğun əməkdaşı Portuqaliyanın Lissabon şəhərində baş tutmuş beynəlxalq təlimdə iştirak edib

Cari ilin 14-16 fevral tarixlərində Portuqaliya Respublikasının paytaxtı Lissabon şəhərində Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi CyberEast layihəsi çərçivəsində “Birgə Təhqiqat Komandaları və xarici xidmət təchizatçıları ilə inkişaf etdirilmiş əməkdaşlıq” mövzusunda regional təlim keçirilib.





30-dan çox dövlətin və nüfuzlu beynəlxalq təşkilatlardan 50-dən çox nümayəndənin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin böyük prokuroru Elmir Zeynalov təmsil edib.

Tədbir zamanı kibercinayətlərin müxtəlif təzahürləri, bu növ cinayətlərin təqibi, ortaya çıxan problemlər və onların həlli yolları, beynəlxalq əməkdaşlıq, Avropa Şurasının “Kibercinayətkarlıq haqqında” Budapeşt Konvensiyası və onun Əlavə Protokollarında nəzərdə tutulan müddəalar müzakirə edilib. Daha sonra beynəlxalq ekspertlər tərəfindən kibercinayətlərlə bağlı keyslər üzrə praktiki məşğələlər keçirilib.

Təlimin yekununda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.

# Baş Prokurorluğun əməkdaşı Xorvatiyanın Zaqreb şəhərində Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş konfransda iştirak edib






Fevralın 22-də Azərbaycanın Xorvatiyadakı Səfirliyi tərəfindən Zaqreb şəhərində təşkil edilmiş bu konfransda Xorvatiya Respublikasının dövlət qurumlarının rəsmiləri və Parlamentinin üzvləri, Zaqrebdə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, AR Baş Prokurorluğunun nümayəndəsi, Ali təhsil müəssisələrinin rəhbərləri, beynəlxalq ekspertlər, Xorvatiyada yaşayan azərbaycanlılar və digər şəxslər iştirak etmişdir.

Tədbirdə ilk öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Çıxış edən səfir Anar İmanov, Xocalı soyqırımı barədə ətraflı məlumat verərək hər il fevralın 26-da dünyanın bir çox ölkələrində "Xocalıya ədalət" kampaniyası çərçivəsində müxtəlif tədbirlərin keçirildiyini, Azərbaycan tərəfindən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması və bu tip cinayətlərin beynəlxalq səviyyədə tanıdılması ilə bağlı zəruri işlərin görüldüyünü bildirmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorunun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov konfransda çıxış edərək tədbir iştirakçılarına Xocalı soyqırımı, Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş müxtəlif terror aktları, 1-ci Qarabağ müharibəsi dövründə törədilmiş qətliamlarla bağlı faktlar təqdim etmiş, habelə 2-ci Qarabağ müharibəsi zamanı törədilmiş hərbi cinayətlər barədə ətraflı məlumat vermişdir.

Bundan başqa, tədbirdə iştirak edən şəxslər Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən pislənməsini, gələcəkdə bu tip qanlı hadisələrin təkrarlanmaması üçün cinayətkarların cəzalandırılmasının vacibliyini qeyd etmişlər.

Tədbirdə, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımını əks etdirən sənədli film nümayiş etdirilmiş və "Xocalıya ədalət" kampaniyası çərçivəsində nəşr olunmuş bukletlər tədbir iştirakçılarına təqdim olunmuşdur.



# Baş Prokurorluğun nümayəndə heyəti Litvada tədris turunda iştirak edib







"Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi çərçivəsində 20-24 fevral 2023-cü il tarixlərində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə başlanan tədris turunda Baş Prokurorluğun nümayəndə heyəti iştirak edib.

Səfər zamanı Litva Respublikasının aktivlərin bərpası, idarə edilməsi və maliyyə istintaqına dair təcrübəsi yaxından öyrənilib.

Tədris çərçivəsində Litva Respublikasının Xüsusi İstintaq Xidməti (STT), Müəssisələrin Reyestri Dövlət Mərkəzi, Maliyyə Cinayətlərinin İstintaqı Xidməti və Litva Cinayət Polisi Bürosunda "İnteqrasiya edilmiş Cinayət Proseduru" məlumat bazası (İBPS), maliyyə istintaqı, əmlakların (kriptovalyuta tranzaksiyalarının) müəyyən edilməsi, izlənilməsi, dondurulması mexanizmləri, İT alətlərindən istifadə, çirkli pulların yuyulmasının qarşısının alınması, eləcə də, əmlakların aşkar olunması üzrə CARİN, SİENA kimi əməkdaşlıq formaları barədə məlumatlar verilib, mövzular üzrə ətraflı müzakirələr aparılıb.

Səfər zamanı Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskiene və Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkus nümayəndə heyətini qəbul edib, "Əmlakların bərpası sistemində prokurorluğun rolu" və "Cinayət işlərində qanunsuz varlanma və müsadirə elementlərinin tətbiqinin praktiki aspektləri" adlı təqdimatlar nümayiş etdirilib.

Tədbir zamanı keçirilən görüşlərdə Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq prokurorluqda davam etdirilən hüquqi islahatlar, həmçinin, Müzəffər Ali Baş komandanın rəhbərliyi altında şücaətli ordumuzun 30 ilə yaxın müddət ərzində Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmış torpaqları azad etmələrinə dair məlumatlar verilib.



# Baş Prokurorluğun əməkdaşları İtaliyanın Roma şəhərində "Aktivlərin hədəflənməsi və bərpası sistemlərinin öyrənilməsi və inkişafı" üzrə forumda iştirak ediblər






Fevralın 27-28-i tarixlərində İtaliyanın Roma şəhərində "Aktivlərin hədəflənməsi və bərpası sistemlərinin öyrənilməsi və inkişafı" üzrə 1-ci Forum keçirilib.

Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF) və İtaliyanın Maliyyə Qvardiyası ilə birgə təşkil olunmuş tədbir İtaliya Maliyyə qvardiyasının iqtisadi-maliyyə məktəbində baş tutub.

Tədbirdə Baş Prokurorluğu Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev və həmin idarənin prokuroru Ziya Hacıyev təmsil edib.

Maliyyə kəşfiyyatı və aktivlərin bərpası sahəsi üzrə nüfuzlu ekspertlərin, eləcə də, maliyyə cinayətlərinin istintaqına məsul yüzdən çox şəxsin iştirak etdiyi tədbirdə cinayət aktivlərinin izlənməsi, aşkar edilməsi, qaytarılması və idarə olunması sahəsində ən yaxşı və qabaqcıl təcrübə paylaşılıb, bu sahədə aktual məsələlər müzakirə olunub, vergidən yayınma və aktivlərin qaytarılması arasında əlaqə, genişləndirilmiş müsadirənin tətbiqi mövzularında fikir mübadiləsi aparılıb.

Bundan başqa, müxtəlif ölkələrdə çirkli pulların yuyulmasının profilaktikası və maliyyə cinayətlərinə operativ reaksiya sistemləri, cinayət yolu ilə əldə olunan gəlirlərin müəyyənləşdirilməsi və araşdırılması üçün vasitələr mövzularında təqdimatlar nümayiş etdirilib.

# "Korrupsiyaya qarşı mübarizənin əsasları" mövzusunda beynəlxalq seminar keçirilib



Martın 9-da Baş prokuror yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi tərəfindən Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizənin əsasları" mövzusunda onlayn beynəlxalq seminar keçirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Millət vəkili, Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları və digər qurumlar tərəfindən görülən tədbirlər barədə məlumat verib.

Seminarda Beynəlxalq Anti-Korrupsiya Akademiyasının mühazirəçisi, ABŞ-ın Yel Universitetinin hüquq üzrə fəlsəfə doktoru, professor Maykl Conston korrupsiyaya qarşı mübarizənin əsasları sahəsində beynəlxalq təcrübəni dinləyicilərin diqqətinə çatdırıb.

Sonda iştirakçılarla birgə mövzu ilə bağlı müzakirələr aparılıb.

# Baş Prokurorluğun nümayəndəsi Avropa Şurası tərəfindən təşkil olunmuş Fransanın Strasburq şəhərində tədris səfərində olub









Avropa Şurası tərəfindən "Azərbaycanda Avropa Məhkəməsi qərarlarının icrasının təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin Administrasiyanın, Ali Məhkəməsinin və Baş Prokurorluğunun nümayəndələri 8-10 mart 2023-cü il tarixlərində Fransanın Strasburq şəhərində təşkil olunan seminarda iştirak edib.

Tədris səfərində Baş Prokurorluğu Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova təmsil edib.

Baş Prokurorluğun nümayəndəsi səfər çərçivəsində Avropa Şurası Nazirlər Komitəsinin 1459-cu İnsan Hüquqları (DH) iclasında iştirak edib.

Bundan başqa, Avropa Şurasının İcra Departamenti ilə plenar iclasda icra prosesində icmal və qərarlara əməl etmək öhdəliyi, ibtidai araşdırmanın, məhkəmə icraatının yenidən başlanılması, prosessual aspektlər, Fəaliyyət Planlarının və Hesabatların hazırlanması mövzularında müzakirələr keçirilib, "HUDOC-EXEC" məlumat bazasına dair təqdimat edilib, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsinin hakim və hüquqşünasları ilə görüşlər keçirilməklə qarşılıqlı səmərəli fikir mübadiləsi aparılıb.



## Baş Prokurorluğun əməkdaşları Tbilisi şəhərində təşkil edilmiş regional seminarda iştirak edib

Cari ilin 15-16 mart tarixlərində Tbilisi şəhərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə Gürcüstanın Prokurorluğu tərəfindən cinsi istismar məqsədi ilə insan alverinə qarşı Cənubi Qafqaz və Mərkəzi Asiya təcrübəsinə həsr olunmuş birgə regional seminar keçirilib.



Tədbirdə Baş Prokurorluğun əməkdaşları Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların




icrasına nəzarət idarəsinin prokuroru Elvar Həsənov və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Mələk Əliyeva iştirak etmişlər.

Cinsi istismar məqsədi ilə insan alverinə qarşı mübarizə sahəsi üzrə nüfuzlu ekspertlərin, eləcə də, insan alveri cinayətlərinin istintaqına məsul şəxslərin iştirak etdiyi tədbirdə Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ən yaxşı və qabaqcıl təcrübə paylaşılıb, bu sahədə aktual məsələlər müzakirə olunub, qurumlararası əməkdaşlığın və koordinasiyanın gücləndirilməsində qeyri-hökumət təşkilatların və digər vətəndaş cəmiyyəti institutlarının rolu mövzularında fikir mübadiləsi aparılıb.

Həmçinin, Baş Prokurorluğu təmsil edən əməkdaşlar tərəfindən cinsi istismar məqsədi ilə insan alverinə qarşı mübarizədə idarələrarası, qurumlararası və transsərhəd əməkdaşlıq mövzularında təqdimatlar nümayiş etdirilib.

## Baş Prokurorluğun nümayəndəsi Strasburqda iclasda iştirak edib

Martın 30-31-də Strasburqda Avropa Şurasının Nifrət cinayətləri üzrə ekspert komitəsinin 3-cü iclası keçirilib.

Tədbirdə ölkəmizi təmsil edən Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov prokurorluq orqanlarında aparılan islahatlar çərçivəsində nifrət zəminində baş verən cinayətlərə, həmçinin məişət zorakılığı, qadınlara, azyaşlılara və cinsi azlıqlara qarşı şiddət və zorakılıqla mübarizə sahəsində görülən qanunvericilik və praktiki tədbirlər haqda danışıb.

Müzakirələr nəticəsində Komitə tərəfindən Şuranın Nazirlər Komitəsinə nifrət cinayətlərinə qarşı mübarizəyə dair tövsiyə və təlimat layihəsi hazırlanıb.





# Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları




### #SORĞUYACAVAB – Tovuz sakininin ölməsi faktı ilə bağlı cinayət işi başlanıb

Baş Prokurorluğun Mətbuat xidmətindən sorğuya cavab olaraq bildirilir ki, yanvarın 3-də saat 20 radələrində Azərbaycan Dəmir Yolları QSC-yə məxsus qatarın Tovuz rayonu ərazisindən keçən zaman 1986-cı il təvəllüdlü Tural Yaqubovu vurması və onun aldığı xəsarətlərdən ölməsinə dair əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Tovuz rayon prokurorluğunda Cinayət Məcəlləsinin 262.2-ci (dəmir yolu nəqliyyatında hərəkət təhlükəsizliyi və istismarı qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdır.

### Vəzifəli şəxs rüşvət alarkən cinayət başında yaxalanmışdır




Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində vətəndaşlardan rüşvət alan Ağdam Musiqi Kollecinin direktoru Rafail Musayevin qanunsuz əməlləri ifşa edilmişdir.

Kollec direktorunun 2019-2023-cü illərdə müəllimlərə dərs saatlarının ayrılması, işə qəbul, tələbələrə imtahanlarda qiymətlərin yazılması və digər qanunsuz məqsədlərlə külli miqdarda rüşvət almasına əsaslı şübhələr müəyyən edilmişdir.

Bununla bağlı, Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, toplanmış ilkin sübutlar əsasında ona həmin Məcəllənin 311.3.2 (təkrar rüşvət alma) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilmiş, barəsində məhkəmənin qərarı ilə vəzifədən kənarlaşdırılmaqla ev dustaqlığı qətimkan tədbiri seçilmişdir.

### #İNSANHÜQUQLARI – Şəxsin nüfuzunun qorunması; təhqir və böhtan (diffamasiya - 1)




Nüfuzun qorunması hüququ şəxsi həyata hörmət hüququnun tərkib hissəsi olaraq Avropa Konvensiyasının 8-ci maddəsi ilə qorunur ("Aksel Şpringer AG" Almaniyaya qarşı [BP], § 83; Şovi və başqaları Fransaya qarşı, § 70; Pfayfer Avstriyaya qarşı, § 35; Petrina Rumıniyaya qarşı, § 28; Polanko Torres və Movilya Polanko İspaniyaya qarşı, § 40).

Müdaxilənin "digər şəxslərin nüfuzunun və ya hüquqlarının qorunmasının" maraqları naminə demokratik cəmiyyətdə zəruri olub-olmadığını araşdırarkən Avropa Məhkəməsi Avropa Konvensiyası ilə təmin edilən və müəyyən hallarda bir-biri ilə ziddiyyətə girən iki dəyərin, məsələn, 10-cu maddə ilə qorunan ifadə azadlığının və 8-ci maddədə təsbit olunmuş şəxsi həyata hörmət hüququnun qorunmasında milli hakimiyyət orqanlarının ədalətli balansa riayət edib-etmədiklərini yoxlaya bilər (Kuderk və "Aşett Filipakki Assosye" şirkəti Fransaya qarşı, § 43; "MGN Limited" şirkəti Birləşmiş Krallığa qarşı, § 142).

### Həmkəndlisini qəsdən öldürməkdə şübhəli bilinən şəxs tutulub




Yanvarın 6-sı Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm kəndi ərazisində 2005-ci il təvəllüdlü Tuncay Abdullayevin öldürülməsi barədə rayon prokurorluğuna ilkin məlumat daxil olmuşdur.

Araşdırma zamanı zərərçəkmişin 2005-ci il təvəllüdlü həmkəndlisi Rəhman Süleymanov tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı kəsici-deşici alətlə xəsarətlər yetirilməklə qəsdən öldürülməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Babək rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, Rəhman Süleymanov iş üzrə şübhəli şəxs qismində tutulmuşdur.

Hazırda iş üzrə ibtidai istintaq davam etdirilir.

### Binəqədi rayon prokurorluğunun MƏLUMATI




Yanvarın 22-si saat 20 radələrində paytaxtın Binəqədi rayon sakinləri Pərvanə İsmayılovanın xəsarət alması və Ataş Cuvarovun isə birgə yaşadıqları evdə ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən ekspert-kriminalistin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər zəruri hərəkətlər aparılıb.

İlkin araşdırma zamanı 1987-ci il təvəllüdlü Ataş Cuvarovun aralarında yaranmış mübahisə zamanı kəsici-deşici alətlə 1983-cü il təvəllüdlü arvadı Pərvanə İsmayılovaya xəsarət yetirərək qəsdən öldürməyə cəhd etməsinə, daha sonra isə həmin alətlə özünə xəsarət yetirərək intihar etməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Binəqədi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1 (qəsdən adam öldürməyə cəhd) və 125-ci (özünü öldürmə həddinə çatdırma) maddələri ilə cinayət işi başlanıb.

### #HÜQUQİBİLİKLƏRİNİARTIR – "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik 1 fevral 2023-cü ildən qüvvəyə minmişdir




Həmin dəyişikliyə görə yalnız nağdsız qaydada aparılmalı olan əməliyyatların sırasına aşağıdakılar da aid edilmişdir:

– daşınmaz əmlakın alqı-satqısı üzrə, mənzil-tikinti kooperativinin üzvünün pay haqqı üzrə və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən yaşayış və qeyri-yaşayış sahələrinin alınması ilə bağlı həyata keçirilən ödənişlər;

– qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər;

– rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər.

### Dövlət və bələdiyyə vəsaitlərinin mənimsənilməsi ilə bağlı 64 maliyyə yoxlaması keçirilib




Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə edilməsi sahəsində baş vermiş hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi məqsədilə 2022-ci ildə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Maliyyə Nazirliyi tərəfindən kompleks işlər görülüb.

Bu dövr ərzində prokurorluq orqanlarının qərarı və Maliyyə Nazirliyinin təşəbbüsü ilə aparılan araşdırmalar üzrə 64 maliyyə yoxlaması keçirilib

Həmin yoxlamalara prokurorluq əməkdaşları, Maliyyə, Müdafiə, Elm və Təhsil Nazirlikləri, Auditorlar Palatası, eləcə də Mərkəzi Bankın mütəxəssisləri cəlb edilib.

Törədilən qanuna zidd əməllər nəticəsində dövlətə vurulmuş 2 milyon 147 min 485 manat maddi ziyanın hazırkı vaxtadək 589 min 537 manat hissəsinin ödənilməsi təmin edilib, həmçinin, 9 əmlak üzərinə həbs qoyulub.

Yoxlamalar zamanı aşkar edilmiş hüquqpozmalara dair prokurorluq orqanları tərəfindən 10 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib, 32 halda vurulmuş zərərin ödənilməsi təmin edilib, 22 fakt üzrə isə hazırda araşdırmalar davam etdirilir.

Hazırda dövlət büdcəsinə vurulmuş ziyanın ödənilməsi üçün məqsədyönlü və ardıcıl tədbirlər görülür.

### Baş Prokurorluğun Mətbuat xidmətinin MƏLUMATI



Fevralın 22-də Avropa Şurası tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində Avropa İttifaqı və Avropa Şurasının birgə proqramı olan Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (PGGII) çərçivəsində icra olunan "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsinin yekun konfransı və "Qadınlara qarşı zorakılıq və məişət zorakılığı işləri üzrə mühafizə orderləri: beynəlxalq standartlar və Azərbaycanın milli təcrübəsi" hesabatının təqdimatı keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunu Cinayət təqibindən kənar icraatlar idarəsinin rəis müavini Əsəd Əliyev, həmin idarənin böyük prokuroru Babək Zakirzadə, Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Zəminə Əliyeva və Daxili işlər orqanlarının

istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Azad Əliyev təmsil edib.

Avropa Şurasının Bakıdakı Ofisi tərəfindən layihə haqqında mühüm məlumatlar diqqətə çatdırılmaqla, ölkəmizin səlahiyyətli orqanlarına dəstək olmaq məqsədilə hesabatın daxili qanunvericilik və siyasət bazasına dair beynəlxalq standartlarına uyğunlaşdırılmaqla hazırlanması, eləcə də, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020 – 2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın əsas məqsədinə uyğun olması barədə geniş məlumat verilib.

Konfransda mühafizə orderlərinin tətbiqi ilə bağlı aktual problemlərə dair fikir mübadiləsi aparılıb, əlaqələndirilmiş fəaliyyətin və operativ tədbirlərin görülməsinin əhəmiyyəti vurğulanmaqla layihənin növbəti mərhələsi müzakirə edilib.

### Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə MƏLUMATI – Hipermarketdə baş vermiş silahlı insidentlə bağlı 3 nəfər şəxs barəsində həbs qətimkan tədbiri seçilib




Martın 4-də saat 12 radələrində paytaxtın Xətai rayonu ərazisində yerləşən "Bravo" hipermarketində baş vermiş silahlı insident zamanı Həşimov Rüfət Sahib oğlunun qəsdən öldürülməsi və Şaydayev Samir Ruslan oğlunun sağlamlığına ağır zərər vuran xəsarətlər yetirilməsi barədə daxil olmuş məlumatla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Prokurorluq və DİN əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində qabaqcadan əlbir olan Ruhlan İsmayılov, Dəyanət Qudrətov, Azər Məmmədov və Səbuhi Qurbanovun bir qrup şəxs halında ümumi təhlükəli üsulla və quldurluqla əlaqədar qəsdən adam öldürmə, adam öldürməyə cəhd, quldurluq və qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını əldə edib saxlama və gəzdirmə cinayətlərini törətmələrinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində şübhəli şəxs qismində saxlanılan Dəyanət Qudrətova ilkin olaraq Cinayət Məcəlləsinin 120.2.1, 120.2.4, 120.2.11 29, 120.2.7 və digər maddələri, Azər Məmmədov və Səbuhi Qurbanova isə ilkin olaraq Cinayət Məcəlləsinin 32.5, 120.2.1, 32.5,120.2.4, 32.5, 120.2.11, 32.5, 29, 120.2.7 və digər maddələri ilə ittiham elan edildikdən sonra barələrində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilib.

Həmin gün saat 21 radələrində yaxalanması istiqamətində keçirilən əməliyyat tədbirləri zamanı Ruhlan İsmayılov polis əməkdaşlarına qarşı silahlı müqavimət göstərdiyi üçün zərərsizləşdirilib.

Ruhlan İsmayılovun gizləndiyi mənzilə istintaq-əməliyyat qrupu tərəfindən baxış keçirilərkən cinayət nəticəsində əldə olunan 16 min 835 manat və 20 min 100 ABŞ dolları pul, "AKS Lancaster-03" markalı odlu silah, 1 ədəd "Makarov" və 1 ədəd "Colt" tipli tapançalar, çoxsaylı döyüş sursatları, əməliyyat tədbiri nəticəsində saxlanılan şübhəli şəxs Dəyanət Qudrətovunun üzərindən isə 1 ədəd "Blow TR 92D" modelli tapança aşkar edilərək götürülüb.

Cinayət işi üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

### Xaricdə təhsil və iş vizalarının təşkili adı ilə əmlak ələ keçirməkdə təqsirləndirilən şəxslər məhkəməyə verilib




"RT Ravel" və "R.T.Group Akademiya" MMC və "Kale Dershanesi" və "Vish Travel" MMC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb.

İstintaq zamanı "RT Ravel" MMC və "R.T.Group Akademiya" MMC-nin təsisçisi və direktoru Rasim Məmmədovun, "Kale Dershanesi" və "Vish Travel" MMC-nin təsisçisi və direktoru Xəyal Yusubovla birgə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan xaricdə təhsil və iş vizalarının təşkili adı altında müxtəlif şəxslərə məxsus ümumilikdə 164 min manatdan artıq pul vəsaitini ələ keçirməsi və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Rasim Məmmədov və Xəyal Yusubov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda dələduzluq), 193.1 (yalançı sahibkarlıq) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə yekun ittiham elan edilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## Azərbaycanlıların kütləvi şəkildə deportasiya, təqib və soyqırıma məruz qoyulması faktları əsasında cinayət işi başlanıb




Qərbi Azərbaycan İcması, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının müraciəti əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində araşdırma aparılıb.

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərə əsasən, XX əsrin əvvəlindən başlayaraq erməni əsilli şəxslərin rəhbərliyi ilə yaradılmış silahlı birləşmələr tərəfindən Qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycan əsilli şəxslərə qarşı sülh və insanlıq əleyhinə, şəxsiyyət əleyhinə cinayətlərin törədilməsinə yönəlmiş aktiv hərəkətlərin icrasına başlanılıb.

Belə ki, erməni silahlı dəstələri tərəfindən 1918-ci ilin mart ayınadək İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 – ümumilikdə 198 kənd dağıdılıb, həmin qəzalarda təqribən 135 min nəfər azərbaycanlı soyqırıma və məcburi deportasiyaya məruz qoyulub.

Eyni cinayətkar məqsədlə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün edilib, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olub.

Bundan başqa, 1988-1992-ci illər ərzində qeyd olunan cinayətlər planlı şəkildə davam etdirilib, Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri tərəfindən Qərbi Azərbaycanın 185 yaşayış məntəqəsindən 250 mindən artıq azərbaycanlı öz doğma torpaqlarından, ev-eşiyindən zorla qovulmaqla deportasiyaya və təqibə, 216 azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən xüsusi amansızlıqla qəsdən öldürülməklə soyqırıma məruz qoyulub.

Qeyd olunan faktlarda beynəlxalq və ölkədaxili qanunvericilikdə nəzərdə tutulan cinayətlərin əlamətləri olduğuna görə həmin xüsusatlar üzrə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırım), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə)maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Cinayət işi üzrə ibtidai istintaqın gedişində xarici ölkələrin prokurorluq orqanlarına hüquqi yardım haqqında vəsatətlərin göndərilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi nəzərdə tutulur.

## Ekoloji hüquqpozmalarla bağlı cinayət işi başlanıb




Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində Respublikanın müxtəlif rayonlarında ekoloji hüquqpozmalarla bağlı araşdırma aparılıb.

Belə ki, Qəbələ, Lerik və Zaqatala rayonu ərazisində ümumilikdə 111 ədəd ağacın qanunsuz kəsilməsi nəticəsində təbiətə ümumilikdə 23 min manatdan çox ziyanın vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Cinayət Məcəlləsinin 259.2.3, 259.2.4 (qulluq mövqeyindən istifadə etməklə və külli miqdarda ağac kəsmə) 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və digər maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə prokurorluq və daxili işlər orqanlarına göndərilib.

## Bərdə rayon prokurorluğuna press-tur təşkil edilib







Martın 3-də Bərdədə Baş Prokurorluq tərəfindən konfrans təşkil edilib.

Tədbir çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Bərdə rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.

İnzibati binanın infrastrukturu barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Sonda xatirə fotoşəkli çəkilib.



# Prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar peşə hazırlığı səviyyəsinin yüksəldilməsi ilə nəticələnib

***İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir.***

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**




Artıq tam əminliklə demək olar ki, çoxəsrlik tarixi olan Azərbaycanımız hazırda tarixinin ən uğurlu və güclü dövrünü yaşayır. Bu uğurumuz, ilk növbədə, dahi sərkərdə, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və mübariz xalqımızın dəstəyi ilə müzəffər ordumuzun Vətən müharibəsi nəticəsində onilliklər boyu işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə bağlı olsa da, bu qələbəni şərtləndirən ölkə həyatının bütün sahələrini, o cümlədən iqtisadi, sosial, humanitar, hərbi, xarici siyasət, hüquqi və digər münasibətlərin tənzimlənməsini əhatə edən çoxşaxəli, köklü və effektiv islahatların gerçəkləşdirilməsi nəticəsində mümkün olmuşdur.

Həmin islahatlar xalqımızın rifahının, eləcə də güclü dövlətimizin gələcək zəfərlərinin möhkəm təməlini qoymuşdur.

Ölkəmizin tərəqqisində xalqımızı daim xeyirxah və nəcib qayğı ilə əhatə edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən mühüm işlər xüsusi qeyd edilməlidir.

Dövlət başçısı cənab İlham Əliyevin prokurorluq orqanlarında islahatların dərinləşdirilməsinə və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra mühüm tapşırıqlarına uyğun olaraq, Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar prokurorluğun bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir.

Keçən müddət ərzində prokurorluq orqanlarında idarəçilik, kadr korpusunun yenilənməsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, istintaq və məhkəmələrdə dövlət ittihamının müdafiəsi işlərinin keyfiyyətinin yüksəldilməsi, cinayət təqibindən kənar fəaliyyət, xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi, media ilə işin təşkili, beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, icra və əmək intizamının möhkəmləndirilməsi, sənədlərin dövriyyəsi və digər sahələrdə əhəmiyyətli və səmərəli islahatlar həyata keçirilmişdir.

Bu islahatların mühüm tərkib hissəsi kimi prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili, eləcə də ölkəmizin aparıcı elmi və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması, habelə daha da inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Prokurorluq orqanlarında peşə hazırlığı və tədrisin təşkili sahəsində həyata keçirilən islahatları şərti olaraq bir neçə qrupa bölmək mümkündür. Bu tədbirlər:

– tədris qurumunun strukturunun təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi;
– peşə hazırlığı sahəsində sınaqdan keçmiş müasir tədris metodlarının tətbiqi;
– ölkəmizin aparıcı elm, təhsil və tədris qurumları ilə əməkdaşlıq əlaqələrinin yaradılması və inkişaf etdirilməsi;
– xarici tərəfdaşlarla əməkdaşlığın qurulması;
– tədris qurumu tərəfindən bəzi katiblik funksiyalarının həyata keçirilməsi;
– müasir informasiya texnologiyaları və proqram təminatlarının tətbiqi sahəsində işləri əhatə edir.

Aparılmış islahatlar çərçivəsində Azərbaycan Respublikası Baş prokurorunun 29 iyun 2020-ci il tarixli əmri ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin yeni strukturu təsdiq edilməklə, Mərkəzdə Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsi, Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsi, Elmi-tədqiqat işinin təşkili şöbəsi və İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru yaradılmışdır.

Qeyd edilməlidir ki, Mərkəz prokurorluq əməkdaşlarının nəzəri biliklərinin və peşə hazırlığının artırılması məqsədilə tədrisin təşkili, elmi-nəzəri və praktiki tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın hazırlanması, elmi və elmi-metodiki konfransların, seminarların və müşavirələrin keçirilməsi, dövri elmi-praktiki jurnalların dərc olunması, hüquqi biliklərin təbliği və bir sıra digər funksiyaları həyata keçirir.



Mərkəzin 90 nəfərlik mühazirə zalı, 40 nəfərlik praktiki məşğələ auditoriyası, 30 nəfərlik fakültativ məşğələ zalı və 30 nəfərlik iclas otağı vardır. Auditoriyalar tədris prosesini asanlaşdıran ən müasir avadanlıqlarla təchiz edilmişdir. Qeyd olunan auditoriyalarla yanaşı, Mərkəz tədris prosesində eyni vaxtda 325 şəxsin iştirakını nəzərdə tutan Baş Prokurorluğun yeni inzibati kompleksinin Konfrans zalının imkanlarından faydalanır. Baş Prokurorluğun yeni inzibati kompleksinin hər iki korpuslarının 1-ci və 2-ci mərtəbələrində yerləşən kitabxanalar da Mərkəz tərəfindən idarə olunmaqla, müvafiq informasiya texnologiyaları, o cümlədən 4 ədəd touchscreen monitorlarla, prosessual sənədlərin nümunəvi formaları və müxtəlif cinayət işlərinin modelləri daxil edilmiş kompüterlərlə təchiz edilmişdir.

Keçən dövr ərzində Mərkəzdə müasir tədris metodlarının tətbiqi sahəsində yeniliklərə xüsusi önəm verilmişdir. Məlum olduğu kimi, təlim təlimçi ilə dinləyici arasında qarşılıqlı, məqsədyönlü və planlı fəaliyyətə əsaslanan, dinləyicilərin bilik, bacarıq və vərdişlərə yiyələndiyi ikitərəfli pedaqoji prosesdir.

Prokurorluğun fəaliyyət istiqamətlərinin müxtəlifliyi, səlahiyyətlərinin müstəsnalığı və yerinə yetirdiyi vəzifələrin ictimai əhəmiyyəti prokurorluq işçisinin hazırlıq və peşəkarlıq səviyyəsinə dair yüksək tələblər qoyur. Prokurorluq işçilərinin yüksək peşəkarlıq səviyyəsinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının prokurorluq orqanlarında davamlı təlim və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi sistemi tətbiq edilir.

Mərkəzdə müasir peşə hazırlığı prosesində aprobasiya olunmuş izahlı-illüstrativ, reproduktiv, produktiv və ya problemli tədris metodlarından, eləcə də ənənəvi, aktiv və interaktiv təlim modellərindən geniş istifadə edilir.

Bundan əlavə, keys texnologiyaları, didaktik oyunlar, səhnələşdirilmiş istintaq və məhkəmə, habelə digər metodların tətbiqi tədrisin keyfiyyətinin artırılmasına müsbət təsir edir.

Mərkəz prokurorluq işçilərinin nəzəri biliklərinin və peşə hazırlığının artırılması məqsədilə müxtəlif tədris tədbirlərindən (kurs, təlim, konfrans, seminar, təcrübə mübadiləsi və digər) istifadə edir. Tədris tədbirləri Baş Prokurorluğun Fəaliyyət Planına, Mərkəzin iş planına və yaxud Baş Prokurorluğun rəhbərliyinin tapşırığına əsasən təşkil edilir.

Tədris prosesi sistemli şəkildə bütün işçiləri (ilk üç təsnifat vəzifələri istisna olmaqla) əhatə etməklə, mütəmadi və ya hər hansı konkret məsələ ilə bağlı təşkil olunur. Tədris prosesi həm əyani, həm də distant formatda həyata keçirilə bilər. Bir qayda olaraq, hər bir prokurorluq işçisi 3 ildə bir dəfə, eləcə də fəaliyyət istiqamətini dəyişərkən və vəzifədə irəli çəkilərkən tədris tədbirlərinə dinləyici qismində cəlb edilir. İşçinin təhsilə münasibəti, nəzəri biliyi və peşə hazırlığı onun tutduğu vəzifəyə uyğun olub-olmaması, mükafatlandırılması və vəzifədə irəli çəkilməsi məsələlərinin həlli zamanı nəzərə alınır.

Mərkəzdə təşkil olunan tədris tədbirlərində təlimçi qismində iştirak etmək üçün xüsusi bilik və təcrübəyə malik olan prokurorluq əməkdaşları ilə yanaşı, digər dövlət orqanlarının yüksək ixtisaslı işçiləri, eləcə də digər yerli və xarici təhsil, elmi-tədris müəssisələrinin, hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, hakimlər, millət vəkilləri və vəkillər cəlb olunur.

Tədris tədbirləri müvafiq proqramlar və tədris-tematik planlarına əsasən həyata keçirilir. Tədbirin for-

masından, müddətindən və məzmunundan asılı olaraq, tədris proqramında tədrisin məqsədi, müddəti və rejimi, dinləyicilərin dairəsi, məşğələ formaları (mühazirə, praktiki məşğələ, dəyirmi masa, səhnələşdirilmiş istintaq və məhkəmə prosesləri, real istintaq hərəkətlərinin aparılmasında iştirak, mədəni tədbirlər və sair), tədris olunacaq sahələr və tədris saatlarının bölgüsü əks olunur. Tədris proqramlarına uyğun tərtib edilən tədris-tematik planlarda isə mövzular, təlimçilər, məşğələlərə görə məsul şəxslər, məşğələlərin keçirilmə yeri, tarixi və vaxtı göstərilir.

Müasir təlim model və metodlarından istifadə etməklə tədris prosesində mövzular üzrə şifahi izah verilməklə yanaşı, əyani praktiki görüntülər də nümayiş etdirilir. Həmçinin əksər məşğələlər müasir texnologiyalardan (interaktiv lövhə, proyeksiya aparatı, noutbuk, LSD tipli Full HD ekran) və kompyuter proqramlarından (Power Point, Exsel) istifadə etməklə tədris edilir. Tədris üzrə məşğələlər həm Mərkəzin auditoriyalarında, həm açıq şəraitdə (məsələn, səyyar kriminalistik avtomobillə tanışlıq), eləcə də digər qurumların (məsələn, Səhiyyə Nazirliyinin "Məhkəmə-tibb ekspertizası və patoloji-anatomiya Birliyi" publik hüquqi şəxs) inzibati binalarında keçirilir.

Son zamanlar COVID-19 Pandemiyası ilə əlaqədar tətbiq edilən karantin qaydaları nəzərə alınaraq, Mərkəzin əksər tədris tədbirləri distant formada canlı vaxt rejimində təşkil edilir.

Mərkəzin təşkil etdiyi, habelə onun iştirakı ilə təşkil olunan tədris tədbirləri, təlimçi qismində iştirak etmiş şəxslər və dinləyicilər barədə məlumatlar, eləcə də tədris materialları (mühazirənin mətni, tezisi, təqdimatı və sair) "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sisteminə daxil edilir. Bu sistem vasitəsi ilə tədris sahəsində görülmüş işlərin vəziyyəti mütəmadi olaraq Mərkəz tərəfindən təhlil olunaraq, nəticələri idarənin hesabatlarında əks etdirilir.

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi xüsusi olaraq qeyd edilməlidir ki, 27.04.2021-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 4.4-1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, prokurorluğa ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər üçün icbari təlimin keçirilməsi Mərkəzə həvalə edilmişdir.

Təlim zamanı aktuallığı ilə seçilən və dinləyicilərdə ilkin peşə vərdişlərinin formalaşmasına töhfə verəcək mövzulara üstünlük verilir. Təlimin yekunu üzrə əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi keçirilir. İcbari təlimin nəticələri Müsabiqə Komissiyasının sədri tərəfindən Baş prokurora məruzə edilir və təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər prokurorluğa qulluğa qəbul edilirlər.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 5-ci maddəsində ilk dəfə prokurorluğa qulluğa qəbul edilmiş şəxslər üçün 6 aylıq stajorluq müddəti nəzərdə tutulub. Həmin işçilər stajorluq müddətində Mərkəzdə təşkil olunan 20 günlük hazırlıq kurslarına cəlb olunurlar. Hazırlıq kurslarının əsas məqsədi stajorların peşə bilikləri, bacarıq və vərdişlərinin möhkəmləndirilməsi, eləcə də onlar tərəfindən qabaqcıl təcrübənin öyrənilməsidir.



Ümumilikdə prokurorluq orqanlarına qulluğa qəbul olunmuş və stajorluq keçən 750-dən artıq işçi Mərkəzin təşkil etdiyi hazırlıq kurslarını müvəffəqiyyətlə başa çatdırmışlar.

Mərkəzin peşə hazırlığının artırılması üzrə fəaliyyəti bütün prokurorluq işçilərinin nəzəri və praktiki biliklərinin yenilənməsi və təkmilləşdirilməsi məqsədini daşıyır. Bu, ixtisas səviyyələrinə tələblərin artması və peşə fəaliyyətlərini həyata keçirərkən qarşıya çıxan məsələlərin həllinin müasir metodlarının və daha effektiv üsullarının öyrənilməsi zərurəti ilə bağlıdır. Bu kimi tədris tədbirinə dinləyici qismində həm yuxarı, həm də tabe prokurorluqların, eləcə də ixtisaslaşmış prokurorluq qurumlarının işçiləri cəlb olunurlar.

Peşə hazırlığının artırılması kursları prokurorluğun fəaliyyətinin müxtəlif sahələrini əhatə edir, qarşıya qoyulmuş vəzifələrdən asılı olaraq müəyyən edilmiş müddətlərdə təşkil edilir. Bu kursların gedişatında təhlil və tədqiqat materiallarından geniş istifadə olunur.

Kursların proqramı tərtib edilərkən xüsusilə aktuallığı ilə seçilən mövzulara daha çox üstünlük verilir. Məsələn, cari ilin birinci yarısında "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda keçirilmiş təlim zamanı müasir dövrün tələblərinə uyğun olaraq, media ilə ünsiyyətdə xüsusi əhəmiyyətli mövzular üzrə Mərkəzin işçiləri ilə yanaşı, peşəkarlığı ilə seçilən Medianın İnkişafı Agentliyinin, eləcə də Bakı Dövlət Universitetinin Jurnalistika və Filologiya fakültələrinin müəllim heyəti təlimçi qismində cəlb edilmişlər.

Eyni ilə intihara meyilli vətəndaşlara həssas və fərdi münasibətin aspektləri məsələlərinin də daxil olduğu "Prokurorluqda vətəndaşların qəbulu zamanı peşəkar davranışın mənəvi və psixoloji aspektləri" mövzusunda qarışıq (əyani və distant) formada keçirilmiş seminara təlimçi qismində Baş Prokurorluğun peşəkar əməkdaşları ilə yanaşı xüsusi riskli vəziyyətlərdə vətəndaşlarla ünsiyyət bağlamaq təcrübəsi olan Fövqəladə Hallar Nazirliyinin psixoloqları, Səhiyyə Nazirliyinin və Bakı Dövlət Universitetinin psixologiya sahəsində alimləri də cəlb olunmuşlar.

Fəaliyyət göstərdiyi müddət ərzində Mərkəz tərəfindən təşkil olunmuş bu kimi kursların mövzuları müxtəlif olmuş, dövrün tələblərinə cavab vermiş və aktuallığı ilə seçilmişdir. Ümumilikdə Mərkəzin peşə hazırlığının artırılması ilə əlaqədar təşkil edilmiş tədris tədbirlərinə 4500-dən artıq dinləyici cəlb olunaraq, öz nəzəri bilik və peşə hazırlıqlarını artırmışlar.

Mərkəzdə prokurorluq işçiləri ilə yanaşı, digər hüquq mühafizə orqanlarının müstəntiq, təhqiqatçı və əməliyyatçılarının, habelə xarici tərəfdaşların əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlər təşkil edilir.

Misal kimi, Dövlət Gömrük Komitəsinin işçiləri üçün "Əməliyyat-axtarış fəaliyyətini tənzimləyən qanunvericilik, əməliyyat-axtarış tədbirləri və həmin tədbirlərin həyata keçirilməsi zamanı tərtib edilməli olan sənədlərə dair tələblər", "Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti", "Gömrük işi sahəsində aşkar edilmiş cinayətlərin rəsmiləşdirilməsi xüsusiyyətləri və bu növ cinayətlər üzrə ibtidai araşdırma aparılmasının aktual aspektləri", Dövlət Vergi Xidmətinin işçiləri üçün "Vergi hüquqpozmaları üzrə məhkəməyədək icraat zamanı sübutların əldə olunmasının, yoxlanılmasının və rəsmiləşdirilməsinin aktual problemləri", Daxili İşlər Nazirliyinin əməkdaşlarının iştirak etdiyi "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin tövsifinin, habelə bu qəbildən olan işlərin istintaqının hüquqi (maddi, prosessual) əsasları və qaydaları" mövzusunda Mərkəz tərəfindən təşkil olunmuş təlimləri göstərmək olar. Ümumilikdə Mərkəzin bu növ tədris tədbirlərində digər hüquq mühafizə orqanlarının 400-dən artıq müstəntiq, təhqiqatçı və əməliyyatçıları, habelə digər işçiləri öz nəzəri bilik və peşə hazırlıqlarını artırmışlar. Eyni zamanda, Mərkəzin işçiləri təlimçi qismində hüquq mühafizə orqanlarının ixtisaslaşmış tədris və ali təhsil müəssisələrində təşkil olunan tədris tədbirlərinə cəlb olunurlar.

Mərkəz Baş prokurorun tapşırığına əsasən, habelə xidməti zərurətlə əlaqədar prokurorluqda çalışan dövlət qulluqçularının bilik və peşə hazırlığının artırılması məqsədilə müxtəlif tədris tədbirləri həyata keçirir. Bu təlimlər zamanı dövlət qulluğunda etik dəyərlər və davranış standartları, kargüzarlıq işinin təşkili, müasir texnologiyalarla işləmək bacarığı və digər aktual mövzulara üstünlük verilir.

Prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilir. Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə dövlət orqanlarının təlim-tədris mərkəzləri, aparıcı elm və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələr qurulur, əməkdaşlıq haqqında memorandumlar imzalanır.

Mərkəz artıq bu cür münasibətləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, "ADA" Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Milli Aviasiya Akademiyası, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi ilə qurmuşdur.

Həmçinin Mərkəz ilə nüfuzlu Türkiyə Respublikası Ədliyyə Akademiyası, Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası, Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası, Belarus Respublikası İstintaq Komitəsinin "İxtisasartırma və yenidən hazırlıq institutu" arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında memorandumlar imzalanmışdır.

Bu kimi əlaqələr artıq öz bəhrəsini verməyə başlamışdır. Belə ki, keçən müddət ərzində həmkarlarımız bir sıra Avropa, Asiya və MDB ölkələrində müxtəlif təlim, konfrans və digər tədbirlərdə uğurla iştirak etmişlər.

Qeyd olunmalıdır ki, tərəfdaş ölkələrin, ən əsas da tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibəti olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritet məsələlərdəndir.

Buna misal olaraq, 1 noyabr 2021-ci ildə Bakı şəhərində əsası qoyulmuş Türk Dövlətləri Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının fəaliyyəti xüsusi qeyd edilməlidir.

Qeyd olunan proseslər çərçivəsində qardaş türk dövlətlərinin hüquq mühafizə orqanları, məhkəmə akademiyaları və təlim mərkəzləri ilə mövcud əməkdaşlıq əlaqələrinin institusionallaşması ilə bağlı əməli addımlar atılmışdır.



Belə ki, 2021-ci ilin oktyabr ayından davam edən danışıqların nəticəsi olaraq, Türkiyəli həmkarların təşəbbüsü əsasında 12 dekabr 2022-ci il tarixdə Türkiyənin İstanbul şəhərində Türk Ədliyyə Təlim Şəbəkəsinə dair anlaşma memorandumu imzalanmışdır.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin də təsisçi kimi yaradılmasında iştirak etdiyi Türk Ədliyyə Təlim Şəbəkəsi orada təmsil olunan qurumların təlim-tədris bazasını daha da gücləndirməklə, əməkdaşlıq imkanlarını genişləndirir, hakim və prokurorların təliminə öz töhfəsini verir.

Qeyd edilməlidir ki, Mərkəzlə yanaşı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstan dövlətlərinin ümumilikdə 12 ədliyyə və prokurorluq təlim mərkəzləri və akademiyaları bu Şəbəkədə təmsil olunmuşlar.

Prokurorluq orqanlarında peşə hazırlığının artırılması üzrə fəaliyyətin səmərəliliyi digər amillərlə yanaşı prokurorluğun fəaliyyət istiqamətləri üzrə təcrübədə rastlaşılan çətinliklərin müəyyən edilməsindən, habelə onların aradan qaldırılmasının üsul və qaydalarına həsr olunmuş müasir elmi və praktiki nailiyyətlərin, texnologiyaların tətbiqini nəzərdə tutan metodiki ədəbiyyatla təmin edilməsindən asılıdır. Odur ki, tədqiqatların aparılması və metodiki vəsaitlərin hazırlanması Mərkəzin prioritet fəaliyyət istiqamətlərinə daxildir.

Bununla bağlı son üç ildə Mərkəz tərəfindən hazırlanmış "Üzərində zorakılıq əlamətləri olmayan naməlum insan meyitləri ilə bağlı araşdırma taktikası", "İttiham aktının tərtib edilməsinə dair", "Prokurorluq orqanlarında peşə hazırlığı", "Prosessual sənədlərin nümunələri" adlı metodiki vəsaitlər, "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyəti, bu sahədə milli və beynəlxalq müstəvidə aktual problemlərin həlli yolları", "İntihar və özünü öldürmə həddinə çatdırma (sosial fenomen və cinayət)", "Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurası", "Azərbaycan Respublikasında prokurorun hüquqi statusu" adlı kitabları, "Prokurorluqda tətbiq edilən proqram və informasiya sistemlərinin təlimatları və istifadə qaydaları" adlı toplu, "Maddi sübutların götürülməsi və qablaşdırılması taktikası və götürülmüş maddi sübutlarla bağlı ekspertiza növlərinin təyini məsələlərinə dair" müstəntiqin məlumat kitabçası, eləcə də digər metodiki ədəbiyyatları xüsusi qeyd etmək olar.

Eyni zamanda bu müddətdə mərkəzin dəstəyi ilə Baş Prokurorluğun digər sturktur qurumlarının əməyi nəticəsində 30-dan artıq metodiki və sair mühüm praktiki əhəmiyyəti olan nəşr işıq üzü görmüşdür.

Mərkəzin nəzdində olan kitabxana müasir avadanlıqlarla təchiz edilməklə, ədəbiyyat fondu hüquq, tarix, ictimai elmlər, mədəniyyət, incəsənət və digər sahələri əhatə edən unikal və müxtəlif dillərdə olan 5500-dən artıq kitablarla zəngindir.

Qeyd edilməlidir ki, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Vətən müharibəsi və şanlı qələbə sonrası xalqa müraciətləri, nüfuzlu xarici media nümayəndələrinə müsahibələri hər birimizin xidməti fəaliyyətimizdə yeni üfüqlər və vəzifələr müəyyən etmişdir.

Əlbəttə ki, biz hüquqşünaslar ilk növbədə Ermənistan hərbi siyasi rəhbərliyinin göstərişi ilə törədilmiş çoxsaylı sülh və insanlıq əleyhinə cinayətlərin müxtəlif müstəvilərdə ifşa edilməsi, bu sahədə tədqiqatlar aparılmasına səy göstərməliyik.

Bununla bağlı Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyəti tərəfindən "Qarabağ Azərbaycandır" kitabı hazırlanaraq geniş oxucu kütləsinə təqdim edilmişdir.

Prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, o cümlədən ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən etməklə, prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan kimi Elmi-Məsləhət Şurası yaradılmışdır.

Fəaliyyətə başladığı vaxtdan cəmi iki il keçməsinə baxmayaraq, Elmi-Məsləhət Şurası cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətləri üzrə elmi-nəzəri əsasların müəyyən edilməsinə, aktuallığı ilə seçilən bir çox hüquqi məsələlərin həllinə öz töhfəsini vermişdir. Ölkəmizin hüquq sisteminə daxil olan və hakimiyyətin hər üç qoluna aid mühüm dövlət orqanları, habelə aparıcı elm, təhsil və ixtisaslaşdırılmış tədris müəssisələri nümayəndələrinin daxil olduğu, sıralarında 40-dək peşəkar hüquqşünası, o cümlədən 13 elmi dərəcəsi olan hüquq üzrə fəlsəfə doktoru və hüquq elmləri doktorunun təmsil olunduğu bu platformanın səmərəli fəaliyyəti hüquq ictimaiyyəti və xarici tərəfdaşlar tərəfindən rəğbətlə qarşılanmışdır.

Baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilmiş Elmi-Məsləhət Şurasının iclaslarında müzakirə edilməklə müsbət rəy verilən bir çox metodiki ədəbiyyat və müxtəlif kauzal məsələlərin həlli ölkəmizdə vahid məhkəmə-istintaq təcrübəsinin formalaşması üçün mühüm əhəmiyyət kəsb etmiş, cinayətkarlığa qarşı mübarizənin hüquqi bazasının daha da inkişaf etdirilməsinə xidmət edən müxtəlif təşəbbüslərə səbəb olmuşdur.

Mərkəzin mühüm fəaliyyət istiqamətlərindən biri kimi dövri elmi-praktiki jurnalın və digər mətbu nəşrlərin hazırlanması xüsusi qeyd edilməlidir. Mərkəz tərəfindən çapına məsul olan "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyəti tərəfindən jurnalda oxucuların marağına səbəb olacaq yeniliklər tətbiq edilməklə, ölkənin ictimai-siyasi həyatında baş verən son əhəmiyyətli hadisələr, Baş Prokurorluqda və tabe prokurorluqlarda həyata keçirilən tədbirlər, beynəlxalq əlaqələr, istintaq-məhkəmə təcrübəsi, ölkəmizə səfər edən tərəfdaş ölkələrin baş prokurorlarının, əlaqəli dövlət orqanları rəhbərlərinin, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin müsahibələri, eləcə də prokurorluğun veteranları barədə maraqlı materiallar öz əksini tapır.

Mərkəz tərəfindən zamanın tələbləri ilə ayaqlaşmaqla, müasir dövrün tələblərindən irəli gələn informasiya texnologiyalarının tətbiqinə üstünlük verilir. Belə ki, qısa müddət ərzində tədris tədbirləri, təlimçilər və dinləyicilər barədə məlumatları, eləcə də məşğələ materiallarını sistemin məlumat bazasına operativ qaydada daxil edilməsini təmin edən "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sistemi yaradılmış, sistem yüksək istehlak göstəricilərinə malik proqram təminatı ilə təmin edilmişdir.

Tədris prosesinə öz töhfəsini verəcək Baş Prokurorluğun "Elektron Kitabxanası" yaradılmaqla, onun bazasına artıq 500-dən çox nəşr daxil edilmiş və bu proses davam etməkdədir.

Mərkəzin vəzifə və funksiyalarının informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirilməsi üçün fərdiləşdirilmiş girişi olan prokurorluğun korporativ portalı kimi fəaliyyət göstərən www.etmprok.az adlı alt-domeni və "Distant tədris" platforması yaradılmışdır. Son illər ərzində bu platformaya Zoom, Skype və Teachbase proqramları inteqrasiya edilərək, onun istehlak göstəriciləri artırılmış və tədrisin distant formada təşkili üçün daha səmərəli şərait yaranmışdır.

Beləliklə, prokurorluq orqanlarında həyata keçirilən köklü islahatlar digər fəaliyyət istiqamətləri ilə yanaşı tədrisin təşkili işinə də əhəmiyyətli təsir etmişdir. Ulu öndər Heydər Əliyevin ideyalarına, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli dövlət quruculuğu işlərinin yüksək tələblərinə cavab verən nəzəri biliklərə sahib, peşəkar prokurorluq əməkdaşları korpusunun formalaşdırılması və daim inkişaf etdirilməsi prokurorluğun prioritet hədəflərindəndir.

**Mübariz Əhmədov,**
**Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi,**
**III dərəcəli dövlət ədliyyə müşaviri**

# Soyqırımı ümumbəşəri cinayətdir

*Genosid, yaxud soyqırımı – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, bu Konvensiyada "soyqırımı" dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər başa düşülür: bu cür qrupun üzvlərinin öldürülməsi; bu cür qrupun üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli xətər yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması; bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Konvensiyanın preambulasında soyqırım yalnız "beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət" hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırımı bəşəriyyətin amansız böyük itkisi" sayılır.*

Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XIX əsrin əvvəllərindən başlayır. Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız soydaşımız vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuş, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər.

## Bəşəriyyət əleyhinə törədilmiş ən ağır cinayət

Beynəlxalq hüquq normalarına görə, soyqırımı törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayətinin anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyanın 5-ci maddəsinə əsasən iştirakçı dövlətlər soyqırımı cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görməlidirlər. Konvensiyanın 6-cı maddəsinə görə, həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir.

1944-cü ilə qədər "genosid" anlayışı işlədilməmişdir. Bu xüsusi termin hər hansı insan qrupuna qarşı onların məhv edilməsi məqsədilə törədilən cinayət əməllərini ifadə edir. İlk dəfə 1944-cü ildə yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin Avropa yəhudilərinin faşistlər tərəfindən kütləvi məhv edilməsi siyasətini ifadə edən yeni termin işlətdi. O, yunan dilində genos – "nəsil, kök, soy" sözü ilə latın dilindən caedo – "öldürürəm" sözlərinin birləşməsindən "genosid" (soyqırımı) terminini təklif etdi. Bu termini Lemkin belə əsaslandırırdı ki, soyqırımı, müəyyən insan qruplarının mövcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş, müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, planlı şəkildə həyata keçirilməsidir. Bir ildən sonra Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini "bəşəriyyət əleyhinə cinayətlərdə" ittiham etdi.

## 1905 – 1907-ci illər kütləvi qırğını

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905 – 1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib.

1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında maskalanaraq daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdır.

## 1918-ci ilin mart hadisələri

1918-ci ilin 30 mart – 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət ye-

tirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər tədqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərarına və 1948 – 1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

### Əsrin faciəsi – Xocalı soyqırımı

Tarixinin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Xalqımıza qarşı görünməmiş qətliam baş verdi. 1992-ci il fevralın 25-də saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə keçirilən silahlı qüvvələr, habelə Dağlıq Qarabağda təşkil olunan qanunsuz silahlı dəstələr keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçdilər. Azərbaycanın 7 mindən çox əhalisi olan qədim Xocalı şəhərində ermənilər xüsusi amansızlıqla və düşünülmüş şəkildə qırğın törətdi.

Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulmuşdur. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerləyeksan edilməsi ilə qurtardı. Xocalı soyqırımı xarakter etibarı ilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibləri İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq, Tokio) nizamnaməsində istifadə olunmuş, sonradan həmin cinayət tərkibləri keçmiş Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdır. Xocalı sakinlərinin kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətini sübuta yetirir. Xocalıda baş verən hadisələri bütün dünya ictimaiyyəti ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı kimi tanımalıdır. Çünki soyqırımının beynəlxalq hüquqda tövsifi Xocalı faciəsində tam əks olunur.

Ağdaban soyqırımı erməni silahlı birləşmələri tərəfindən törədilmiş qətliamın ən qanlı səhifələrindən biridir. Ağdaban kəndi Kəlbəcər rayonunda rayon mərkəzindən 36 kilometr şimal-şərqdə yerləşir. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyi ilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum edib dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Ağdaban faciəsi törədilmə spesifikasına və xarakterinə görə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş “Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında” Konvensiyanın müddəalarına tam uyğundur. Ona görə də bu faciə beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi qiymətləndirilməli və Ağdaban kəndinin dinc əhalisinə qarşı törədilən bu qırğın soyqırımı cinayəti kimi dünya ictimaiyyəti tərəfindən tanınmalıdır.

### Növbəti qanlı faciə – Qaradağlı soyqırımı

Qaradağlı soyqırımı erməni silahlı birləşmələri tərəfindən 1992-ci il fevralın 17-də törədildi. Qaradağlı kəndi Xocavənd rayonunun, eləcə də Dağlıq Qarabağın ən qədim yaşayış məntəqələrindən biri olaraq rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun üzərində, dağətəyi ərazidə yerləşir. Tarix boyu türklərə qarşı

soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti – Qaradağlı soyqırımını həyata keçirdilər. Qaradağlı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.

**Xalqımıza qarşı törədilən soyqırımına Ümummilli Liderin təşəbbüsü ilə hüquqi qiymət verildi**

Xalqımıza qarşı 1905-ci ildən üzü bəri törədilən sistematik soyqırımlara yalnız 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Bu fərman XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə müasir və gələcək nəsillərdə möhkəm milli yaddaşın formalaşdırılması, dünyada bu hadisələrə düzgün siyasi və hüquqi qiymət verilməsi, belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün proqram mahiyyətli sənəd oldu.

1998-ci ildə Azərbaycanın Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, MDB ölkələrinə və digər beynəlxalq təşkilatlara, ölkələrin parlament və hökumətlərinə müraciət edərək azərbaycanlılara qarşı törədilmiş soyqırımı kimi hallarla dünyanın hər bir yerində amansız mübarizə aparmaq üçün səylərin birləşdirilməsinə çağırmışdır.

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. 2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub.

Azərbaycan xalqının hər il qeyd etdiyi "Azərbaycanlıların Soyqırımı Günü" həmin məqsədlərə və dünya ictimaiyyətinin diqqətinin bu gün də davam edən şovinizm, separatçılıq hallarına cəlb edilməsinə xidmət edir. Yaddan çıxarmaq olmaz ki, biz hamımız – dünyanın bütün xalqları bəşəriyyətin gələcək əmin-amanlığına məsuliyyət daşıyır.

Soyqırımı bəşəriyyət əleyhinə ən ağır cinayətdir. Bu anlayış Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" adlanan 7-ci bölməsində öz əksini tapıb. Lakin ürəkağrısı və böyük təəssüf hissi ilə qeyd etmək olar ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-ci bölməsində göstərilən bütün cinayətlər Azərbaycan ərazisində və Azərbaycan vətəndaşlarına qarşı törədilib və bu günə kimi bu amansız cinayətləri törədən şəxslərdən heç kimi mühakimə etmək mümkün olmayıb.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq kampaniyası başlanmışdır. Kampaniya Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və nəticələri ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlmişdir.

Xocalı soyqırımının törədilməsindən ötən dövr ərzində Azərbaycan dövlətinin xarici siyasətində əsas prioritet istiqamətlərdən biri bu soyqırımının beynəlxalq aləmdə tanıdılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı işlərin aparılması olub. Son 30 il ərzində dünyanın bir neçə ölkəsi bu soyqırımını rəsmən tanıdığını bəyan edib.

Xocalı soyqırımını XX əsrin ən böyük cinayəti adlandıran ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "...bilirsiniz ki, ermənilər xaricdəki imkanlarından istifadə edərək, dünya birliyinə Xocalı faciəsi haqqında təhrif edilmiş məlumatlar çatdırmağa cəhd etmişlər. Əfsuslar olsun ki, uzun illər ərzində buna müvəffəq olmuşlar... bizim siyasətimiz, xüsusilə xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız bu vəziyyəti, demək olar ki, tamamilə dəyişdirdi... Biz bütün ölkələrdə kampaniyalar keçiririk, həm səfirliklər, həm də Heydər Əliyev Fondu vasitəsilə. Bildiyiniz kimi fond bu məsələ ilə çox fəal məşğul olur. Bizim təşəbbüsümüzlə yaradılmış İslam Konfransı Təşkilatının Gənclər Forumu da bu məsələ ilə bağlı fəal işləyir... Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir... Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq edən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".

**Faiq Səfərov,**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi**

## Qürur dolu nisgil...

***Azərbaycan və onun xalqı uğrunda şəhid olmuş insanlarla fəxr edirik və onların qəhrəmanlıqlarından ruhlanırıq.***

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

Şəhidlər əbədi nisgilimizdir. Bu nisgili hər bir vicdanlı azərbaycanlı ömür boyu qəlbində daşıyacaq. Ləyaqətli həyat sürərək ömrü şərəflə başa vurmuş bu dəyərli insanların sıralarımızdan vaxtsız getməsi bizi sarsıtdı, eləcə də hər zaman ruhumuzu incidəcək və ürəyimizi sızıldadacaq. Bütün bunlara rəğmən, şükürlər olsun ki, şəhidlərlə əlaqədar, eyni zamanda, bir neçə təsəlli yerimiz var. Əvvəla və ən əsası bu nisgilin digərlərdən fərqi odur ki, ali amallar və müqəddəs dəyərlər uğrunda yaranmışdır. İkincisi, şəhidlərin yeri əbədi olaraq behiştdir. Üçüncüsü, şəhidlər cismən aramızda olmasalar da, onlar ölmürlər, daim ürəklərdə yaşayırlar. Bütün bunlar təbii olaraq bizi bir qədər ovundurur və yaralarımıza məlhəm olur. Bir sözlə, şəhidlər təsəllili acımız və qürur dolu nisgilimizdir. Bu gün Qanlı Yanvar faciəsindən 33 il – bir qərinə ötür.

Neçə-neçə qərinələr və əsrlər keçsə də millətimiz o dəhşətli və eyni zamanda, iftixarlı günü unutmayacaq. 1990-cı ilin 20 yanvar günü Azərbaycanın müasir tarixinə ən kədərli günlərdən biri, eyni zamanda, millətimizdə olan əzmkarlığın, vətənpərvərliyin, dəyanətin, qürurun və qəhrəmanlığın izhar olunduğu gün olaraq daxil oldu və bununla da həmin tarix Vətən sevgisinin təntənəsi kimi yaddaşlara həkk olundu. 20 Yanvar tarixi Ümumxalq Hüzn Günü olmaqla bərabər, ümummilli qürur günüdür. Həmin gün ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar davranışlarına və keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz mövqe tutaraq onlara havadarlıq etməklə məkrli siyasəti aşkar dəstəkləməsinə, eləcə də ölkəmizin ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə hiddətlənərək, buna etiraz əlaməti olaraq Bakının küçə və meydanlarına çıxan geniş xalq kütlələrinə qarşı sovet ordusunun hərbi hissələri yeridilərək qanunlar və beynəlxalq hüquq normalarını kobud şəkildə pozulmaqla dinc əhaliyə divan tutuldu, xeyli insan həyatdan məhrum edildi, bir neçə nəfər itkin düşdü və çoxsaylı şəxslərə müxtəlif dərəcəli bədən xəsarətləri yetirildi. Bununla da Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən dəhşətli cinayətə imza atdı. Suveren, müstəqil və demokratik bir dövlət yaratmaq məqsədilə ayağa qalxmış xalqın əzmini sındırmaq, milli qürurunu qırmaq, eləcə də azadlıq hərəkatını boğmaq üçün törədilən bu çirkin əməllər, silahlanmış hərbçilərin üzərinə əliyalın gedən vətənpərvər insanları azadlıq uğrunda mübarizədən daşındıra, qəhrəmanların iradəsini sarsıda bilmədi. Xalq həmin gün üstünə şığıyan qorxunc sovet ordusuna qarşı sinəsini sipər etməklə özünün kimliyini və dəyanətini əyani şəkildə sübut etdi. Dövlətin suverenliyini, xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları ali amallar uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar və bununla da millətin haqq səsini bütün dünyaya daha ucadan bəyan etmiş oldular. Bu tarixi faciə Azərbaycan xalqını daha da sıx birləşdirdi, istiqlalımızı və firavan istiqbalımızı şərtləndirdi.

Qeyd etmək zəruridir ki, həmin dövrdə Moskvada yaşayan Ulu Öndər Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükəyə atmaqla, qətliamdan bir gün sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi və xalqının yanında olduğunu bildirdi. Böyük şəxsiyyətin bu bəyanatı Azərbaycan xalqının məruz qaldığı dəhşətli və amansız terrorun dünyanın mütərəqqi qüvvələri tərəfindən də qətiyyətlə pislənilməsinə rəvac verdi.

Vurğulanmalıdır ki, zamanında hərtərəfli araşdırılmayan və adekvat qiymət verilməyən qanlı faciəyə yalnız bir neçə ildən, məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra rəsmi münasibət bildirildi. Belə ki, ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin – günahsız Qanlı Yanvar qurbanlarının əziz xatirəsini uca tutan Ulu Öndərin təşəbbüsü ilə sözügedən faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanında, həmçinin Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması da tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Qeyd olunmalıdır ki, məhz Ümummilli Lider Heydər Əliyevin Sərəncamına əsasən Bakı şəhərinin ən hündür

***Şəhidlər bizim qəlbimizdə yaşayır və əbədi yaşayacaqdır.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Müzəffər Ali Baş Komandan**

və mənzərəli yerində yerləşən Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi ucaldılıb.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Şəhidlər xiyabanı rekonstruksiya olunmuş, o cümlədən "Əbədi məşəl" abidəsinin sütunları bir qədər də hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz və məsamələri müasir üslubda işlənib. Bundan başqa, dövlət başçısının təşəbbüsü ilə Bakı şəhərinin Yasamal rayonundakı "20 Yanvar" dairəsində 20 Yanvar şəhidlərinin əziz xatirəsinə abidə-kompleksi inşa edilib. Bütün bunlar onların ruhuna dövlət səviyyəsində göstərilən böyük ehtiramın təzahürüdür.

Bu gün 20 Yanvar şəhidlərinin anım günü olduğundan, əsasən o haqda bəhs etsəm də, digər şəhidləri də yad etməyi, bütün şəhidlərimiz barədə söz açmağı, bu barədə danışmağı da müqəddəs borc, eyni zamanda, böyük şərəf hesab edirəm. Təbii ki, hər bir şəhidimizin parlaq və unudulmaz xatirəsi dövlətimiz və xalqımız, o cümlədən mənim üçün eyni dərəcədə əzizdir. Tarix boyu Azərbaycan xalqı və dövləti yolunda şəhid olan vətən övladları olmuşdur ki, onların da heç birini millətimiz və dövlətimiz unutmayacaq. Müasir Azərbaycan tarixində ən çox şəhidlər Birinci və İkinci Qarabağ müharibəsində verilmişdir. Hər iki müharibədə qəhrəman övladlar torpaq və xalq yolunda canlarını fəda ediblər.

Vətən müharibəsindən söz düşmüşkən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin misilsiz şücaət və qəhrəmanlıq göstərərək düşmən üzərində möhtəşəm Qələbəmizi təmin etməsini, lider-xalq-ordu birliyinin nəticəsində 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımızın hərbi və siyasi-diplomatik yolla azad edilərək, ərazi bütövlüyümüzün bərpa olunmasını böyük qürur hissləri ilə xüsusi vurğulamaq lazımdır.

Sevindirici və iftixarlandırıcı haldır ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin prioritet istiqaməti olmuşdu. Ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilib, onlar müxtəlif növ dövlət təminatı ilə təchiz olunublar. Bu diqqət və qayğının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin 31 mart 1998-ci il tarixli Fərmanı ilə 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar şəhidi" fəxri adı verildi, bundan sonra şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi və pensiya təminatı da mütəmadi olaraq gücləndirildi.

Hazırda bu ənənə dövlət başçısı tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, dövlət başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olub. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun qorunması ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də şəhid ailələri üçün verilən Prezident təqaüdünün artırılması məqsədilə Prezidentin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu qəbildən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək təzahürüdür. Dövlətimizin başçısının 2020-ci il 8 dekabr tarixli müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması bu istiqamətdə görülən işlərə böyük töhfə olub. Prezident İlham Əliyev deyib: "Mən bütün dövlət qurumlarına tapşırmışam ki, şəhid ailələrinin həyatında heç bir problem olmasın".

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mütəmadi olaraq şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təcəssümüdür.

Fərəhləndirici və qürurvericidir ki, şəhid ailələrinə, müharibə əlillərinə və Vətənin müdafiəsində iştirak edən digər şəxslərə mənəvi dəstək, onların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istər dövlətimizin, istərsə də xalqımızın daim diqqət mərkəzindədir. Bu müqəddəs missiyanın həyata keçirilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları da iştirak edir. Bu, hər zaman belə olacaq, çünki Vətənini və millətini sevən hər kəs və onların doğmaları yüksək diqqətə və böyük ehtiram, bir sözlə, hər şeyin ən dəyərlisinə layiqdirlər.

Bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar, Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi şəhidlərinin əziz və unudulmaz xatirəsini yüksək ehtiramla yad edərək, Uca Yaradandan onlara rəhmət diləyirəm. Allahdan qazilərimizə şəfa arzulayıram.

Vətən var olsun!

**Firad Əliyev**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri**

# Qanunsuz pul köçürülməsi ilə məşğul olma fəaliyyətinin hüquqi aspektləri

Beynəlxalq təcrübədə *"qanunsuz pul köçürmələri"* anlayışı *"qanunsuz maliyyə axınları"* anlayışı kimi qəbul olunur. Belə ki, müasir dövrdə qanunsuz maliyyə axınları problemi nəinki yerli, həm də beynəlxalq qanunvericilikdə ən böyük iqtisadi problemlərdən biri olmaqla dövlətlərin suverenliyinə təsir edən bazarlar vasitəsilə formalaşır. Qanunsuz maliyyə axınları gizli olduğundan həmin fəaliyyətlə uzun müddət məşğul olan "peşəkarlar" dövlətlərin yerli qanunvericiliklərində olan boşluqlardan və beynəlxalq maliyyə sisteminin mürəkkəb şəbəkəsindən istifadə edərək asanlıqla qanuni maliyyə bazarlarına daxil olur. Qanunsuz maliyyə axınları nəticəsində əldə edilən gəlirlərin itirilməsi ədalətin təməlinə və mənəviyyatına ziyan vurur. İnkişaf etməkdə olan ölkələrin və beynəlxalq institutların qanunsuz maliyyə axınları problemini dərk etmələri və onların həlli üçün qarşılıqlı razılaşdırılmış iş planı hazırlamalarına zərurət vardır. Qanunsuz maliyyə axınları ilə mübarizə və vergi ədalətinin təmin edilməsi üzrə beynəlxalq əməkdaşlıq sosial, iqtisadi və siyasi hüquqların müdafiəsinin əsasını təşkil edir. Milli hökumətlər öz maliyyə məkanlarını qorumaq və dövlət xərclərini yenidən prioritetləşdirmək vəzifəsi daşıyırlar.

Bütün dünyada qanunsuz maliyyə axınlarının nəzəriyyəsi və praktikası maliyyə hesabatları və istintaq araşdırmaları üçün qlobal problemə çevrilmişdir. Qanunsuz maliyyə axınları transsərhəd axınlar olaraq qeyri-legitimdir, yəni hakimiyyətdən sui-istifadəyə əsaslanmaqla cəmiyyətə zərər verir. Qanunsuz maliyyə axınlarının predmeti qeyri-qanuni olaraq milli sərhədlərdən keçən vəsaitlərdir. Köçürülmüş vəsaitin qeyri-qanuni tərəfi bu vəsaitin hansı yolla ötürülməsidir. Bu tip vəsaitlər adətən pul köçürmələrinin rəsmi mexanizmlərindən yayınmaqla sərhədlərdən keçir. Sərhədlərdən qanuni yollarla keçən vəsaitlər də bəzən qeyri-qanuni hesab edilə bilər. Bəzən bu vəsaitlərin mənbələri qeyri-qanuni olur (məsələn, cinayət və ya hüquq pozuntusu ilə nəticələnən fəaliyyətlər), bəzən bu vəsait terrorçuluğun maliyyələşdirilməsində və ya başqa bir cinayətin törədilməsində istifadə olunur, bəzən isə həmin vəsaitlər qanuni olaraq ölkəyə daxil olduqdan sonra həmin vəsaitlər ölkə daxilində vergi və ya digər qanunvericiliklər pozularaq dövriyyəyə daxil olur. Yuxarıda sadalanan hallar qanunsuz maliyyə axınlarının bir hissəsidir.[1]

Qanunsuz pul köçürmələri fəaliyyəti heç də həmişə həmin pul vəsaitlərinin faktiki olaraq dövlət sərhədlərindən keçirilməsi yolu ilə baş vermir. Hüquq praktikasında qanunsuz pul köçürmələri fəaliyyətinin dövlət sərhədlərindən keçirilmədən baş verməsi əsasən ticarətlə (meyvə-tərəvəz alveri) məşğul olan şəxslərin fəaliyyətində özünü büruzə verir. Bildiyimiz kimi rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər xarici valyutanı gömrük prosedurlarına əməl etməklə məhdudiyyət olmadan Azərbaycan Respublikasına gətirə bilərlər. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər məbləği 10.000 (on min) ABŞ dolları ekvivalentinədək olan xarici valyutanı gömrük orqanında şifahi formada bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər 10.000 (on min) ABŞ dolları ekvivalenti məbləğindən 50.000 (əlli min) ABŞ dolları ekvivalenti məbləğinədək olan xarici valyutanı onun əvvəllər Azərbaycan Respublikasına nağd şəkildə gətirilməsini təsdiq edən gömrük sənədlərini və yazılı formada bəyannaməni gömrük orqanına təqdim etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər. Yuxarıda qeyd olunan hallar istisna olmaqla, bütün digər hallarda xarici valyutanın rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasından çıxarılması yalnız müvəkkil banklar və poçt rabitəsinin milli operatoru vasitəsilə köçürmə yolu ilə həyata keçirilə bilər.

Rezident və qeyri-rezident hüquqi şəxslər nağd milli valyutanı (kağız və metal pul nişanları), milli valyutada ifadə olunmuş qiymətli kağızları və milli valyutada ifadə olunmuş yubiley və xatirə pul nişanlarını nominal məbləğindən asılı olmayaraq gömrük orqanlarına bəyan etməklə, Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər. Rezident və qeyri-rezident fiziki şəxslər 20.000 (iyirmi min) manat məbləğinədək olan nağd milli valyutanı (kağız və metal pul nişanları) və milli valyutada ifadə olunmuş qiymətli kağızları gömrük orqanlarına şifahi formada bəyan etməklə, 20.000 (iyirmi min) manat və ondan yuxarı məbləğdə olan nağd milli valyutanı (kağız və metal pul nişanları) və milli valyutada ifadə olunmuş qiymətli kağızları gömrük orqanlarına yazılı formada tam məbləğdə bəyan etməklə, Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər.

Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər milli valyutanı məhdudiyyət olmadan müvəkkil banklar və ya poçt rabitəsinin milli operatoru vasitəsilə köçürmə yolu ilə Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər.[2]

Hüquq praktikasında qanunsuz pul köçürmələri fəaliyyəti ilə əsasən Rusiya Federasiyası ərazisində yerləşən bazarlarda meyvə-tərəvəz alverini həyata keçirən Azərbaycan Respublikasının vətəndaşları məşğul olur. Belə ki həmin şəxslər həyata keçirdikləri (çiyələk – əsasən Lənkəran və Cəlilabad rayon sakinləri, kartof – əsasən Cəlilabad və Gədəbəy rayon sakinləri, alma və gilas – əsasən Quba rayon sakinləri, nar – əsasən Göyçay rayon sakinləri) meyvə-tərəvəz alveri zamanı Azərbaycan

1 Draining Development Controlling Flows of Illicit Funds from Developing Countries Edited by PETER REUTER (The World Bank)

2 https://customs.gov.az/az/ferdler-ucun/valyuta-nezareti

Respublikasının ərazisindən meyvə-tərəvəz aldığı ayrı-ayrı şəxslərə verməli olduqları xeyli və ya külli miqdarda pul vəsaitlərini qanunvericiliyin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasına göndərmirlər. Həmin şəxslər Azərbaycan Respublikasından meyvə-tərəvəz aldığı şəxslərin pulunu sonuncuların Rusiya Federasiyasında yaşayan tanışlarına və ya qohumlarına orada verirlər. Meyvə-tərəvəz satan şəxslərin Rusiya Federasiyasında yaşayan tanışları və ya qohumları isə meyvə-tərəvəzin pulunu əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə qanunsuz olaraq Azərbaycan Respublikasına göndərirlər. Bu da hər iki ölkənin (həm alıcının, həm də satıcının yaşadığı ölkənin) iqtisadiyyatının davamlı inkişafına maneə olur və iqtisadiyyatın müxtəlif sahələrinə zərər vurur. Bu da özünü əmanətlərin azalması nəticəsində investisiya qoyuluşunda əhəmiyyətli zəifləmələrin baş verməsində, vergidən yayınma səbəbindən vergi yığımının azalmasında haqsız rəqabət və sosial ədalətsizliyin yaranmasında büruzə verir ki, yekunda həmin qanunsuz fəaliyyət yerli sənayeni və məşğulluğu məhv edir, investorların inamını zədələyir.

Qanunsuz maliyyə axınlarının müzakirəsi zamanı ortaya çıxan problemlərin bəziləri korrupsiya cinayətlərinin araşdırması zamanı ortaya çıxan problemlərlə paraleldir. Korrupsiya adətən dövlət məmurlarının şəxsi mənfəət üçün etibar edilmiş səlahiyyətdən sui-istifadə etməklə qanunu pozmasını, yəni rüşvətxorluğu əhatə edir.

Korrupsiya və qanunsuz maliyyə axınlarının hər ikisi sui-istifadəni özündə ehtiva etdiyi üçün sui-istifadə yolu ilə baş vermiş qeyri-qanuni əməliyyatların nəticəsində meydana çıxır. Fərq ondadır ki, qanunsuz maliyyə axınları yalnız beynəlxalq sərhədləri keçən əməliyyatlara, korrupsiya isə ümumiyyətlə milli yurisdiksiya daxilində olan əməliyyatlara aiddir. Zaman keçdikcə korrupsiya daxilolmaları istər rüşvət, istərsə də rüşvətdən başqa qanunsuz kənar daxilolmalar beynəlxalq sərhədləri aşaraq sui-istifadə edən şirkətlərin qazancları, qanunsuz axınların qeyri-qanuni gəlirləri olaraq təsbit ediləcəkdir. Bu zaman həmin axınlar beynəlxalq sərhədləri keçən rüşvət gəlirləri olaraq qanunsuz maliyyə əməliyyatları kimi təsnif ediləcəkdir. Bundan sonra sui-istifadəyə əsaslanan dövlət və ya özəl sektor qurumlarının hər hansı korrupsiya gəlirlərinin transsərhəd hərəkəti beynəlxalq sərhədləri keçərək avtomatik olaraq korrupsiya nəticəsində yaranan qanunsuz maliyyə axınları olacaqdır.[3]

Hazırkı iqtisadi şəraitdə milli valyutanın məzənnəsinin tarazlı əsaslarda tənzimlənməsi məsələlərinin aktual olduğunu nəzərə alsaq, valyuta əməliyyatlarında mühüm paya malik olan beynəlxalq pul köçürmələrinin rasional idarə olunması problemlərinin əhəmiyyəti getdikcə artmaqdadır. Pul köçürmələri ölkələr arasında valyuta vəsaitlərinin axınında mühüm kanallardan biridir.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 17.09.2013-cü il tarixli 19/1 №-li qərarı ilə ölkəmizdə nağdsız hesablaşmalar və pul köçürmələri ilə bağlı münasibətlərin normativ tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat" təsdiq edilmişdir.

Həmin Təlimat Azərbaycan Respublikasının ərazisində nağdsız hesablaşmaların aparılmasını, o cümlədən istifadə edilən ödəniş sənədlərinin forma və məzmununu, tərtibi və dövriyyə qaydalarını, habelə pul köçürmələrinin aparılmasının qayda və şərtlərini müəyyən edir. Ümumiyyətlə, pul köçürmələri ənənəvi qaydada ödəyici və vəsait alan arasında bank hesabları üzərindən aparılan nağdsız hesablaşmalardan fərqlənir. Belə ki, pul köçürmələri ödəyici və vəsait alanın bank hesabı olmadan və ya tərəflərdən hər hansı birinin bank hesabı olmaqla həyata keçirilir. Ölkəmizdə pul köçürmələri banklar, xarici bankların yerli filialları və poçt rabitəsinin milli operatoru vasitəsilə aparılır.

Pul köçürməsi dedikdə ödəyici və ya vəsait alanın adına bank hesabı açılmadan nağd pulun vəsait alanın xeyrinə köçürülməsi əməliyyatı başa düşülür. Pul köçürmə sistemi fiziki şəxslər tərəfindən pul vəsaitinin bank hesabı açmadan ölkə daxilində və ya ölkə xaricinə köçürülməsinə və ya onların xeyrinə köçürülən pul vəsaitlərinin əldə edilməsinə imkan verən sistemdir. Pul köçürmələri milli və xarici valyutada həyata keçirilir.

Qeyd edildiyi kimi Azərbaycan Respublikasının ərazisində pul köçürmələrinin aparılmasının qayda və şərtlərini müəyyən edən Təlimat vardır. Həmin Təlimatın şərtlərinə əməl edilmədən pul köçürülməsi fəaliyyətinin həyata keçirilməsi müvafiq məsuliyyətə səbəb olacaqdır.

Əvvəllər Azərbaycan Respublikası ərazisində qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olan şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-ci maddəsi ilə (Qanunsuz sahibkarlıq) cinayət məsuliyyətinə cəlb edilirdi. CM-in 192-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma fiziki və ya hüquqi şəxslərə, yaxud dövlətə xeyli miqdarda ziyan vurduqda habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə cinayət məsuliyyətinə səbəb olur.

Ölkəmizdəki azad və rəqabətli biznes mühitindən sui-istifadə edən kölgə iqtisadiyyatı subyektləri və valyuta möhtəkirlərinin qanunsuz əməllərinə qarşı mübarizə tədbirləri çərçivəsində "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" 05.11.2022-ci il tarixli Qanunla CM-nə 206-1-ci maddə *(Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma)* əlavə edilmişdir. Həmin maddədə göstərilir ki, bu Məcəllənin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma

3 Draining Development Controlling Flows of Illicit Funds from Developing Countries Edited by PETER REUTER (The World Bank)

üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər xeyli miqdarda törədildikdə cinayət məsuliyyətinə səbəb olur. CM-in 206-1.1-ci maddəsində göstərilmiş cinayəti törətmiş şəxslər cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır. Həmin Məcəllənin 206-1.2-ci maddəsinə əsasən eyni əməllər: vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə; eləcə də külli miqdarda törədildikdə, cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. CM-in 206-1.3-cü maddəsinə əsasən bu Məcəllənin 206-1.1-ci və 206-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

CM-in 190-cı maddəsinin "Qeyd" hissəsinə əsasən 206-1.1-ci maddədə "xeyli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 206-1.2.2-ci maddədə "külli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ və 206-1.3-cü maddədə "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma cinayəti CM-in XXIV (İqtisadi fəaliyyət sahəsində olan cinayətlər) fəslinə daxil edilmişdir. Ölkəmizin cinayət qanunvericiliyi üçün yeni olan bu maddə bazar iqtisadiyyatının mühüm prinsiplərindən olan sahibkarlıq azadlığının, mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün sahibkarlıq fəaliyyəti subyektlərinin bərabərliyinin təminatlarından biridir. Qeyd olunan cinayətin obyekti iqtisadi fəaliyyət sahəsində yaranan ictimai münasibətlər, habelə dövlətin, ayrı-ayrı təşkilatların və ya vətəndaşların qanunla qorunan mənafeləridir. Qanunvericiliyə müvafiq surətdə həyata keçirilən pul köçürülməsi fəaliyyəti ictimai faydalı və təqdirəlayiq hesab edilməklə ölkə iqtisadiyyatının prioritet sahələrindən biridir. Lakin pul köçürülməsi fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş çərçivədə aparılmadıqda, dövlət nəzarətindən kənarda qaldıqda ictimai təhlükəli xarakter alır və dövlətin, cəmiyyətin və ayrı-ayrı şəxslərin qanuni mənafelərinə ziyan vurmaq təhlükəsi yaradır.[4]

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 05.11.2022-ci il tarixli Qanunla İXM-in "Gömrük qaydaları əleyhinə olan inzibati xətalar" adlanan 37-ci fəslinə 482-1-ci maddə (Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma) əlavə edilmişdir. Həmin maddədə göstərilir ki, bu Məcəllənin 479 – 482-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər az miqdarda törədildikdə inzibati xətanın bilavasitə obyekti olan pul vəsaiti məbləğinin qırx faizindən altmış faizinədək məbləğdə cərimə edilir. Yuxarıda qeyd olunduğu kimi əlli min manatdan yuxarı məbləğin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi cinayət məsuliyyətinə səbəb olur. Əlli min manatdan aşağı məbləğin (az miqdarda) Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi isə inzibati məsuliyyətə səbəb olur.

Hazırda rezident və qeyri-rezidentlərin Azərbaycan Respublikasının kredit təşkilatları vasitəsilə aparılan valyuta əməliyyatlarının rejimi "Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında" Qaydalara uyğun olaraq tənzimlənir. Bu qaydalara əsasən, Azərbaycan Respublikası rezidentlərinin və qeyri-rezidentlərinin müvəkkil banklardakı xarici valyuta hesablarına vəsaitlər sərbəst şəkildə mədaxil edilə bilər. Ölkəmizdə rezident və qeyri-rezident fiziki şəxslər 1000 (bir min) ABŞ dolları ekvivalentinədək məbləğdə xarici valyuta vəsaitlərini hesab açmadan müvəkkil banklar vasitəsilə xaricə köçürə bilər. Müəyyən olunmuş limit çərçivəsində hər bir rezident və qeyri-rezident fiziki şəxs tərəfindən bir əməliyyat günü ərzində bir belə köçürmə icra edilə bilər.

Müvəkkil banklar və onların əməkdaşlıq etdiyi pul köçürmə sistemləri valyuta rejiminin bu tələblərinə uyğun olaraq eyni bir fiziki şəxs tərəfindən gün ərzində aparılan əməliyyatlara müvafiq limitlər müəyyən edirlər. Lakin qeyd olunmalıdır ki, fiziki şəxslər tərəfindən bir əməliyyat günü ərzində müxtəlif banklar vasitəsilə fərqli pul köçürmə sistemləri üzərindən əməliyyatlar aparıldıqda müəyyən edilmiş limitlərin gözlənilməsi qeyri-mümkün olur.

Beynəlxalq təcrübədə pul köçürmələri Avropa Birliyi daxilində "Daxili bazarda ödəniş xidmətləri haqqında" 13.11.2007-ci il tarixli 2007/64/EC saylı Direktivlə ödəniş xidməti olaraq klassifikasiya olunmuşdur. Bu Direktiv əsasında ödəniş xidmətləri üzrə vahid siyasət formalaşdırılaraq ümumi standartlar tətbiq edilmiş, həmçinin bank olmayan ödəniş xidməti təchizatçıları tərəfindən pul köçürmələrinin həyata keçirilməsinin hüquqi əsası müəyyən edilmişdir. Direktivdə ödəniş xidmətlərinin, o cümlədən pul köçürmələrinin həyata keçirilməsi, bank olmayan ödəniş xidməti təchizatçılarının fəaliyyətinin lisenziyalaşdırılması, vətəndaşların pul vəsaitlərinin təhlükəsizliyi, habelə ödəniş əməliyyatlarının

4 Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası Firudin Səməndərovun redaktəsi ilə (2016)

icrası və bu əməliyyatlar üzrə tərəflərin hüquq və vəzifələrinə dair tələblər müəyyən edilmişdir. Bu tələblərə bank olmayan ödəniş xidməti təchizatçılarının öz vəsaitləri və ilkin nizamnamə kapitalının həcmi, bu təşkilatlarda yerində yoxlamaların aparılması, iştirakçı tərəflərin hüquq və vəzifələrinin dəqiq müəyyən edilməsi, ödəniş əməliyyatları üzrə məlumatlandırma prinsipləri, xidmət haqlarının tətbiqi və digərləri aiddir.[5]

Ölkəyə daxil olan pul köçürmələrinin həcminə görə dünya üzrə aparıcı ölkələrdən olan Meksikada 2008-ci ildə bank qanunvericiliyinə edilən dəyişikliklərə əsasən, banklar pul köçürmələrini agentlər vasitəsilə həyata keçirə bilər. Qeyd olunmalıdır ki, təhlil olunan region və ölkələrdə banklar agentlərin fəaliyyətinə görə tam məsuliyyət daşıyırlar. Beynəlxalq təcrübədə pul köçürmələri üzrə tələblərin bu cür müəyyən edilməsi pul köçürmə sistemlərinin fəaliyyətinin birbaşa tənzimlənməsini və nəzarət siyasətinin daha effektiv formada həyata keçirilməsini, habelə pul köçürmələrində tətbiq edilən limitlərin pozulması hallarının minimuma endirilməsini təmin edir.[6]

Azərbaycan Respublikasında valyuta nəzarəti – valyuta nəzarəti orqanları və onların agentləri tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının əsas valyuta nəzarəti orqanı Azərbaycan Respublikasının Mərkəzi Bankı və müvafiq icra hakimiyyəti orqanı, valyuta nəzarəti agentləri isə müvəkkil banklardır. Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirən icra hakimiyyəti orqanı rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə, habelə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir. Valyuta nəzarəti orqanları öz səlahiyyətləri daxilində bütün rezident və qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasında icrası məcburi hesab edilən normativ aktlar qəbul edirlər. Valyuta nəzarəti orqanları və agentləri öz səlahiyyətləri daxilində: Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlər tərəfindən həyata keçirilən valyuta əməliyyatlarının mövcud qanunvericiliyə, lisenziya və icazələrin şərtlərinə nə dərəcədə uyğun gəlməsinə, həmçinin valyuta nəzarəti orqanları aktlarının yerinə yetirilməsinə nəzarət edirlər, rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatlarını yoxlayırlar, rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları üzrə uçotun, hesabatın və sənədləşmələrin forması və qaydalarını müəyyən edirlər.[7]

Aparılan təhlillərə əsasən, ölkəmizdə pul köçürmələrinə nəzarətin qabaqcıl beynəlxalq təcrübə əsasında qurulması, yarana biləcək risklərin səviyyəsinin aşağı salınması, habelə maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi məqsədilə əsas prioritet istiqamət olaraq ödəniş xidmətləri sahəsində yeni qanunvericilik bazası formalaşdırılmalıdır. Eyni zamanda, ödəniş xidmətlərinin təhlükəsiz və effektiv formada göstərilməsi, bank olmayan ödəniş xidməti təchizatçılarının fəaliyyətinin lisenziyalaşdırılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi ilə bağlı tələblər də müəyyən olunmalıdır. Bu isə ölkəmizdə pul köçürmə sistemlərinin bank olmayan ödəniş xidməti təchizatçısı olaraq lisenziyalaşdırılmasına və onların fəaliyyətinə birbaşa nəzarətin həyata keçirilməsinə imkan verəcəkdir. Nəzarət siyasətinin aspektlərinin, o cümlədən yerində yoxlamanın prinsiplərinin, hesabatlılıq prosedurunun, auditin aparılması əsaslarının, prudensial və digər tələblərin dəqiq müəyyən edilməsi beynəlxalq pul köçürmələri üzrə xarici valyuta axınının daha çevik və effektiv formada tənzimlənməsini təmin edəcəkdir. Bu eyni zamanda, pul köçürmələrində tətbiq olunan limitlərlə bağlı mövcud problemin həll edilməsinə, bu sahədə nəzarət siyasətinin beynəlxalq təcrübə əsasında formalaşdırılmasına, habelə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində mübarizə tədbirlərinin daha da gücləndirilməsinə imkan verəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
3. Firudin Səməndərovun redaktəsi ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası (2016)
4. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 17.09.2013-cü il tarixli, 19/1 №-li qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında" Təlimatı.
5. Azərbaycan Respublikası Təhsil nazirinin 03.05.2011-ci il 722 saylı əmri ilə təsdiq edilmiş "Pul, kredit, banklar" adlı metodiki vəsait. Bakı 2011.
6. https://customs.gov.az/az/ferdler-ucun/valyuta-nezareti.
7. Draining Development Controlling Flows of Illicit Funds from Developing Countries Edited by PETER REUTER (The World Bank)
8. Estimating İllicit Financial Flows a Critical Guide to the Data, Methodologies and Findings. Edited by ALEX COBHAM AND PETR JANSKÝ January 2020

**İlkin Babazadə**
**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru vəzifəsini icra edən, II dərəcəli hüquqşünas**

5 Estimating İllicit Financial Flows a Critical Guide to the Data, Methodologies and Findings. Edited by ALEX COBHAM AND PETR JANSKÝ January 2020
6 Estimating İllicit Financial Flows a Critical Guide to the Data, Methodologies and Findings. Edited by ALEX COBHAM AND PETR JANSKÝ January 2020
7 Azərbaycan Respublikası Təhsil Nazirinin 03.05.2011-ci il 722 saylı əmri ilə təsdiq edilmiş "Pul, kredit, banklar" adlı metodiki vəsait. Bakı 2011.

# İnzibati xətalar haqqında işlər üzrə icraata prokuror nəzarətinin aktual problemləri

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

Məlum olduğu kimi Azərbaycan Respublika İnzibati Xətalar Məcəlləsinin 54-cü maddəsi inzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti ilə bağlıdır. Həmin maddə iki funksiyanı yerinə yetirir: 54.1 nəzarət funksiyasını, 54.2 təqib funksiyasını.

Azərbaycan Respublikası İXM-in 54.1-ci maddəsində göstərilir ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir.

Qanunun bu maddəsinin mənasına görə prokuror bütövlükdə inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. Bu nəzarət həm inzibati xətalar üzrə işlərin başlanması mərhələsində, həm icraat prosesində, həm də ki, icraat üzrə qəbul edilmiş qərardan sonra ola bilər.

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 31.01.2017-ci il tarixli Qərarında göstərilir ki, inzibati xətalara dair işlər üzrə prokuror nəzarəti əvvəlki qanunvericilikdən fərqli olaraq heç də məhkəmələrin fəaliyyətinə, məhkəmələr tərəfindən inzibati xətalara dair işlərə baxılması zamanı Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarəti kimi qəbul edilməməlidir. Qeyd olunmalıdır ki, İXM-də nəzərdə tutulan Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarəti əsasən inzibati xətalara dair işlər üzrə icraatla bağlı müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətini əhatə etməklə bu fəaliyyətin həyata keçirilməsi zamanı yol verilmiş qanun pozuntularının vaxtında aradan qaldırılması üçün tədbirlərin görülməsini ehtiva edir.

Konstitusiya Məhkəməsi Plenumunun qərarından aydın olur ki, məhkəmələrdən başqa müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətinə prokuror tərəfindən nəzarət olunmalı, qanun pozuntuları aşkar edildikdə isə aradan qaldırılması üçün tədbirlərin görülməlidir. Lakin prokuror tərəfindən inzibati xətalarla bağlı qanun pozuntusu aşkar edildikdə hansı tədbirlərin görüləcəyi İXM-də (inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarın prokuror tərəfindən ləğv edilməsi istisna olmaqla) birbaşa nəzərdə tutulmamışdır.

İXM-in 6.2-ci maddəsində göstərilmişdir ki, inzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir.

İXM-in 86.1-ci maddəsində icraatın təmin olunması tədbirləri tətbiq edilərkən inzibati xətaların qarşısını almaq, şəxsiyyəti müəyyən etmək, işlərə vaxtında və düzgün baxılmasını, inzibati xətalar haqqında işlərə dair qərarların icrasını təmin etmək məqsədi ilə səlahiyyətli vəzifəli şəxs İXM-si ilə müəyyən edilmiş hallarda aşağıda göstərilən tədbirləri tətbiq edir: gətirilmə, inzibati qaydada tutma, şəxsi axtarış, fiziki şəxsdə olan əşyaları yoxlama, nəqliyyat vasitəsinə baxış və s. Digər orqanlardan prokurorluğa daxil olmuş şikayətlərə bağlı prokuror İXM-in 86-cı maddəsinin tələblərinin pozulması ilə bağlı nə edə bilər? İXM-də bu barədə norma yoxdur. Protesti isə yalnız iştirak etdiyi işlər olduqda verilə bilər.

İXM-in 99.7-ci maddəsində göstərilmişdir ki, 40.0.2 – 40.0.3-cü maddələrində nəzərdə tutulmuş səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında

qərardadından onun rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə), prokurora və ya məhkəməyə şikayət verilə bilər.

Şəxs İXM-in müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadın qanunsuzluğu ilə bağlı prokurora müraciət edir. Prokuror isə öz növbəsində şəxsə inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadın qanuni olub olmadığını araşdıra bilməyəcəyini bildirir. Çünki, prokurorun inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadı ləğv etmək və ya inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi barədə qərarı ləğv etmək səlahiyyəti İXM-də nəzərdə tutulmamışdır.

Həmçinin şəxs İXM-in müvafiq icra hakimiyyəti orqanı tərəfindən tərtib edilmiş inzibati protokolun qanunsuzluğu ilə bağlı prokurora müraciət edir. Prokuror isə tərtib olunmuş protokolun qanuni olub olmadığını araşdıra bilməyəcəyini bildirir. Çünki, tərtib olunmuş inzibati protokolu ləğv etmək və ya xitam vermək nəzərdə tutulmamışdır. Ona görə də inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadın və inzibati protokolun araşdırılmasının əhəmiyyəti qalmır. Beləliklə, İXM-in 54.1-ci maddəsində göstərilən prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür müddəasını icra etmək mümkün olmur.

İXM-in 119-cu maddəsində göstərilmişdir ki, inzibati xəta haqqında işə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti müəyyən etdikdə, müvafiq müəssisə, idarə və təşkilatlara, vəzifəli şəxslərə onların aradan qaldırılması üçün tədbirlər görmək haqqında təqdimat verir. Təqdimatın alındığı gündən bir ay ərzində həmin müəssisələr, idarələr, təşkilatlar, habelə vəzifəli şəxslər təqdimat vermiş hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) görülən tədbirlər haqqında məlumat verməyə borcludurlar.

Göründüyü kimi, inzibati xəta haqqında işə baxan hakim, səlahiyyətli orqanın (vəzifəli şəxs) təqdimat verməsi qanunda nəzərdə tutulmuşdur. Prokuror isə inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul edir, lakin inzibati xəta haqqında işə baxa bilmir.

Belə olan halda prokuror tərəfindən inzibati xətalarla bağlı qanun pozuntusu aşkar edildikdə hansı tədbirlərin görüləcəyi İXM-də nəzərdə tutulmadığından təcrübədə bira sıra çətinliklər yaradır.

Prokuror "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirərkən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara, yaxud vəzifəli şəxslərə təqdimat verir. Prokuror prosessual qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda da təqdimat verə bilər.

"Prokurorluq haqqında" Qanunun 18-ci maddəsində göstərilir ki, prokuror təhqiqat orqanlarının fəaliyyətində qanunların eyni cür və dürüst icrasını və tətbiqini təmin etmək məqsədilə aşağıdakı nəzarəti həyata keçirir:

– cinayətlər və digər qanuna zidd hərəkətlər barədə təhqiqat orqanlarına daxil olmuş ərizə və məlumatların qeydə alınması, onlara baxılması və müvafiq tədbirlər göstərilməsinə dair qanunvericiliklə müəyyən olunmuş qaydalara əməl edilməsi;

– təhqiqat orqanları tərəfindən Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsi və bu fəaliyyət prosesində qəbul olunan qərarların qanuniliyi və sair.

Qeyd edildiyi kimi, prokuror təkcə təhqiqat orqanlarının inzibati fəaliyyətinə deyil, digər icra hakimiyyəti orqanlarının inzibati fəaliyyətinə də nəzarəti həyata keçirməli olduğundan, "Prokurorluq haqqında" Qanunun 18-ci maddəsinə əlavələrin edilməsi məqsədə uyğun olardı.

Bilindiyi kimi, inzibati xətalar cinayət əməlləri ilə müqayisədə daha az ictimai təhlükəli sayılır. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 84-cü maddəsində prokurorun törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində qanunun tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlamaq, təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək və sair səlahiyyətləri vardır.

İXM-də prokuror inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarın ləğv edilməsi barədə qərar qəbul etmək səlahiyyəti var. Lakin inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadı ləğv etmək və ya inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi barədə qərarı ləğv etmək səlahiyyəti yoxdur. Ona görə də inzibati xətalarla bağlı qanun pozuntularının İXM-in 54.1-ci maddəsində göstərildiyi kimi vaxtında aradan qaldırmaq üçün inzibati xəta haqqında işlər üzrə prokurorun təsir dairəsi genişlənməlidir.

Bundan başqa İXM-in 38.1-ci maddəsində göstərilmişdir ki, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci dörd ay keçənədək verilə bilər. Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları, gömrük qaydaları, ətraf mühitin qorunması qaydaları, maliyyə, vergilərin, xırda talamaya və s. görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər. Prokuror tərəfindən inzibati protokolla bağlı verilmiş tənbehin qanuni olub olmamasını yoxlayan zaman aşkar etdiyi qanun pozuntularının aradan qaldırması müddət keçdiyindən çətinləşir. Belə ki, prokuror tərəfindən inzibati protokollar və qərarlar yoxlanılana qədər qanuna uyğun olmayan inzibati tənbeh artıq qanuni qüvvəsini almış olur və icraya yönəlir.

Mövzunun əvvəlində qeyd olunduğu kimi təqib funksiyası İXM-in 54.2-ci maddəsində öz əksini tapmışdır. Bu norma tam aydın və tətbiqində mane yoxdur. Lakin nəzarət funksiyası olan İXM-in 54.1-ci maddəsi isə həmin Məcəllənin dəyişilməmiş normalarından biridir.

Belə ki, 2000-ci ildən əvvəl qüvvədə olan İnzibati Hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsində prokuror nəzarəti ilə bağlı 239-cu maddəsində göstərilmişdir ki, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, inzibati hüquqpozma haqqında işlərin icraatı zamanı qanunların icrasına nəzarət edərkən prokurorun ixtiyarı vardır ki, inzibati hüquqpozma haqqında icraata başlasın; işin materialları ilə tanış olsun; işin icraatı zamanı orqanların (vəzifəli şəxslərin) hərəkətlərinin qanuni olub-olmadığını yoxlasın; işə baxılmasında iştirak etsin; işə baxılması zamanı meydana çıxan məsələlər üzrə vəsatətini bildirsin; rəy versin; inzibati hüquqpozmalara görə müvafiq orqanlar (vəzifəli şəxslər) tərəfindən təsir tədbirlərinin düzgün tətbiq edilib-edilmədiyini yoxlasın; inzibati hüquqpozma haqqında işə dair şikayət barəsində qərardan protest versin; qərarın icrasını dayandırsın, habelə qanunla nəzərdə tutulmuş digər hərəkətlər etsin (Azərbaycan Respublikasının 06.03.1998-ci il tarixli 454-I QD №-li Qanunu).

Beləliklə, İXM-in 54.1-ci maddəsi bu günün tələblərinə cavab vermədiyi üçün bu norma genişlənməli və Azərbaycan Respublikası CPM-də prokurorun səlahiyyətlərinin aydın və konkret olduğu kimi dəqiqləşdirilməlidir.

Azərbaycan Respublikasının Baş Prokurorluğun 14.09.2020-ci il tarixli 15/3 №-li əmri ilə tətbiqi tövsiyə edilən prosessual sənədlərin nümunəvi formalar toplusuna İXM-in tələblərinin pozuntularının, onları doğuran səbəbi və şəraitin aradan qaldırılmasına dair təqdimat nümunəsinin də gələcəkdə əlavə edilməsi daha yaxşı olardı.

Fikrimcə həm İXM-in 54.1-ci, 119-cu maddələrinə, həm də "Prokurorluq haqqında" Qanunun 18-ci maddəsinə əlavələrin edilməsi prokuror nəzarəti ilə bağlı qanunların icrası zamanı çətinlikləri aradan qaldırar.

**İstifadə olunmuş ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
3. "İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair" Metodik Vəsait. Mahir Tağıyev. Bakı-2018.
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair" 31.01.2017-ci il tarixli Qərarı.
5. İnzibati Hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsi.
6. Azərbaycan Respublikasının "Prokurorluq haqqında" Qanunu.


**Anar Məmmədov,**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi,**
**baş ədliyyə müşaviri**

# Ağır fəsadlarla nəticələnən kosmetoloji əməliyyatlara dair müraciətlərin həlli problemləri

Bakı şəhəri Xətai rayon prokurorluğuna klinika və kabinetlərdə müxtəlif kosmetoloji əməliyyatların və prosedurların aparılması ilə bağlı ağır fəsadlarla nəticələnməsinə dair daxil olmuş müraciətlərin həlli zamanı qərarlar qəbul edilərkən bir sıra çətinliklərə rast gəlinir.

Məsələn, vətəndaş H.N.R. qızının rayon prokurorluğuna ünvanladığı müraciətində bud nahiyələrində selulitin (piy toxumaları) çıxarılması ilə əlaqədar Instagram səhifəsində özünü həkim-cərrah kimi təqdim edən Q.S.M. qızı tərəfindən 14.05.2020-ci il tarixdə Xətai rayon ərazisində fəaliyyət göstərən klinikada aparılmış cərrahiyyə əməliyyatının uğursuz olmasını bildirmişdir.

Bakı Sağlamlıq Mərkəzində şikayətçinin adına tərtib edilmiş tibbi sənədlərdə göstərilmişdir ki, həqiqətən H.N.R. qızı 15-20 gün əvvəl aparılmış "lazer lipoliz" əməliyyatından sonra əməliyyat nahiyəsində əmələ gələn böyük həcmdə yara və fəsadlarla əlaqədar bu Mərkəzə daxil olmuş, aparılmış müayinələr əsasında ona "postoperasion yatrogen ağırlaşma" diaqnozu təyin edilmişdir. Bu səbəbdən onun üzərində "dərialtı punksiya və yara debriidmanı" əməliyyatları icra olunmuş, əldə edilən yara möhtəviyyatı bakterioloji müayinəyə göndərilsə də, yarada bakteriya aşkar olunmamışdır.

Yuxarıda göstərilən klinikada H.N.R. qızının ilkin müayinə olunması və onun bud nahiyələrində selulitin (piy toxumaları) çıxarılması ilə bağlı əməliyyatının aparıldığı zaman hər hansı fiziki şəxs və ya tibb işçisi tərəfindən nöqsanların yol verilib-verilməməsi, Q.S.M. qızı tərəfindən əməliyyatın düzgün həyata keçirilib-keçirilməməsi, ona yardım göstərilərkən, fiziki şəxs və ya tibb işçiləri tərəfindən sanitariya, tibbi sterilizasiya qaydalarına riayət edilib-edilməməsi, edilmədiyi halda, aparılmış manipulyasiya ilə yaranmış fəsadlar arasında səbəbli əlaqənin olub-olmaması və digər halların müəyyən edilməsi məqsədi ilə material üzrə məhkəmə-həkim işinə dair ekspertiza təyin edilmişdir.

Rəydə qeyd edilmişdir ki, klinikada H.N.R. qızının bud nahiyələrində "lazer lipolizi" proseduru kosmetoloji kabinetdə icra olunduğundan bu barədə hər hansı bir qeydiyyat aparılmadığı üçün icra edilmiş prosedur barədə konkret fikir söylənilməsi mümkün deyil.

Lakin H.N.R. qızının mütəxəssis müayinəsi zamanı onun baldır nahiyəsinin ön, iç və bayır kənarlarında çoxlu sayda 0,1-0,9 sm ölçüdə, kənarları fibrin ərpli və sıxdıqda orta qatılıqda seroz, dəri defektlərinin (dəliklər) olduğu müəyyən edilmişdir. Qeyd olunan ağırlaşmaların prosedurun texniki icrası zamanı septika və antiseptika qaydalarına düzgün riayət olunmaması nəticəsində yaranması ilə səbəbli əlaqəsi vardır. Buna məsul şəxs proseduru icra edən Q.S.M. qızıdır. Kosmetoloji proseduralarla əlaqədar səhiyyə sistemində hər hansı bir mövcud təlimat qaydaları müəyyən edilmədiyindən, qeyd edilən prosedurun hansı ixtisas sahibi tərəfindən icra edilib-edilməməsi haqqında fikir söylənilməsi mümkün olmamışdır.

Yuxarıda qeyd olunan ekspertizanın rəyindən H.N.R. qızının narazı olduğu, Q.S.M. qızı tərəfindən aparılan əməliyyatdan sonra onun uzun müddət Bakının özəl klinikalarında, eləcə də Türkiyənin İstanbul şəhərində yerləşən «Amerika» klinikasında müalicələr alması, habelə əlavə cərrahiyyə əməliyyatların aparılmasına ehtiyac olduğu nəzərə alınaraq, rayon prokurorluğu tərəfindən əlavə ekspertiza təyin edilmişdir.

Məhkəmə-tibbi ekspertizasının 02.11.2020-ci il tarixli rəyi əvvəlki 16.09.2020-ci il tarixli rəyi təkrarlasa da, rəydə əlavə olaraq göstərilmişdir ki, H.N.R. qızının hər iki bud nahiyəsinin arxa oturacaq hissəsində dəridə çapıq toxuması, hər iki budun iç səthində əridilən yerlərdə çökəkliklərin və hər iki aşağı ətrafda piy əridilmiş nahiyədə eksudasiyanın olduğu müəyyən edilib. Lakin rəydə vurğulanmışdır ki, qeyd olunan ağırlaşmaların prosedurun texniki icrası zamanı septika və antiseptika qaydalarına düzgün riayət olunmaması nəticəsində yaranması ilə səbəbli əlaqəsi olsa belə, "lipoliz" kosmetoloji prosedur hesab edildiyindən Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş hər hansı bir təlimat qaydaları ilə tənzim olunmur. Bu səbəbdən tibbi manipulyasiyalarda sağlamlığa zərərvurmanın dərəcəsinin təyini nəzərə alınmır.

Göstərilənlərə əsasən, rayon prokurorluğu tərəfindən H.N.R. qızının müraciəti əsasında toplanmış material üzrə cinayət işinin başlanması rədd edilmiş, bu da sonuncunun əsaslı narazılığına gətirib çıxarmışdır.

Digər material üzrə aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, R.E.Ş. qızı burun nahiyəsinin en hissəsinin azaldılması ilə əlaqədar müraciət etdiyi gözəllik salonunda kosmetoloq İ.J.H. qızı tərəfindən

burun nahiyəsindən rinoplastik cərrahiyyə əməliyyatı edilmişdir. Araşdırma zamanı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "MTE və PA ETT Birliyi Publik Hüquqi Şəxs"ə təyin edilmiş komisyon məhkəmə-tibb ekspertizasının 16.12.2022-ci il tarixli rəyinin nəticə hissəsində qeyd edilmişdir:

– R.E.Ş. qızına göstərilmiş proseduralar haqqında tibbi sənəd olmadığından, ona hər hansı bir diaqnozun təyini, müayinələrin və müalicələrin tam həcmdə aparılıb-aparılmaması haqqında fikir söylənilməsi mümkün olmadı.

– R.E.Ş. qızının mütəxəssis müayinəsi zamanı hazırda olan burun nahiyəsində icra edilmiş rinoplastikadan sonra burun çəpərinin, qanadlarının qismən lizisə uğradığı, bununla əlaqədar kosmetik asimmetriyanın yarandığı və burun çəpərinin yana yerdəyişməsinin olduğu müəyyən edilmişdir. Bu da aparılmış rinoplastika əməliyyatı zamanı kobud şəkildə aseptika qaydalarının pozulması və əməliyyatın qüsurlu icrası ilə əlaqədar yaranmışdır.

– Qeyd olunan əməliyyatın gözəllik salonunda və profil üzrə ali tibb təhsili olmayan şəxs tərəfindən aparılması yolverilməzdir.

Araşdırma zərurəti ilə əlaqədar təyin edilmiş əlavə komisyon məhkəmə-tibb ekspertizasının 11.01.2023-cü il tarixli rəyinin nəticə hissəsində qeyd edilmişdir ki, "R.E.Ş. qızının məhkəmə-tibbi müayinəsi zamanı onun bədən səthi üzərində hər hansı bir travmatik xəsarət və xəsarət izinin olduğu müəyyən edilməmişdir. R.E.Ş. qızının mütəxəssis müayinəsi zamanı onda burun nahiyəsində icra edilmiş rinoplastikadan sonra burun çəpərinin, qanadlarının qismən lizisə uğradığı, bununla əlaqədar kosmetik asimmetriyanın yarandığı və burun çəpərinin yana yerdəyişməsinin olduğu müəyyən edilmişdir. Bu da aparılmış rinoplastika əməliyyatı zamanı kobud şəkildə aseptika qaydalarının pozulması və əməliyyatın qüsurlu icrası ilə əlaqədar yaranmışdır. Bununla əlaqədar R.E.Ş. qızının hazırda cərrahiyyə əməliyyatına ehtiyacı vardır. Tibbi manipulyasiyalar zamanı sağlamlığa zərərvurmanın dərəcəsinin təyini nəzərdə tutulmayıb".

Beləliklə, R.E.Ş. qızının burun nahiyəsindən rinoplastik cərrahiyyə əməliyyatı olunması faktı üzrə İ.J.H. qızının əməlində hər hansı cinayət tərkibi müəyyən edilməmişdir. Bu kimi hallara digər vətəndaşların müraciəti əsasında aparılan araşdırma materialında da rast gəlinir.

Rusiya Federasiyası, Qazaxıstan və Ukrayna Respublikalarında ekspertiza növü kimi kosmetoloji məhkəmə-tibbi ekspertizası nəzərdə tutulmuşdur. Bu kimi ekspertizalar aparılarkən tibbi fəaliyyətin həyata keçirilməsi üçün lisenziyanın, həkimlərin sertifikatının olub-olmaması; klinika və ya kosmetoloji mərkəzin bu xidmətin aparılmasına icazəsinin olub-olmaması, personalın təhsili haqqında sənədlərin normalara uyğunluğu, hansı preparatların kosmetoloji xidmət zamanı istifadə olunması; klinikada bu kimi xidmətlərin metodikası və texnologiyası; klinikanın və ya mərkəzin personalının hər birinin kosmetoloji xidmətin göstərilməsinə dair xüsusi təhsili barədə diplomu və iş təcrübəsi; bu kimi ekspertizaların alqoritminə tibbi sənədlərin ekspertizası daxil olduğundan, tibbi karta, xəstəlik tarixi, analizlərin cavabı, pasientin prosedurdan əvvəl və sonrakı fotoşəkilləri və klinikanın bu kimi fəaliyyət göstərməsinə dair icazəsinin olub-olmaması araşdırma predmeti olur.

Son dövrlər vətəndaşlar kosmetoloji prosedurlara həddindən çox müraciət edir və prokurorluq orqanlarında aparılan ilkin yoxlamalar zamanı bu prosedurlar zamanı həkim və kosmetoloqun səhvləri nəticəsində insanlar müxtəlif dərəcəli fəsadlarla qarşılaşmalı olur. Qeyd olunan fəsadların həkim və ya kosmetoloqların səhvi ilə bağlı olub-olmaması baxımından məhkəmə-tibbi ekspertizası keçirilərkən səhiyyə sistemində mövcud təlimatın, qaydalarının olmaması, vətəndaşların üzərində aparılan prosedurun hansı ixtisas sahibi tərəfindən icra edilib-edilməməsi, habelə xəsarət dərəcələrinin təyin edilməməsi ilə bağlı fikir söylənilməsi mümkün olmadığına dair verilmiş rəylər nəticə etibarı ilə əsassız olur.

Göründüyü kimi, əksər hallarda lisenziya almadan istənilən şəxs bu kimi prosedurlarla məşğul olur, nəticədə isə onların qeyri-peşəkarlığı vətəndaşlarda kosmetoloji manipulyasiyadan sonra ağır fəsadlar yaradır, bu isə sonuncuların haqlı narazılığına səbəb olmasına gətirib çıxarır. Digər tərəfdən isə ölkəmizdə kosmetoloji məhkəmə-tibbi ekspertizasının təyin olunması üçün zəruri normativ hüquqi baza formalaşmamışdır. Bu kimi hallar vətəndaşların müxtəlif dövlət qurumlarına müraciət etmələrinə zəmin yaradır.

Ona görə də kosmetoloji məhkəmə-tibbi ekspertizaların keçirilməsi üçün müvafiq normativ hüquqi bazanın yaradılması (təlimatın, qaydaların qəbul olunması və sair) məqsədəuyğun olardı.

**Sərdar İmanov**
**Bakı şəhəri Xətai rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Bolqarıstan Respublikasının Baş prokuroru İvan Stoimenov Geşevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



**Sual: Cənab Geşev, icazə verin, səfərin intensiv proqramına baxmayaraq, jurnalımıza vaxt tapa bildiyiniz üçün Sizə xüsusi təşəkkürümü bildirim. Səfərinizlə bağlı təəssüratlarınız ilə bölüşə bilərsinizmi?**

– Azərbaycana səfərimin yüksək səviyyədə təşkilinə, isti qonaqpərvərliyə görə mən, ilk növbədə, həmkarım cənab Kamran Əliyev başda olmaqla, Azərbaycan prokurorluğunun kollektivinə öz təşəkkürümü bildirirəm. Səfərimdə əldə etdiyim təəssüratlar olduqca maraqlı və yaddaqalandır. Bakı şəhərinin gözəlliyi və fərqliliyi haqqında çox eşitmişdim, əlbəttə ki paytaxtınızın, onun küçə və prospektlərinin təmiz, abad, yüksək zövqə uyğun tərtibatı hər bir qonağın yaddaşında əbədi qalacaqdır. Heydər Əliyev Mərkəzini, İçəri Şəhərini və şəhərinizin digər məkanlarını ziyarət edərkən mən Azərbaycan xalqının hansı yüksək milli, mənəvi və tarixi dəyərlərə sahib olduğunun bir daha şahidi oldum.

Bu səfərdə əldə etdiyim digər yüksək təəssüratlar Azərbaycan Prokurorluğunun çox inkişaf etmiş maddi-texniki və intellektual bazaya sahib olması ilə bağlıdır.



**Sual: Ölkələrimizin prokurorluq orqanları arasında münasibətlərin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz, ikitərəfli əməkdaşlığın perspektivləri nədən ibarətdir?**

– Bizim ölkələrin prokurorluqları arasında əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirəm. Biz bir çox birgə işlərə imza ata bilərik. Hesab edirəm bu sahədə çox böyük inkişaf potensialı var və potensialın reallaşdırılması bizim əməkdaşlıq əlaqələrimizin daha da inkişafına səbəb olacaqdır.

**Sual: Bildiyiniz kimi, səfəriniz zamanı qurumlarımız arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Bu memorandumun müddəalarının həyata keçirilməsi hansı perspektivləri yarada bilər?**

– Bizim bir sıra tərəfdaş ölkələrin prokurorluqları ilə sıx əməkdaşlıq əlaqələrimiz vardır. Lakin hesab edirəm ki, həmkarlarım cənab Kamran Əliyevlə imzaladığımız memorandumun xüsusi yeri var. Bu memorandumun müddəalarının reallaşdırılması fəaliyyətimizin müxtəlif istiqamətləri, o cümlədən cinayətkarlığa qarşı mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyə, beynəlxalq hüquqi əməkdaşlıq və digər sahələrə öz mühüm töhfəsini verəcəkdir.

Ümumən prokurorluqlarımız arasında əlaqələrin inkişafı ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin ruhuna uyğundur. Bildiyiniz kimi ölkələrimiz arasında çox intensiv əməkdaşlıq əlaqələri vardır. Azərbaycanın ölkəmizin enerji və qaz təchizatında böyük əhəmiyyəti vardır. Eyni zamanda ölkəniz Bolqarıstanın tarixi və mədəni irsinin qorunmasına da köməyini əsir-

gəmir. Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanın Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın Bolqarıstanın Veliko Tırnovo mədəni layihəsində fəal iştirakı ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə töhfə vermişdir.




**Sual: Transmilli mütəşəkkil cinayətkarlığın müasir strukturunu təşkil edən terrorizm, qanunsuz miqrasiya, insan alveri, kibercinayətkarlıq və digər neqativ təzahürlərə qarşı mübarizə sahəsində Bolqarıstanın töhfəsini necə qiymətləndirirsiniz?**

– Bildiyiniz kimi, Bolqarıstan Avropadan Asiyaya gedən ən mühüm nəqliyyat arteriyalarının üzərində, Balkan yarımadasının və Qara dənizin ən strateji cəhətdən əhəmiyyətli hissəsində yerləşir. Bu coğrafi özəlliklər ölkəmizə transmilli mütəşəkkil cinayətkarlığın diqqətini artırmaqla yanaşı, qanunsuz miqrasiya, insan



alveri, narkotik qaçaqmalçılığı və digər təhlükəli cinayətlərin törədilməsinə zəmin yaradır. Biz bu qəbildən olan cinayətlərə qarşı mübarizədə öz səylərimizi qonşularımızla birləşdiririk. Ölkəmizin Avropa İttifaqının üzvü olması bu sahədə Avropa təsisatlarından istifadəyə geniş imkanlar yaradır. Cinayətkarlığa qarşı mübarizə ilə yanaşı biz preventiv tədbirlərin görülməsinə də üstünlük veririk. Cinayətkarlığa qarşı mübarizə bu sahədə fəaliyyət göstərən hüquq mühafizə orqanlarının peşəkarlığı ilə yanaşı, tərəfdaş ölkələrin səlahiyyətli orqanları ilə əməkdaşlıqla da şərtləndirilir. Biz də bu sahədə çalışırıq hər zaman irəliləyək.

**Sual: Bildiyimizə görə, sizin təkcə prokuror kimi deyil, həm də müstəntiq və əməliyyatçı kimi çox dəyərli təcrübəniz var. Sizin nailiyyətlər siyahısında Plovdiv şəhərində saxta avro əskinaslarının istehsalı ilə məşğul olan mətbəənin müəyyən edib ləğv olunması ilə əlaqədar parlaq əməliyyata görə Avropoldan mükafat vardır. Oxucularımıza bu əməliyyatın təfərrüatlarını bilmək çox maraqlı olardı.**

– Suala görə təşəkkür edirəm. Olduqca maraqlı sualdır (gülümsəyir). Doğru qeyd etdiniz, mən cinayət təqibinin aparılmasına öz töhfəsini verəcək ən mühüm vəzifələrdə – əməliyyat müvəkkili, müstəntiq və prokuror, fəaliyyət göstərmişəm. Bu zəngin təcrübə mənə xidməti fəaliyyətimin ən məsuliyyətli və ən çətin məqamlarında kömək etmişdir. Qeyd etdiyiniz əməliyyat nəinki Bolqarıstanın, hətta digər Avropa ölkələrinin də iqtisadi təhlükəsizliyinə qarşı təhlükə yaradan cinayət qəsdlərindən qorumuşdur. Elə bu amilləri nəzərə alan Avropol məni mükafatlandırmışdır. Cinayətkarların çox müasir texniki vasitələri və peşəkarlığı vardır. Onlar konspirasiya metodlarından da istifadə edirdilər. Lakin buna rəğmən, əməliyyat-axtarış tədbirinin düzgün və operativ planlaşdırılması onların bu çirkin niyyətlərini alt-üst etdi və onlar yaxalanaraq cinayət məsuliyyətinə cəlb edildilər.

Sonda oxucularınıza və ümumilikdə bütün azərbaycanlı həmkarlarıma xidməti fəaliyyətində uğurlar və yeni nailiyyətlər arzu edirəm.

# Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluq işçisinə "Prokurorluğun fəxri işçisi" döş nişanı və hədiyyə təqdim olunub

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Eldar Sultanovun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokuror Kamran Əliyev martın 16-da Baş Prokurorluğun inzibati binasında onu qəbul edib, "Prokurorluğun fəxri işçisi" döş nişanı və hədiyyə təqdim edib.

Baş Prokuror Kamran Əliyevin əmrinə əsasən Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinin icrası müvəqqəti olaraq Sahib İsmayılova həvalə olunub.

Qeyd edək ki, Sahib İsmayılov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin Statistika şöbəsinin rəisi – idarə rəisinin müavini vəzifəsində çalışıb.









# 85 illik yubileyi ilə əlaqədar Azərbaycan SSR Prokuroru İlyas İsmayılov yubiley medalı ilə təltif edilib



Martın 20-si Baş prokuror Kamran Əliyev 85 illik yubileyi ilə əlaqədar Azərbaycan SSR Prokuroru, prokurorluğun veteranı İlyas İsmayılovla görüşərək Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi adından təbriklərini və xoş arzularını çatdırmış, onu “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmişdir.





Görüş zamanı Kamran Əliyev və İlyas İsmayılov xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkilləri çəkdirmişlər.



# Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluq işçisi "Prokurorluğun fəxri işçisi" adına layiq görülüb

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin Məxfiçilik üzrə xidmətinin rəhbəri – böyük prokuroru, baş ədliyyə müşaviri Rəhim Əliyevin qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokurorun müavini Elmar Camalov martın 29-da Baş Prokurorluğun inzibati binasında onu qəbul edib, "Prokurorluğun fəxri işçisi" döş nişanı və hədiyyə təqdim edib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkilləri çəkdirmişlər.









# Prokurorluğun veteranı Ramiz Qafarovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



***Qafarov Ramiz Surxay oğlu 1983-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirərək, həmin il Gəncə şəhər prokurorluğunun baş müstəntiqi vəzifəsi üzrə stajor təyin edilmişdir. 1984-cü ildə Gəncə şəhər prokurorluğunun baş müstəntiqi, 1985-ci ildə həmin şəhərin Nizami rayon prokurorluğunun, 1986 – 1994-cü illərdə yenidən Gəncə şəhər prokurorluğunun baş müstəntiqi vəzifəsində işləmişdir. 1994-cü ilin sonlarında Kürdəmir rayon prokurorluğunun müstəntiqi vəzifəsinə təyin olunmuşdur. 1995 – 2000-ci illər ərzində Respublika Prokurorluğunun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi və Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru vəzifəsində çalışmışdır. 2004-cu ildə Göyçay rayonuna prokuror təyin olunaraq, 2009-cu ilədək bu vəzifəni həyata keçirmişdir. 2009 – 2012-ci illərdə Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru, 2012–2020-ci illərdə isə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuror-metodisti vəzifəsində işləmişdir.***

***Prokurorluqda işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün ona dəfələrlə təşəkkür elan edilmiş və pul mükafatı ilə həvəsləndirilmiş, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə o, üç dəfə "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə, habelə Azərbaycan Respublikası Prezidentinin 30.09.2015 ci il tarixli 1430 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. Baş ədliyyə müşaviri rütbəsində olmaqla, 2020-ci ildən təqaüddədir, əmək veteranıdır.***

**Sual: İlk növbədə jurnalımıza müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Ramiz müəllim, prokurorluq orqanlarında xidmətə başladığınız ilk illəri necə xatırlayırsınız, peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın təsirini qeyd etmək istərdiniz?**

**Cavab:** Mən də prokurorluq işçiləri üçün doğma olan bu jurnala müsahibə verməyə dəvət etdiyinizə görə minnətdarlığımı bildirirəm. Prokurorluq orqanlarında xidmətə başladığım ilk illəri yaxşı xatırlayıram. Belə ki, 1983-cü ilin noyabr ayında Gəncə şəhər prokurorluğunun baş müstəntiqi vəzifəsi üzrə stajor təyin olunduğum andan istintaq-prokuror işini və bu sahədə mövcud müsbət təcrübəni öyrənib tətbiq etmək üçün ciddi çalışmışam. Həmin vaxtlarda Gəncə şəhər prokurorluğunda yüksək bilik və təcrübəyə malik olan böyük bir kollektiv fəaliyyət göstərirdi. İşlədiyim ilk günlərdən şəhər prokurorluğunda gənc mütəxəssislərin yetişdirilərək müstəqil fəaliyyətə hazırlaması ilə bağlı gözəl ənənə mövcud olduğunu, özümə qarşı hərtərəfli diqqət və qayğı hiss etmişəm. Əməkdaşların gündəlik kömək və tövsiyələrindən yararlanaraq öz vəzifələrimi qanunların tələbləri çərçivəsində icra etməyə nail olmağa səy göstərmişəm. Müvafiq istintaq hərəkətlərinin düzgün aparılması taktikasını, bunların nəticələrinə dair prosessual sənədlərin dolğun və məzmunlu tərtib edilməsini prokurorluğun həmin peşəkar əməkdaşlarından öyrənməklə, sonrakı təcrübəmdə də bundan istifadə etmişəm. Mən həmin əməkdaşların bir neçəsinin adını çəkib onları fərqləndirmək istəmirəm və bunun yerində "Gəncə şəhər prokurorluğunun kollektivi" ifadəsini işlətməyi daha məqbul hesab edirəm.

**Sual: Sizcə müasir dövrdə prokuror-müstəntiq və prokuror-vətəndaş münasibətləri necə qurulmalıdır?**

**Cavab:** İlk öncə, prokuror-müstəntiq münasibətləri rəhbər-tabelik münasibətlərindən daha çox qanunun aliliyi, qanuna və bir-birinin hüquqlarına hörmət, qarşılıqlı anlaşma prinsipləri əsasında qurulmalıdır. Məlum olduğu kimi, müstəntiq cinayət-prosessual fəaliyyətin əsas subyektlərindən biridir. Prokurorluğun istintaq işinin nəticələrinin səmərəliliyi müstəntiqin fəaliyyətini necə təşkil edib həyata keçirməsi, savadlılıq və peşəkarlıq səviyyəsi ilə birbaşa əlaqəlidir. Fikrimcə, istintaqa nəzarət və ibtidai araşdırmaya prosessual rəhbərlik funksiyasını həyata keçirilməsi ilə bağlı prokurorun verdiyi göstərişlər, həmçinin ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakı və müəyyən hərəkətləri bilavasitə icra etməsi – müstəntiqin işin istintaqdakı mövqeyinin zəifləməsinə səbəb olmamalı, əksinə onun fəaliyyətinin parlaq təzahür etməsinə, ibtidai araşdırmanın hərtərəfliliyi,

obyektivliyi və tamlılığının təmin olunmasına yönəlməli, eyni zamanda, cinayət prosesində iştirak edən şəxslərin müstəntiqin peşəkarlılığını və fəaliyyətinin yetərliliyini qəbul etmələrinə köməklik göstərməlidir. Bunlarla yanaşı, müstəntiq prokurorun qanunu göstərişlərini anlayışla qəbul edib vaxtında keyfiyyətli icra etməli və öz peşəkarlılığının artırılması üçün müsbət təcrübəni ardıcıl öyrənib tətbiq olunmasına təşəbbüs göstərməlidir. Fikrimcə, istintaqın qarşısında duran vəzifələrin tələb olunan səviyyədə icrasına birlikdə məsul olduqlarının dərk edilməsi – prokuror və müstəntiqin həmin vəzifələri layiqincə yerinə yetirmələri üçün əlaqəli şəkildə fəaliyyət göstərmələrinə kömək göstərən əhəmiyyətli amil kimi qəbul edilməlidir.



Prokuror-vətəndaş münasibətlərinə gəlincə, vətəndaşların hüquq və azadlıqlarının qoruması, onların pozulmuş hüquqlarının bərpası üçün zəruri tədbirlərin görülməsi qanunda prokurorluq orqanlarının əsas vəzifələrindən biri kimi təsbit olunmuşdur. Bu baxımdan, prokuror-vətəndaş münasibətləri qanunların tələblərinə və normativ aktlarla müəyyən edilmiş qaydalara, həmçinin qarşılıqlı hörmət, inam və etimada əsaslanmalıdır. Hüquq və azadlıqların qorunması fəaliyyətində prokuror tərəfindən icra edilən tədbirlər vətəndaş məmnunluğunun təmin olunması baxımından məqbul olmalıdır. Burada hər hansı



diqqətsizliyə yol verilməsi, pozulmuş hüquqların bərpası istiqamətində vaxtında zəruri tədbirlərin görülməməsi – vətəndaşların haqlı narazılıqlarına və dövlət qurumlarına olan inamlarının azalmasına gətirib çıxarır. Həm də, nəzərə almaq lazımdır ki, hüquq-mühafizə orqanlarına hər kəs deyil, hüquq və azadlıqları pozulmuş və ya hüquq və azadlıqlarının pozulduğunu güman edən şəxslər müraciət edirlər. Bu müraciətlərin diqqətlə araşdırılıb obyektiv həll edilməsi prokurorun qanunla müəyyən olunmuş birbaşa vəzifə borcudur. Fikrimcə, prokurorun və digər prokurorluq işçilərinin özlərini hüquq və azadlıqları pozulmuş vətəndaşın yerində hiss etmələri, onların öz vəzifələrini qanunların tələbləri çərçivəsində keyfiyyətli icra etməsi baxımından səmərəli ola bilər.

**Sual: Rayon prokuroru işlədiyiniz dövr barədə, eləcə də ən yadda qalan cinayət hadisələri haqqında xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

**Cavab:** Prokurorluqda fəaliyyət göstərdiyim, o cümlədən rayon prokuroru vəzifəsində işlədiyim müddətdə aşkar və qeyri-aşkar şəraitdə törədilmiş çoxsaylı cinayət hadisələri, o cümlədən şəxsiyyət əleyhinə törədilmiş ağır cinayətlərlə rastlaşmışam. Müstəntiq işlədiyim dövrdə bu xarakterli bir sıra işlərin istintaqını aparıb başa çatdırmışam. Həmin hadisələrdən Göyçay rayonunun kəndlərindən birində törədilmiş az yaşlı bacı-qardaşın qəsdən xüsusi amansızlıqla öldürülmələri daha çox xatirəmdə qalmışdır. Belə ki, orta məktəbin 5-6-cı siniflərində oxuyan azyaşlı qızın yaşadığı evdə və qardaşının evin həyətyanı sahəsində meyitlərinin aşkar olunması barədə rayon prokurorluğuna daxil olmuş məlumatın ilkin yoxlaması zamanı onların hər ikisinin kəsici-deşici və küt alətlərlə çoxsaylı xəsarətlər yetirilərək qəsdən öldürülmələri müəyyən olunmuşdur. Zərərçəkmişlərin azyaşlı olmaları və onların öldürülməsi zamanı yol verilmiş qəddarlıq ciddi narahatçılıq yaratmaqla, Respublika səviyyəsində geniş əks-səda doğurmuşdu. Yaranmış vəziyyətdə cinayətin tezliklə açılması və cinayət törətmiş şəxsin



qadının yaşadığı evdə qəsdən öldürülməsi və cinayətin izlərinin gizlədilməsi üçün evin və mərhumun meyitinin yandırılmasına cəhd göstərilməsi faktına görə başlanmış cinayət işinin istintaqı ilə əlaqədar həmin rayon prokurorluğuna ezam edilmişdim. İş materialları ilə tanış olduqdan sonra mənə hadisədən bir neçə gün öncə qadının dəvəti ilə onun həyətində təsərrüfat işlərini yerinə yetirmiş həmkəndlisi cavan oğlanın qətlin törədilməsində şübhəli olması barədə məlumat verildi. Eyni zamanda, əməliyyat orqanından istintaqa cinayətin məhz bu şəxs tərəfindən törədilməsi barədə məlumatlar da daxil olmuşdu. Həmin şəxslə apardığım söhbət zamanı hadisə barədə verdiyi ifadənin ardıcıl olmadığı və göstərdiklərinin iş materialları ilə ziddiyyət təşkil etdiyi məlum oldu. Mənim təşəbbüsüm ilə rayon prokurorluğu və polis şöbəsinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə təkrar baxış keçirildi. Baxış zamanı cinayətin törədilməsi ilə əlaqədar şübhəli şəxsin ifadəsində göstərdiklərinin real şəraitə uyğun olmadığı və onun bir sıra məsələləri uydurması qənaətinə gələrək bu fikrimi istintaq hərəkətində iştirak edən şəxslərə də bildirdim. Qeyd olunanlara əsaslanaraq şübhəli şəxsə cinayətin törədilməsinə görə ittiham olunması üçün kifayət qədər əsasların olmadığını işi aparan müstəntiqin də nəzərinə çatdırdım. Müzakirələr zamanı fikrimdə qəti olduğumu mənim mövqeyimlə razılaşmayan şəxslərin də diqqətinə yetirdim. Bu məsələlər barədə Baş Prokurorluğun rəhbərliyinə də müvafiq məlumatlar verilmişdi. Mənim mövqeyimə görə cinayətin açılmaması və onun törətmiş şəxsin məsuliyyətdən kənarda qalması üçün şərait yaradılması təəssüratını formalaşdığını hiss edirdim. Belə bir vəziyyətdə rayon prokurorluğunun əməkdaşları ilə qısa müddət ərzində aparılan intensiv istintaq hərəkətləri nəticəsində qətl hadisəsinin tamamilə kənar şəxslər tərəfindən törədilməsi barədə məlumatlar əldə etdik. Məlumatların yoxlanması zamanı bu cinayətin əvvəllər qəsdən adam öldürməyə cəhd əməlinə görə uzun müddət azadlıqdan məhrum etmə cəzası çəkmiş şəxs tərəfindən zərərçəkmişin bir nəfər həmkəndlisi iştirakçılığa cəlb edilməklə törədilməsi məlum oldu. İstintaqla hər iki şəxsin cinayət əməlləri tam sübuta yetirilərək, məhkəmənin müvafiq hökmü ilə layiq olduqları cəzalara məhkum edilmişlər.

(şəxslərin) məsuliyyətə cəlb olunmasının təmin edilməsi ciddi şəkildə qarşımıza qoyulmuşdur. Təxirə salınmadan kompleks şəkildə həyata keçirilmiş intensiv istintaq-əməliyyat hərəkətləri ilə zərərçəkmişlərlə qonşuluqda yaşayan və onlarla eyni məktəbdə 10-cu sinifdə oxuyan oğlanın meyvə toplamaq üçün həyətlərinə gəlməsi, orada evə daxil olub masanın üzərində olan pulu oğurlaması, bu əməlini görmüş azyaşlı qızı həyat üçün mühüm əhəmiyyət kəsb edən orqanlarına iki bıçaqla çoxsaylı xəsarətlər yetirərək qəsdən öldürməsi, həyətə qayıdıb cinayət törətməsini mərhumun azyaşlı qardaşının bilib məlumat verəcəyini ehtimal edərək sonuncunu bıçaq və bellə ardıcıl xəsarətlər yetirməklə qəsdən öldürməsi müəyyən edilmişdir. Cinayətin subyektinin yetkinlik yaşına çatmaması – onun hadisədən sonra ilk anlarda şübhəli şəxslər dairəsindən kənarda qalmasına şərait yaratsa da, qısa müddətdə istintaqla toplanmış sübutlarla  həmin qətl hadisəsini törətməsi sübuta yetirilərək cinayət məsuliyyətinə cəlb edilmiş və məhkəmə tərəfindən müvafiq cəzaya məhkum olunmuşdur.

**Sual: Uzun illər tabe prokurorluqlarda istintaqa nəzarət funksiyasının həyata keçirilməsində iştirak etmişiniz. Tabe prokurorluqlarla olan münasibətlərdə hər hansı maraqlı hadisəni xatırlaya bilərsinizmi?**

**Cavab:** Prokurorluqda istintaqa nəzarət idarəsində işlədiyim müddətdə nəzarət funksiyasını həyata keçirdiyim rayon və şəhər prokurorluqlarında şəxsiyyət əleyhinə qeyri-aşkar şəraitdə törədilmiş xeyli cinayətlərin açılmasında və istintaqında yaxından iştirak etmişəm. Bu hadisələrin hər biri öz spesifikliyi və fərqli çalarları ilə yadımda qalmışdır. Xatırlayıram ki, Oğuz rayonunun kəndlərindən birində tənha

**Sual: Prokurorluqda işlədiyiniz müddətdə həmkarlarınızdan özünüzə dost qazanmısınızmı?**

**Cavab:** Prokurorluq orqanlarında işlədiyim müddətdə özüm də daxil olmaqla əməkdaşlarımızı böyük bir ailənin üzvü hesab etmişəm. Biz hər zaman qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərərək qarşımıza çıxan problem və çətinliklərin həll olunub aradan qaldırılmasında məsləhət və əməli işlərimizlə bir-birimizə köməklik göstərmişik. Belə kollektiv münasibətləri fəaliyyətimizin uğurlu olmasına ciddi təkan verməklə, əldə edilən nailiyyətlərdə önəmli rol oynamışdır. Bu baxımdan prokurorluğun kollektivini nümunə hesab etdiyimi desəm, məncə səhv etmərəm. Uzun illəri əhatə edən birgə fəaliyyət əməkdaşlarımız arasında səmimi dostluq əlaqələrinin yaranmasına münbit şərait yaratmışdır. Prokurorluqda işlədiyim müddətdə özümə yaxın dostlar qazanmağa nail olmuşam. Onlarla yaxın münasibətlərimiz hazırda da davam edir.





**Sual: Təqaüddə olduğunuz dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olursunuzmu?**

**Cavab:** Təqaüddə olduğum müddətdə əmək fəaliyyəti ilə məşğul olmuram. Buna baxmayaraq, dəvət olunduğum görüşlər və tədbirlərdə hər zaman iştirak edirəm. Eyni zamanda qeyd edim ki, yaxın vaxtlarda müəyyən əmək fəaliyyəti ilə məşğul olmaq fikrim vardır. Bu qərarımı qətiləşdirdikdən sonra yəqin ki, həmin fəaliyyətə başlayacağam.

**Sual: Ramiz müəllim hər hansı hobbiniz varmı? Oxucularla bu barədə bölüşə bilərsinizmi?**

**Cavab:** Təqaüddə olduğum dövrdə asudə vaxtım olduğuna görə Respublikamızın ayrı- ayrı bölgələrində yerləşən tarixi yerlərə getməyə üstünlük verirəm. Bu həmin yerlərlə yaxından tanış olmağıma və maraqlı məlumatlar əldə etməyimə imkan verir.

**Sual: Prokurorluq orqanlarında veteranlara göstərilən münasibəti necə qiymətləndirirsiniz, bununla bağlı hər hansı tövsiyə və təklifiniz varmı?**

**Cavab:** Prokurorluq orqanlarının veteranlarına göstərilən münasibət, diqqət və qayğı bir sadiq əməkdaş kimi məni qane edir. Xüsusilə, veteranlarımızın sosial təminatının yaxşılaşdırılması ilə bağlı son dövrlərdə həyata keçirilən tədbirləri dövlətimizin onların əməyinə verdiyi yüksək qiymətin təzahürü kimi qiymətləndirirəm.

**Sual: Sonda Sizə ənənəvi sualımızı vermək istərdik. Şərəfli və zəhmətkeş xidmət illərinizin ən yüksək nailiyyəti kimi nəyi hesab edirsiniz?**

**Cavab:** Prokurorluqda xidmət etdiyim müddətdə yuxarıda göstərdiyim təltiflərimi, həmçinin üzərimə düşən vəzifələri qanunlarımızın tələbləri çərçivəsində yerinə yetirərək vətəndaşlardan buna görə aldığım minnətdarlığı özümün ən böyük nailiyyətim hesab edirəm.

***Ramiz müəllim, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.***

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərinə uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarını istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

*1-ci fəsil.*
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

**1.1.** Bu Qanunun məqsədləri üçün istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.1.1.** cinayət yolu ilə əldə edilmiş əmlak – Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi əmlak nemətləri, o cümlədən virtual aktivlər və əmlaka mülkiyyət hüquqlarını və maraqlarını təsdiq edən hüquqi alətlər və sənədlər;

**1.1.2.** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması –Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

**1.1.3.** terrorçuluğun maliyyələşdirilməsi – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

**1.1.4.** predikativ cinayət – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin predmeti ola bilən əmlakın əldə edilməsi ilə nəticələnən istənilən cinayət;

**1.1.5.** monitorinq – mənbəyi məlum olan məlumatlar və sənədlər əsasında maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilən araşdırma tədbirləri;

**1.1.6.** maliyyə monitorinqi orqanı – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən, habelə bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**1.1.7.** öhdəlik daşıyan şəxslər – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə bu Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək öhdəliyi olan maliyyə institutları, eləcə də qeyri-maliyyə institutları və peşə sahibləri;

**1.1.8.** maliyyə institutları – kredit təşkilatları, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri, investisiya şirkətləri, investisiya fondları, bu fondların idarəçiləri, xarici investisiya fondlarının nümayəndəlikləri, mərkəzi depozitar, poçt rabitəsinin milli operatoru, lombardlar, maliyyə lizinqi xidmətləri göstərən şəxslər, virtual aktiv xidməti təminatçıları və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər;

**1.1.9.** qeyri-maliyyə institutları və peşə sahibləri – rieltorlar, vəkillər, notariuslar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri;

**1.1.10.** rieltor – daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxs;

**1.1.11.** virtual aktiv – ödəniş və ya investisiya məqsədilə mübadilə vasitəsi kimi çıxış edən və virtual aktivlər dövriyyəsi sistemində mövcud olan dəyərin rəqəmsal ifadəsidir. Milli və xarici valyutanın, qiymətli kağızların, habelə törəmə maliyyə alətlərinin rəqəmsal qarşılığı virtual aktiv hesab edilmir;

**1.1.12.** virtual aktiv xidməti təminatçıları – virtual aktivlərin valyuta sərvətləri, milli valyuta və digər virtual aktivlərlə mübadiləsi, virtual aktivin saxlanılması üçün istifadə edilən virtual aktiv hesabından və ya cüzdanından virtual aktivin digər virtual aktiv hesabına və ya cüzdanına köçürülməsi və ya köçürmənin təşkil edilməsi, virtual aktivlərlə və ya virtual aktivlərə nəzarət etmək imkanı verən alətlərlə əməliyyatların aparılmasının (əqdlərin bağlanmasının) və ya onların saxlanılmasının təşkil edilməsi, virtual aktivlərin alışı, satışı, mübadiləsi, ilkin yerləşdirilməsi və ya saxlanılması ilə əlaqədar maliyyə xidmətlərinin göstərilməsi və ya göstərilməsində iştirak edilməsi fəaliyyətlərini müstəqil sahibkarlıq fəaliyyəti kimi həyata keçirən şəxslər;

**1.1.13.** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə tələblərə riayət edilməsi (bundan sonra – leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət) – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində hüquqi aktların tələblərinə riayət edilməsi;

**1.1.14.** maliyyə qrupu (holdinq) – qrupa daxil olan digər üzvlər üzərində qrup nəzarətinin tətbiqini və koordinasiyasını həyata keçirən hüquqi şəxs, o cümlədən qrup səviyyəsində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qayda və prosedurların tətbiq edildiyi filiallar və ya törəmə hüquqi şəxslərin məcmusu;

**1.1.15.** nəzarət orqanları – öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən bu Qanunun 16-cı maddəsində nəzərdə tutulan orqanlar (qurumlar);

**1.1.16.** nəzarət tədbirləri – nəzarət orqanları və maliyyə monitorinqi orqanı tərəfindən öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə tətbiq edilən bütün növ yoxlama tədbirləri, o cümlədən nəzarət, araşdırma, müşahidə, təftiş, baxış və digər oxşar tədbirlər;

**1.1.17.** xarici hüquqi təsisat – xarici dövlətdə (ərazidə) qüvvədə olan qanunvericiliyə uyğun olaraq hüquqi şəxs yaratmadan təsis edilən və fiziki və ya hüquqi şəxs olan təsisçi tərəfindən benefisiarın və ya benefisiarlar qrupunun faydalanması və ya xüsusi məqsədlər çərçivəsində xarici hüquqi təsisat təminatçısının nəzarəti şərtilə və ya belə şərt olmadan əmlakın xarici hüquqi təsisat idarəçisinin mülkiyyətinə verilməsi ilə bağlı fəaliyyəti həyata keçirən trast və ya analoji xüsusiyyətlərə malik digər təsisat. Xarici hüquqi təsisatın təsisçisi, idarəçisi, təminatçısı, benefisiarı və ya benefisiarlar qrupu dedikdə xarici hüquqi təsisatın təsis sənədindən irəli gələn müvafiq hüquq və vəzifələri daşıyan şəxslər nəzərdə tutulur;

**1.1.18.** müştəri – öhdəlik daşıyan şəxslərin hər hansı xidmətindən istifadə edən şəxs və ya xarici hüquqi təsisat;

**1.1.19.** benefisiar mülkiyyətçi – son nəticədə müştəriyə nəzarəti həyata keçirən və ya hüquqi şəxs, yaxud xarici hüquqi təsisat olan müştərinin əsl sahibi olan və (və ya) xeyrinə əməliyyat aparılan və (və ya) əqdlər bağlanılan, habelə son nəticədə hüquqi şəxs və ya xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər);

**1.1.20.** mühüm iştirak payı – nizamnamə kapitalının, habelə səsvermə hüququnun 10 (on) və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik;

**1.1.21.** valyuta sərvətləri və milli valyuta – nağd milli və ya xarici valyuta, milli və xarici valyutada adsız sənədli qiymətli kağızlar, qiymətli metallar və qiymətli daşlar;

**1.1.22.** məlumat və sənədlər – yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq öhdəlik daşıyan şəxslərin, bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının, habelə digər dövlət orqanlarının (qurumların) fəaliyyəti nəticəsində əməliyyatlar (əqdlər) (bundan sonra – əməliyyatlar) və (və ya) işgüzar münasibətlər barədə yaranan, saxlanılan və ya qeydə alınan faktlar, rəylər, xəbərlər və ya digər xarakterli məlumatlar, kağız və ya elektron formada sənədlər. Bu anlayış, eyni zamanda, müxtəlif məlumat bazalarında yaradılan, saxlanılan, qeydə alınan, habelə internet və ya digər informasiya ehtiyatlarında toplanan faktları, xəbərləri və ya digər xarakterli məlumatları və ya sənədləri də əhatə edir;

**1.1.23.** elektron köçürmələr – maliyyə vəsaitlərinin fiziki və ya hüquqi şəxslər tərəfindən maliyyə institutlarının təqdim etdiyi elektron üsullarla (bank hesabı vasitəsilə, hesab açmadan və ya yeni ödəniş metodları ilə) vəsaiti alana (elektron köçürmə zamanı ödəyici və vəsaiti alan eyni şəxs ola bilər) çatdırılması məqsədilə aparılan transsərhəd və ya ölkədaxili əməliyyatlar. Ödəniş kartlarından istifadə etməklə məhsulların, xidmətlərin alışı zamanı bütün əməliyyat zənciri boyunca kartı müəyyən etməyə imkan verən unikal məlumatların ötürüldüyü köçürmələr və maliyyə institutları arasında öz məqsədləri üçün hesablaşmalar və köçürmələr elektron köçürmə hesab edilmir;

**1.1.24.** siyasi nüfuzlu şəxslər – hər hansı dövlətdə (ərazidə) və ya beynəlxalq təşkilatda mühüm dövlət və ya ictimai vəzifə tutan və ya əvvəllər belə vəzifəni tutmuş şəxslər (dövlət və hökumət başçıları, dövlət orqanlarının (qurumların) rəhbərləri, onların müavinləri, qanunverici orqanın üzvləri, siyasi partiyaların idarəetmə orqanlarının üzvləri, ali və konstitusiya məhkəmələrinin hakimləri, ali auditi həyata keçirən nəzarət orqanlarının və mərkəzi bankların idarəetmə orqanlarının üzvləri, fövqəladə və səlahiyyətli səfirlər, müvəqqəti işlər vəkilləri, ali hərbi və ali xüsusi rütbəli şəxslər, dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvləri, beynəlxalq təşkilatların rəhbərləri, onların müavinləri, idarəetmə orqanlarının üzvləri);

**1.1.25.** siyasi nüfuzlu şəxslərin yaxın qohumları – siyasi nüfuzlu şəxslərin valideynləri, babaları, nənələri, əri, arvadı, uşaqları, nəvələri, doğma və ögey qardaşları və bacıları, övladlığa götürənləri (götürülənləri);

**1.1.26.** siyasi nüfuzlu şəxslərin yaxın münasibətdə olduğu şəxslər – siyasi nüfuzlu şəxslə eyni hüquqi şəxs və ya xarici hüquqi təsisatın ortaq benefisiar mülkiyyətçisi olan və ya onunla istənilən digər sıx sahibkarlıq münasibətində olan fiziki şəxslər, siyasi nüfuzlu şəxslərin faktiki mənfəət əldə etməsi məqsədilə təsis edilmiş hüquqi şəxsin və ya xarici hüquqi təsisatın təsisçisi və ya benefisiar mülkiyyətçisi olan fiziki şəxslər və yaxud adlarına siyasi nüfuzlu şəxsə faktiki məxsus əmlaka hüquqların rəsmiləşdirildiyi şəxslər;

**1.1.27.** işgüzar münasibətlər – öhdəlik daşıyan şəxslərin peşəkar fəaliyyətinin həyata keçirilməsi zamanı öz müştəriləri ilə formalaşdırdıqları, tərəflərin qarşılıqlı hüquq və vəzifələrinə əsaslanan, birdəfəlik xarakter daşımayan peşəkar münasibətlər;

**1.1.28.** FATF – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı qlobal maliyyə sistemini qorumaq üçün müvafiq siyasətin formalaşdırılması və yayılmasını təmin edən müstəqil hökumətlərarası qurum;

**1.1.29.** Maliyyə monitorinqi orqanlarının Eqmont Qrupu – beynəlxalq miqyasda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə monitorinqi orqanları arasında məlumat və sənəd mübadiləsinin və texniki əməkdaşlığın, eləcə də bu qurumların fəaliyyət səmərəliliyinin və potensialının gücləndirilməsi məqsədilə yaradılan əməkdaşlıq şəbəkəsi;

**1.1.30.** yüksək riskli zonalar – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mötəbər mənbələr (beynəlxalq təşkilat və qurumlar tərəfindən dərc

edilmiş qarşılıqlı qiymətləndirmə və ya təfsilatlı hesabatlar, habelə tərəqqi hesabatları) əsasında müəyyən edilmiş adekvat mübarizə sistemi olmayan, silahlı separatizmi, ekstremizmi, muzdluluğu və terror fəaliyyətini dəstəkləyən, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumat və sənədlərinin açıqlanmasını tələb etməyən və beynəlxalq təşkilatlar tərəfindən barəsində sanksiyalar və ya digər analoji tədbirlər tətbiq edilən dövlətlər və ya ərazilər.

**Maddə 2. Bu Qanunun tətbiq dairəsi**

**2.1.** Bu Qanun cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı əməllərin aşkar edilməsi və qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, hüquqi şəxslər, xarici hüquqi təsisatlar, habelə nəzarət orqanları və digər dövlət orqanları (qurumlar) arasındakı münasibətləri tənzimləyir.

**2.2.** Bu Qanun cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar olan və Azərbaycan Respublikasının yurisdiksiyasından kənarda həyata keçirilən fəaliyyətə münasibətdə Azərbaycan Respublikasının götürdüyü beynəlxalq öhdəliklərə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun qaydada tətbiq olunur.

**Maddə 3. Bu Qanunun tələblərinin qeyri-maliyyə institutları və peşə sahiblərinə tətbiq olunması**

**3.1.** Bu Qanunun tələbləri qeyri-maliyyə institutları və peşə sahiblərinə münasibətdə aşağıdakı hallarda tətbiq olunur:

**3.1.1.** rieltorlar daşınmaz əmlakın alqı-satqısı üzrə əməliyyatlar apardıqda;

**3.1.2.** notariuslar, vəkillər, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər aşağıdakı əməliyyatları apardıqda və ya bu cür əməliyyatların aparılmasında iştirak etdikdə:

**3.1.2.1.** daşınmaz əmlakın alqı-satqısı;

**3.1.2.2.** müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması;

**3.1.2.3.** müştərinin bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması;

**3.1.2.4.** hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkili, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı.

*2-ci fəsil.*

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində önləyici tədbirlər

**Maddə 4. Müştəri uyğunluğu tədbirləri**

**4.1.** Maliyyə institutları uydurma adlarla və ya anonim hesablar açmamalı, sənədləri və əmlakı uydurma adlar istifadə edilməklə və ya anonim olaraq saxlanca qəbul etməməli (xüsusi otaqlarda və ya seyf qutularında saxlamamalı), anonim depozit sertifikatları buraxmamalı və anonim bank kitabçaları təqdim etməməlidirlər.

**4.2.** Öhdəlik daşıyan şəxslər aşağıdakı hallarda müştəri uyğunluğu tədbirlərini tətbiq etməlidirlər:

**4.2.1.** işgüzar münasibətlərin yaradılmasından əvvəl;

**4.2.2.** iyirmi min manat məbləğində (bundan sonra – limit) və ya limitdən artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala, həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);

**4.2.3.** maliyyə vəsaitlərinin elektron köçürülməsi və virtual aktivlərlə əməliyyatların aparılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq maliyyə vəsaitlərinin birdəfəlik elektron köçürülməsindən və virtual aktivlərlə aparılan birdəfəlik əməliyyatlardan əvvəl;

**4.2.4.** əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;

**4.2.5.** əldə edilmiş məlumat və sənədlərin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda.

**4.3.** Əməliyyatın ümumi məbləği əməliyyatın icrasından əvvəl məlum deyilsə, müştəri uyğunluğu tədbirlərinin tətbiqi əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilir.

**4.4.** Öhdəlik daşıyan şəxslər müştəri uyğunluğu tədbirləri çərçivəsində aşağıdakı tədbirləri görməlidirlər:

**4.4.1.** bu Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müştərini eyniləşdirməli (müştərinin xidmətlərdən daimi və ya qeyri-müntəzəm istifadə etməsindən, fiziki və ya hüquqi şəxs, habelə xarici hüquqi təsisat olmasından asılı olmayaraq), müştərinin eyniləşdirmə məlumatlarını etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya etməli və digər müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər;

**4.4.2.** şəxsin müştərinin və ya digər şəxsin adından fəaliyyət göstərməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş səlahiyyətinin olub-olmamasını müəyyən etməli, həmin şəxsi eyniləşdirməli və eyniləşdirmə məlumatlarını etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya etməli və digər müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər;

**4.4.3.** benefisiar mülkiyyətçinin kimliyinin müəyyən edilməsinə tam əmin olanadək onu eyniləşdirməli və benefisiar mülkiyyətçinin eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiyası üçün ağlabatan tədbirlər görməlidirlər;

**4.4.4.** işgüzar münasibətlərin məqsədini və mahiyyətini aydınlaşdırmalı və bu barədə müştəridən məlumat və sənədlər əldə etməlidirlər;

**4.4.5.** bu Qanunun 4.4.1–4.4.4-cü maddələrində nəzərdə tutulmuş məlumatlar və sənədlər əsasında müştəri profilini yaratmalıdırlar;

**4.4.6.** bu Qanunun 4.19-cu və 4.20-ci maddələrində nəzərdə tutulmuş tələblər barədə müştərini məlumatlandırmalıdırlar.

**4.5.** Öhdəlik daşıyan şəxslər işgüzar münasibətlərə aşağıdakı müştəri uyğunluğu tədbirlərini davamlı olaraq tətbiq etməlidirlər:

**4.5.1.** aparılan əməliyyatların müştəri barədə əldə edilmiş məlumat və sənədlərlə, habelə müştərinin fəaliyyəti və risk profili, o cümlədən maliyyə vəsaitinin mənbəyi haqqında məlumat və sənədlərlə uyğunluğunun müəyyən edilməsi məqsədilə əməliyyatların təhlil edilməsi;

**4.5.2.** mövcud olan məlumat və sənədlər nəzərdən keçirilib tədqiq edilərək yüksək riskli müştəriləri prioritetləşdirməklə müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədlərin yenilənməsinin və adekvatlığının təmin edilməsi.

**4.6.** Müştərisi hüquqi şəxs və ya xarici hüquqi təsisat olan öhdəlik daşıyan şəxslər əlavə olaraq aşağıdakı müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər:

**4.6.1.** müştərilərin fəaliyyətinin xarakterinin, sahiblik, nəzarət və idarəetmə strukturunun müəyyən edilməsi;

**4.6.2.** adı, təşkilati-hüquqi forması, mövcudluğuna dair dəlillər, habelə təsis sənədləri, cari fəaliyyətinə rəhbərlik edən vəzifəli şəxslərin adları, hüquqi və faktiki ünvanına dair məlumat və sənədlər əsasında müştərilərin eyniləşdirilməsi və eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumatlar, sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya edilməsi;

**4.6.3.** hüquqi şəxsin və xarici hüquqi təsisatın benefisiar mülkiyyətçisinin kimliyinin müəyyən edilməsinə tam əmin olanadək onun eyniləşdirilməsi və benefisiar mülkiyyətçinin eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiyası üçün ağlabatan tədbirlərin görülməsi.

**4.7.** Hüquqi şəxsin (publik hüquqi şəxslər istisna olmaqla) benefisiar mülkiyyətçisinin eyniləşdirilməsi aşağıdakı ardıcıllığa uyğun olaraq həyata keçirilməli və eyniləşdirmə məlumatlarının verifikasiyası aparılmalıdır:

**4.7.1.** son nəticədə hüquqi şəxsdə mühüm iştirak payına (hüquqi şəxsdə iştirak paylarının bölgüsü mühüm iştirak payının mövcudluğunu istisna etmirsə) malik olan fiziki şəxs (şəxslər) müəyyən edilməli;

**4.7.2.** mühüm iştirak payına malik olan fiziki şəxsin (şəxslərin) hüquqi şəxsin benefisiar mülkiyyətçisi olmasına dair şübhələr olduqda və ya iştirak payı əsasında hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) mövcud olmadıqda, hüquqi şəxsə başqa formada mövcud nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) müəyyən edilməli;

**4.7.3.** əgər hüquqi şəxs üzərində iştirak payı əsasında və ya başqa formada nəzarəti həyata keçirən fiziki şəxsi müəyyən etmək mümkün deyildirsə, hüquqi şəxsə rəhbərliyi həyata keçirən fiziki şəxs (şəxslər) müəyyən edilməli.

**4.8.** Xarici hüquqi təsisatın benefisiar mülkiyyətçisinin eyniləşdirilməsi aşağıdakı ardıcıllığa uyğun olaraq həyata keçirilməli və eyniləşdirmə məlumatlarının verifikasiyası aparılmalıdır:

**4.8.1.** trastın strukturunda təsisçi, trast idarəçisi, trast təminatçısı (olduğu halda), benefisiar və ya benefisiarlar qrupu, trast üzərində effektiv nəzarəti həyata keçirən hər hansı digər fiziki şəxs (nəzarət və ya sahiblik zənciri də daxil olmaqla) müəyyən edilməli;

**4.8.2.** digər növ xarici hüquqi təsisatlarda eyni və ya oxşar hüquq və vəzifə daşıyan şəxslər müəyyən edilməli.

**4.9.** Həyatın yığım sığortası müqaviləsi üzrə müştəri uyğunluğu tədbirlərinə əlavə olaraq faydalanan şəxs müəyyən və ya təyin edilən kimi onun barəsində aşağıdakı tədbirlər həyata keçirilməlidir:

**4.9.1.** sığorta müqaviləsi üzrə faydalanan şəxs fiziki, hüquqi şəxs və ya xarici hüquqi təsisat olduqda, həmin şəxsin eyniləşdirmə məlumat və sənədləri əldə edilməli;

**4.9.2.** faydalanan şəxs xüsusiyyətlərinə, təsnifatına və ya digər əsaslara görə təyin edildikdə, ödəniş zamanı faydalanan şəxsi eyniləşdirməyə imkan verən yetərli həcmdə məlumat və sənədlər əldə edilməli;

**4.9.3.** ödəniş zamanı faydalanan şəxsin barəsində verifikasiya tədbirləri həyata keçirilməli.

**4.10.** Öhdəlik daşıyan şəxslər bütün mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatların oxşar əməliyyat modelləri ilə müqayisəli şəkildə təyinatını və mahiyyətini ağlabatan səviyyədə aydınlaşdırmalı, belə əməliyyatlar zamanı təqdim edilmiş əmlakın mənbəyini müəyyən etməli və bunlarla bağlı təhlil hesabatı tərtib etməlidirlər.

**4.11.** Öhdəlik daşıyan şəxslər mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatlar üzrə risk dərəcəsi yüksək olan hallarda, habelə müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri ilə bağlı meyarların qiymətləndirilməsi əsasında və risk qiymətləndirmələrinin nəticələrini əsas götürməklə riskin yüksək olduğunu müəyyən etdikdə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməlidirlər.

**4.12.** Müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri baxımından yüksək və aşağı risk faktorları, müştəri profilinin yüksək, orta və ya aşağı risk qrupuna aid edilməsi qaydası, habelə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələblər maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir.

**4.13.** Gücləndirilmiş müştəri uyğunluğu tədbirləri çərçivəsində öhdəlik daşıyan şəxslər aşağıdakı tədbirləri görməlidirlər:

**4.13.1.** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi riskləri yüksək olan hallarda müəyyən edilmiş risklərə mütənasib olaraq gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq etməli və işgüzar münasibətlərin monitorinqinin intensivliyini artırmalı;

**4.13.2.** həyatın yığım sığortası müqaviləsi üzrə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiqini müəyyənləşdirmək üçün həyatın yığım sığortası şəhadətnaməsi üzrə faydalanan şəxsin risk dərəcəsini qiymətləndirməli, hüquqi şəxs və ya xarici hüquqi təsisat olan faydalanan şəxsin yüksək riskli olduğu müəyyən edilərsə, faydalanan şəxsə, habelə onun benefisiar mülkiyyətçisinə münasibətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirləri həyata keçirməli;

**4.13.3.** bu Qanunun 4.9-cu və 4.13.2-ci maddələrinin tələblərinin tətbiqi mümkün deyildirsə, habelə bu Qanunun 4.13.1-ci maddəsində nəzərdə tutulan tədbirlərin tətbiqi zamanı şübhəli əsaslar müəyyən edilərsə, bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.

**4.14.** Müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün deyilsə, hər hansı əməliyyat həyata keçirilməməli, işgüzar münasibətlər yaradılmamalı, hesab açılmamalı, habelə işgüzar münasibətlərə xitam verilməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.

**4.15.** Müştəri uyğunluğu tədbirlərinin həyata keçirilməsinin bu Qanunun 4.13.3-cü və 11.2-ci maddələrində nəzərdə tutulmuş tədbirlər haqqında müştərinin və ya digər şəxslərin məlumatlandırılmasına səbəb olacağına ehtimallar olduqda, müştəri uyğunluğu tədbirləri dayandırılmalı və müştəri haqqında məlum olan məlumat və sənədlər də əlavə edilməklə, bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.

**4.16.** Fəaliyyətinin xüsusiyyətləri, risk dərəcəsi və səciyyəviliyi nəzərə alınaraq, bu Qanun qüvvəyə minənədək yaranmış və bu Qanun qüvvəyə mindiyi gündən sonra davam edən işgüzar münasibətlər üzrə müştəri uyğunluğu tədbirləri tətbiq edilməlidir. Bu halda qeyd edilən tədbirlərin daha əvvəl tətbiqi, tətbiq edilmə vaxtı və tezliyi, habelə əldə olunan məlumatların yetərliliyi nəzərə alınmalıdır.

**4.17.** Aşağıdakı hallar istisna olmaqla, əvvəllər həyata keçirilmiş müştəri uyğunluğu tədbirlərinə güvənilə bilər və müştəri uyğunluğu tədbirlərinin təkrar həyata keçirilməsi tələb edilmir:

**4.17.1.** əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;

**4.17.2.** müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumat və sənədlərinin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda;

**4.17.3.** müştərinin işgüzar profili ilə uzlaşmayan əhəmiyyətli dəyişikliklər olduqda;

**4.17.4.** mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatlar həyata keçirildikdə;

**4.17.5.** bu Qanunun 4.5-ci maddəsində nəzərdə tutulmuş müştəri uyğunluğu tədbirlərinin davamlı olaraq tətbiq edilməsi zəruri olduqda.

**4.18.** Müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri ilə bağlı meyarların (faktorların) qiymətləndirilməsi əsasında, risk qiymətləndirmələrinin nəticələrini əsas götürməklə riskin aşağı olduğu müəyyən edildikdə bu Qanunun 4.2.1–4.2.3-cü maddələrində göstərilən hallarda və maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq sadələşdirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiqinə yol verilir. Sadələşdirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələblər risk qiymətləndirməsi əsasında maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir.

**4.19.** Peşəkar fəaliyyət çərçivəsində üçüncü şəxslərə hüquqi şəxsləri və ya onların filial və nümayəndəliklərini təsis etmək, hüquqi şəxslərin qanuni təmsilçisi qismində çıxış etmək, hüquqi şəxslər və ya onların filial və nümayəndəlikləri üçün hüquqi ünvan təmin etmək kimi xidmətləri göstərən şəxslər şirkətin xidmət təminatçıları hesab edilir. Xarici ölkədə (ərazidə) təsis edilən (qeydiyyatdan keçən) hüquqi şəxsin kənar idarəçisi qismində çıxış edən şirkətin xidmət təminatçıları, fəaliyyət istiqamətlərinə uyğun olaraq, öhdəlik daşıyan şəxslərlə işgüzar münasibətlər qurarkən, şirkətin xidmət təminatçısı qismində iştirak etdiyini bəyan etməli və bununla əlaqədar zəruri bütün məlumat və sənədləri təqdim etməlidirlər.

**4.20.** Xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxslər fəaliyyət istiqamətlərinə uyğun olaraq öhdəlik daşıyan şəxslərlə işgüzar münasibətlər qurarkən xarici hüquqi təsisatın idarəçisi olduğunu bəyan etməli və idarəçisi olduğu xarici hüquqi təsisatın əmlak strukturu, təsisçisi, benefisiarı (benefisiarları, benefisiarlar qrupunu), digər idarəçiləri (olduğu təqdirdə), xarici hüquqi təsisat təminatçıları (olduğu təqdirdə) və ya eyni və ya oxşar hüquq və vəzifə daşıyan şəxslər haqqında məlumat və sənədləri və xarici hüquqi təsisatın təsis sənədinin surətini təqdim etməlidirlər.

**Maddə 5. Üçüncü şəxslərə güvənmə**

**5.1.** Öhdəlik daşıyan şəxslər digər öhdəlik daşıyan şəxslərin (üçüncü şəxslərin) bu Qanunun 4-cü maddəsinə uyğun olaraq apardıqları müştəri uyğunluğu tədbirlərinə və ya işgüzar münasibətlərin yaradılması məqsədilə yeni müştərinin təqdimatı zamanı digər öhdəlik daşıyan şəxslər tərəfindən əldə edilmiş məlumat və sənədlərə güvənə bilərlər. Üçüncü şəxslərə güvənilən hallarda bu Qanunun tələblərinə əməl edilməsinin məsuliyyəti güvənən öhdəlik daşıyan şəxslərin üzərinə düşür. Bu zaman öhdəlik daşıyan şəxslər aşağıdakı tədbirləri görməlidirlər:

**5.1.1.** bu Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədləri üçüncü şəxslərdən dərhal almalı;

**5.1.2.** eyniləşdirmə məlumat və sənədlərinin və müştəri uyğunluğu tədbirlərinin tələblərinə əməl edilməsinə dair müvafiq məlumat və sənədlərin surətlərinin üçüncü şəxsdən sorğu əsasında təxirəsalınmadan (hər bir halda sorğu edilən iş gününün sonundan gec olmayaraq) əldə olunacağına əmin olmaq üçün addımlar atmalı;

**5.1.3.** bu Qanunun 4.17-ci maddəsinin tələblərinə əməl etməli;

**5.1.4.** üçüncü şəxslər tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinə, habelə həmin şəxslər üzərində təsis edildikləri, idarə edildikləri və ya fəaliyyət göstərdikləri ölkədə (ərazidə) dövlət tərəfindən effektiv monitorinq və nəzarət mexanizminin olduğuna əmin olmalıdırlar.

**5.2.** Öhdəlik daşıyan şəxslər xarici yurisdiksiyada yerləşən öhdəlik daşıyan şəxslərin müştəri uyğunluğu tədbirlərinə və ya işgüzar münasibətlərin qurulması üzrə vasitəçilik xidmətlərinə və həmin şəxslər tərəfindən əldə edilmiş məlumat və sənədlərə güvəndiyi hallarda, həmin şəxslərin aid olduğu yurisdiksiyanın riskliliyini nəzərə almalıdırlar.

**5.3.** Öhdəlik daşıyan şəxslər eyni maliyyə qrupu (holdinq) daxilində olan digər öhdəlik daşıyan şəxslərin müştəri uyğunluğu tədbirlərinə və ya işgüzar münasibətlərin qurulması üzrə vasitəçilik xidmətlərinə və həmin şəxslər tərəfindən əldə edilmiş məlumat və sənədlərə yalnız maliyyə qrupu (holdinq) tərəfindən bu Qanunun tələblərinin tətbiqinə və həmin maliyyə qrupu (holdinq) üzərində nəzarət orqanı tərəfindən effektiv nəzarətin həyata keçirildiyinə əmin olduqları halda güvənə bilərlər. Bu zaman, həmçinin daxili nəzarət proqramları çərçivəsində yüksək riskli zonalara münasibətdə risklərin azaldılması tədbirləri həyata keçirilməlidir.

**Maddə 6. Məlumat və sənədlərin saxlanılması öhdəliyi**

**6.1.** Öhdəlik daşıyan şəxslər ölkədaxili və transsərhəd əməliyyatlara dair bütün məlumat və sənədləri qanunvericilikdə daha uzun müddət nəzərdə tutulmadıqda, əməliyyat bitdiyi tarixdən sonra ən azı 5 il ərzində saxlamalıdırlar.

**6.2.** Öhdəlik daşıyan şəxslər bu Qanunun 4-cü maddəsinə uyğun olaraq müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədləri, işgüzar yazışmaları, hesablara, habelə aparılmış hər hansı təhlilin nəticələrinə dair məlumat və sənədləri qanunvericiliklə daha uzun müddət nəzərdə tutulmadıqda, işgüzar münasibətlərə xitam verildikdən və yaxud hər hansı birdəfəlik əməliyyat bitdiyi tarixdən sonra ən azı 5 il ərzində saxlamalıdırlar.

**6.3.** Bu Qanunun 6.1-ci və 6.2-ci maddələrində nəzərdə tutulan müddət maliyyə monitorinqi orqanının və ya nəzarət orqanının qərarı ilə hər bir xüsusi halda uzadıla bilər.

**6.4.** Əməliyyata dair məlumat və sənədlər cinayət mühakimə icraatı zamanı onların sübut kimi istifadəsinin təmin edilməsi məqsədilə hər hansı əməliyyatın yenidən bərpa edilməsinə imkan verəcək qaydada saxlanılmalıdır.

**6.5.** Öhdəlik daşıyan şəxslər tərəfindən saxlanılan məlumat və sənədlər maliyyə monitorinqi orqanına, nəzarət orqanlarına, cinayət təqibi orqanlarına və məhkəmələrə (qanunla nəzərdə tutulmuş xüsusi rejimlə mühafizə edilən məlumat və sənədlər onların mühafizə rejiminə uyğun olaraq) sorğuda göstərilən müddətdə təqdim edilməlidir.

**Maddə 7. Siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslərlə əməliyyatlar**

**7.1.** Öhdəlik daşıyan şəxslər bu Qanunun 4-cü maddəsində nəzərdə tutulan tədbirlərlə yanaşı, siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslərlə əməliyyatlara münasibətdə aşağıdakı tədbirləri görməlidirlər:

**7.1.1.** müştərinin və benefisiar mülkiyyətçinin siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxs olduğunu müəyyən etməyə imkan verən risklərin idarə edilməsi sistemini tətbiq etməli;

**7.1.2.** siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxslə işgüzar münasibətləri yalnız rəhbərliyin razılığı əsasında yaratmalı və ya davam etdirməli;

**7.1.3.** müştərinin və ya benefisiar mülkiyyətçinin siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxs olduğu müəyyən edilən zaman onun təqdim edilən əmlakının, habelə ümumilikdə digər sərvətlərinin mənbəyini müəyyən etmək üçün ağlabatan tədbirlər görməli;

**7.1.4.** siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxslə işgüzar münasibətlərə davamlı gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməlidirlər.

**7.2.** Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan sığortaçılar ödəniş həyata keçirilməzdən əvvəl həyatın yığım sığortası şəhadətnaməsi üzrə faydalanan şəxslərin və faydalanan şəxslərin benefisiar mülkiyyətçilərinin siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxs olmasını müəyyən etmək üçün tədbirlər həyata keçirməli, yüksək risk müəyyən edildikdə, ödənişi rəhbərliyin razılığı ilə həyata keçirməli, şəhadətnamə sahibi ilə işgüzar münasibətləri hərtərəfli araşdırmalı və əməliyyatlar barədə maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.

**Maddə 8. Yeni texnologiyalar**

**8.1.** Öhdəlik daşıyan şəxslər yeni və inkişaf edən texnologiyalar (bundan sonra – yeni texnologiyalar) vasitəsilə yaradılan işgüzar münasibətlərə və aparılan əməliyyatlara yüksək riskli münasibətlər və əməliyyatlar kimi yanaşmalı və bu münasibətlərin yaradılması və əməliyyatların həyata keçirilməsi zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi və azaldılması üzrə tədbirlər görməlidirlər. Öhdəlik daşıyan şəxslər yeni texnologiyaların tətbiqindən əvvəl onların təhlükəsiz tətbiq edilməsi üçün tədbirlər görməli və yeni texnologiyaların tətbiqinin risk qiymətləndirilməsi mexanizminə malik olmalıdırlar.

**8.2.** Öhdəlik daşıyan şəxslər yeni texnologiyalar vasitəsilə yaradılan və ya onların tətbiqini nəzərdə tutan işgüzar münasibətlərin, məhsulların və aparılan əməliyyatların tənzimlənməsinə dair daxili qayda və prosedurlara, önləyici tədbirlərə, o cümlədən elektron nəzarət sistemlərinə malik olmalıdırlar.

**8.3.** Maliyyə institutları müvafiq riskləri yeni məhsulların və biznes praktikalarının tətbiqindən və yeni texnologiyaların istifadəsindən əvvəl qiymətləndirməli, eləcə də müvafiq risklərin idarə edilməsinə və azaldılmasına münasibətdə önləyici tədbirlər müəyyən etməlidirlər.

**8.4.** Öhdəlik daşıyan şəxslərə münasibətdə yeni məhsulların və çatdırılma kanalları da daxil olmaqla yeni biznes praktikalarının yaradılmasından, habelə yeni və inkişaf mərhələsində olan məhsullara münasibətdə yeni texnologiyaların tətbiqindən qaynaqlanan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi riskləri nəzarət orqanları tərəfindən müəyyənləşdirilməli və qiymətləndirilməli, eləcə də müvafiq risklərin idarə edilməsinə və azaldılmasına münasibətdə önləyici tədbirlər müəyyən edilməlidir.

**8.5.** Yeni texnologiyalar müştəri uyğunluğu tədbirlərini istisna etməməlidir. Müştəri uyğunluğu tədbirləri informasiya texnologiyalarından istifadə etməklə tətbiq edildikdə, məlumat və sənədlər elektron qaydada təqdim olunur. Yeni texnologiyaların tətbiqi zamanı bu Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş verifikasiya tədbirləri maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**8.6. Y**eni texnologiyalar müştəri uyğunluğu tədbirlərinin tam tətbiqinə imkan vermirsə və ya müştərinin və benefisiar mülkiyyətçinin müəyyən edilməsində, eləcə də təqdim olunmuş məlumat və sənədlərin həqiqiliyinin yoxlanılmasında aradan qaldırılması mümkün olmayan şübhələr və ya uyğunsuzluqlar varsa, yeni texnologiyaların tətbiqindən imtina edilməlidir.

**Maddə 9. Yüksək riskli zonalar**

**9.1.** Yüksək riskli zonaların vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin zonalarda olan şəxslərlə və ya onların vasitəsilə, eləcə də həmin zonalarda qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə

əlaqədar hər hansı işgüzar münasibətlər və əməliyyatlara münasibətdə yüksək riskli zona hesab edilən ölkədə təsis edilən, idarə edilən və ya fəaliyyət göstərən üçüncü şəxslər tərəfindən təqdim edilən məlumat və sənədlərə güvənmədən bu Qanunun 4.13-cü maddəsində nəzərdə tutulmuş gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq edilməlidir.

**9.2.** FATF tərəfindən edilmiş çağırışlar əsasında, habelə bu Qanunun 9.5-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş yüksək riskli zonalara münasibətdə məhdudiyyətlər və xüsusi tələblər tətbiq edilə bilər.

**9.3.** Yüksək riskli zonalara münasibətdə FATF tərəfindən edilmiş çağırışların mətni maliyyə monitorinqi orqanının rəsmi internet informasiya ehtiyatında dərc edilir və birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə göndərilir. Öhdəlik daşıyan şəxslər FATF tərəfindən edilmiş çağırışlarda müəyyən edilmiş tədbirləri həyata keçirməlidirlər.

**9.4.** Yüksək riskli zonaların müəyyən edilmə əsasları, yüksək riskli zonalara münasibətdə tətbiq edilə bilən məhdudiyyətlərin və xüsusi tələblərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**9.5.** Yüksək riskli zonaların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla, maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir və birbaşa və ya müvafiq nəzarət orqanlarının vasitəsilə öhdəlik daşıyan şəxslərə göndərilir.

**9.6.** Yüksək riskli zonalara münasibətdə tətbiq edilən konkret məhdudiyyətlərin və xüsusi tələblərin növü və müddəti aşkar edilmiş risklərə uyğun olaraq maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir və birbaşa və ya müvafiq nəzarət orqanlarının vasitəsilə öhdəlik daşıyan şəxslərə göndərilir.

**Maddə 10. Daxili nəzarət proqramı**

**10.1.** Öhdəlik daşıyan şəxslər müəyyən edilmiş risklərə, fəaliyyətlərinin miqyasına və xüsusiyyətlərinə uyğun olaraq cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramı çərçivəsində aşağıdakı tədbirləri görməlidirlər:

**10.1.1.** daxili qayda və prosedurların, nəzarət mexanizmlərinin və onların inkişaf planlarının təsdiq və tətbiq edilməsi;

**10.1.2.** rəhbərlik səviyyəsində məsul şəxsin və məsul şəxs olmadıqda onu əvəz edən şəxsin müəyyən edilməsi də daxil olmaqla, leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət edilməsi üzrə müstəqil və effektiv sistemin təşkil edilməsi;

**10.1.3.** işəgötürmə prosesində yüksək peşəkarlıq və vətəndaş qüsursuzluğu tələblərinin təmin edilməsi məqsədilə yoxlama prosedurlarının təsdiq və tətbiq edilməsi;

**10.1.4.** işçilərin davamlı qaydada təlimlərə cəlb edilməsi;

**10.1.5.** mövcud sistemin səmərəliliyini daxili audit standartları əsasında qiymətləndirən müstəqil audit mexanizminin təşkil edilməsi.

**10.2.** Öhdəlik daşıyan şəxslər olan maliyyə qrupları (holdinqlər) həmin qrup (holdinq) miqyasında daxili nəzarət proqramları çərçivəsində bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş tədbirlərə əlavə olaraq aşağıdakı tədbirlərin bütün filiallara və törəmə hüquqi şəxslərə tətbiq edilməsini təmin etməlidirlər:

**10.2.1.** müştəri uyğunluğu tədbirləri çərçivəsində və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin idarə edilməsi məqsədilə məlumat və sənədlərin qrupdaxili (holdinqdaxili) ötürülməsinə dair qayda və prosedurların təsdiq və tətbiq edilməsi;

**10.2.2.** qrup (holdinq) səviyyəsində leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət, audit və bu Qanundan irəli gələn öhdəliklər çərçivəsində əsas hüquqi şəxsdən, filial və törəmə hüquqi şəxsdən müştərilər, hesablar və əməliyyatlar barədə məlumat və sənədlərin alınması qayda və prosedurlarının təsdiq və tətbiq edilməsi;

**10.2.3.** ötürülmüş məlumat və sənədlərin konfidensiallığını və təhlükəsizliyini, eləcə də yayılmasının qarşısının alınmasını təmin edən mexanizmlərin formalaşdırılması qayda və prosedurlarının təsdiq və tətbiq edilməsi.

**10.3.** Maliyyə institutunun təsis edildiyi yurisdiksiya cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə institutlarının filiallarının və törəmə hüquqi şəxslərinin yerləşdiyi xarici yurisdiksiyada mövcud olan tələblərlə müqayisədə daha sərt tələblər müəyyən edərsə, maliyyə institutları xarici yurisdiksiyanın qanunvericiliyinin imkan verdiyi çərçivədə xarici filiallarının və törəmə hüquqi şəxslərinin daha sərt tələblər əsasında fəaliyyət göstərməsini təmin etməlidir.

**10.4.** Əgər xarici yurisdiksiyanın qanunvericiliyi daha sərt tələblərin tətbiqini qadağan edirsə, maliyyə qrupları (holdinqlər) risklərin idarə edilməsi məqsədilə tədbirlər görməli və bu barədə nəzarət orqanına məlumat verməlidirlər.

**10.5.** Maliyyə monitorinqi orqanı daxili nəzarət proqramının cavab verməli olduğu minimum tələbləri müəyyən edir. Nəzarət orqanları nəzarət etdikləri öhdəlik daşıyan şəxslərə münasibətdə maliyyə monitorinqi orqanının müəyyən etdiyi minimum tələblərdən əlavə tələblər müəyyən edə bilər.

*3-cü fəsil.*

**Monitorinq olunmalı əməliyyatlar**

**Maddə 11. Monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin maliyyə monitorinqi orqanına təqdim edilməsi**

**11.1.** Maliyyə institutları tərəfindən aşağıdakı əməliyyatlara dair məlumat və sənədlər maliyyə monitorinqi orqanına təqdim edilir:

**11.1.1.** minimum həddi maliyyə monitorinqi orqanı tərəfindən müəyyənləşdirilən məbləğə bərabər və ya bu məbləğdən yuxarı nağd şəkildə həyata keçirilən əməliyyatlara dair məlumat və sənədlər;

**11.1.2.** minimum həddi maliyyə monitorinqi orqanı tərəfindən müəyyənləşdirilən məbləğə bərabər və ya bu məbləğdən yuxarı maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarına dair məlumat və sənədlər.

**11.2.** Aşağıdakı hallar olduqda məbləğindən asılı olmayaraq, əməliyyatlar və ya belə əməliyyatların aparılmasına

cəhdlər barədə məlumat və sənədlər öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim edilir:

**11.2.1.** əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar;

**11.2.2.** əmlakın terror aktının hazırlanmasında, təşkil olunmasında və ya törədilməsində, habelə terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunacağı ilə bağlı şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar.

**11.3.** Aşağıdakı əməliyyatlar barədə məlumat və sənədlər məbləğindən və ya şübhəlilik əsaslarının mövcud olub-olmamasından asılı olmayaraq öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim olunur:

**11.3.1.** xarici dövlətlərin siyasi nüfuzlu şəxsləri, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslər tərəfindən həyata keçirilən istənilən əməliyyatlar;

**11.3.2.** «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə əməliyyatlar;

**11.3.3.** Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin bank hesabları üzrə əməliyyatlar.

**11.4.** Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər bu Qanunun 4.14-cü, 4.15-ci və 11.1–11.3-cü maddələrində nəzərdə tutulmuş məlumat və sənədləri maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydada ona təqdim etməlidirlər. Bu Qanunun 11.1-ci, 11.3.1-ci və 11.3.3-cü maddələrində nəzərdə tutulmuş məlumat və sənədlər maliyyə monitorinqi orqanına əməliyyat həyata keçirildikdən sonra 3 iş günü ərzində, bu Qanunun 4.14-cü, 4.15-ci və 11.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda isə məlumat və sənədlərin təqdim edilməsinə dair əsaslar müəyyən edildikdən dərhal sonra, lakin hər bir halda həmin iş gününün sonundan gec olmayaraq təqdim edilməlidir.

**11.5.** Bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulan hallar olduqda, aşağıdakı əməliyyatlar maliyyə institutları tərəfindən, bu Qanunun 11.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, 2 iş günü ərzində icra edilmir və məlumat və sənədlər, əməliyyatlar icra olunmadan, dərhal maliyyə monitorinqi orqanına təqdim edilir:

**11.5.1.** yüksək riskli müştəri profilləri ilə əlaqədar əməliyyatlar;

**11.5.2.** minimum həddi maliyyə monitorinqi orqanı tərəfindən müəyyənləşdirilən məbləğə bərabər və ya bu məbləğdən yuxarı məbləğdə həyata keçirilən əməliyyatlar;

**11.5.3.** maliyyə vəsaitlərinin hesabdan çıxarılması ilə nəticələnən əməliyyatlar.

**11.6.** Bu Qanunun 11.5-ci maddəsində nəzərdə tutulmuş əməliyyatın icra olunmaması mümkün deyildirsə, maliyyə institutları əməliyyatın icrasından dərhal sonra maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.

**11.7.** Bu Qanunun 11.5-ci maddəsində nəzərdə tutulan müddət ərzində əməliyyatın dayandırılması barədə maliyyə monitorinqi orqanının göstərişi daxil olmazsa, əməliyyat icra edilməlidir. Bu müddət ərzində maliyyə monitorinqi orqanından əməliyyatın dayandırılmasının zəruri olmadığına dair məlumat daxil olduğu halda, əməliyyat 2 günlük müddətin bitməsi gözlənilmədən dərhal icra edilməlidir.

**11.8.** Əldə edilmə mənbəyindən asılı olmayaraq maliyyə monitorinqi orqanına təqdim edilən məlumat və sənədlər məxfi və konfidensial saxlanılır, yalnız bu Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadə edilir və qanunla müəyyən edilmiş sirlərin qorunması rejimi çərçivəsində qorunur. Maliyyə monitorinqi orqanı məlumat və sənədlərin təhlükəsizliyinin təmin olunması sistemini təşkil edir.

**11.9.** Maliyyə monitorinqi orqanı hər 5 ildən gec olmayaraq bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş əməliyyatların minimum məbləğinin yenilənməsi məsələsinə baxır. 5 illik müddətin axımı maliyyə monitorinqi orqanının əməliyyatların minimum məbləğini müəyyən etdiyi vaxtdan başlayır.

**11.10.** Bu Qanunun 4.14-cü, 4.15-ci, 11.2-ci və 11.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda məlumat və sənədlərin maliyyə monitorinqi orqanına təqdim edilməsinə dair müştəriyə məlumat verilməməlidir.

**Maddə 12. Auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən təqdim olunan məlumat və sənədlər**

**12.1.** «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş auditor xidməti göstərən şəxslər auditor fəaliyyətini həyata keçirən zaman cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar, habelə əmlakın terrorçuluq, terror fəaliyyəti, terror təşkilatları və ya terrorçuluğu maliyyələşdirən hər hansı şəxslə bağlı olmasına və ya bu şəxslər tərəfindən istifadə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar müəyyən edərlərsə, bu barədə məlumat və sənədləri bu Qanunun 11.4-cü maddəsinə uyğun olaraq maliyyə monitorinqi orqanına təqdim etməlidirlər.

**12.2.** Auditor xidməti göstərən şəxslər auditor fəaliyyətini həyata keçirən zaman əldə etdikləri bütün məlumat və sənədləri ən azı 5 il müddətində saxlamalıdırlar. Bu müddət maliyyə monitorinqi orqanı və ya nəzarət orqanının qərarı ilə 5 ilədək uzadıla bilər.

**12.3.** Terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı dini qurum, qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi qrant və ianə alarkən, habelə verərkən risklərin minimallaşdırılmasına yönəldilmiş qayda və prosedurlara malik olmalı, qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatı tərtib

etməlidir. Maliyyə hesabatı hər il aprel ayının 1-dən gec olmayaraq nəzarət orqanına təqdim edilməlidir.

**Maddə 13. Qanunla qorunan sirr rejiminə dair tələblər**

**13.1.** Dövlət sirri istisna olmaqla, habelə bu Qanunun 13.2-ci maddəsinin müddəaları nəzərə alınmaqla, qanunvericiliklə müəyyən edilmiş bütün digər sirlərin qorunması rejiminə əsaslanaraq bu Qanunun tələbləri çərçivəsində məlumat və sənədlərin maliyyə monitorinqi orqanına və nəzarət tədbirlərinin həyata keçirilməsi ilə bağlı nəzarət orqanlarına təqdim edilməsindən imtina oluna bilməz.

**13.2.** Bu Qanunun 11.2-ci, 11.3.1-ci və 11.3.3-cü maddələrinin tələbləri müştərinin hüquqi vəziyyətinin müəyyən edilməsi zamanı və ya onun məhkəmə, inzibati, arbitraj və mediasiya qaydasında müdafiə (təmsil) edilməsi ilə əlaqədar əldə edilən (məlumatların məhkəmə icraatından əvvəl, icraat zamanı və ya icraatdan sonra əldə edilməsindən asılı olmayaraq), vəkil və ya digər peşə sirrini təşkil edən məlumat və sənədlərə şamil edilmir. Qeyri-maliyyə institutları və peşə sahibləri müştərinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi əməllərində iştirak etdiyi, yaxud müştəriyə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi əməllərinin törədilməsi məqsədilə hüquqi məsləhətlər verdiyi və ya müştərinin həmin məqsədlərlə hüquqi məsləhət almaq istədiyini bildiyi halda belə hüquqi məsləhətlər verdikdə və ya eyni məqsədlə əqdlərin bağlanmasına, əməliyyatların həyata keçirilməsinə cəhd etdikdə, belə əməllər müştərinin hüquqi vəziyyətinin müəyyən edilməsi hesab edilmir və bu Qanunun 11.2-ci, 11.3.1-ci və 11.3.3-cü maddələrinin tələblərinə riayət etmək vəzifəsindən azad etmir.

**13.3.** Vəkil və ya peşə sirrinin qorunması vəzifəsi olan digər öhdəlik daşıyan şəxslər müştərinin hüquqi vəziyyətinin müəyyən edilməsi məqsədilə bu Qanunun tələblərindən irəli gələn bütün tədbirləri həyata keçirməlidirlər. Bu tələblər icra edilmədən onların iştirakı ilə əqdlərin bağlanması, əməliyyatların həyata keçirilməsi, eləcə də belə əqdlərin bağlanması, əməliyyatların həyata keçirilməsi üçün məsləhətlərin verilməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

*4-cü fəsil.*

**Monitorinq və nəzarət tədbirləri**

**Maddə 14. Maliyyə monitorinqi orqanı**

**14.1.** Maliyyə monitorinqi orqanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər, nəzarət orqanları və digər dövlət orqanları (qurumlar) tərəfindən təqdim edilən, həmçinin informasiya resurslarından, açıq mənbələrdən və digər şəxslərdən əldə olunan məlumat və sənədləri toplayır və təhlil edir, təhlilin nəticələrini və digər zəruri məlumatları aidiyyəti dövlət orqanlarına (qurumlara) təqdim edir. Bu zaman maliyyə monitorinqi orqanı şübhəli hallara dair əldə edilmiş məlumat və sənədlərin keyfiyyətini qiymətləndirir, şübhəli halların müəyyən edilməsi, o cümlədən risk qiymətləndirilməsinin aparılması məqsədilə taktiki və strateji təhlil metodlarından istifadə edir.

**14.2.** Maliyyə monitorinqi orqanı öz fəaliyyətində müstəqildir.

**14.3.** Maliyyə monitorinqi orqanı monitorinq olunmalı əməliyyat barədə mənbəyi məlum olan məlumat və sənədlər aldıqda, həmçinin özünün apardığı strateji və taktiki təhlilin nəticəsi olaraq və ya üçüncü dövlətin sorğusu əsasında araşdırma məqsədilə müvafiq sorğu göndərməklə öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərdən, nəzarət orqanlarından və dövlət orqanlarından (qurumlardan) məlumat və sənədlər almaq hüququna malikdir.

**14.4.** Maliyyə monitorinqi orqanı öhdəlik daşıyan şəxslərə sorğu göndərməklə bu sorğunun göndərildiyi gündən sonrakı 6 ayadək müddətə onlardan müəyyən meyarlar üzrə həyata keçirdikləri əməliyyatlar (əməliyyatın növü, xarakteri, şəxslər, ərazilər, məhsullar, çatdırılma kanalları və sair) barədə məlumatların təqdim edilməsini sorğu edə bilər. Bu müddət maliyyə monitorinqi orqanı tərəfindən 6 ayadək yenilənə bilər.

**14.5.** Maliyyə monitorinqi orqanı öz informasiya sistemini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) informasiya sistemlərinə (ehtiyatlarına) inteqrasiya edərək bu Qanunla müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar zəruri olan məlumatları elektron qaydada sorğu əsasında almaq hüququna malikdir. Maliyyə monitorinqi orqanının qeyd olunan informasiya sistemlərindən (ehtiyatlardan) əldə etdiyi məlumatların dairəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**14.6.** Maliyyə monitorinqi orqanı təqdim olunmuş məlumatların məxfiliyini və yalnız bu Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadəsini təmin etməli, habelə bu məlumatların təhlükəsizliyinin təmin olunması sistemini təşkil etməlidir.

**14.7.** Maliyyə monitorinqi orqanı maliyyə institutları tərəfindən bu Qanunun tələblərinin sistemli pozulmasına dair məlumatlar əldə etdikdə, bu barədə məlumatı qanunvericiliklə müəyyən edilmiş məsuliyyət və digər tədbirlərin tətbiq edilməsi üçün aidiyyəti nəzarət orqanına təqdim edir. Nəzarət orqanı ona təqdim edilmiş məlumatlar üzrə həyata keçirilmiş tədbirlər barədə maliyyə monitorinqi orqanına məlumat verir.

**14.8.** Maliyyə monitorinqi orqanı qeyri-maliyyə institutları və peşə sahibləri, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən bu Qanunun tələblərinə riayət edilməsi vəziyyətinə dair özündə olan, o cümlədən sorğu əsasında nəzarət orqanları və öhdəlik daşıyan şəxslərdən əldə etdiyi məlumatları təhlil edərək aşağıdakı tədbirləri görə bilər:

**14.8.1.** sahəvi risk qiymətləndirilməsi həyata keçirərək nəticələrini müvafiq nəzarət orqanına təqdim edə bilər;

**14.8.2.** qeyri-maliyyə institutları və peşə sahiblərinin müraciətləri əsasında onların leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət sisteminin kənar qiymətləndirilməsini apara bilər;

**14.8.3.** müvafiq nəzarət orqanlarının müraciəti əsasında qeyri-maliyyə institutları və peşə sahibləri tərəfindən bu Qanunun tələblərinə riayət edilməsi vəziyyətinin müəyyən edilməsi məqsədilə aparılan yoxlamalarda müşahidəçi və ya ekspert qismində iştirak edə bilər;

**14.8.4.** nəzarət orqanı tərəfindən müvafiq yoxlamanın aparılmasını, qanunvericilikdə müəyyən edilmiş (təsir, təshih və s.) tədbirlərin görülməsini, sanksiyaların tətbiq edilməsini təklif edə bilər.

**14.9.** Nəzarət orqanları bu Qanunun 14.8.4-cü maddəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi və ya bu tədbirlərin həyata keçirilməsindən imtina edilməsi barədə maliyyə monitorinqi orqanına məlumat verir. Maliyyə monitorinqi orqanının təklifi ilə nəzarət orqanı tərəfindən qeyri-maliyyə institutları və peşə sahiblərində müvafiq yoxlamalar həyata keçirildikdə yoxlamanın nəticələrinə dair məlumatı nəzarət orqanı maliyyə monitorinqi orqanına təqdim edir.

**14.10.** Maliyyə monitorinqi orqanı aparılmış təhlil zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayətlərin əlamətlərini müəyyən etdikdə bu barədə məlumat və sənədləri dərhal istintaq aidiyyəti üzrə cinayət təqibi orqanına təqdim etməlidir.

**14.11.** Maliyyə monitorinqi orqanı bu Qanuna uyğun olaraq məlumat və sənədlərin ona təqdim edilmə qaydasına, müştəri uyğunluğu tədbirlərinə, daxili nəzarət proqramına, yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, öhdəlik daşıyan şəxslərin, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin geriyə məlumatlandırma proseduruna dair normativ xarakterli aktlar qəbul edir.

**14.12.** Maliyyə monitorinqi orqanının səlahiyyətləri bu Qanunla və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən Nizamnamə ilə müəyyən edilir.

**Maddə 15. Əməliyyatların icrasının dayandırılması**

**15.1** Əməliyyatlarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayətlərə dair əsaslar və ya şübhələr mövcud olduqda bu Qanunun 11.5-ci maddəsində nəzərdə tutulmuş hallarda maliyyə monitorinqi orqanı əməliyyatın icrasının dayandırılması barədə ən qısa müddətdə, lakin 2 iş günündən gec olmayaraq əsaslandırılmış qərar qəbul edir və dərhal həmin əməliyyatı icra edən maliyyə institutuna əməliyyatın dayandırılması barədə göstəriş verir.

**15.2.** Maliyyə monitorinqi orqanı bu Qanunun 15.1-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə özünün apardığı strateji və taktiki təhlilin nəticəsi olaraq və ya üçüncü dövlətin sorğusu əsasında əməliyyatların 3 iş günündən çox olmayan müddətdə dayandırılması barədə qərar qəbul edə bilər.

**15.3.** Əməliyyatın icrasının dayandırılması barədə maliyyə monitorinqi orqanı tərəfindən qəbul edilmiş qərar və müvafiq məlumat və sənədlər dərhal istintaq aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqanlara göndərilir. Həmin orqanlar bu Qanunun 15.2-ci maddəsində nəzərdə tutulan müddət ərzində əməliyyatın icrasının daha uzun müddətə dayandırılması üçün cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görə bilərlər.

**15.4.** Bu Qanunun 15.2-ci maddəsinə uyğun olaraq maliyyə institutu tərəfindən əməliyyatın icrasının dayandırılmasına dair müştəriyə məlumat verilməməlidir.

**Maddə 16. Nəzarət orqanları**

**16.1.** Nəzarət orqanları öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən aşağıdakı orqanlardan (qurumlardan) ibarətdir:

**16.1.1.** maliyyə institutlarına münasibətdə – Azərbaycan Respublikasının Mərkəzi Bankı;

**16.1.2.** rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən şəxslərə münasibətdə – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**16.1.3.** notariuslara və qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**16.1.4.** dini qurumlara münasibətdə – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**16.1.5.** vəkillərə münasibətdə – Azərbaycan Respublikasının Vəkillər Kollegiyası;

**16.1.6.** auditor xidməti göstərən şəxslərə münasibətdə – Azərbaycan Respublikasının Auditorlar Palatası.

**16.2.** Nəzarət orqanları öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə münasibətdə apardıqları yoxlamalar zamanı bu Qanunun 11-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun gələn əməliyyatları araşdırmalı və bu cür əməliyyatlara dair məlumat və sənədlərin maliyyə monitorinqi orqanına göndərilmədiyini aşkar edərsə, dərhal həmin məlumat və sənədlərin maliyyə monitorinqi orqanına göndərilməsini təmin etməli və məlumat və sənədlərin təqdim edilməməsinin səbəblərini araşdırmalıdır. Eyni zamanda, nəzarət orqanları nəzarət etdikləri bütün subyektlərin əməliyyatlarında bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş halların əsaslarını araşdırmalı və bu cür əsaslara malik əməliyyatlar barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim etməlidirlər.

**16.3.** Nəzarət orqanları öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən bu Qanunun tələblərinə əməl edilməməsini aşkar edərsə, onlara qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq etməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidir. Bu Qanunun tələblərinin öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən pozulması Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada həmin fəaliyyəti həyata keçirmək hüququ verən lisenziyanın, icazənin, qeydiyyatın, şəhadətnamənin və (və ya) üzvlüyün dayandırılması və ya ləğv edilməsinə səbəb olur.

**16.4.** Nəzarət orqanları nəzarət yoxlamalarını müəyyən edilmiş, habelə sahəvi və ölkə səviyyəsində mövcud olan risklərə uyğun olaraq qanunla müəyyən edilmiş qaydada həyata keçirməlidirlər. Maliyyə qruplarına (holdinqlərə) münasibətdə yoxlamaların həyata keçirilməsinin dövriliyi və intensivliyi həmin maliyyə qruplarının (holdinqlərin) səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməlidir.

**16.5.** Ödəniş təşkilatlarına və elektron pul təşkilatlarına münasibətdə bu Qanunun tələbləri Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi qaydada tətbiq edilir.

**Maddə 17. Vətəndaş qüsursuzluğu ilə bağlı tələblərə riayət edilməsinə nəzarət**

**17.1.** Nəzarət orqanları öhdəlik daşıyan şəxslərin bu Qanunun 17.2-ci maddəsində nəzərdə tutulmuş vətəndaş qüsursuzluğu tələblərinə riayət etməsinə nəzarəti təmin etməlidirlər.

**17.2.** Vətəndaş qüsursuzluğu ilə bağlı tələblər dedikdə, aşağıdakı şəxslərin öhdəlik daşıyan şəxslərdə mühüm iştirak payına sahib olmasına və ya benefisiar mülkiyyətçi olmasına, habelə öhdəlik daşıyan şəxslərdə idarəetmə funksiyalarını yerinə yetirməsinə yol verilməməsi başa düşülür:

**17.2.1.** mülkiyyət əleyhinə və ya iqtisadi fəaliyyət sahəsində qəsdən törədilmiş cinayətə, yaxud istənilən qəsdən törədilmiş ağır və ya xüsusilə ağır cinayətə görə məhkumluğu olan şəxs;

**17.2.2.** məhkəmə qərarı ilə iqtisadi sahədə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan müəyyən müddətə məhrum edilmiş şəxs;

**17.2.3.** «Banklar haqqında», «Sığorta fəaliyyəti haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş vətəndaş qüsursuzluğu tələblərinə və «Notariat haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunlarında müəyyən edilmiş fəaliyyətləri həyata keçirmək üçün zəruri olan digər tələblərə cavab verməyən şəxs.

**17.3.** Bu Qanunun 17.2-ci maddəsində nəzərdə tutulmuş şəxslərlə yaxın münasibətdə olan şəxslər (araşdırma nəticəsində ortaq maraqlara malik olduqları müəyyən edilmiş şəxslər) onlar arasında hər hansı cinayətkar sövdələşmənin olmadığı yoxlamalar nəticəsində aşkar edildikdən sonra öhdəlik daşıyan şəxslərdə mühüm iştirak payına sahib ola və ya benefisiar mülkiyyətçi ola, habelə öhdəlik daşıyan şəxslərdə idarəetmə funksiyalarını yerinə yetirə bilərlər. Nəzarət orqanları həmin şəxslər arasında cinayətkar sövdələşmənin olub-olmamasını müəyyən etmək üçün mütəmadi olaraq araşdırma aparmalıdırlar.

**17.4.** Nəzarət orqanları öhdəlik daşıyan şəxslərin fəaliyyətinə lisenziya və ya icazə verərkən və ya fəaliyyətə başlamaları üçün onları qeydiyyata alarkən öhdəlik daşıyan şəxsin benefisiar mülkiyyətçisini müəyyən etməli, qeydiyyat, icazə və lisenziyalaşdırma prosesində, habelə öhdəlik daşıyan şəxsin sahibliyində və idarəetmə strukturunda baş vermiş sonrakı dəyişikliklərdə bu Qanunun 17.2-ci maddəsinin tələblərinə əməl edilməsinə mütəmadi olaraq nəzarət etməlidirlər.

**17.5.** Bu Qanunun 17.2-ci maddəsində nəzərdə tutulmuş şəxslərə, habelə həmin şəxslərlə yaxın münasibətdə olan şəxslərə münasibətdə «Banklar haqqında», «Sığorta fəaliyyəti haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «İnvestisiya fondları haqqında», «Notariat haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunları ilə əlavə məhdudiyyət və qadağalar müəyyən edilə bilər.

**Qeyd:** Bu maddədə mühüm iştirak payı dedikdə fəaliyyəti «Banklar haqqında», «Sığorta fəaliyyəti haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən maliyyə institutları üçün həmin qanunlarla müəyyən edilmiş mühüm iştirak payı nəzərdə tutulur.

**Maddə 18. Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınmasına nəzarət**

**18.1.** Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş valyuta sərvətlərinin bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədi barədə məlumat və sənədləri tələb edir.

**18.2.** Bu Qanunun 18.1-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərin əlamətlərini aşkar edərsə, bu barədə məlumat və sənədləri araşdırmanın aparılması üçün maliyyə monitorinqi orqanına və cinayət təqibini həyata keçirən orqana göndərir.

**18.3.** «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən valyuta sərvətləri və milli valyuta barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təqdim olunan məlumatlar və sənədlər, həmçinin maliyyə monitorinqi orqanına göndərilir.

**18.4.** Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərin əlamətlərinin aşkar edilməsi hallarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valyuta sərvətləri və milli valyutanın hərəkətini 48 saat müddətində dayandırmaq hüququna malikdir. Bu maddənin tətbiqi çərçivəsində valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılmasına dair qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Həmin qaydalarda valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılması ilə bağlı indikatorların siyahısı da müəyyən edilir.

**18.5.** Bu Qanunun 18.2-ci və 18.3-cü maddələrində qeyd edilən məlumatların və sənədlərin tərtib olunma forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilir.

**Maddə 19. Geriyə məlumatlandırma**

**19.1.** Geriyə məlumatlandırma – bu Qanunla müəyyən edilmiş qaydada təqdim edilmiş məlumat və sənədlər üzrə görülən tədbirlərin nəticəsinin izlənilməsi, keyfiyyətə nəzarət edilməsi və statistik məlumatların toplanması məqsədilə məlumat və sənədləri alan orqanın (qurumun) müvafiq məlumatları bu Qanunun 19.3–19.5-ci maddələ-

rində nəzərdə tutulmuş qaydada göndərən tərəfə təqdim etməsidir.

**19.2.** Aşağıdakı məlumat və sənədlər geriyə məlumatlandırma çərçivəsində təqdim edilir:

**19.2.1.** təqdim edilmiş məlumat və sənədlərin qəbul edildiyi və araşdırıldığı barədə məlumat;

**19.2.2.** məlumat və sənədlərin araşdırılması nəticəsində sonrakı addımların xülasəsi;

**19.2.3.** məlumat və sənədlərin keyfiyyətinə və istifadəyə yararlılığına dair məlumat;

**19.2.4.** təqdim edilən əməliyyatlar üzrə dövri statistik məlumat.

**19.3.** Maliyyə monitorinqi orqanı monitorinq olunmalı əməliyyatlara dair ona təqdim edilmiş məlumat və sənədlər üzrə öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə bu Qanunun 19.2.1-ci və 19.2.3-cü maddələrində nəzərdə tutulmuş məlumatları təqdim edir. Öhdəlik daşıyan şəxslərin, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin geriyə məlumatlandırma proseduru maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir.

**19.4.** Maliyyə monitorinqi orqanı bu Qanunun 16-cı və 18-ci maddələrinə uyğun olaraq ona təqdim edilmiş məlumat və sənədlər üzrə nəzarət orqanlarına və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları və sənədləri təqdim edir.

**19.5.** Bu Qanunun 14.10-cu maddəsinə uyğun olaraq məlumat və sənədlərin təqdim edildiyi cinayət təqibi orqanı ona təqdim edilmiş məlumat və sənədlər üzrə maliyyə monitorinqi orqanına bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları və sənədləri təqdim edir.

**19.6.** Maliyyə monitorinqi orqanı, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə istintaq aidiyyəti üzrə cinayət təqibi orqanları bu Qanunun 22-ci maddəsinə uyğun olaraq təqdim edilmiş məlumat və sənədlər üzrə xarici tərəfdaşların geriyə məlumatlandırılmasını həyata keçirir.

*5-ci fəsil.*

### Ölkədaxili və beynəlxalq əməkdaşlıq

**Maddə 20. Ölkədaxili əməkdaşlıq**

**20.1.** Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu sahədə qanunvericiliyin icra vəziyyətini öyrənir və ümumiləşdirir, dövlət proqramlarının icrasına nəzarəti həyata keçirir.

**20.2.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əlaqələndirmənin təmin edilməsi, bu sahələrdə ölkə səviyyəsində risk qiymətləndirilməsinin (bundan sonra – ölkə risk qiymətləndirilməsi) həyata keçirilməsi, fəaliyyət planlarının və qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı layihələrin hazırlanması, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin effektivliyinin artırılması, mərkəzi icra hakimiyyəti və cinayət təqibi orqanları, məhkəmələr və digər qurumlar arasında əməkdaşlıq mexanizmlərinin formalaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının, cinayət təqibi orqanlarının, nəzarət orqanlarının, məhkəmələrin, digər dövlət orqanlarının (qurumların) və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət tərkibdə koordinasiya şurası (bundan sonra – Koordinasiya Şurası) yaradılır.

**20.3.** Koordinasiya Şurasının iş qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**20.4.** Koordinasiya Şurası müvafiq sahələr üzrə işçi qruplar yaradır və onların fəaliyyətinə nəzarət edir.

**Maddə 21. Ölkə risk qiymətləndirilməsinin tətbiqi**

**21.1.** Ölkə risk qiymətləndirilməsi ölkə səviyyəsində risklərin müəyyənləşdirilərək qiymətləndirilməsi, həmin risklərə uyğun olaraq hədəflərin müəyyən edilməsi, eləcə də risklərin aradan qaldırılması və ya azaldılması üzrə atılan tədbirlərdən ibarətdir.

**21.2.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin ölkə səviyyəsində qiymətləndirilməsi sahəvi və institusional qiymətləndirmələrin nəticələrinə əsaslanmaqla Koordinasiya Şurası tərəfindən aidiyyəti nəzarət orqanlarının, digər dövlət orqanlarının (qurumların), öhdəlik daşıyan şəxslərin, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, həmçinin əlaqəli sahələrin nümayəndələrinin iştirakı ilə ən azı 3 ildə bir dəfə həyata keçirilir.

**21.3.** Ölkə risk qiymətləndirilməsinin yekunlarına dair hesabat maliyyə monitorinqi orqanının rəsmi internet informasiya ehtiyatında dərc edilməli, ölkə risk qiymətləndirilməsinin bütün iştirakçılarına, o cümlədən nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə göndərilməlidir. Sahəvi və institusional risk qiymətləndirmələrinin nəticəsi olaraq ölkə risk qiymətləndirilməsinə dair hesabat yenilənə bilər.

**21.4.** Koordinasiya Şurası ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə aşağıdakı tədbirləri görür:

**21.4.1.** ölkə səviyyəsində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə risklərin qiymətləndirilməsini təşkil etmək;

**21.4.2.** bu Qanunun 21.4.1-ci maddəsində nəzərdə tutulmuş risk qiymətləndirilməsi nəticəsində müəyyən edilmiş risklərin idarə edilməsi məqsədilə hədəfləri müəyyən etmək, bu məqsədlə müvafiq planların layihələrini hazırlayıb aidiyyəti dövlət orqanlarına (qurumlara) təqdim etmək;

**21.4.3.** müəyyən edilmiş hədəflərə nail olunmasına cari nəzarəti həyata keçirmək və bu barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına məlumat vermək.

**21.5.** Ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının

yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə risklərin ölkə səviyyəsində müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə olunması, aradan qaldırılması və ya azaldılması üçün nəzarət orqanlarının, digər dövlət orqanlarının (qurumların), öhdəlik daşıyan şəxslərin, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin fəaliyyətlərinin bu risklərin səviyyəsinə uyğunlaşdırılması, xüsusilə son nəticədə həyata keçirilmiş tədbirlərin aşkar edilmiş risklərə uyğunluğunun və bu mübarizədə istifadə olunan resursların (inzibati, hüquqi, iqtisadi-maliyyə) effektiv bölgüsünün təmin edilməsi məqsədi daşıyır.

**21.6.** Nəzarət orqanları nəzarət etdikləri öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə münasibətdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə sahəvi riskləri illik əsasla qiymətləndirməli, nəticələrini sənədləşdirməli və nəzarət etdikləri öhdəlik daşıyan şəxslərə, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə təqdim etməli, həmçinin aşkar edilmiş risklərin idarə olunması, aradan qaldırılması və azaldılması üçün tədbirlər görməlidirlər. Sahəvi risk qiymətləndirilməsi prosesində nəzarət orqanları bütün risk faktorlarını, ölkə risk qiymətləndirilməsinin nəticələrini və nəzarət etdikləri öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən təqdim edilən institusional risk qiymətləndirilməsinin nəticələrini nəzərə almalıdırlar.

**21.7.** Öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər illik əsasla cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə institusional riskləri müəyyən etməli, qiymətləndirməli, qiymətləndirmə nəticələrini sənədləşdirməli və nəzarət orqanına təqdim etməli, həmçinin rəhbərlik tərəfindən təsdiq edilən daxili qayda və prosedurlara uyğun olaraq risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üçün tədbirlər görməlidirlər. Öhdəlik daşıyan şəxslər, habelə bu Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər institusional risk qiymətləndirilməsi zamanı bütün risk faktorlarını, ölkə və sahəvi risk qiymətləndirilmələrinin nəticələrini nəzərə almalıdırlar.

**21.8.** Ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu məhkəmələr və cinayət təqibi orqanlarından zəruri statistik məlumatları öz informasiya sistemi vasitəsilə toplayır, emal edir, ümumiləşdirir və aidiyyəti üzrə təqdim edir.

**Maddə 22. Beynəlxalq əməkdaşlıq, məlumat və sənədlərin mübadiləsi**

**22.1.** Beynəlxalq əməkdaşlıq dedikdə sorğu əsasında və ya öz təşəbbüsü ilə səlahiyyətli orqanla məlumat və sənədlərin monitorinq, nəzarət, araşdırma, əməliyyat, istintaq və digər məqsədlər üçün mübadiləsi nəzərdə tutulur. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya predikativ cinayətlərin təhlili, araşdırılması və istintaqı məqsədilə maliyyə monitorinqi orqanı, nəzarət orqanları, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə istintaq aidiyyəti üzrə cinayət təqibi orqanları qanunla qorunan sirlər də daxil olmaqla (dövlət və bu Qanunun 13.2-ci maddəsində müəyyən edilmiş peşə sirri istisna olmaqla) bütün növ məlumat və sənədlərin sorğu əsasında və ya öz təşəbbüsü ilə Azərbaycan Respublikasının qanunvericiliyinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq xarici tərəfdaşları ilə mübadiləsini həyata keçirirlər.

**22.2.** Monitorinq orqanları arasında məlumat mübadiləsi Maliyyə monitorinqi orqanlarının Eqmont Qrupunun «Məlumat mübadiləsi prinsipləri»nə əsaslanmaqla maliyyə monitorinqi orqanına təqdim edilən, maliyyə monitorinqi orqanının daxili məlumat bazalarında saxlanılan, maliyyə monitorinqi orqanının çıxışı olduğu informasiya resursları üzrə, habelə maliyyə monitorinqi orqanının sorğu əsasında əldə etdiyi bütün məlumat və sənədlərin mübadiləsini əhatə edir.

**22.3.** Nəzarət orqanları arasında məlumat mübadiləsi müvafiq sahəni tənzim edən məlumat və sənədlərin (ölkə üzrə normativ tənzimetmə sistemi, maliyyə sektoru üzrə ümumi informasiya və s.), prudensial tələblərin (maliyyə institutlarının işgüzar fəaliyyətləri, benefisiar mülkiyyətçi, idarəetmə, vətəndaş qüsursuzluğu və s.), eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə məlumat və sənədlərin (daxili nəzarət proqramı, müştəri uyğunluğu tədbirləri, müştəri məlumat və sənədləri, hesab nümunələri və əməliyyatlar barədə məlumat və sənədlər və s.) mübadiləsini əhatə edir.

**22.4.** Cinayət təqibi orqanları arasında beynəlxalq əməkdaşlıq cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya predikativ cinayətlərə dair araşdırma, əməliyyat və istintaq məlumat və sənədlərinin mübadiləsini, cinayət yolu ilə əldə edilmiş əmlakın izlənilməsini əhatə edir.

**22.5.** Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması sahəsində məlumat mübadiləsi bəyan edilmiş, düzgün bəyan edilməmiş və ya bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və predikativ cinayətlərin əlamətlərinin aşkar edilməsinə dair əməkdaşlıq tədbirlərini əhatə edir.

**22.6.** Bu Qanunun 22.1-ci maddəsində nəzərdə tutulmuş orqanlar (qurumlar) xarici tərəfdaşların sorğularının icrası zamanı məlumat və sənədlərin toplanmasını və sorğuların verilməsini özlərinin qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini icra edərkən apardıqları təhlillər, araşdırmalar və istintaq zamanı məlumat və sənədlərin toplanması və sorğuların verilməsi ilə eyni səlahiyyətlər çərçivəsində icra edirlər.

**22.7.** Məlumat xarici dövlətin müvafiq səlahiyyətli orqanına o şərtlə verilir ki, həmin məlumatdan sorğuda göstərilməyən məqsədlər üçün istifadə olunmayacaqdır. Həmin məlumat və sənədlərdən digər məqsədlər üçün istifadə yalnız məlumat və sənədləri təqdim edən tərəfin yazılı icazəsi ilə mümkündür.

**22.8.** Beynəlxalq əməkdaşlıq çərçivəsində cinayət təqibi orqanları xarici tərəfdaşları ilə birgə araşdırmaların (xüsusi istintaq texnologiyalarından istifadə edilməsi də daxil ol-

maqla) aparılması, habelə müvafiq əməkdaşlıq çərçivələrinin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görə bilərlər.

**22.9.** Bu Qanunun 22.1-ci maddəsində nəzərdə tutulmuş orqanlar (qurumlar) bu Qanunun 22-ci maddəsinin tələbləri çərçivəsində həmin orqanlara (qurumlara) münasibətdə xarici dövlətin birbaşa tərəfdaş olmayan orqanları (qurumları) ilə məlumat mübadiləsi həyata keçirə bilərlər.

**22.10.** Məlumat mübadiləsi mübadilənin təhlükəsizliyi təmin edilən kanal vasitəsilə, sorğuların prioritetləşdirilməsi qaydasında və ağlabatan müddətdə həyata keçirilməlidir. Məlumat mübadiləsi həyata keçirilən zaman xarici tərəfdaşlardan əldə edilən məlumat və sənədlər məxfi və ya konfidensial saxlanılır, qanunla qorunan sirlərə bərabər tutulur. Məxfiliyin və ya konfidensiallığın pozulmasına dair əsaslar sorğunun icrasından imtinaya səbəb olur.

**22.11.** Bu Qanunun 22.1-ci maddəsində qeyd edilən orqanlar (qurumlar) aşağıda qeyd edilən halları əsas gətirərək sorğunun cavablandırılmasından imtina edə bilməzlər:

**22.11.1.** sorğunun maliyyə xarakterli məsələləri ehtiva etməsi;

**22.11.2.** qanunvericiliyin öhdəlik daşıyan şəxslərə münasibətdə sirr rejimini tətbiq etməsi (sorğu edilən məlumat və sənədlərin dövlət sirri və ya bu Qanunun 13.2-ci maddəsində müəyyən edilmiş peşə sirri olması halları istisna olmaqla);

**22.11.3.** sorğu edilən məsələ ilə bağlı ölkədə cinayət təqibinin həyata keçirilməsi (sorğunun cavablandırılmasının cinayət təqibinin həyata keçirilməsinə maneə yaratması halları istisna olmaqla);

**22.11.4.** sorğu edən orqanın (qurumun) səlahiyyətləri və statusunun (mülki, inzibati, cinayət təqibi və s.) sorğu edilən orqanın (qurumun) səlahiyyətləri və statusundan fərqlənməsi.

*6-cı fəsil.*
**Yekun müddəalar**

**Maddə 23. Məsuliyyətdən azadolma**

İstənilən şəxs, o cümlədən öhdəlik daşıyan şəxslər, habelə onların əmək və ya digər mülki hüquqi müqavilələr əsasında işləyən əməkdaşları, eləcə də nəzarət orqanlarının əməkdaşları monitorinq olunmalı əməliyyatlar barədə məlumat və sənədləri bu Qanunun tələblərinə uyğun olaraq vicdanla maliyyə monitorinqi orqanına təqdim etdikdə, bu Qanuna, tərəflər arasında mövcud olan müqaviləyə, eləcə də inzibati və digər tənzimləyici sənədə uyğun açıqlanması məhdudlaşdırılmış məlumat və sənədlərin yayılmasına görə yarana biləcək məsuliyyətdən azaddırlar.

**Maddə 24. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 25. Keçid müddəalar**

**25.1.** Bu Qanunun 11.1.2-ci maddəsi maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarına dair maliyyə monitorinqi orqanı tərəfindən məbləğin minimum həddi müəyyənləşdirildikdən 6 ay sonra qüvvəyə minir.

**25.2.** Bu Qanunun 25.1-ci maddəsində nəzərdə tutulmuş müddəa istisna olmaqla, bu Qanunun digər maddələri 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**25.3.** Bu Qanun qüvvəyə mindiyi gündən «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295, № 11, maddə 1959; 2018, № 7 (I kitab), maddə 1407, № 10, maddə 1973, № 11, maddə 2233; 2019, № 1, maddə 24, № 6, maddə 1002; 2021, № 12, maddə 1344) ləğv edilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 30 dekabr 2022-ci il
№ 781-VIQ

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.6-cı, 9.4-cü, 9.5-ci maddələrində, 14.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 14.12-ci, 16.1.2 – 16.1.4-cü, 18.1 – 18.3-cü maddələrində, 18.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 18.5-ci, 19.4-cü, 19.6-cı, 20.2-ci, 20.3-cü maddələrində və 22.1-ci maddəsinin ikinci cüm-

ləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Qanunun 14.12-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

**1.3.** həmin Qanunun 14.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

**1.4.** həmin Qanunun 9.4-cü maddəsində, 18.4-cü maddəsinin ikinci cümləsində, 18.5-ci, 20.2-ci və 20.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

**1.5.** həmin Qanunun 1.1.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti nəzərdə tutulur;

**1.6.** həmin Qanunun 9.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

**1.7.** həmin Qanunun 14.5-ci maddəsinin birinci cümləsində "orqanlar (qurumlar)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

**1.8.** həmin Qanunun 16.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

**1.9.** həmin Qanunun 16.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

**1.10.** həmin Qanunun 16.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur;

**1.11.** həmin Qanunun 18.1 – 18.3-cü maddələrində, 18.4-cü maddəsinin birinci cümləsində, 19.4-cü, 19.6-cı maddələrində və 22.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** iki ay müddətində:

**2.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.1.2.** həmin Qanunun 14.5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**2.1.3.** həmin Qanunun 9.4-cü maddəsinə uyğun olaraq, yüksək riskli zonaların müəyyən edilmə əsaslarını, yüksək riskli zonalara münasibətdə tətbiq edilə bilən məhdudiyyətlərin və xüsusi tələblərin siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.1.4.** həmin Qanunun 18.5-ci maddəsinə uyğun olaraq, maliyyə monitorinqi orqanına təqdim edilən məlumat və sənədlərin tərtib olunma formasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.1.5.** həmin Qanunun 20.2-ci maddəsinə uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasını yaradıb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.1.6.** həmin Qanunun 20.3-cü maddəsinə uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iş qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.2.** həmin Qanunun 18.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair qaydaları dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** bu Fərmanın 1.7-ci bəndində nəzərdə tutulmuş orqanların (qurumların) informasiya sistemlərinin (ehtiyatlarının) Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiyasını beş ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti:

**3.1.** iki ay müddətində:

**3.1.1.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4.12-ci maddəsinə uyğun olaraq, müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri baxımından yüksək və aşağı risk faktorlarını, müştəri profilinin yüksək, orta və ya aşağı risk qrupuna aid edilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.2.** həmin Qanunun 4.12-ci maddəsinə və 4.18-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, müştəri uyğunluğu tədbirlərinə, o cümlədən sadələşdirilmiş və gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələbləri müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.3.** həmin Qanunun 8.5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinin həyata keçirilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.4.** həmin Qanunun 10.5-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum tələbləri müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.5.** həmin Qanunun 11.1.1-ci maddəsinə uyğun olaraq, maliyyə institutlarının maliyyə monitorinqi orqanına məlumat və sənədlər təqdim etməli olduqları nağd şəkildə həyata keçirilən əməliyyatların məbləğinin minimum həddini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.6.** həmin Qanunun 11.1.2-ci maddəsinə uyğun olaraq, maliyyə institutlarının maliyyə monitorinqi orqanına məlumat və sənədlər təqdim etməli olduqları maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarının məbləğinin minimum həddini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.7.** həmin Qanunun 11.4-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin maliyyə monitorinqi orqanına təqdim edilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.8.** həmin Qanunun 11.5.2-ci maddəsinə uyğun olaraq, həmin Qanunun 11.2-ci və 11.5-ci maddələrində nəzərdə tutulan əməliyyatların məbləğinin minimum həddini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.1.9.** həmin Qanunun 19.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, öhdəlik daşıyan şəxslərin, habelə həmin Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin geriyə məlumatlandırma prosedurunu müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.2.** həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün lazımi tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Mərkəzi Bankına və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş səlahiyyətlərinin icrası ilə əlaqədar zəruri olan məlumatları həmin Qanunun 14.5-ci maddəsində nəzərdə tutulmuş qaydada almasını təmin etmək üçün müvafiq informasiya sistemlərinin (ehtiyatlarının) Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiyasını təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4.2.3-cü maddəsinə uyğun olaraq, maliyyə vəsaitlərinin elektron köçürülməsi və virtual aktivlərlə əməliyyatların aparılmasına dair qaydaları, 16.5-ci maddəsinə uyğun olaraq, ödəniş təşkilatlarına və elektron pul təşkilatlarına münasibətdə həmin Qanunun tələblərinin tətbiqi qaydalarını müəyyən etsin.

**6.** Bu Fərmanın 1-ci hissəsi 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 yanvar 2023-cü il
№ 2007

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Hədəfli maliyyə sanksiyaları haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərinə uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir.

*1-ci fəsil.*
**Ümumi müddəalar**

**Maddə 1. Əsas anlayışlar**

**1.1.** Bu Qanunun məqsədləri üçün istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.1.1.** sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən barələrində sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlardır;

**1.1.2.** hədəfli maliyyə sanksiyaları – sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınmasına yönələn qadağalar və ya həmin fiziki şəxslərin və qurumların aktivlərinin dondurulması tədbirləridir;

**1.1.3.** kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi – nüvə, kimyəvi, bakterioloji (bioloji) və toksin silahların, eləcə də onların daşıyıcı vasitələrinin (müxtəlif mənzilli ballistik və qanadlı raket başlıqları, uzaqdan idarəolunan döyüş sistemləri) və əlaqəli materialların (qeyri-qanuni məqsədlər üçün istifadə olunan texnologiyalar və ikili təyinatlı mallar da daxil olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinə və üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zidd olaraq istehsalı, əldə edilməsi, inkişaf etdirilməsi və təkmilləşdirilməsi, idxalı, ixracı, tranzit daşınması, ötürülməsi, toplanması və ya istifadəsi, eləcə də bu silahlara sahiblik və ya onların beynəlxalq daşınmasında vasitəçilik (broker) fəaliyyətləri məqsədilə bütövlükdə və ya qismən istifadə olunan aktivlərin toplanılması və ya verilməsi, habelə maliyyə xidmətlərinin təmin edilməsidir;

**1.1.4.** qurumlar – hüquqi şəxslər, qruplar, hüquqi şəxs olmayan təşkilatlar və müəssisələr, dövlət və ya qeyri-dövlət orqanlarıdır (qurumlarıdır);

**1.1.5.** aktivlər – əldə edilmə üsulundan asılı olmayaraq istənilən növ maddi və qeyri-maddi əmlak nemətləri (maliyyə aktivləri, iqtisadi resurslar (neft və digər təbii ehtiyatlar da daxil olmaqla), daşınar və ya daşınmaz əmlak, poçt göndərişləri, bank kreditləri, akkreditivlər, yol çekləri, bank çekləri, istiqrazlar, veksellər, səhmlər və digər qiymətli kağızlar, virtual aktivlər, habelə belə əmlak nemətlərinin əldə edilməsindən yaranan faizlər, dividendlər və ya digər gəlirlər, eləcə də bu əmlak nemətləri üzərində hüquqlarını təsdiq edən, elektron (rəqəmsal) da daxil olmaqla istənilən növ hüquqi sənədlər, həmçinin bu əmlak nemətlərinin əldə edilməsi üçün istifadə edilə bilən istənilən növ digər aktivlərdir;

**1.1.6.** aktivlərin dondurulması – bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan aktivlərin köçürülməsinin, konversiyasının, hərəkətinin, habelə həmin aktivlərə sərəncam verilməsinin və ya onlarla hər hansı formada maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsinin qadağan edilməsidir;

**1.1.7.** beynəlxalq siyahılar – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, habelə kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların daxil edildiyi siyahılardır;

**1.1.8.** ölkədaxili siyahı – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların Azərbaycan Respublikası məhkəmələrinin qərarları əsasında daxil edildiyi siyahıdır;

**1.1.9.** hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı – hədəfli maliyyə sanksiyalarının tətbiqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan və idarə olunan internet informasiya ehtiyatıdır;

**1.1.10.** iqtisadi resurslar – aktivlərin, əmtəə və ya xidmətlərin əldə edilməsinə imkan verən bütün növ əmlak, faktiki və ya potensial təbii resurslar, habelə enerji resursları, həmçinin heyvan və bitkilərdir;

**1.1.11.** təxirəsalınmadan – bu Qanunda nəzərdə tutulan hərəkətlərin dərhal və ya bir neçə saat ərzində həyata keçirilməsidir.

**Maddə 2. Hədəfli maliyyə sanksiyaları haqqında qanunvericilik**

Hədəfli maliyyə sanksiyaları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

*2-ci fəsil.*

## Hədəfli maliyyə sanksiyaları və onların tətbiqi qaydası

**Maddə 3. Hədəfli maliyyə sanksiyaları**

**3.1.** Hədəfli maliyyə sanksiyaları cinayət mühakimə icraatı çərçivəsində tətbiq edilən tədbirləri əvəzləmədən, önləyici xarakter daşıyaraq, terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə aşağıdakı tədbirləri nəzərdə tutur:

**3.1.1.** aktivlərin təxirəsalınmadan dondurulması;

**3.1.2.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların aktivlər, iqtisadi resurslar və ya maliyyə və digər əlaqəli xidmətlərlə təmin edilməsinin qadağan edilməsi.

**3.2.** Aktivlər aktivlərin dondurulması ilə bağlı tədbirlərin həyata keçirildiyi vaxt həmin aktivlərdə payı olan fiziki şəxslərin və ya qurumların mülkiyyətində saxlanılır. Həmin aktivlər üçüncü tərəflərin idarəçiliyində saxlanıla, yaxud həmin şəxslər tərəfindən aktivlər dondurulanadək tətbiq edilmiş digər hüquqi mexanizmlər vasitəsilə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər qaydalara uyğun olaraq idarə edilə bilər.

**Maddə 4. Hədəfli maliyyə sanksiyalarının tətbiq edildiyi aktivlər**

**4.1.** Terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi fəaliyyəti ilə bilavasitə əlaqəli olub-olmamasından asılı olmayaraq aşağıdakı aktivlər dondurulmalıdır:

4**.1.1.** sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların aktivləri;

**4.1.2.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan aktivlər, habelə belə aktivlər vasitəsilə əldə edilmiş digər aktivlər;

**4.1.3.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslərin və qurumların aktivləri;

**4.1.4.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumların aktivləri.

**Maddə 5. Hədəfli maliyyə sanksiyalarının tətbiqi qaydası**

**5.1.** Azərbaycan Respublikasının ərazisində bütün fiziki şəxslər və ya qurumlar, o cümlədən «Cinayət yolu ilə əldə

edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş öhdəlik daşıyan şəxslər (bundan sonra – öhdəlik daşıyan şəxslər), habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan aktivləri beynəlxalq və ölkədaxili siyahılar hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında dərc edildiyi vaxtdan təxirəsalınmadan və həmin maddədə göstərilən şəxslərə xəbərdarlıq etmədən dondurmalı və dərhal bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), habelə maliyyə monitorinqi orqanına həmin internet informasiya ehtiyatı vasitəsilə məlumat verməlidirlər.

**5.2.** Beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslərin və qurumların siyahısı Birləşmiş Millətlər Təşkilatı tərəfindən elektron qaydada dərc edildikdən dərhal sonra proqram təminatlarının inteqrasiyası vasitəsilə avtomatik olaraq hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir və yenilənir.

**5.3.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumları müəyyən edən qətnamələrin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında təsdiq edir.

**5.4.** Bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş aktivlər sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar müvafiq siyahıda olduğu müddətdə dondurulmuş saxlanılmalı və yalnız onlar siyahıdan çıxarıldıqdan sonra təxirəsalınmadan azad edilməlidir.

**5.5.** Sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların, eləcə də həmin fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumların, habelə həmin fiziki şəxslərin və qurumların adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslərin və qurumların Azərbaycan Respublikasının ərazisində fiziki şəxslər və ya qurumlar tərəfindən aktivlərlə, iqtisadi resurslarla, maliyyə və ya digər əlaqəli xidmətlərlə birbaşa və ya dolayı yolla, təkbaşına və ya başqaları ilə birlikdə təmin edilməsi qadağandır.

**5.6.** Aktivləri səhvən dondurulmuş fiziki şəxslərin və qurumların aktivləri həmin fiziki şəxslərin və qurumların hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı vasitəsilə edilən müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq uyğunsuzluq təsdiq edildikdən sonra təxirəsalınmadan azad edilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin müraciətə dərhal baxmalıdır.

**5.7.** Aktivlərin dondurulması tədbirlərinin tətbiqi nəticəsində hüquqları pozulmuş fiziki şəxslər və ya qurumlar öz hüquqlarının müdafiəsi və onlara dəymiş zərərin ödənilməsi məqsədilə məhkəməyə müraciət edə bilərlər.

**5.8.** Bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 6. Sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməzdən əvvəl bağladıqları əqdlər və ya yaranmış öhdəliklər**

**6.1.** Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslərin və qurumların dondurulmuş hesablarına həmin hesablar üzrə faiz və ya digər gəlirlərin əlavə edilməsinə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinin müddəalarının tətbiq edilməsindən əvvəlki dövrə aid əqdlər, razılaşmalar və ya öhdəliklər üzrə yaranmış ödəmələrin bu hesablara əlavə edilməsinə məhdudiyyət qoyulmur. Belə faizlər, digər gəlirlər, yaxud ödəmələr hesablara əlavə edildikdən sonra onlara da qeyd edilən qətnamələrin müddəaları tətbiq olunur və onlar dondurulur.

**6.2.** Dondurulmuş aktivlərə münasibətdə öhdəliklər sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməzdən əvvəl bağladıqları əqdlər çərçivəsində icra edilməlidirsə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən müvafiq qətnamələrlə müəyyən edilmiş istisnalar nəzərə alınmaqla sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar həmin öhdəlikləri icra etmək hüququna malikdirlər. Hər bir halda belə əqdlərin nəticəsi olaraq əldə edilmiş faizlərə, digər gəlirlərə və ödəmələrə bu Qanunun 6.1-ci maddəsinin tələbləri tətbiq edilməlidir.

*3-cü fəsil.*

**Ölkədaxili siyahının formalaşdırılması qaydası**

**Maddə 7. Fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi**

**7.1.** Aşağıdakı fiziki şəxslər və qurumlar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatına əsasən məhkəmənin qərarı ilə ölkədaxili siyahıya daxil edilirlər:

**7.1.1.** terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin törədilməsi, yaxud belə əməllərin törədilməsində hər hansı şəkildə iştirak etməsi və ya kömək göstərməsi, habelə həmin əməllərin törədilməsinə cəhd göstərməsi, terrorçu olması, terrorçu qrupun (dəstənin, təşkilatın) yaradılmasında və ya fəaliyyətində hər hansı formada iştirak etməsi ilə bağlı əsaslı şübhələr olan fiziki şəxslər və qurumlar;

**7.1.2.** bu Qanunun 7.1.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumlar;

**7.1.3.** bu Qanunun 7.1.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların adından, yaxud onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslər və qurumlar.

**7.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsinə dair təqdimatı Azərbaycan Respublikası Baş Prokurorluğunun, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş nəzarət orqanlarının (bundan sonra – nəzarət orqanlarının), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) və ya maliyyə monitorinqi orqanının əsaslandırılmış müraciəti, həmçinin xarici dövlətin səlahiyyətli orqanının sorğusu əsasında, habelə öz təşəbbüsü ilə verir. Təqdimata müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

**7.3.** Ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxs və ya qurum hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı vasitəsilə ölkədaxili siyahıya daxil edilməsinin səbəbini öyrənmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər.

**7.4.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxsin vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətin aidiyyəti qurumlarına həmin fiziki şəxsin və ya qurumun mənsub olduğu dövlətin sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların siyahısına əlavə edilməsi üçün sorğu göndərir. Sorğuda fiziki şəxsin və ya qurumun bu Qanunun 7.1.1–7.1.3-cü maddələrində nəzərdə tutulmuş meyarlara uyğun gəldiyini göstərən məlumatlar və onların ətraflı eyniləşdirmə məlumatları qeyd olunur.

**Maddə 8. Xarici dövlətin səlahiyyətli orqanının fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıya daxil edilməsi ilə bağlı sorğusu**

**8.1.** Xarici dövlətin səlahiyyətli orqanı fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıya daxil edilməsi üçün sorğunu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) birbaşa, yaxud «Cinayət işlərinə dair hüquqi yardım haqqında» Azərbaycan Respublikasının Qanunu və ya bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilmiş qaydada təqdim edir.

**8.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici dövlətin səlahiyyətli orqanının sorğusunun Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən bu Qanunun 8.3-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verib-verməməsini araşdırır və tələblərə riayət olunmadıqda əlavə məlumatların və sənədlərin təqdim edilməsinə dair müraciət edir.

**8.3.** Xarici dövlətin səlahiyyətli orqanının sorğusuna ölkədaxili siyahıya daxil edilmənin zəruriliyini əsaslandıran sənədlər əlavə edilməli və sorğuda aşağıdakılar qeyd olunmalıdır:

**8.3.1.** Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının (qurumunun) adı;

**8.3.2.** xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

**8.3.3.** ölkədaxili siyahıya daxil edilmə üçün əsas hesab edilən törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlar, xarici dövlətin müvafiq cinayət qanununun mətni;

**8.3.4.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsin və ya qurumun bu Qanunun 7.1.1-7.1.3-cü maddələrində nəzərdə tutulmuş meyarlara uyğun gəldiyini göstərən məlumatlar;

**8.3.5.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsə və ya quruma dair ətraflı eyniləşdirmə məlumatları;

**8.3.6.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsin və ya qurumun Azərbaycan Respublikası ilə əlaqəsinə dair məlumatlar;

**8.3.7.** ölkədaxili siyahıya daxil edilmənin zəruriliyinin əsaslandırılması;

**8.3.8.** fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi ilə hansı nəticənin əldə olunacağı və həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin hansı səbəbdən mümkün olmadığına dair məlumatlar;

**8.3.9.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün sorğu edilən səlahiyyətli orqanın zəruri hesab etdiyi digər məlumatlar.

**8.4.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici dövlətin səlahiyyətli orqanının sorğusuna 15 gün müddətində baxır və sorğuya baxılmanın nəticəsi barədə xarici dövlətin səlahiyyətli orqanına yazılı formada məlumat verilməsini təmin edir. Əlavə araşdırma tələb edildikdə sorğuya baxılma müddəti uzadıla bilər.

**Maddə 9. Fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi ilə bağlı məlumatlandırma**

**9.1.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsi və ya qurumu təxirəsalınmadan ölkədaxili siyahıya daxil edərək bu barədə məlumatı hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirir, əlaqə vasitələri məlum olduqda fiziki şəxsləri və qurumları ölkədaxili siyahıya daxil edilmələri barədə məlumatlandırır.

**9.2.** Hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında ölkədaxili siyahıya daxil edilmənin əsasları və tətbiq olunacaq tədbirlər, habelə ölkədaxili siyahıdan çıxarılma proseduru barədə məlumat yerləşdirilir.

**9.3.** Məhkəmə xarici dövlətin vətəndaşı olan, xarici dövlətdə qeydiyyatda olan və ya yaşayan fiziki şəxsin, həmçinin xarici dövlətdə təsis edilən, idarə edilən və ya fəaliyyət göstərən qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin dövlətin aidiyyəti orqanlarına bu barədə yazılı formada məlumat verilməsini təmin edir.

**Maddə 10. Fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıdan çıxarılması**

**10.1.** Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda siyahıya daxil edilmiş fiziki şəxs və ya qurum, habelə həmin fiziki şəxsin və ya qurumun siyahıya

daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslər, bu Qanunun 10.5-ci maddəsində müəyyən edilmiş hallar istisna olmaqla, fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529-cu maddəsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

**10.2.** Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) öz təşəbbüsü və ya fiziki şəxs və ya qurumun, o cümlədən həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslərin müraciəti əsasında fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529-cu maddəsinə uyğun olaraq məhkəməyə təqdimat verir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun, o cümlədən həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslərin müraciətinə 15 gün müddətində baxır və müraciət əsaslı hesab olunarsa, fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə məhkəməyə təqdimat verir. Əlavə araşdırma tələb edən müraciətlərə 1 ay müddətində baxılır.

**10.3.** Fiziki şəxs və ya qurum üçüncü dövlətin sorğusuna əsasən ölkədaxili siyahıya daxil edildikdə, sorğu göndərən dövlətin və ya həmin fiziki şəxsin vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətin sorğusu əsasında və ya öz təşəbbüsü ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədaxili siyahıdan çıxarılma barədə təqdimatla məhkəməyə müraciət edə bilər. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sorğuya 15 gün müddətində baxır və sorğuya baxılmanın nəticəsi barədə xarici dövlətin səlahiyyətli orqanına yazılı formada məlumat verilməsini təmin edir. Əlavə araşdırma tələb edildikdə sorğuya baxılma müddəti uzadıla bilər.

**10.4.** Xarici dövlətin səlahiyyətli orqanının sorğusuna ölkədaxili siyahıdan çıxarılmasının zəruriliyini əsaslandıran sənədlər əlavə edilməli və sorğuda aşağıdakılar qeyd olunmalıdır:

**10.4.1.** Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının (qurumunun) adı;

**10.4.2.** xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

**10.4.3.** ölkədaxili siyahıdan çıxarılması sorğu edilən fiziki şəxsə və ya quruma dair ətraflı eyniləşdirmə məlumatları;

**10.4.4.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlar və ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən sənədlər;

**10.4.5.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün sorğu edilən səlahiyyətli orqanın zəruri hesab etdiyi digər məlumatlar.

**10.5.** Ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxs vəfat etdikdə, qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) öz təşəbbüsü və ya həmin fiziki şəxsin yaxın qohumlarının, vərəsələrinin və ya maraqlı şəxslərin müraciəti əsasında fiziki şəxsi və ya qurumu ölkədaxili siyahıdan çıxarır və bu barədə hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında məlumat yerləşdirir.

**10.6.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsi və ya qurumu təxirəsalınmadan ölkədaxili siyahıdan çıxararaq bu barədə məlumatı hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirir.

**10.7.** Məhkəmənin fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılmasından imtina edilməsi barədə qərarından yuxarı instansiya məhkəməsinə şikayət verilə bilər.

**10.8.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərə və qurumlara dair əldə etdiyi yeni məlumatlara, habelə xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahını mütəmadi olaraq nəzərdən keçirir və yeniləyir.

*4-cü fəsil.*

**Beynəlxalq siyahıların formalaşdırılması qaydası**

**Maddə 11. Fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməsi**

**11.1.** Bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrində qeyd edilmiş əsaslar müəyyən olunduqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir:

**11.1.1.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsini əsaslandıran məlumat və sənədlər;

**11.1.2.** fiziki şəxsin və ya qurumun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində qeyd edilən meyarlara cavab verdiyinə əsaslı şübhə yaradan hallara dair məlumatlar və dəlillər (ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş məlumatlar və mənbəyi məlum olan digər məlumatlar);

**11.1.3.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsini əsaslandıran, sanksiya komitələrinin xülasəsində açıqlanacaq zəruri məlumatlar;

**11.1.4.** təşəbbüs göstərən dövlət barədə məlumatların açıqlanmasına dair razılığın verilib-verilməməsinə dair qeyd;

**11.1.5.** fiziki şəxsin və ya qurumun dəqiq müəyyənləşdirilməsi üçün aşağıdakı eyniləşdirmə məlumatları:

**11.1.5.1.** fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, doğum tarixi, doğum yeri, milliyyəti, vətəndaşlığı, cinsi, məşğuliyyəti (peşəsi), yaşayış yeri və olduğu yer, əvvəlki yaşayış ünvanları, ümumvətəndaş pasportu və şəxsiyyəti

təsdiq edən sənədin nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti, olduğu halda ləqəbləri, telefon nömrələri, elektron poçt ünvanları və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

**11.1.5.2.** hüquqi şəxslər üçün – adı, hüquqi ünvanı, törəmə hüquqi şəxsləri, filialları, nümayəndəlikləri, fəaliyyət sahəsi, sahibkarlıq fəaliyyəti növü, rəhbərliyi, təsisçisi (təsisçiləri), vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, elektron poçt ünvanları, telefon nömrələri, əvvəlki adları və ya eyniləşdirmə məlumatları;

**11.1.5.3.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi üçün zəruri hesab etdiyi yetərli həcmdə digər məlumatlar.

**11.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş müraciət əsasında sanksiya komitələrinin müəyyən etdiyi prosedurlara uyğun olaraq fiziki şəxsin və qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə sanksiya komitələrinə təqdimat verir.

**11.3.** Bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə qərar qəbul etdikdə, həmin fiziki şəxs və ya qurum barədə müvafiq məlumat bu Qanunun 5.2-ci maddəsində müəyyən edilmiş qaydada hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) beynəlxalq siyahılara yeni daxil edilmiş fiziki şəxslər və qurumlar, onların beynəlxalq siyahılara daxil edilməsinin əsasları və bununla əlaqədar tətbiq olunacaq tədbirlər, habelə həmin siyahılardan çıxarılma prosedurları barədə hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında təxirəsalınmadan məlumat yerləşdirməlidir.

**Maddə 12. Fiziki şəxslərin və qurumların beynəlxalq siyahılardan çıxarılması**

**12.1.** Beynəlxalq siyahılara daxil edilmə üçün əsaslar aradan qalxdıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir:

**12.1.1.** fiziki şəxsin və ya qurumun bu Qanunun 11.1.5-ci maddəsində nəzərdə tutulmuş eyniləşdirmə məlumatları;

**12.1.2.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahıda olmasına əsas olan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində qeyd edilən meyarların aradan qalxdığını göstərən məlumatlar və sənədlər (ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş məlumatlar və mənbəyi məlum olan digər məlumatlar);

**12.1.3.** fiziki şəxs vəfat etdikdə, qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verildikdə bu barədə məlumat və sənədlər.

**12.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş müraciət əsasında sanksiya komitələrinin müəyyən etdiyi prosedurlara uyğun olaraq fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə sanksiya komitələrinə təqdimat verir.

**12.3.** Beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslər və qurumlar həmin siyahılardan çıxarılmaları barədə bilavasitə və ya nümayəndələri, yaxud müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə sanksiya komitələri tərəfindən müəyyən edilmiş ombudsman və ya əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**12.4.** Vəfat etmiş fiziki şəxsin, mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilmiş qurumun beynəlxalq siyahılardan çıxarılmasına dair müraciət Azərbaycan Respublikasının vətəndaşına münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sanksiya komitələrinə və ya fiziki şəxsin yaxın qohumları və ya vərəsələri və ya maraqlı şəxslər tərəfindən bilavasitə sanksiya komitələri tərəfindən müəyyən edilmiş ombudsman və ya əlaqələndirici şəxsə təqdim edilir. Bu halda fiziki şəxsin ölüm faktını təsdiq edən sənədlər, onun vərəsələri, valideynləri və ya digər qanuni nümayəndələri barədə məlumatlar, habelə qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi ilə bağlı sənədlər müraciətə əlavə edilir.

**12.5.** Beynəlxalq siyahılardan çıxarılma ilə bağlı müraciətin nümunəvi forması, müraciətə əlavə olunmalı sənədlərin siyahısı və digər izahedici qeydlər hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir.

**12.6.** Beynəlxalq siyahılardan çıxarılma ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı vasitəsilə edilir.

**12.7.** Müraciət edən fiziki şəxs və ya qurum beynəlxalq siyahılardan çıxarılması barədə sorğusunu əsaslandırmalı və bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş əsaslara uyğun olmadığını təsdiq edən məlumatları və sənədləri təqdim etməlidir.

**12.8.** Beynəlxalq siyahılardan çıxarılma barədə müraciət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə təqdim edildikdə təqdim olunmuş sənədlər rəy verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

**12.9.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 12.8-ci maddəsində nəzərdə tutulan rəyi 15 iş günü ərzində verməlidir. Əlavə məlumatların alınması və beynəlxalq siyahılardan çıxarılma ilə bağlı məsləhətləşmələrin aparılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsin vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətə sorğu göndərə bilər.

**12.10.** Beynəlxalq siyahılardan çıxarılma barədə müraciətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 1 ay müddətində baxılır, müvafiq təqdimat hazırlanır və təqdimat, təqdim olunmuş sənədlərlə, eləcə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmış yekun rəylə birlikdə sanksiya komitələrinə göndərilir.

**12.11.** Bu Qanunun 12.10-cu maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatındakı müvafiq məlumatların bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada yenilənməsini təmin edir.

**12.12.** Bu Qanunun 12.10-cu maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə qərar qəbul etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin qərar qəbul edildiyi vaxtdan 1 iş günü müddətində müvafiq müraciəti etmiş fiziki şəxsi və ya qurumu məlumatlandırır.

*5-ci fəsil.*
**Yekun müddəalar**

**Maddə 13. Nəzarət tədbirləri**

**13.1.** Nəzarət orqanları nəzarət etdikləri öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirirlər.

**13.2.** Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri üzərində nəzarət tədbirləri istisna olmaqla bu Qanunun tələblərinə riayət edilməsinə nəzarət maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilir.

**13.3.** Bu Qanunda nəzərdə tutulmuş tələblərin pozulması qanunla müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə səbəb olur və müvafiq fəaliyyəti həyata keçirmək hüququ verən lisenziyanın, icazənin, qeydiyyatın, şəhadətnamənin və ya üzvlüyün dayandırılması və ya ləğv edilməsinə əsas yaradır.

**13.4.** Maliyyə monitorinqi orqanı, habelə aidiyyəti nəzarət orqanları öhdəlik daşıyan şəxslərə, habelə auditor xidməti göstərən şəxslərə, dini qurumlara, qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə bu Qanundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar hazırlayıb təqdim edir. Digər fiziki şəxslərə və qurumlara münasibətdə bu Qanundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar maliyyə monitorinqi orqanı tərəfindən hazırlanır və onların hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilməsi üçün tədbirlər görülür.

**Maddə 14. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 30 dekabr 2022-ci il
№ 782-VIQ

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası Qanununun 1.1.1-ci, 1.1.9-cu, 5.1-ci, 5.3-cü (hər iki halda) maddələrində, 5.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 5.8-ci, 7.1-ci maddələrində, 7.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 7.3-cü maddəsində, 7.4-cü maddəsinin birinci cümləsində, 8.1-ci, 8.2-ci maddələrində, 8.4-cü maddəsinin birinci cümləsində, 9.1-ci, 9.3-cü maddələrində, 10.2-ci və 10.3-cü maddələrinin birinci və ikinci cümlələrində, 10.5-ci, 10.6-cı, 10.8-ci maddələrində, 11.1-ci maddəsinin birinci cümləsində (hər iki halda), 11.1.5.3-cü, 11.2-ci maddələrində, 11.3-cü maddəsinin ikinci cümləsində, 12.1-ci maddəsinin birinci cümləsində (hər iki halda), 12.2-ci, 12.3-cü maddələrində, 12.4-cü maddəsinin birinci cümləsində, 12.6-cı, 12.8-ci (hər iki halda) maddələrində, 12.9-cu maddəsinin birinci və ikinci cümlələrində, 12.10-cu (hər iki halda), 12.11-ci və 12.12-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Qanunun 1.1.1-ci, 5.3-cü (birinci halda) və 5.8-ci maddələrində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

**1.3.** həmin Qanunun 1.1.9-cu, 5.1-ci maddələrində, 5.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 7.1-ci maddəsində, 7.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.3-cü maddəsində, 7.4-cü maddəsinin birinci cümləsində, 8.1-ci, 8.2-ci maddələrində, 8.4-cü maddəsinin birinci cümləsində, 9.1-ci, 9.3-cü maddələrində, 10.2-ci və 10.3-cü maddələrinin birinci və ikinci cümlələrində, 10.5-ci, 10.6-cı, 10.8-ci maddələrində, 11.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 11.1.5.3-cü maddəsində, 11.3-cü maddəsinin ikinci cümləsində, 12.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 12.8-ci maddəsində (ikinci halda), 12.9-cu maddəsinin birinci və ikinci cümlələrində,

12.10-cu (ikinci halda), 12.11-ci və 12.12-ci maddələrində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur;

**1.4.** həmin Qanunun 5.3-cü maddəsində (ikinci halda), 11.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 11.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 12.2-ci, 12.3-cü maddələrində, 12.4-cü maddəsinin birinci cümləsində, 12.6-cı, 12.8-ci (birinci halda) və 12.10-cu (birinci halda) maddələrində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

**1.5.** həmin Qanunun 7.2-ci maddəsinin birinci cümləsində «orqanlar (qurumlar)» dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** bir ay müddətində:

**2.2.1.** həmin Qanunun 5.3-cü maddəsinə uyğun olaraq, terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumları müəyyən edən qətnamələrin siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.2.2.** həmin Qanunun 5.8-ci maddəsinə uyğun olaraq, fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti iki ay müddətində «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası Qanununun 1.1.9-cu maddəsində nəzərdə tutulmuş hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatının yaradılmasını və fəaliyyətini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün lazımi tədbirlər görsün.

**5.** Bu Fərmanın 1-ci hissəsi 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 31 yanvar 2023-cü il
№ 2008

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» və «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4,

maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD və 29 noyabr tarixli 641-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 32.5-ci maddədən «pul vəsaitlərini və ya digər» sözləri (hər iki halda) çıxarılsın;

**1.2.** 99-1.1.2-ci (hər üç halda), 99-1.1.3-cü və 99-8.2-ci maddələrdən «pul vəsaitləri və ya digər» sözləri çıxarılsın;

**1.3.** 193-1-ci maddə üzrə:

**1.3.1.** adından və 193-1.1-ci maddədən «pul vəsaitlərini və ya digər» sözləri çıxarılsın;

**1.3.2.** 193-1.1.1-ci maddədən «pul vəsaitləri və ya digər», «pul vəsaitlərinin və ya digər» və «pul vəsaitlərindən və ya digər» sözləri çıxarılsın;

**1.3.3.** 193-1.1.2-ci maddədən «pul vəsaitləri və ya digər» sözləri (hər iki halda) çıxarılsın;

**1.3.4.** 193-1.3.2-ci maddədə «külli» sözü «xeyli» sözü ilə əvəz edilsin;

**1.3.5.** «Qeyd» hissəsində «külli miqdar» dedikdə qırx beş» sözləri «xeyli miqdar» dedikdə əlli» sözləri ilə əvəz edilsin;

**1.4.** 194-cü maddə üzrə:

**1.4.1.** adından «pul vəsaitlərini və ya digər» sözləri çıxarılsın;

**1.4.2.** 194.1-ci maddədən «pul vəsaitləri və ya digər» sözləri çıxarılsın;

**1.5.** 202-ci maddəyə aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

**«Qeyd:** Kommersiya və ya bank sirri olan məlumatları «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına təqdim edən şəxsə bu Məcəllənin 202.2-ci maddəsinin qüvvəsi şamil edilmir.»;

**1.6.** 316-2-ci maddə üzrə:

**1.6.1.** adından «pul vəsaitlərinin və ya digər» sözləri çıxarılsın;

**1.6.2.** 316-2.1-ci maddədən «pul vəsaitlərinin və ya digər» sözləri çıxarılsın, həmin maddədə «leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər» sözləri «leqallaşdırılması ilə bağlı maliyyə monitorinqi orqanına məlumat və sənədlərin təqdim edilməsi, yaxud əməliyyatların icrasının dayandırılması» sözləri ilə və «məlumatların» sözü «məlumat və sənədlərin» sözləri ilə əvəz edilsin;

**1.6.3.** 316-2.2-ci maddədə «maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər» sözləri «maliyyələşdirilməsi ilə bağlı maliyyə monitorinqi orqanına məlumat və sənədlərin təqdim edilməsi, yaxud əməliyyatların icrasının dayandırılması» sözləri ilə və «məlumatların» sözləri «məlumat və sənədlərin» sözləri ilə əvəz edilsin;

**1.6.4.** aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

**«Qeyd:** Vəkil, notarius, rieltor, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən şəxs tərəfindən müştərini qeyri-qanuni fəaliyyətdən çəkindirmək məqsədilə onu və ya digər şəxsləri əməliyyatların icrasının dayandırılacağı və ya müvafiq məlumatların maliyyə monitorinqi orqanına təqdim ediləcəyi barədə məlumatlandırması hallarına bu Məcəllənin 316-2-ci maddəsinin qüvvəsi şamil edilmir.».

**Maddə 2**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 617-VIQD və 620-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 38.1-ci və 102.1-ci maddələrdən «pul vəsaitlərinin və ya digər» sözləri çıxarılsın;

**2.2.** 43.1-ci maddədən «(vəkillərə və auditor xidməti göstərən şəxslərə münasibətdə)» sözləri çıxarılsın;

**2.3.** 431-ci maddənin «Qeyd» hissəsinin mətni 1-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

**«2.** Kommersiya və ya bank sirri olan məlumatları «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına təqdim edən şəxsə bu maddənin qüvvəsi şamil edilmir.»;

**2.4.** 598-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 598. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması**

**598.1.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulmasına, yəni:

**598.1.1.** maliyyə institutları tərəfindən müştəri uyğunluğu tədbirlərinə, məlumat və sənədlərin saxlanılmasına və üçüncü şəxslərə güvənməyə dair tələblərə riayət olunmamasına, hər bir müştəriyə və əməliyyata görə;

**598.1.2.** maliyyə institutları tərəfindən daxili nəzarət proqramının tətbiq edilməməsinə, yaxud tam tətbiq edilməməsinə görə;

**598.1.3.** maliyyə monitorinqi orqanının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində verdiyi yazılı göstərişlərin maliyyə institutları tərəfindən vaxtında və ya tam icra edilməməsinə, hər bir yazılı göstərişə görə;

**598.1.4.** maliyyə institutları tərəfindən nəzarət orqanlarının fəaliyyətinə maneələrin yaradılmasına, o cümlədən sorğulara cavab verilməməsinə, tələb olunan məlumat və sənədlərin təqdim edilməməsinə, yanlış məlumat və sənədlərin verilməsinə (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olunmaqla) görə;

**598.1.5.** maliyyə institutları tərəfindən siyasi nüfuzlu şəxslər ilə bağlı tələblərə əməl edilməməsinə, hər bir siyasi nüfuzlu şəxsə və əməliyyata görə;

**598.1.6.** maliyyə institutları tərəfindən yeni texnologiyaların tətbiq edilməsinə dair tələblərin pozulmasına görə —

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan otuz min manatadək məbləğdə cərimə edilir.

**598.2.** Xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxsin öhdəlik daşıyan şəxslərlə işgüzar münasibətlər qurarkən xarici hüquqi təsisatın idarəçisi olduğunu bəyan etməməsinə görə —

fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxsləri iki min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər on iki min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.

**598.3.** Xarici ölkədə (ərazidə) təsis edilən (qeydiyyatdan keçən) hüquqi şəxsin kənar idarəçisi qismində çıxış edən şirkətin xidmət təminatçısının öhdəlik daşıyan şəxslərlə işgüzar münasibətlər qurması zamanı şirkətin xidmət təminatçısı qismində iştirak etdiyini bəyan etməməsinə və bununla əlaqədar zəruri bütün məlumat və sənədləri təqdim etməməsinə görə —

fiziki şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, vəzifəli şəxsləri iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.

**598.4.** Maliyyə institutları tərəfindən monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin təqdim edilməsi ilə bağlı «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin pozulmasına, hər bir əməliyyata görə —

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan otuz min manatadək məbləğdə cərimə edilir.

**598.5.** Maliyyə institutları tərəfindən əməliyyatların icra edilməməsinə dair «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin pozulmasına, hər bir əməliyyata görə —

vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

**598.6.** Maliyyə monitorinqi orqanının əməliyyatların dayandırılması barədə qərarının maliyyə institutları tərəfindən icra edilməməsinə, hər bir əməliyyata görə —

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə, hüquqi şəxslər qırx min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.

**598.7.** Bu Məcəllənin 598.1-ci və 598.4-cü maddələrində nəzərdə tutulmuş xətaların qeyri-maliyyə institutları və peşə sahibləri tərəfindən törədilməsinə görə —

vəzifəli şəxslər səkkiz yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

**598.8.** Dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə risklərin minimallaşdırılmasına yönəldilmiş qayda və prosedurlara malik olmamasına görə —

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.

**598.9.** Auditor xidməti göstərən şəxslər tərəfindən «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin təqdim edilməsi və ya məlumat və sənədlərin saxlanmasına dair tələblərə riayət olunmamasına, yaxud maliyyə monitorinqi orqanının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində maliyyə monitorinqi orqanının verdiyi yazılı göstərişlərin vaxtında və ya tam icra edilməməsinə, həmçinin nəzarət orqanlarının

fəaliyyətinə maneələrin yaradılmasına, sorğulara cavab verilməməsinə, tələb olunan məlumat və sənədlərin təqdim edilməməsinə, yanlış məlumat və sənədlərin verilməsinə görə —

vəzifəli şəxslər səkkiz yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

**598.10.** «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada aktivlərin dondurulması üzrə tədbirlərin görülməməsinə, hər bir fiziki şəxs və ya quruma görə —

vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.».

**Maddə 3**

Bu Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 30 dekabr 2022-ci il
№ 783-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 20-ci bəndlərini rəhbər tutaraq, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» və «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 233.1-ci maddədən «355-13.4-cü,» sözləri çıxarılsın;

**1.2.** 305.1.14-cü maddə və 40-4-cü fəsil ləğv edilsin.

**Maddə 2**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 642-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 132.1.2-ci maddədən «pul vəsaitləri və ya digər» sözləri (hər dörd halda) çıxarılsın;
**2.2.** 177-ci maddə üzrə:
**2.2.1.** 177.3.8-ci maddədən «pul vəsaitlərinin və ya digər» sözləri çıxarılsın;
**2.2.2.** 177.4.5-ci maddədən «pul vəsaitlərinin və ya digər» sözləri (hər iki halda) və «pul vəsaitləri və ya digər» sözləri çıxarılsın;
**2.3.** 248.3-cü maddənin ikinci cümləsində «vəsait» sözü «əmlak» sözü ilə əvəz edilsin və üçüncü cümləsindən «pul və ya» sözləri çıxarılsın;
**2.4.** aşağıdakı məzmunda LX fəsil əlavə edilsin:

**«LX fəsil. Terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi üzrə icraat**

**Maddə 526. Terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsinin ümumi şərtləri**

**526.1.** Bu Məcəllənin 526.2-ci maddəsində nəzərdə tutulmuş şəxslər və ya qurumlar bu Məcəllə ilə müəyyən edilmiş qaydada terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahısına (bundan sonra – ölkədaxili siyahıya) daxil edilərək onların «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq aktivləri dondurulur, həmin şəxslərin və qurumların aktivlər, iqtisadi resurslar və ya maliyyə və digər əlaqəli xidmətlərlə təmin edilməsi qadağan edilir.
**526.2.** Aşağıdakı fiziki şəxslər və qurumlar ölkədaxili siyahıya daxil edilirlər:
**526.2.1.** terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin törədilməsi, yaxud belə əməllərin törədilməsində hər hansı şəkildə iştirak etməsi və ya kömək göstərməsi, habelə həmin əməllərin törədilməsinə cəhd göstərməsi, terrorçu olması, terrorçu qrupun (dəstənin, təşkilatın) yaradılmasında və ya fəaliyyətində hər hansı formada iştirak etməsi ilə bağlı əsaslı şübhələr olan fiziki şəxslər və qurumlar;
**526.2.2.** bu Məcəllənin 526.2.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumlar;
**526.2.3.** bu Məcəllənin 526.2.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların adından, yaxud onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslər və qurumlar.
**526.3.** Fiziki şəxslər və qurumlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı əsasında məhkəmənin qərarı ilə ölkədaxili siyahıya daxil edilirlər.
**526.4.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təqdimatı Azərbaycan Respublikasının Baş Prokurorluğunun, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş nəzarət orqanlarının, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) və ya maliyyə monitorinqi orqanının əsaslandırılmış müraciəti, həmçinin xarici dövlətin səlahiyyətli orqanının sorğusu əsasında, habelə öz təşəbbüsü ilə verir.

**Maddə 527. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimatın məzmunu**

**527.1.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimatda aşağıdakılar göstərilməlidir:
**527.1.1.** onun tərtib edildiyi tarix, vaxt və yer;
**527.1.2.** onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;
**527.1.3.** cinayət işi olduğu halda, onun nə vaxt, kim tərəfindən və nə ilə əlaqədar başlandığı;
**527.1.4.** ölkədaxili siyahıya daxil edilmə üçün əsas hesab edilən törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlar;
**527.1.5.** fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsinin zəruriliyinin əsaslandırılması, ölkədaxili siyahıya daxil edilməsi üçün bu Məcəllənin 526.2-ci maddəsində nəzərdə tutulanlara aid olmasına dair məlumatlar;
**527.1.6.** fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi ilə hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmadığı;
**527.1.7.** fiziki şəxsin və ya qurumun dəqiq müəyyənləşdirilməsi üçün aşağıdakı eyniləşdirmə məlumatları:
**527.1.7.1.** fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, doğum tarixi, doğum yeri, milliyyəti, vətəndaşlığı, cinsi, məşğuliyyəti (peşəsi), yaşayış yeri və olduğu yer, əvvəlki yaşayış ünvanları, ümumvətəndaş pasportu və şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti, olduğu halda ləqəbləri, telefon nömrələri, elektron poçt ünvanları və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
**527.1.7.2.** hüquqi şəxslər üçün – adı, hüquqi ünvanı, törəmə hüquqi şəxsləri, filialları, nümayəndəlikləri, fəaliyyət sahəsi, sahibkarlıq fəaliyyət növü, rəhbərliyi, təsisçisi (təsisçiləri), vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, elektron poçt ünvanları, telefon nömrələri, əvvəlki adları və ya eyniləşdirmə məlumatları;
**527.1.8.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.
**527.2.** Təqdimata fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsinin zəruriliyini əsaslandıran sənədlər əlavə edilməlidir. Təqdim olunmuş məlumat və sənədlər kifayət etmədikdə, məhkəmə onların tamamlanmasını tələb etmək hüququna malikdir.

**527.3.** Fiziki şəxs və ya qurum xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahıya daxil edildikdə, sorğu edən dövlətin təqdim etdiyi məlumat və sənədlər (əsli və tərcüməsi) təqdimata əlavə edilməlidir.

**Maddə 528. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimata baxılması qaydası**

**528.1.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimata müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi tərəfindən, təqdimat məhkəməyə daxil olduqdan sonra 48 saat müddətində baxılır.

**528.2.** Məhkəmə iclasının vaxtı və yeri barədə təqdimat vermiş orqana (quruma), barəsində təqdimat verilmiş fiziki şəxsə və ya quruma, çıxarılacaq məhkəmə qərarının hüquq və mənafelərinə təsir göstərə biləcək digər maraqlı şəxslərə (onlar məlum olduqda), onların müdafiəçilərinə və ya qanuni nümayəndələrinə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verilməlidir. Barəsində təqdimat verilmiş fiziki şəxs və ya qurum, eləcə də maraqlı şəxs məhkəmə iclasında iştirak edə, habelə onların qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil vasitəsi ilə təmsil oluna bilərlər.

**528.3.** Təqdimata baxılma yeri və vaxtı barədə məlumatlandırılmış bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxsin və ya qurumun nümayəndəsinin məhkəmə iclasında iştirak etməməsi təqdimata baxılmasına mane olmur.

**528.4.** Məhkəmə təqdimatda göstərilən məlumatları təsdiq və ya təkzib edən şəxsi və ya qurumun nümayəndəsini dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir.

**528.5.** Məhkəmə təqdimatın təmin edilməsi və ya rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul edir. Qərar dərhal qüvvəyə minir.

**528.6.** Qərarın surəti elan edildiyi vaxtdan 3 gün müddətində bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxslərə və qurumlara göndərilir.

**528.7.** Bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxslər və qurumlar məhkəmənin qərarından, qərarın alındığı vaxtdan 10 gün müddətində apellyasiya şikayəti (protesti) və apellyasiya instansiyası məhkəməsinin qərarından eyni qaydada kassasiya şikayəti (protesti) verə bilərlər. Qərardan şikayət verilməsi onun icrasını dayandırmır.

**528.8.** Apellyasiya və kassasiya instansiyası məhkəmələrində müvafiq olaraq apellyasiya və kassasiya şikayətlərinə və ya protestlərinə bu maddədə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllədə müəyyən edilmiş ümumi qaydada baxılır.

**528.9.** Təqdimatın təmin edilməsi barədə qərar «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsi ilə müəyyən edilmiş qaydada icra edilir və barəsində qərar qəbul edilmiş fiziki şəxs və ya qurum məlumatlandırılır.

**Maddə 529. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması**

**529.1.** Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı və ya siyahıya daxil edilmiş fiziki şəxsin və ya qurumun, habelə həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxsin müraciəti əsasında ölkədaxili siyahıya daxil edilmə barədə qərarı qəbul etmiş müvafiq məhkəmənin qərarı ilə fiziki şəxs və ya qurum ölkədaxili siyahıdan çıxarılır.

**529.2.** Ölkədaxili siyahıdan çıxarılma barədə təqdimatda və ya müraciətdə aşağıdakılar göstərilir:

**529.2.1.** onun tərtib edildiyi tarix, vaxt və yer;

**529.2.2.** onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

**529.2.3.** siyahıdan çıxarılacaq fiziki şəxsin və ya qurumun eyniləşdirmə məlumatları;

**529.2.4.** ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən məlumat;

**529.2.5.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.

**529.3.** Təqdimat və ya müraciətə ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən sənədlər, təqdimata isə həmçinin ölkədaxili siyahıya daxil edilmə barədə qərarın surəti əlavə edilir. Fiziki şəxs və ya qurum xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahıya daxil edilibsə, sorğu göndərən dövlətin fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması ilə bağlı sorğusu da təqdimata əlavə edilir.

**529.4.** Ölkədaxili siyahıdan çıxarılma barədə təqdimat və ya müraciətə bu Məcəllənin 528-ci maddəsində müəyyən edilmiş qaydada baxılır.

**Maddə 530. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi və ya ölkədaxili siyahıdan çıxarılması barədə təkrar təqdimat və təkrar müraciətlərə baxılması**

Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi və ya ölkədaxili siyahıdan çıxarılması barədə təqdimat və ya müraciətin təmin edilməməsi barədə hakim tərəfindən qərar çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq ölkədaxili siyahıya daxil edilmənin və ya ölkədaxili siyahıdan çıxarılmanın zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir.».

**Maddə 3**

Bu Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

Bakı şəhəri, 30 dekabr 2022-ci il
№ 784-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Elektron məhkəmə» informasiya sistemi haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685; 2022, № 5, maddə 444) ilə təsdiq edilmiş «Elektron məhkəmə» informasiya sistemi haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bəndə «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi,» sözlərindən sonra «Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi,» sözləri əlavə edilsin.

**2.** 6.1.12-ci yarımbəndə «icraatın» sözündən sonra «, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə dair işlər üzrə məhkəmə icraatının» sözləri əlavə edilsin.

**3.** 6.1.17-ci yarımbəndə «mübahisələrinə» sözündən sonra «, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə» sözləri əlavə edilsin.

**4.** 13.6-cı bəndə «10-1.2-ci» sözlərindən sonra «, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 9-1.2-ci» sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 7 fevral 2023-cü il
№ 2033

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 13 nömrəli Protokolunu imzalamaq səlahiyyətinin verilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 1101-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

**1.** «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 13 nömrəli Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin Nəcəf oğlu İsmayılova verilsin.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin Nəcəf oğlu İsmayılova verildiyi barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 3 fevral 2023-cü il
№ 3737

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı" (bundan sonra – Milli Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

**2.** Milli Fəaliyyət Planında icraçı qismində nəzərdə tutulmuş mərkəzi icra hakimiyyəti orqanlarına, publik hüquqi şəxslərə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə tapşırılsın, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının Auditorlar Palatasına və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına isə tövsiyə edilsin ki:

**2.1.** Milli Fəaliyyət Planının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq yaradılan Koordinasiya Şurasına (bundan sonra – Koordinasiya Şurası) və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına göndərsinlər;

**2.2.** Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası barədə hər il yanvarın 31-dək Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim etsinlər.

**3.** Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına və Koordinasiya Şurasına tövsiyə edilsin ki, Milli Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini birgə təhlil edib bu barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**4.** Koordinasiya Şurasına tövsiyə edilsin ki, Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Milli Fəaliyyət Planından irəli gələn digər zəruri tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2023-cü il
№3770

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin «cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilmə» ilə bağlı müddəasının şərh edilməsinə dair

**28 dekabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur

qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin «cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilmə» ilə bağlı müddəasının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimi C.Hüseynin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri M.Mustafayev və V.Babayevin mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S.Rzayevanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, İ.Əhmədovaya Cinayət Məcəlləsinin 178.2.2 və 178.2.4-cü maddələri ilə ittiham irəli sürülmüş, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 29 aprel 2022-ci il tarixli qərarına əsasən barəsində cinayət təqibinə Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsinə əsasən xitam verilmiş və o, cinayət məsuliyyətindən azad edilmişdir.

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin qərarından Azərbaycan Respublikası Baş Prokurorunun müavini tərəfindən apellyasiya protesti verilmiş və protest belə əsaslandırılmışdır ki, məhkəmə təqsirləndirilən şəxsin əvvəllər Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad edilməsini nəzərə almamışdır.

Belə ki, İ.Əhmədova 2019-cu ilin sentyabr ayında törətmiş olduğu əməllərə görə Sumqayıt Şəhər Məhkəməsinin 19 avqust 2021-ci il tarixli qərarı ilə Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad edilmişdir. Eyni zamanda Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin 25 fevral 2022-ci il tarixli hökmü ilə 2019-cu ilin avqust, 2021-ci ilin may aylarında törətdiyi dələduzluq cinayətlərinə görə təqsirli bilinərək ona azadlığın məhdudlaşdırılması cəzası təyin edilmişdir. Hazırkı iş üzrə onun törətdiyi əməllər 2020-ci ilin yanvar və aprel aylarına təsadüf etməklə, Sumqayıt Şəhər Məhkəməsinin və Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin müvafiq aktları çıxarılmamışdan əvvəl törədilmişdir.

Müraciətdə göstərilmişdir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin tələbinə görə, şəxs bu Məcəllənin 72–73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.

Cinayət işinə baxılması zamanı həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada yalnız bir dəfə cinayət məsuliyyətindən azad edilmə ilə bağlı formalaşmış təcrübə nəzərdən keçirilərkən fərqli mövqelərin olduğu müəyyən edilmişdir.

Belə ki, mübahisə doğuran məsələ şəxsin Cinayət Məcəlləsinin 11-ci fəslində təsbit edilmiş maddələrdə nəzərdə tutulmuş bir neçə əsasla məsuliyyətdən azad edilməsinin, yəni bir dəfə Cinayət Məcəlləsinin 73-1.1-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad edilmiş şəxsin, sonradan həmin Məcəllənin 73-1.2-ci maddəsi ilə yenidən məsuliyyətdən azad edilməsinin mümkün olub-olmaması ilə bağlıdır.

Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin şəxsin müvafiq qaydada məsuliyyətdən yalnız bir dəfə azad olunması ilə bağlı tələbin Cinayət Məcəlləsinin 11-ci fəslində təsbit edilmiş hər hansı bir əsasla əvvəl cinayət məsuliyyətindən azad edilmiş şəxsin sonradan həmin fəsildə nəzərdə tutulmuş başqa bir əsasla məsuliyyətdən azad edilməsini ehtiva edib-etməməsi, yəni bir dəfə Cinayət Məcəlləsinin 72-ci maddəsinə əsasən səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad edilmiş şəxsin sonradan mülkiyyət əleyhinə olan cinayətlərə görə yenidən Məcəllənin 73-1-ci maddəsinə əsasən məsuliyyətdən azad edilməsinin mümkünlüyü ilə bağlı da fərqli yanaşmalar müşahidə olunmaqdadır.

Müraciətedən həmçinin qeyd edir ki, şəxsin Cinayət Məcəlləsinin 11-ci fəslində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən azad edilənədək törətdiyi, lakin sonradan aşkar edilmiş əməllərə görə yenidən cinayət məsuliyyətindən azad edilməsinin mümkün olub-olmaması ilə əlaqədar hüquq tətbiqedənlər arasında müxtəlif mövqelər vardır.

Göstərilənlərə əsasən Bakı Apellyasiya Məhkəməsi vahid təcrübənin formalaşdırılmasına və qüvvədə olan qanunvericiliyin eyni qaydada tətbiq edilməsinə nail olmaq, bununla da hüquqi müəyyənlik prinsipinin tələblərinin təmin edilməsi məqsədi ilə Konstitusiya Məhkəməsinə müraciət edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

«Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun normativ hüquqi aktların rəsmi şərh edilməsi qaydası adlanan 90.2-ci maddəsinə əsasən, normativ hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir.

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında dəfələrlə qeyd etmişdir ki, məhkəmə təcrübəsində normativ hüquqi aktların müddəaları onların konstitusiya hüquqi mənasına uyğun tətbiq olunmalıdır («M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair» 2014-cü il 29 aprel və «Azərbaycan Respublikası İnzibati Xətalar Mə-

cəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair» 2021-ci il 11 noyabr tarixli Qərarlar).

Bu hüquqi mövqeyin davamı olaraq qeyd olunmalıdır ki, normanın mümkün olan bütün təfsiri variantları sırasından məhkəmələr yalnız konstitusiyaya uyğun olana üstünlük verməlidirlər. Əgər normanın təfsiri konstitusion norma və prinsiplərin pozulmasına gətirib çıxararsa, onun konkret işə tətbiq olunması yolverilməzdir. Məhkəmə təcrübəsi, yalnız normanın konstitusion tələblərə uyğun gələn məzmununun müəyyənləşdirilməsinə imkan verən, hamı tərəfindən qəbul edilmiş qaydalara uyğun aparılmış təfsirinə əsaslanmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-cü maddəsinin Qeyd hissəsinin və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» 2022-ci il 9 mart tarixli Qərarı).

Buna görə də Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələlərin həlli ilə əlaqədar, ilk növbədə, cinayət məsuliyyəti və məsuliyyətdən azad etmə institutlarının mahiyyəti, həmçinin Cinayət Məcəlləsinə əlavə olunmuş və şərhi tələb edilən 72-ci maddənin «Qeyd» hissəsinin tənzimləmədə rolu, hüquqi təyinatı və digər maddələrlə funksional əlaqəsi haqqında aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Cinayət törətmiş şəxsin dövlət məcburetmə tədbirlərinə məruz qalmalı olması cinayət qanunvericiliyinin ümumi qəbul olunmuş yanaşmasıdır. Cinayət məsuliyyəti cinayət törətmiş şəxsin dövlət adından mühakimə edilməsini, təqsiri müəyyən edilmiş şəxslərə cəza və digər dövlət-məcburiyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur ki, bu da ictimai münasibətlərin qorunmasında, cinayətlərin qarşısının alınmasında, cəmiyyət üzvlərinə çəkindirici təsirin göstərilməsində mühüm vasitə rolunu oynayır.

Bununla belə qanunla nəzərdə tutulan bir sıra hallarda şəxsin cinayət məsuliyyətindən azad edilməsi mümkündür. Cinayət məsuliyyətindən azad etmə təqsirləndirilən şəxsi məhkəmənin ittiham hökmündən və dövlət-məcburiyyət tədbirlərinin təsirinə məruz qalmaq vəzifəsindən azad etmək barədə səlahiyyətli dövlət orqanının rəsmi aktında ifadə edilmiş qərardır.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 11-ci fəslinə 2017-ci il 20 oktyabr tarixli Qanunla dəyişiklik edilənədək cinayət məsuliyyətindən azad etmə Məcəllənin 72-ci (səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə), 73-cü (zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə), 74-cü (şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) və 75-ci (müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) maddələri ilə tənzimlənirdi və müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə istisna olmaqla, həmin maddələrlə məsuliyyətdən azad etmə yalnız ilk dəfə böyük ictimai təhlükə törətməyən (şəraitin dəyişməsi ilə bağlı, həmçinin az ağır) cinayət törətmiş şəxslərə tətbiq edilirdi.

Cinayət qanunvericiliyinə edilmiş qeyd edilən dəyişikliklərlə Cinayət Məcəlləsinin 11-ci fəslinə məsuliyyətdən azad etmənin yeni şərtlərini tənzimləyən 73-1 (mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə), 73-2 (iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə) və 74-1-ci (narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə) maddələri əlavə edilmiş, o cümlədən həmin Qanunla Məcəllənin 72, 73, 74-cü maddələrindən «ilk dəfə» sözləri çıxarılmış, 72-ci maddəsinə «Qeyd» hissəsi əlavə edilmişdir. «Qeyd» hissəsinin 1-ci bəndində göstərilmişdir ki, şəxs bu Məcəllənin 72–73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.

Göründüyü kimi, qanunverici şəxsin cinayət məsuliyyətindən azad olunması ilə bağlı müvafiq müddəalardan cinayətin ilk dəfə törədilmiş olması tələbini çıxararaq, cinayət məsuliyyətindən azad etmənin «yalnız bir dəfə» tətbiq oluna bildiyini təsbit etmişdir.

Bu dəyişikliklərin səbəbi ondan ibarət olmuşdur ki, əvvəllər törədilmiş cinayətə görə cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən yenidən eyni və ya başqa cinayətlərin törədilməsi Cinayət Məcəlləsinin 16, 17 və 18-ci maddələrinin tələblərinə əsasən nə təkrarlığı, nə cinayətlərin məcmusunu, nə də residivi yaratdığından, həmin əməllər ilk dəfə törədilmiş hesab edilməklə şəxsin təkrar-təkrar məsuliyyətdən azad edilməsini mümkün edirdi.

Qanunverici tərəfindən Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndi ilə məhdudiyyətin tətbiq edilməsi, yəni şəxsin müvafiq qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilə bilməsinin müəyyənləşdirilməsi şəxsin məhdudiyyətsiz şəkildə məsuliyyətdən azad edilməsinin qarşısını alır ki, burada da məqsəd cəmiyyətdə cəzasızlıq və məsuliyyətdən yayınmağın mümkünlüyü hissinin yaranmasının qarşısını almaq, məsuliyyətdən azad etmə institutunun tətbiqi zamanı Cinayət Məcəlləsinin qarşısında duran vəzifələrə mütənasibliyi qoruyub saxlamaqdır.

Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki qərarlarında da göstərilmişdir ki, cinayət məsuliyyətindən azad etməni o zaman əsaslandırılmış və ədalətli hesab etmək olar ki, cinayət törətdikdən sonra təqsirləndirilən şəxsin cəza təyin edilmədən azad edilməsi şəxsin hüquq və azadlıqlarının, bütün hüquq qaydalarının cinayətkar qəsddən müdafiəsinə maneə olmur və bununla yanaşı təqsirkar şəxsin islah olunmasına, yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yardımçı, cinayət qanunvericiliyinin vəzifələrinə isə müvafiq olur və cəzanı tətbiq etmədən də onun məqsədlərinə nail olmağa imkan verir («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin şərh edilməsinə dair» 2022-ci il 25 iyul tarixli Qərar).

Qeyd edilməlidir ki, cinayət məsuliyyətindən azad etmə dövlət adından mühakimə edilməməsi və barəsində ittihamedici hökm çıxarılmaması ilə əlaqədar təqsirləndirilən şəxs üçün tanınan imkandır. Lakin şəxs barəsində cinayət mühakiməsinin aparılmasından müxtəlif əsaslarla və dəfələrlə imtina edilməsi, həmçinin yalnız bir dəfə deyil, dəfələrlə cinayət törətmiş şəxsə münasibətdə məsuliyyətdən azad etmənin tətbiq edilməsi Cinayət Məcəlləsinin 2.1-ci maddəsi ilə müəyyən edilən cinayətlərin qarşısını almaqla bağlı Cinayət Məcəlləsinin vəzifəsinə və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 8-ci maddəsi ilə müəyyən edilən şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq, cinayət törətmiş şəxsləri ifşa və ci-

nayət məsuliyyətinə cəlb etmək, cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədi ilə ədalət mühakiməsini həyata keçirmək kimi cinayət mühakimə icraatının vəzifələrinə uyğun gəlməməklə bərabər, yuxarıda qeyd olunduğu kimi, digər şəxslərdə cəzasızlıq və məsuliyyətdən yayınmağın mümkünlüyü hissinin yaranması, eyni zamanda sosial ədalətin pozulması ilə nəticələnə bilər.

Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki qərarlarında da ifadə olunmuş hüquqi mövqeyə əsasən, ibtidai araşdırmanın gedişində bir neçə cinayət əməlinin törədilməsinə dair güclü əsaslı şübhələrin müəyyən edilməsinə baxmayaraq, təqsirsizlik prezumpsiyasına əsaslanmaqla bu cinayətlərdən heç olmasa biri üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmünün çıxarılmamasına istinadən əməlin ilk dəfə törədilmiş hesab olunması, cinayətlərin təkrar törədilməsinin və ya cinayətlərin məcmusunun yaranmasının obyektiv həqiqət kimi inkarına gətirib çıxara bilər («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72, 73 və 74-cü maddələrində nəzərdə tutulmuş «ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs» anlayışının şərh edilməsinə dair» 2009-cu 25 dekabr il tarixli Qərar).

Belə ki, qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən yenidən cinayət əməlinin törədilməsi cinayətin ilk dəfə törədilməsi hesab edilməməlidir. Çünki əməli ilk dəfə törətmiş şəxs qanunvericiliklə müəyyənləşdirilmiş şərtləri yerinə yetirdiyi halda artıq ictimai təhlükəli olmadığını ifadə etməklə, cinayət məsuliyyətinə cəlb edilmədən də onun belə davranışlardan çəkinməsinə, islah olunmasına nail olmaq mümkün olur. Lakin şəxsin bir neçə cinayət əməlinin törədilməsində və ya eyni əməli bir neçə dəfə törətməsində təqsirləndirilməsi artıq həmin şəxsin şəxsiyyətinin yüksək ictimai təhlükəliliyinə dəlalət edir. Bu kimi hallarda şəxsi cinayət məsuliyyətindən azad etmək, yəni onu dövlət adından mühakimə etməmək, hüquq qaydalarının qorunmasına mane olmaqla və şəxsin təkrar cinayət törətməsinə imkan yaratmaqla bərabər, cinayət qanunvericiliyinin qarşısında duran vəzifələrin həllinə imkan verməmiş olar.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinin məzmunu kifayət qədər aydın və birmənalı olmaqla, imperativ qaydada Məcəllənin 72–73-2 və 74-1-ci maddələri ilə nəzərdə tutulmuş əsaslar üzrə mühakimə olunmaqdan ümumilikdə yalnız bir dəfə azad edilmənin mümkünlüyünü müəyyən etmişdir.

Həmçinin göstərilməlidir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə uyğun olaraq cinayət məsuliyyətindən azad edildikdən sonra yenidən cinayət törətmiş şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi, zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi, cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması, cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi Cinayət Məcəlləsinin 59-cu maddəsinə müvafiq olaraq cəzanı yüngülləşdirən hallar qismində cəza təyini cəzanın növünün və həddinin seçilməsi zamanı nəzərə alına bilər.

Müraciətdə qaldırılan digər məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu vurğulamağı zəruri hesab edir ki, cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək cinayət mühakimə icraatının vəzifələridir (Cinayət-Prosessual Məcəlləsinin 8-ci maddəsi).

Bu baxımdan əgər şəxsin törətdiyi cinayət əməllərinin hər biri onun törətmiş olduğu cinayət əməllərindən hər hansı birinə görə cinayət məsuliyyətindən azad edilməsindən əvvəl aşkar olunmuş olsaydı, bu, işin hallarından asılı olaraq Cinayət Məcəlləsinin 16 və 17-ci maddələrinə əsasən təkrarlıq və ya cinayətlərin məcmusunu yaradardı. Bu isə şəxsin qanunvericiliklə məsuliyyətdən azad edilmənin mümkün olduğu halda cinayət məsuliyyətindən azad edilməsinə imkan vermiş olardı. Lakin şəxsin cinayət məsuliyyətindən azad edildikdən sonra həmin ana qədər törətdiyi digər cinayət əməli ilə bağlı icraatda artıq bir dəfə cinayət məsuliyyətindən azad edilmiş şəxs kimi qiymətləndirilməsi onun vəziyyətini ağırlaşdırmaqla, cinayət qanunvericiliyinin prinsiplərinin pozulmasına gətirib çıxarar.

Nəzərə alınmalıdır ki, qanun və məhkəmə qarşısında bərabərlik və qanunçuluq prinsiplərinin təmin edilməsi yalnız cinayət hüquq normalarının bütün hüquqtətbiqedən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Hüquqtətbiqedici tərəfindən mübahisə doğurmayan qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinin pozulmasına səbəb olmaqla, cinayət qanunvericiliyinin vəzifələrinin icrasının mümkünsüzlüyünə gətirib çıxara bilər.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə uyğun olaraq həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələri ilə cinayət məsuliyyətindən azad edilmiş şəxsin həmin anadək törətmiş olduğu digər cinayətləri aşkar edildiyi halda, barəsində cinayət məsuliyyətindən azad etmənin tətbiqi mümkündür.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə əsasən, şəxs həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələri üzrə ümumilikdə yalnız bir dəfə cinayət məsuliyyətindən azad edilə bilər.

Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə uyğun olaraq cinayət məsuliyyətindən bir dəfə azad edilmiş şəxs tərəfindən yenidən cinayət törədildiyi təqdirdə, onun cinayət məsuliyyətindən azad edilmə üçün zəruri olan hərəkətləri icra etməsi Məcəllənin 59-cu maddəsinə müvafiq olaraq cəzanı yüngülləşdirən hallar kimi nəzərə alına bilər;

Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndi həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələri ilə cinayət məsuliyyətindən azad edilmiş şəxsin məsuliyyətdən azad edilənədək törətmiş olduğu digər cinayət

əməlinə görə cinayət məsuliyyətindən azad olunmasının mümkünlüyünü istisna etmir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə əsasən, şəxs həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələri üzrə ümumilikdə yalnız bir dəfə cinayət məsuliyyətindən azad edilə bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndinə uyğun olaraq cinayət məsuliyyətindən bir dəfə azad edilmiş şəxs tərəfindən yenidən cinayət törədildiyi təqdirdə, onun cinayət məsuliyyətindən azad edilmə üçün zəruri olan hərəkətləri icra etməsi Məcəllənin 59-cu maddəsinə müvafiq olaraq cəzanı yüngülləşdirən hallar kimi nəzərə alına bilər.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 1-ci bəndi həmin Məcəllənin 72–73-2 və 74-1-ci maddələri ilə cinayət məsuliyyətindən azad edilmiş şəxsin məsuliyyətdən azad edilənədək törətmiş olduğu digər cinayət əməlinə görə cinayət məsuliyyətindən azad olunmasının mümkünlüyünü istisna etmir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun QƏRARI

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinin həmin Məcəllənin 73-1.2 və 73-1.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**29 yanvar 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinin həmin Məcəllənin 73-1.2 və 73-1.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin sədri N.Quliyevin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi Z.Şirinovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60 və 71-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 72-ci maddəsinin «Qeyd» hissəsinin 2 və 3-cü bəndlərinin həmin Məcəllənin 73-1.2 və 73-1.3-cü maddələri ilə əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Mingəçevir Şəhər Məhkəməsinin 22 iyun 2022-ci il tarixli hökmü ilə R.Musayev Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2 və 178.2.4-cü maddələrində

nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək 1 il 11 ay 27 gün müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Hökmə əsasən, R.Musayev etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə tanışı R.Mustafayevin etibarından sui-istifadə edib onun 3 000 manat məbləğdə pulunu alıb ələ keçirərək zərərçəkmiş şəxsə maddi ziyan vurmaqla dələduzluq etmişdir. Bundan başqa, o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə tanışı R.Hüseynovla qabaqcadan əlbir olan bir qrup şəxs halında A.Paşayevin etibarından sui-istifadə edib onun 10 000 manat məbləğində pulunu alaraq, qabaqcadan aralarında olan razılığa əsasən həmin pulun 5 000 manatını R.Hüseynova verərək, qalan 5 000 manatını isə özü ələ keçirərək zərərçəkmiş şəxs A.Paşayevə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etmişdir.

R.Musayev apellyasiya şikayəti verərək Mingəçevir Şəhər Məhkəməsinin hökmünün dəyişdirilməsini və ona təyin edilmiş cəzanın yüngülləşdirilməsini xahiş etmişdir.

Apellyasiya instansiyası məhkəməsində cinayət işinə baxılarkən müəyyən edilmişdir ki, R.Musayev etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə almış olduğu 10 000 manat məbləğdə pulun özünə düşən pay hissəsini, yəni 5 000 manatı zərərçəkmiş şəxsə ödəmiş, qrupun digər üzvü olan R.Hüseynov isə öz payına düşən 5 000 manat ziyanı ödəməmişdir.

Cinayət işinə apellyasiya qaydasında baxılması üzrə məhkəmə iclasının gedişində müdafiə tərəfi R.Musayevin ümumilikdə hazırkı cinayət işi üzrə onun payına düşən ziyanın, yəni 8 000 manatın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etdiyini bildirərək onun cinayət məsuliyyətindən azad olunması haqqında qərarın çıxarılmasını xahiş etmişdir.

Müraciətdə bununla bağlı qeyd edilmişdir ki, R.Musayev tərəfindən hər iki epizod üzrə onun payına düşən ziyanın, yəni 8 000 manatın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş edilmiş olsa da, cinayət nəticəsində vurulmuş ümumi ziyanın (yəni 13 000 manatın) iyirmi beş faizi miqdarında ödəniş dövlət büdcəsinə tam şəkildə ödənilmədiyi halda şəxsin məsuliyyətdən azad edilməsinin mümkünlüyü barədə təcrübədə qeyri-müəyyənlik mövcuddur.

Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsinin tələbinə əsasən, bu Məcəllənin 178.2, 179.2, 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

Göstərilənlərə əsasən müraciətedən hüquq tətbiqetmə təcrübəsindəki qeyri-müəyyənliyin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və bununla da hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə müraciət edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd edir.

Cinayət Məcəlləsinin vəzifələrindən bəhs edən 2-ci maddəsinə görə, Məcəllənin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət qanununun əsas institutlarından biri olan cinayət məsuliyyətindən azad etmə Məcəllənin 11-ci fəslində müəyyən edilmişdir.

Cinayət qanununun vəzifələrinin yerinə yetirilməsi baxımından dairəsi konkret göstərilmiş və ya müəyyən kateqoriya cinayətlər üzrə şəxsin cinayət törətdikdən sonrakı davranışına müvafiq olaraq qanunvericilikdə onun məsuliyyətdən azad edilməsi imkanı nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 72 – 73-2-ci maddələrində şəxsin cinayət məsuliyyətindən azad edilməsinin mümkünlüyünü nəzərdə tutan və belə azadetmənin şərti kimi şəxsin cinayət nəticəsində dəymiş ziyanı ödəməsini, zərərçəkmişlə barışmasını və müvafiq olaraq dövlət büdcəsinə ödəniş etməsini müəyyən edən hüquqi tənzimetmə cinayət məsuliyyətinin və cəzanın diferensiallaşdırılması, onların islahedici təsirinin gücləndirilməsi, yeni cinayətlərin törədilməsinin qarşısının alınması, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi və son nəticədə şəxsiyyətin, cəmiyyət və dövlətin cinayətkar qəsdlərdən qorunması kimi konstitusiya əhəmiyyətli məqsədlərə nail olmağa yönəlmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında cinayət məsuliyyətindən azad etmənin əsasları ilə bağlı izahlar verilmiş, o cümlədən «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin şərh edilməsinə dair» 2022-ci il 25 iyul tarixli Qərarında qeyd edilmişdir ki, cinayət törətmiş şəxsin dövlət məcburetmə tədbirlərinə məruz qalmalı olması cinayət qanunvericiliyinin ümumi qəbul olunmuş yanaşmasıdır. Bu zaman cinayətlərin törədilməsinin qarşısını alan ən təsirli vasitə cəzanın ağırlığı deyil, onun qaçılmazlığıdır (ubi culpa est, ibi poena subesse debet). Bununla yanaşı qanunla nəzərdə tutulan bir sıra hallarda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Müasir cinayət ədalət mühakiməsi sisteminin fərqləndirici xüsusiyyəti cinayət məsuliyyətindən azad etmənin həm məhkəməyədək mərhələdə, həm də məhkəmə icraatı mərhələsində mümkün olması, bununla da cinayət təqibinə xitam verilməsilə əlaqədar cinayət işlərinin sayının azalmasıdır. Həmin institutun həyata keçirilməsinin fərqli ölkələrdə müxtəlif prosedurlarının olmasına baxmayaraq, hüquqi mahiyyəti hər yerdə eyni qalır – prosessual qanunvericilikdə nəzərdə tutulmuş hallarda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilir.

Qərarda həmçinin qeyd olunmuşdur ki, cinayət məsuliyyətindən azad etmənin şərti kimi cinayət törətmiş şəxsin zərərçəkmiş şəxslə barışığı çərçivəsində həm dəymiş maddi zərərin əvəzinin (məsələn, oğurlanmış, zədələnmiş

əmlakın qaytarılması və ya onun dəyəri miqdarında pul kompensasiyasının) ödənilməsi, həm də dəymiş mənəvi zərərin əvəzi olaraq müəyyən kompensasiyanın ödənilməsi nəzərdə tutulur.

Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin mətnindən göründüyü kimi, dəymiş zərərin ödənilməsi cinayət məsuliyyətindən azad edilmənin vacib şərtlərindən biridir.

Həmin maddələrdə nəzərdə tutulmuş zərərin ödənilməsi dedikdə, zərərin əvəzinin ödənilməsi ilə yanaşı, həmçinin cinayət nəticəsində zərərçəkmiş şəxsin pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpa edilməsinə yönəlmiş sair tədbirlər başa düşülməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd olunan Qərarında belə nəticəyə gəlmişdir ki, Cinayət Məcəlləsinin 73.2-ci maddəsi imperativ norma olmaqla, həmin maddədə sadalanan cinayət əməlini (əməllərini) törətmiş şəxsin zərərçəkmiş şəxslə barışması, həmçinin ona dəymiş ziyanı tamamilə ödəməsi onun cinayət məsuliyyətindən azad edilməsi üçün şərtsiz əsasdır.

Eyni zamanda «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair» 2011-ci il 15 iyul tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 73-cü maddəsində nəzərdə tutulmuş zərərçəkmiş şəxslə barışmaqla əlaqədar cinayət məsuliyyətindən azad etmə institutu ilə bağlı göstərmişdir ki, Cinayət Məcəlləsinin 73-cü maddəsi cinayət təqibinə xitam verilməsinin aşağıdakı şərtlərini müəyyən etmişdir:

– barəsində cinayət təqibi başlanmış şəxsin əməli böyük ictimai təhlükə törətməyən;

– təqsirləndirilən şəxs zərərçəkmişə dəymiş ziyanı ödəmiş və ya vurulmuş zərəri aradan qaldırmış;

– təqsirləndirilən şəxs zərərçəkmişlə barışmış olmalıdır.

Göstərilən şərtlərin hamısı mövcud olduqda, təqsirləndirilən şəxs cinayət məsuliyyətindən azad oluna bilər.

Qeyd olunmalıdır ki, «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» 2017-ci il 20 oktyabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinin 11-ci fəslinə mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan 73-1-ci maddə əlavə edilmişdir.

Belə ki, Məcəllənin 73-1.1-ci maddəsinə əsasən, həmin Məcəllənin 178.1, 179.1, 185.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə, 73-1.2-ci maddəsinə görə isə həmin Məcəllənin 178.2, 179.2, 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

Məcəllənin 73-1.3-cü maddəsinə müvafiq olaraq, Cinayət Məcəlləsinin 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilə bilər.

Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinin tələbinə görə, həmin Məcəllənin 72 – 73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda, zərərçəkmiş şəxsə dəymiş ziyan və bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulan dövlət büdcəsinə ödəniş cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə ödənilir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 40.5-ci maddəsinin tələbinə görə, Cinayət Məcəlləsinin 72 – 73-2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməlləri iştirakçılıqla törədildiyi hallarda, həmin Məcəllənin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinə əsasən zərərçəkmiş şəxsə dəymiş ziyan və dövlət büdcəsinə ödənişin iştirakçıların hər biri tərəfindən müəyyən pay üzrə ödənilməsi məhkəməyədək icraat zamanı təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarı, məhkəmə icraatı zamanı isə məhkəmənin qərarı ilə həll olunur.

Göründüyü kimi, Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələri müvafiq olaraq Cinayət Məcəlləsinin 178.2, 179.2, 186.2.1. 189-1.2-1, 178.3, 178.4, 179.3, 179.4-cü maddələrində göstərilən cinayətləri törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi şərtlərini təsbit edirsə, Məcəllənin 72-ci maddəsinin "Qeyd» hissəsinin 2-ci bəndi həmin cinayətlər iştirakçılıqla törədildiyi halda bu şərtlərin nə cür tətbiq edilməli olduğunu nəzərdə tutur.

Qeyd olunan normaların təhlili onu deməyə əsas verir ki, Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində göstərilən cinayətlər iştirakçılıqla törədildiyi halda hər bir iştirakçı vurulmuş ziyanı və dövlət büdcəsinə ödənişi Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinin tələbinə uyğun olaraq müəyyən edilən pay üzrə tamamilə ödəməlidir.

Bu o deməkdir ki, iştirakçılıqla törədilən Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində göstərilən cinayətlər üzrə vurulmuş ziyanın və dövlət büdcəsinə ziyanın müvafiq olaraq iyirmi beş və ya əlli faizi məbləğlərində ödənişin tamamilə ödənilməsi dedikdə, məhz hər bir iştirakçı üçün müvafiq qaydada müəyyən edilmiş payı təşkil edən məbləğin zərərçəkmiş şəxsə və dövlət büdcəsinə tamamilə ödənilməsi ehtiva olunur. Yəni paylar müəyyən edildikdən sonra cinayətin hər bir iştirakçısının üzərinə zərərçəkmiş şəxsə və dövlət büdcəsinə ödənişlərin məhz onun payına müvafiq olan hissənin edilməsi vəzifəsi düşür.

Həmçinin Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində cinayət məsuliyyətindən azad etmənin şərtləri qismində müəyyən edilmiş hallar onu göstərir ki, cinayət məsuliyyətindən azad etmə fərdi qaydada, ictimai-təhlükəli əməli törətmiş hər bir şəxsin cinayət prosesində nümayiş etdirdiyi davranışdan asılı olaraq tətbiq edilən, Məcəllənin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndi, 73-1.2 və 73-1.3-cü maddələrinə uyğun müsbət davranış göstərən (yəni müəyyən edilmiş pay üzrə ziyanı və ziyanın müvafiq faizi miqdarında dövlət büdcəsinə ödənişi etməklə zərərçəkmiş şəxslə barışıq əldə edən) təqsirləndirilən şəxsi belə davranış göstərməyən təqsirləndirilən şəxslərdən fərqləndirməyə xidmət edən güzəşt institutu kimi nəzərdə tutulmuşdur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 73 – 73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda zərərçəkmiş şəxslə barışmış, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq müəyyən olunmuş pay üzrə zərərçəkmiş şəxsə dəymiş ziyanı tamamilə ödəmiş, o cümlədən Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydada cinayət nəticəsində vurulmuş ziyana müvafiq müəyyən olunmuş payın iyirmi beş faizi, həmin Məcəllənin 73-1.3-cü maddəsində nəzərdə tutulmuş halda isə vurulmuş ziyana müvafiq payın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Oxşar yanaşma Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 2015-ci il 11 iyun tarixli Qərarında da öz əksini tapmışdır. Həmin Qərarın 40-cı bəndinə görə, dələduzluq cinayəti iştirakçılıqla törədildiyi hallarda ziyan və büdcəyə ödənişlər Cinayət Məcəlləsinin 72-ci maddəsinin «Qeyd» hissəsinin 2-ci bəndinə müvafiq olaraq cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş paylara müvafiq surətdə ödənilir. İştirakçılıqla törədilən dələduzluq cinayətlərinə görə məhkum edilmiş şəxslərin hökmün icrası qaydasında icraatda Cinayət Məcəlləsinin 80-1-ci maddəsinə əsasən cəzadan azad edilməsi məsələsi də hər bir iştirakçının payına müvafiq olaraq həll edilməli olduğundan, hətta iştirakçılar mahiyyəti üzrə cinayət işinə baxılması zamanı ziyanı ödəmək niyyətində olmadıqları halda belə, məhkəmə hər bir iştirakçının cinayət nəticəsində meydana gəlmiş ziyanda payını (ödəməli olduğu ziyanın miqdarını) müəyyən etməlidir.

Cinayət Məcəlləsinin 73-1-ci maddəsində göstərilən iştirakçılıqla törədilən cinayət əməllərinin vurduğu ziyana görə birgə məsuliyyət daşıyan bir qrup şəxs tərəfindən törədilən cinayətlərə dair işlərdə, Cinayət Məcəlləsinin 73-1-ci maddəsinin bütün tələbləri yerinə yetirilmişsə, zərərin ödənilməsi və digər ödənişlər onlardan ən azı biri tərəfindən tam şəkildə yerinə yetirildiyi halda da cinayət prosesini həyata keçirən orqan cinayətin bütün iştirakçılarına qarşı cinayət təqibinə son qoya bilər.

Cinayət məsuliyyətindən azad etmənin cinayət təqibi orqanı və ya məhkəmənin mülahizəsinə əsasən həyata keçirildiyi hallarda, şəxsin məsuliyyətdən azad olunması məsələsi həll edilərkən təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə barışması və ona vurulmuş ziyanı ödəməsi ilə yanaşı, iş üzrə əhəmiyyət kəsb edən digər hallar, o cümlədən təqsirkarın şəxsiyyətini səciyyələndirən xüsusiyyətlər, cinayətin törədilmə şəraiti və s. nəzərə alınaraq obyektiv və əsaslandırılmış qərar qəbul edilməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsində nəzərdə tutulan cinayət əməli (əməlləri) iştirakçılıqla törədildikdə, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, eləcə də qanunla müəyyən edilmiş digər hallardan asılı olaraq cinayət nəticəsində vurulmuş ümumi ziyanın müəyyən edilmiş paya əsasən üzərinə düşən hissəsini zərərçəkmiş şəxsə tamamilə ödəməklə onunla barışmış, habelə həmin payın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs müvafiq qaydada cinayət məsuliyyətindən azad edilir;

– Cinayət Məcəlləsinin 73-1.3-cü maddəsində nəzərdə tutulan cinayət əməli (əməlləri) iştirakçılıqla törədildikdə, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, eləcə də qanunla müəyyən edilmiş digər hallardan asılı olaraq cinayət nəticəsində vurulmuş ümumi ziyanın müəyyən edilmiş paya əsasən üzərinə düşən hissəsini zərərçəkmiş şəxsə tamamilə ödəməklə onunla barışmış, habelə həmin payın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs müvafiq qaydada cinayət məsuliyyətindən azad edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsində nəzərdə tutulan cinayət əməli (əməlləri) iştirakçılıqla törədildikdə, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, eləcə də qanunla müəyyən edilmiş digər hallardan asılı olaraq cinayət nəticəsində vurulmuş ümumi ziyanın müəyyən edilmiş paya əsasən üzərinə düşən hissəsini zərərçəkmiş şəxsə tamamilə ödəməklə onunla barışmış, habelə həmin payın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs müvafiq qaydada cinayət məsuliyyətindən azad edilir.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1.3-cü maddəsində nəzərdə tutulan cinayət əməli (əməlləri) iştirakçılıqla törədildikdə, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, eləcə də qanunla müəyyən edilmiş digər hallardan asılı olaraq cinayət nəticəsində vurulmuş ümumi ziyanın müəyyən edilmiş paya əsasən üzərinə düşən hissəsini zərərçəkmiş şəxsə tamamilə ödəməklə onunla barışmış, habelə həmin payın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs müvafiq qaydada cinayət məsuliyyətindən azad edilə bilər.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad ABDULLAYEV**

## Dərc olunması üçün jurnala material göndərmək istəyənlərin diqqətinə!

### *Redaksiyaya göndərilən materialların (əlyazmaların) tərtibatı aşağıdakı tələblərə cavab verməlidir:*

1. Əlyazma kağız və elektron daşıyıcılarda birbaşa, yaxud elektron poçt vasitəsilə aşağıda göstərilən ünvana (Azərbaycan Respublikası Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin ünvanına) təqdim edilir (WinWord mətnində).
2. Mətn, haşiyələr də daxil olmaqla, Times New Roman şrifti (Yunikod) ilə yığılmalıdır.
3. Haşiyələr ardıcıllıqla düzülməli və nömrələri səhifələrdəki istinadlara uyğun olmalıdır. Biblioqrafiya bloku ГОСТ Р 7.0.5 – 2008 standartına uyğun olaraq tərtib edilməlidir.
4. Məqalələrin həcmi 12 səhifədən çox olmamalıdır. Digər materialların həcmi redaksiya heyəti ilə razılaşdırılmalıdır.
5. Əlyazma müəllif tərəfindən imzalanmalıdır.
6. Müəllifin adı, soyadı, atasının adı, vəzifəsi, rütbəsi, elmi dərəcəsi, telefon, faks nömrələri, elektron poçt ünvanı və digər əlaqə vasitələri barədə məlumat ya ayrıca, ya da məqalənin bir hissəsində əks olunmalıdır.
7. Materiala əlavə olunmuş fotoşəkillər yüksək keyfiyyətli olmalıdır.
8. Əlyazmalardakı məlumatların və haşiyələrdə göstərilən mənbələrin həqiqiliyinə müəllif cavabdehlik daşıyır.
9. Əlyazma (fotoşəkil) bu tələblərə cavab vermədikdə, material (fotoşəkil) çap edilmir, yaxud müəllifə mətndə düzəlişlərin aparılması təklif olunur.
10. Materialların çapı üçün müəllifdən ödəniş tələb olunmur.



## Materiallar Baş Prokurorluğun Elm-Tədris Mərkəzinə göndərilə bilər.